www.vivo-book.com

# Nikolas Sparks
# Sevgili Con



## Minnətdarlıq

Bu romanı yazmaq mənimçün həm sevinc idi, həm də çox çətin. Sevinc idi ona görə ki, məncə, buradakı obrazlarda orduda xidmət edən adamların şərəf və bütövlüyünü olduğu kimi göstərə bilmişəm. Çətin yazıldı, ona görə ki... Doğrusu, tam səmimi desəm, romanlarım hamısı beləcə çətinliklə yazılıb. Xoşbəxtlikdən, bu prosesi xeyli asanlaşdıran adamlar tapılır, ona görə də təfsilata varmadan, o adamlara təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm.

Arvadım və bütün ürəyimlə sevdiyim qadınım Ketə – səbrin, dözümün üçün təşəkkür edirəm, əzizim!

Övladlarım Mayls, Rayan, Lendon, Leksi və Savannaya – sonsuz istək və arzularınıza görə sağ olun, uşaqlar!

Ədəbi agentim Tereza Parka – hər şeyə görə sağ ol!

Redaktorum Ceymi Raaba – nəcib qəlbinizə, dərin zəkanıza görə.

ABŞ-dakı “Hachette Book Group” nəşriyyatının baş direktoru Devid Yanqa, həmçinin nəşriyyatın əməkdaşları Morin İcin, Cenifer Romanello, Harvi Ceyn Kouel, Şennon O’Kif, Şeron Krassni, Ebbi Kuns, Deniz Donovi, Edna Farley, Haui Sanders, Devid Park, Fleq, Skott Şvimmer, Linn Harris, Mark Consona – dostluğunuza görə hədsiz minnətdaram!

Şimalı Karolina ştatının mükafatı uğrunda açıq və örtülü meydançalarda keçirilən yarışların qalibi “Nyu Bern

Hay" yüngül atletika komandasından olan məşqçi və atlet dostlarım – Deyv Simpson, Filemon Qrey, Karcuan Vilyams, Darril Reynolds, Antoni Hendriks, Eddi Armstronq, Endru Hendriks, Mayk Vier, Den Kastelou, Marks Mur, Rayşad Dobi, Darril Barns, Ceyr Uitfild, Kelvin Hardesti, Culian Karter və Brett Uitniyə – bu mövsüm yaman uğurlu oldu, dostlar!

# Sevgili Con

# (Səni sevən Savanna)

*Mikaya və Kristinaya*

## Proloq

*Lenuar, 2006-cı il*

Nədir axı əsl sevgi?

Vaxt vardı, mən bu sualın dürüst cavabını bilirdim. Deyirdim, Savannanı dərin bir istəklə, özümdən də artıq sevəcəyəm, birlikdə uzun, xoşbəxt ömür yaşayacağıq. Amma bu çox çəkmədi. Bir dəfə o mənə dedi ki, xoşbəxtliyin açarı həyata keçmiş arzulardır. Onun arzuları isə ən adi şeylər idi: ev, ailə... Həm də ən vacib. Bu, o deməkdi ki, mənim daimi işim olsun, ağ, taxta çəpər içində evim, furqon avtomobilim, ya da "Cip"im olsun. Elə böyük olsun ki, uşaqlarımızı məktəbə, diş həkiminə, futbol məşqinə və ya fortepiano dərslərinə apara bilək. İki, ya üç uşağımız olsun. Savanna hələ qəti qərar verməmişdi, amma mənə elə gəlirdi ki, vaxtı çatanda "bu, Allahın işidi, müdaxilə etməyək" deyəcək. Bax, belə idi mənim Savannam, yəni dindar idi bir az. Bəlkə də elə buna görə mən ona vuruldum. Həyatımızda nələr baş versə də, təsəvvürlərim məni xoşbəxt etməyə bəs edirdi – budur, mən ağır iş günündən sonra evə gəlib onun yanında uzanıram, gülə-gülə, danışa-danışa bir-birimizin qolları arasında məst oluruq.

Çox artırıb-eləmirəm ki?! Söhbət bir-birini sevənlərdən gedir, axı. Bax, mən də beləcə düşünürdüm. Qəlbimin dərinliklərində bir hiss deyir ki, bu, mümkündür, amma bilirəm ki, bu heç vaxt baş verməyəcək. Tezliklə burdan çıxıb gedəcəyəm, heç vaxt da geri qayıtmayacam.

Bax, indi onun rançosuna tərəf uzanan bu dikdə oturub, nə vaxt görünəcəyini gözləyəcəm. Əlbəttə, Savanna məni görməyəcək. Bilirsinizmi, orduda yaxşı gizlənməyi və ətrafdan seçilməməyi öyrədirlər, mən də bunu yaxşı öyrənmişdim, çünki haradasa İraq çölünün ortasında bir anbarda-zadda gülləyə tuş gəlmək istəmirdim. Amma mən nə baş verdiyini öyrənmək üçün Şimali Karolinadakı bu kiçik dağ şəhərinə hökmən gəlməli idim. Adam bir şeyi hərəkətə gətirəndə, adətən əvvəlcə qeyri-müəyyənlik hiss edir, bunun nə ilə qurtaracağını bilməyincə rahat olmur.

Amma bir şey yəqindir: Savanna bu gün bura gəldiyimi heç vaxt bilməyəcək. Onun haqqında həm belə yaxın, həm belə əlçatmaz olması haqqında düşünərkən qəlbimə dibsiz bir kədər çökür, amma neynim ki, innən belə bizim həyat hekayətlərimiz fərqli olacaq. Uzun müddət bu adi həqiqətlə barışa bilmədim, çünki  ömür yollarımız bir müddət birləşib qovuşdu, yanaşı getdi: bu, altı il əvvəl idi – bəlkə də iki ömür əvvəl. Qalan yalnız xatirələrdi – amma inandım ki, xatirələr fiziki anlam kəsb edir, canlıdır elə bil. Burada da biz fərqlənirik – Savanna üçün xatirələr qaranlıq səmada ulduz kimidirsə, mənim üçün yerlə göy arasındakı boşluqlarda dolaşan kabus anlamındadı. Savannadan fərqli olaraq, məni həmişə bir sual düşündürür – biz ayrılandan sonra mən bu sualı bəlkə min dəfə vermişəm özümə: Mən

niyə belə etdim? İndi bu ağrılardan sonra yenə belə eləyərdimmi?

Açığı, mən etdim bunu; Savanna ilə münasibətlərimizə mən son qoydum.

Üstündə oturduğum budağın yarpaqları arasından günün zərrin şüaları süzülür, günəş üfüqdə qalxdıqca yarpaqlar da sayrışırdı. Quşlar səhər nəğməsini oxumaqda idi. Havadan şam ağaclarının, torpağın ətri gəlirdi. Doğulduğum şəhərin havası isə okeanın duzlu, şor suyunun tamını verirdi. Bir azdan evin qapısı açıldı, mən onu gördüm. Xeyli uzaqda olsa da, Savanna bayıra çıxanda burda, ağac başında təngnəfəs oldum. Pillələri düşməzdən əvvəl şirin-şirin gərnəşdi, sonra evin tinini buruldu. Uzaqda yaşıl otlaq yaşıl okean kimi dalğalanırdı. Savanna həyət qapısından keçib otlağa tərəf getdi. Atlar kişnədi – əvvəlcə biri, sonra o biriləri. İlk ağlıma gələn o oldu ki, nərmənazik Savanna bu zorba atların arasında qorxub eləmədən necə gəzə bilir. Amma o özünü çox rahat hiss edirdi, atlar da ona öyrəşmişdi. Altı-yeddi at, əsasən də minik atları çəpərin yanında otlayırdı. Onun qara ərəb atı, alapaça Midas da bir az aralıda otlayırdı. Bir dəfə atları minib gəzirdik. Xoşbəxtlikdən, yaxşı qurtardıq, əzilib eləmədik – mən atdan möhkəm yapışmışdım, Savanna isə yəhərdə elə rahat oturmuşdu ki, elə bil televizora baxırdı. İndi o, Midasa yaxınlaşıb əlini atın burnuna çəkdi, pıçıltı ilə nəsə dedi, sağrısını şappıldatdı, sonra geriyə döndü, yolunu anbara tərəf salanda Midas qulaqlarını şəklədi.

Savanna anbara girdi, bir azdan yenə qapıda göründü. Əlində iki vedrə vardı, yəqin, yulaf idi. Vedrələri çəpər

dirəyindən asdı, dərhal iki-üç at vedrələrə tərəf dartındı. Savanna geri çəkilib onlara yol verdi. Savanna yəhəri Midasın belinə qoyub tapqırını bərkidəndə saçları səhər mehində yellənirdi. Midas yulafdan yeyir, Savanna onu minməyə hazırlaşırdı. Bir azdan atı otlaqdan çəkib meşə çığırına çıxardı. Savanna altı il əvvəl necə idisə, indi də elə görünürdü. Əlbəttə, bu düz deyil. Mən onu keçən il lap yaxından görmüşdüm, gözlərinin ətrafında nazik qırışlar görünməyə başlamışdı, amma indi ona durbinlə baxırdım. Heç dəyişməmişdi, elə əvvəlki Savanna idi. Bir də ki, mənim üçün o həmişə iyirmi bir yaşında olacaqdı, özümsə iyirmi üç. Almaniyada xidmət edirdim, xəyalıma da gəlməzdi ki, bir-iki ildən sonra Fəlluc, ya da Bağdad hərbi əməliyyatlarında iştirak edəcəyəm, əməliyyatlar başlanan ilk günlərdə İraqın Samava şəhərində, stansiyada onun məktubunu oxuyacağam. Həyatımı büsbütün dəyişmiş hadisələrdən sonra mən hələ evə də qayıtmalı olacaqdım.

İndi, iyirmi doqquz yaşımda hərdən fikirləşirəm: o vaxt düzmü elədim? Həyatımı orduya bağladım. Bilmirəm, buna görə sevinim, yoxsa kədərlənim; tez-tez, havadan asılı olaraq fikirlərim də dəyişir. Məndən bu barədə soruşanda isə deyirəm ki, mən köhnə əsgərəm, zarafat-zad da eləmirəm. Hələ də Almaniyada yerləşən hərbi bazada oluram, hesabımda təxminən min dollar var, bir neçə ildir ki, qadın-zad da görmürəm. Serfinqlə, demək olar ki, heç məzuniyyətdə də məşğul olmuram, istirahət günlərimdə isə “Harley” motosikletimlə şimala, ya da cənuba gedirəm. O da baxır ovqatıma. Motosiklet indiyə qədər aldığım ən yaxşı şeydi – çox baha alsam da. O, mənə çox yaraşır, – onsuz da

tək-tənhayam. Dostlarımın çoxu ordudan tərxis olunub getdi, məni isə yəqin ki, yenidən bir-iki aylığa İraqa göndərəcəklər. Hər halda, bazada belə söz-söhbət gəzir. İlk dəfə Savanna Linn Kertislə rastlaşanda – o mənim yaddaşımda həmişə Savanna Linn Kertis kimi qalacaq – xəyalıma da gəlməzdi ki, həyatım yüz səksən dərəcə dəyişəcək, özümü orduya həsr edəcəyəm.

Amma mən Savannaya rast gəldim, ona görə də həyatım belə anlaşılmazdır. Görən kimi vuruldum ona, sevdim, amma ayrılandan sonra, uzaqda onu daha şiddətlə sevdim. Bizim sevgi hekayətimiz üç hissəlidir – əvvəli, ortası və axırı var. Sevgi əhvalatları üçün bu adi olsa da, indiyə kimi sevgimizin əbədi davam etmədiyinə inana bilmirəm.

Ötən günlərin xatirələri məni alıb apardı, birlikdə olduğumuz günlər elə aydın, elə yaxın göründü ki, bütün bunların necə başlandığını xatırladım. Neynim ki, indi mənə qalan yalnız xatirələrdi...

# Birinci hissə

## Birinci fəsil

Uilminqton, 2000-ci il

Mənim adım Con Tayridir. 1977-ci ildə Şimali Karolinada, Uilminqton şəhərində anadan olmuşam. Uilminqton ştatda ən böyük liman olması ilə, üstəgəl, uzun və parlaq tarixi ilə haqlı olaraq fəxr edir, amma ən qəribəsi

budur ki, şəhər tamam təsadüf nəticəsində yaranıb. Əlbəttə, buranın gözəl havası, əla çimərlikləri var, amma Uilminqton ömürlərinin qızıl günlərini yaşamaq üçün daha ucuz yerlər axtara-axtara şimala gəlib çıxan yaşlı yankilərin gəlişinə hazır deyildi. Şəhər Keyp Fir çayı və okean arasındakı uzunsov zolaqda yerləşir. Mirtl Biç və Çarlstona aparan 17-ci şose şəhəri ikiyə bölür, həm də şəhərin yeganə magistral yoludur. Yadımdadı, uşaq olanda atamla Keyp Fir çayının yaxınlığından, şəhərin tarixi hissəsindən Raytsvill Biçə on dəqiqəyə çatırdıq, amma o vaxtdan şose boyu o qədər svetofor və ticarət mərkəzləri tikilib ki, indi bu yolu bir saata gedirsən – xüsusən də istirahət günləri turist axını olanda. Sahilə lap yaxın, kiçik bir adada yerləşən Raytsvill Biç Uilminqtonun şimal qurtaracağındadır, həm də ştatda ən məşhur çimərlikdir. Qumluqlar boyunca evlər inanılmaz dərəcədə bahadır, buna baxmayaraq, bütün yayı kirayə qalan var. Gözdən uzaq olduğuna görə vəhşi atlar, Orvil və Uilber pilot qardaşlarının uçuşu ilə yadda qaldığına görə sahilyanı dayaz yerlər daha romantik görünə bilər, amma deməliyəm ki, məzuniyyət vaxtı çimərliyə gələnlərin çoxu "Makdonalds", ya da "Burger King" köşklərinin yanında özlərini evlərindəki kimi hiss edirlər – xüsusən əgər onların uşaqları yerli mətbəxin baha yeməklərini xoşlamırsa, axşam əyləncələri axtaranda iki-üç bardan savayı bir yer tapmırsa.

Bütün şəhərlərdə olduğu kimi, Uilminqtonda da kasıb və varlı məhəllələr var. Atamın dünyada ən sabit və hörmətli olan bir peşəsi vardı – o, poçtu daşıyırdı. Ona görə də biz yaxşı yaşayırdıq. Dəbdəbəli yox, yaxşı. Varlı deyildik, amma şəhərin varlı hissəsinə yaxın yaşayırdıq, mən buradakı

yaxşı məktəblərdən birinə gedirdim. Dostlarımın villalarından fərqli olaraq, bizim evimiz balaca, köhnə bir ev idi. Qabağındakı artırmanın talvarı əyilmişdi. Amma çox gözəl həyətimiz vardı. Həyətdə nəhəng palıd ağacı bitmişdi, səkkiz yaşım olanda onun budaqları arasında tikintidən tapıb gətirdiyim taxta parçalarından evciklər düzəldirdim. Atam mənə kömək etmirdi (əgər çəkic götürüb divara bir mıx vursaydı, bu bir hadisə olardı). Həmin yay mən serfinq öyrənirdim. Yəqin, bu vaxt başa düşməyə başlamışdım ki, atamla mənim xarakterimiz çox fərqlidir, amma bu onu göstərir ki, uşaqlar həyat haqqında necə də az bilirlər.

İki müxtəlif adam biri-birindən necə fərqlənirsə, atamla mən də o cür fərqlənirdik. O, çox passiv idi, tez-tez özünə qapılırdı, mənsə həmişə hərəkətdə olurdum, təklikdən xoşum gəlmirdi. O, təhsilə, oxumağa böyük əhəmiyyət verirdi, mənim üçünsə məktəb idman dərsləri, bir də istirahət və əyləncə demək idi. Onun yöndəmsiz boy-buxunu vardı, yeriyəndə ayaqlarını bir-birinə sürtürdü. Mən cəld və çevik idim, həmişə atama deyirdim ki, saata baxsın, görsün binanın o başına neçə dəqiqəyə gedib gəlirəm. Səkkizinci sinifdə olanda mən boyca ondan hündür idim, bir il sonra isə armreslinqdə (qol gücü) ona qalib gəlirdim. Zahirən də oxşamırdıq. Atamın kürən saçları, açıq-qonur gözləri, üzündə də çilləri vardı, mənimsə saçım şabalıdı idi, gözlərimin rəngi qaraya çalırdı, bədənimin qarabuğdayı dərisi hələ may ayından qaralmağa başlayırdı. Qonşulardan bəzilərinə bu çox qəribə gəlirdi, yəqin fikirləşirdilər ki, atam məni yalnız böyüdüb. Yaşa dolduqca qulağıma çatırdı ki, heç bir yaşım olmamış anam evdən qaçıb. Sonralar hiss

etdim ki, anam başqa bir kişiyə qoşulub gedib, amma atam bunu təsdiq eləmədi. Təkcə onu deyirdi ki, guya anam çox gənc yaşında ərə gedib və səhv etdiyini başa düşüb, heç demə, ana olmağa hazır deyilmiş. Atam ona nifrət etmirdi, heç tərifləmirdi də. Amma deyirdi ki, kim olmasından və nə etməsindən asılı olmayaraq, mən dualarımda onu həmişə yad edim. Hərdən deyirdi: “Sən onu xatırladırsan mənə”. Bu günə qədər də mən anam haqqında çox az fikirləşmişəm, heç danışmamışam da onunla, doğrusu, heç belə bir istəyim də olmayıb.

Məncə, atam xoşbəxt idi. Ona görə belə deyirəm ki, o, emosiyalarını az büruzə verirdi. Məni öpməsi, qucaqlaması görünməmiş bir şeydi, olanda da elə-belə, quru, sanki bir vəzifə idi, yerinə yetirirdi – istəyi, şövqü görünmürdü. Əlbəttə, madam ki, ömrünü mənə həsr etmişdi, məni yəqin ki, sevirdi; amma mən doğulanda onun qırx üç yaşı olub, ona görə hərdən düşünürəm ki, o, valideyndən çox rahib ola bilərdi. Sakit adam idi, heç soruşmurdu ki, mənim işlərim necədir. Nadir hallarda hirslənirdi, elə zarafatı da az-az olurdu. Dəyişməz qaydaları vardı: hər səhər qayğanaq, odda qızardılmış çörəklə bir parça donuz əti yeyirdik. Axşamlar da yenə özünün hazırladığı şam yeməyi zamanı ona məktəbdəki işlərimdən danışırdım. Diş həkiminə getmək üçün iki ay qabaqdan cədvəl tutmuşdu, hər şənbə günü səhər borcları ödəyirdi, istirahət günü camaşırları yuyur, düz səhər saat 7:35-də evdən çıxırdı. Adamlarla az ünsiyyət bağlayırdı, çox vaxt tək olurdu, bir marşrut boyunca məktub və bağlamaları poçt qutularına salırdı. Heç kimlə görüşmürdü, istirahət günlərini kiminləsə keçirmir, yaşıdları

ilə poker oynamırdı. Telefonumuz həftələrlə susurdu, kimsə zəng eləyəndə də ya səhv düşürdü, ya da şəbəkə marketinqindən olurdu. Təsəvvür edirəm məni təkcə necə böyüdüb, amma heç vaxt şikayətlənmirdi, lap onu məyus etsəm də.

Axşamlar çox vaxt tək olurdum. Gündüzkü işlərini qurtaran atam öz hücrəsinə çəkilib sikkələri ilə məşğul olurdu. Bu, onun həyatda yeganə məşğuliyyəti idi. Burda o özünü çox rahat hiss edirdi, oturub “Numizmatika bülleteni”ni vərəqləyir, bu dəfə kolleksiyasına hansı sikkəni əlavə edəcəyini fikirləşirdi. Əslində, qiymətli metaldan olan sikkələri babam toplamağa başlamışdı. O, Baltimor maliyyəçisi Lui Eliasberqə pərəstiş edirmiş. Eliasberq Birləşmiş Ştatlarda buraxılmış bütün sikkələri, hətta dövriyyədən çıxmışları da toplayırmış – bütün tarixləri və zərbxana nişanları ilə. Vaxtında onun kolleksiyası Smitson Muzeyinin sikkə kolleksiyası ilə rəqabət apara bilərdi. 1951-ci ildə nənəm vəfat edəndən sonra babam bu işləri oğlu ilə – atamla görməyə başlayır və əsl kolleksiya yaradırlar. Yayda onlar qatarla pul zərbxanalarına gedir, ilk sikkələri birinci əldən alır, ya da ştatın cənub-şərqində müxtəlif sikkə sərgilərinə baş çəkirlər. Beləliklə, babamla atam bütün ölkədə sikkə xiridarları ilə tanış olurlar. Bir çox illər ərzində nadir sikkələri öz kolleksiyalarına daxil etmək üçün onlar xeyli pul xərcləyirlər. Lui Eliasberqdən fərqli olaraq, babam varlı deyildi – onun Burqoda bir qarışıq mallar dükanı vardı, Piqli-Uiqli dükanları açılandan sonra o da işləyə bilmədi. Ona görə də Eliasberqin kolleksiyası ilə ayaqlaşa bilmədi. Amma hər halda imkan tapan kimi kolleksiyaya pul

xərcləyirdi. Babam otuz il bir pencəkdə gəzdi, ömrü boyu bir maşın sürdü. Ona görə də inanıram ki, atam təhsilə lazım olan pulu tapmadığından oxumaq əvəzinə poçt xidmətinə işə düzəlib. Babam "ala qarğa" kimiydi, oğlu da ona oxşayırdı, necə deyərlər, ot kökü üstə bitər... Ömrünü yaşamış kişi o dünyaya köçəndə vəsiyyət edib ki, evi satılsın, puluna daha çox sikkə alsınlar. Atam yəqin ki, bu vəsiyyətsiz də belə eləyərdi.

Sonralar atam kolleksiyaya sahib duranda orada artıq xeyli qiymətli sikkə vardı. İnflyasiya qalxıb, qızılın unsiyası 850 dollara çatanda kolleksiya artıq qiymətli bir əmlak idi, qənaətcil atam üçün bu, rahatca pensiyaya çıxmağa kifayət edirdi. Üstəlik, o zaman kolleksiya iyirmi beş il sonrakından daha qiymətli idi. Amma nə babam, nə də atam sikkələri qazanc üçün yığmırdı, bu, bir həvəs, bir şövq idi, həm də onların öz arasında irsi bir bağlılıq idi, doğmalıq yaradırdı. Onlar hansısa nadir sikkəni uzun müddət cidd-cəhdlə və ehtirasla axtarır, tapanda isə hər vəchlə çalışırdılar ki, onu müvafiq qiymətə alsınlar. Bəzən sikkənin qiyməti ciblərinə uyğun olurdu, bəzən yox, amma aldıqları hər sikkə kolleksiya xəzinəsində bir inci idi. Atam bu həvəsi mənimlə də bölüşmək istəyirdi, həm də mən bu yolda nəyisə qurban verməli idim. Bir az böyüyəndə qışda soyuqdan qorunmaq üçün üstümə bir neçə adyal salmalı olurdum. Təzə ayaqqabı ildə bir dəfə olurdu. Geyim-kecimə isə pul tapılmırdı, yalnız hərdən Xilas Ordusu xeyriyyə təşkilatından paltar alırdıq. Atamın heç fotoaparatı da yox idi – bizim bir yerdə olan yeganə şəklimiz Atlantada numizmatika sərgisində çəkilmişdi. Tanış diler onun vitrini yanında dayandığımızı

görüb şəklimizi çəkdi, sonra bizə göndərdi. Həmin şəkil illərlə atamın stolu üstündə qaldı. Şəkildə atam əlini boynuma salıb, ikimiz də gülürük. Mənim əlimdə atamın indicə aldığı, üstündə bizon şəkli olan 1926-cı ilin beşsentlik nikel sikkəsi parıldayır. Bu, üstündə bizon təsviri olan çox nadir sikkə idi, onu aldıqdan sonra biz bir ay yalnız hotdoq və lobya yeməli olduq, çünki atam sikkəni gözlədiyindən baha qiymətə aldı.

Mən belə könüllü məhrumiyyətlərə etiraz etmirdim. Hər halda ilk günlər etmirdim. Atam sikkələrdən danışanda – o zaman birinci, ya da ikinci sinifdə idim – mənimlə lap böyüklər kimi davranırdı. Böyüklər – o da ola sənin atan – uşaqla belə danışanda, bu, çox cəlbedici olur, adam "böyüyür". Xoşuma gəlirdi ki, atam məni diqqətindən kənarda qoymur, informasiyalar verir. Artıq bilirdim ki, 1924-cü, ya da 1927-ci ildə Sen-Qoden sikkələrindən nə qədər buraxılıb, yaxud, məsələn, 1895-ci ildə Yeni Orleanda buraxılmış onsentlik sikkə elə həmin ildə Filadelfiyada buraxılan sikkədən niyə on dəfə bahadır. Deyim ki, bunu indi də bilirəm. Atamdan fərqli olaraq, mən kolleksiya yığmaq ehtirasından xilas oldum. Sikkələr atamın çox sevdiyi bir mövzu idi, amma altı-yeddi il bax beləcə atamla sikkələr içində eşələnəndən sonra bu işdən uzaqlaşmaq istədim. Bütün oğlanlar kimi mən də idmanla, qızlarla, maşınlarla, xüsusən, musiqi ilə maraqlanmağa başladım və on dörd yaşımda artıq evdə az tapılırdım. İçimdə bir inciklik də vardı. Böyüdükcə görürdüm ki, biz necə yaşayırıq, bir çox dost-tanışlarımız necə yaşayır. Dostlarımın cibində həmişə çoxlu pul olardı, kinoya gedər, ya da günəş eynəyi

alardılar, mən isə divanın altına düşmüş bir sikkəni axtarırdım ki, heç olmasa hamburger alım. On altı yaşımız tamam olanda yaşıdlarımın çoxu maşın aldı, atam isə mənə 1883-cü ildə Karson-Sitidə zərb olunmuş gümüş dollar bağışladı. Mən bizim köhnə divanda oturub ağlayırdım. Tanıdıqlarımız arasında yalnız bizim evdə kabel televiziyası və mikrodalğalı soba yox idi. Soyuducumuz xarab olanda atam köhnəsini aldı, yaşıla çalan dəhşətli bir rəngi vardı, mətbəxə yaraşan şey deyildi. Dostlarımı evə dəvət edə bilmirdim, buna görə də atamı qınayırdım. Əlbəttə, başa düşürdüm ki, özümü çox pis aparıram; öz-özümə deyirdim ki, əgər sənə pul lazımdısa, get, məsələn, qazon biç, ya da müxtəlif işlər gör. Onda, görünür, gözüm görmür, ağlım da kəsmirdi, amma indi nə qədər heyifsilənsəm də, əlimdən nə gələr ki!

Atam hiss edirdi ki, nəsə baş verir, amma mənimlə neyləyəcəyini bilmirdi. Bildiyi yeganə üsuldan istifadə etməyə çalışdı. Elə hey sikkələrdən danışır, mənə səhər yeməyi, nahar hazırlayırdı. Amma vaxt keçdikcə biz bir-birimizdən uzaqlaşırdıq. Məhz həmin vaxtlarda mən köhnə dostlarımdan da uzaqlaşdım. Onlar iki-bir, üç-bir birləşib hansı təzə filmə baxdıqlarından, ticarət mərkəzlərində aldıqları təzə köynəklərdən danışır, mən isə özümü kənara atılmış kimi hiss edir, onların necə yaşadıqlarına qibtə ilə baxırdım. Deyirdim, qoy cəhənnəm olsunlar. Yuxarı siniflərdə hər yandan uşaqlar yığışırdı, onlar heç nəyi veclərinə almırdılar, mən də onlara qoşuldum. Hər şeyə tüpürdüm. Dərslərdən qaçırdım, siqaret də çəkməyə

başladım, dalaşdığıma görə məni üç dəfə məktəbə buraxmadılar.

İdmanı da atdım. Onuncu sinfə qədər futbol, basketbol oynayır, qaçışla məşğul olurdum. Atam evdə hərdən soruşurdu ki, idmanda işlərim necədir, mən danışmağa başlayanda isə o, candərdi qulaq asırdı, çünki heç vaxt idmanla məşğul olmamışdı, idmandan başı çıxmırdı. Yalnız bir dəfə – onuncu sinifdə olanda basketbol oyunumuza tamaşa etməyə gəldi – saçı tökülməyə başlamış, bir-biri ilə uyuşmayan nimdaş idman gödəkcəsi və corablar geymiş qəribə bir adam tribunada oturmuşdu. Atam bədəncə tosqun deyildi, amma şalvarı qarnının büküşləri arasında qat-qat olmuşdu, elə bil üçaylıq hamilə idi. Hiss edirdim ki, onun görkəmindən xəcalət çəkirəm, ona görə də oyundan sonra yaxınlaşmadım atama. Buna görə qürur-zad duymuram, amma belə idim onda...

İşlər get-gedə pisləşirdi. Məktəbi qurtaranda narazılığım son həddə çatdı. Son iki ildə qiymətlərim də aşağı düşdü – əlbəttə, daha çox tənbəllikdən və diqqətsizlikdən (hər halda, kütbeyinlikdən deyildi – belə düşünürdüm). Bir neçə dəfə axşamdan xeyli keçmiş səssizcə evə qayıdanda (leş iyi verirdim, yəqin) atam halımı duymuşdu. Bir dəfə də narkotik və içki məclisindən qayıdanda polis məni gətirib evə qoymuşdu. Atam məni cəzalandırdı – qapını bağlayıb məni evdə qoydu. Mənsə atamın acığına ikihəftəliyə dostumun yanına qaçdım. Evə qayıdanda atam heç nə demədi, səhər isə həmişə olduğu kimi stolun üstündə qayğanaq, qızardılmış çörək və donuz əti vardı. Buraxılış imtahanlarını birtəhər verdim, yəqin,

müəllimlər məni başından eləmək üçün “kafi” yazmışdılar, əslində, heç bu qiymətlərə də layiq deyildim. Görürdüm ki, atam çox narahatdır, hərdən özünəxas şəkildə ehtiyatla kollec söhbətini salırdı. Amma mən qəti qərara gəlmişdim – ali təhsil gərəyim deyil. İş istəyirdim, maşın istəyirdim, on səkkiz il görmədiyim başqa şeylər arzusundaydım.

Buraxılış imtahanlarının axırına qədər bunu atamdan gizlətdim, amma atam biləndə ki, sənədlərimi ikiillik kollecə verməmişəm, hirsləndi, bütün gecəni otağına girib qapını bağladı. Səhər yemək stolunun arxasında bir kəlmə də kəsmədi. Həmin günün axşamı məni xeyli dilə tutdu, sikkələr haqqında müzakirə açmaqla saqqızımı oğurlamağa çalışdı, amma heç nə alınmadı.

– Yadındadı, Atlantaya gedəndə sən beşsentlik sikkə tapdın? – deyə məni dilə tuturdu. – Üstündə bizon şəkli vardı? Neçə il idi ki, biz onu axtarırdıq. Onda şəklimizi də çəkmişdilər. Sənin necə sevindiyin heç yadımdan çıxmaz. Mən də uşaqlıqda atamla beləcə sikkə axtarışına çıxmışdım...

Başımı buladım. Atamla bağlı duyduğum bütün ümidsizliyim kəlləçarxa çıxdı.

– Sənin bu sikkə söhbətlərin məni lap boğaza yığıb, – çığırdım. – Bu haqda heç nə eşitmək istəmirəm daha! Yaxşı olar ki, sən o kolleksiyanı satıb, başqa bir layiqli işlə məşğul olasan!

Atam dinmədi, amma onun üzündəki əzab izlərini bu gün də xatırlayıram. Sonra dönüb öz otağına getdi. Mən onun xətrinə dəymişdim, öz-özümə deyirdim ki, nahaq belə elədim, amma bilirdim ki, özümü aldadıram. O gündən

sonra atam sikkə söhbətini çox nadir hallarda salırdı. Mən də bu haqda danışmırdım. Aramızda uçurum yaranmışdı – bir-birimizə deməyə söz tapmırdıq. Bir neçə gün sonra gördüm ki, atamla birlikdə çəkdirdiyimiz yeganə şəklimiz stolun üstündə yoxdur. Elə bil atam sikkə söhbətlərini xatırlada biləcək hər şeydən yan keçirdi – təki xətrimə dəyməsin. Həmin vaxt bu, doğrudan da belə idi. Dedim, yəqin, atam şəkli atıb, odur ki, heç maraqlanmadım da.

Böyüdükcə heç ağlıma da gəlmirdi ki, hərbi xidmətə gedim, halbuki Şimali Karolinanın şərq tərəflərində çoxlu hərbi obyekt vardı. Uilinqtondan bir neçə saatlıq məsafədə yeddi hərbi baza yerləşirdi. Fikirləşirdim ki, hərbi peşə əlindən başqa bir iş gəlməyənlər üçündür. Kim istər ki, bütün ömrü boyu onun-bunun buyruğunu yerinə yetirsin? Ehtiyat zabit kurslarına yazılan bir-iki nəfərdən başqa nə mən, nə də sinif yoldaşlarım buna heç vaxt razı olmazdıq. Yaxşı oxuyanların çoxu ya Şimali Karolina Dövlət Universitetinə, ya da digər universitetlərə gedirdi, zəif oxuyanlar isə iş axtara-axtara avaralanır, pivə içir, məsuliyyət tələb olunan işlərə yaxın düşmürdülər.

Mən ikinci kateqoriyaya aid idim. Məktəbi qurtarandan sonra iki il ərzində bir neçə iş dəyişdim – “Steyk-Haus”da stollardan çirkli qabları arabaya yığırdım, yerli kinoteatrda biletləri cırıb tamaşaçıları zala buraxırdım, “Steypls”də qutuları daşıyırdım, Uefel-Hausda blinçik bişirirdim, istirahətə gələn şəhərlilər üçün hər cür şeylər satılan iki dükanda kassir işləyirdim. Qazandığım bütün pulları xərcləyirdim, xidmət yerimdə vəzifə tutmaq haqqında heç fikirləşmirdim, odur ki, tez-gec məni işdən çıxarırdılar. Bir

müddət heç nə vecimə deyildi. Kefim necə istəyirdi, elə yaşayırdım, gecəyə qədər serfdə üzürdüm. İşdə gecələyirdim, ata evində yaşadığım üçün başqa əyər-əskiyim də yoxdu – mənzil ödənişi yox, yemək, sığorta xərci, qara günə ehtiyat görmək qayğısı yox. Elə başqalarının da işləri yaxşı getmirdi. Özümü heç də bədbəxt hiss etmirdim, amma bir müddətdən sonra belə həyatdan bezdim. Əlbəttə, serfinqdən bezməmişdim – 1996-cı ildə Berta və Fren qasırğaları sahillərdə əməlli-başlı dalğalar yaradırdı, bir neçə il mən yaxşı serf ləzzəti aldım, amma serfinqdən sonra "Leroy" barında məqsədsiz-filansız oturmaqdan bezirdim. Anlamağa başlamışdım ki, bütün axşamlar bir-birinə oxşayır: mən beləcə barda pivə içəcəyəm, haçansa köhnə dostlarımdan biri ilə rastlaşacam, harda, nə işlə məşğul olduğumuzu soruşub danışacağıq, sonra da yəqin, başa düşmək üçün dahi olmaq lazım deyildi ki, biz ikimiz də məqsədsiz həyat sürüb hara getdiyimizi bilmədən ayrılacaqdıq. Tanışlardan kiminsə öz mənzili olsaydı belə, desəydi ki, kanalqazan kimi özünü xoşbəxt hiss edir, ya da pəncərəsilən, yaxud küçə tualetlərini təmizləyən kimi bəxtəvərdir, onsuz da inanmazdım. Yaxşı bilirdim ki, dostlarım məktəbi qurtaranda belə işlərdə işləməyi arzulamamışdılar. Mən dərsdə tənbəl ola bilərdim, amma belə şeyləri başa düşməkdə axmaq deyildim.

Həmin vaxt bir neçə qızla görüşürdüm – "Leroy" barında qız çox idi. Bir neçəsi ilə roman yaşayandan sonra ayrıldım. Mən qadınlardan istifadə edirdim, onlara da xəcalət çəkmədən imkan verirdim ki, məndən istifadə etsinlər. Təkcə Lusi adlı qızla tanışlığımız iki aydan çox

çəkdi, ayrılmazdan əvvəl hətta elə fikirləşirdim ki, onu sevirəm. Lusi Uilminqton Universitetinin tələbəsi idi, məndən bir yaş böyük idi, təhsilini qurtarıb Nyu Yorkda işləmək istəyirdi.

– Mən sənə biganə qala bilmirəm, amma həyatda bizim məqsədlərimiz başqa-başqadır, – axırıncı gecəmizdə Lusi belə dedi. – Sən çox şey edə bilərsən, amma nədənsə gic-gic şeylərlə məşğul olursan. – Bir az tərəddüd edib sonra dedi: – Bir də ki, heç bilmirəm sən mənim haqqımda nə fikirləşirsən.

Bilirdim ki, o düz deyir. Tezliklə o, mənimlə vidalaşmadan çıxıb getdi. Bir ildən sonra valideynlərindən onun telefonunu öyrənib zəng vurdum. İyirmi dəqiqəyə qədər danışdıq. Lusi dedi ki, bir vəkilə nişanlanıb, iyun ayında toyudur.

Telefon zəngindən çox pərt oldum. Həmin gün növbəti dəfə işdən çıxarılmışdım. “Leroy” barında əylənməyə getdim, amma orda yenə özüm kimi uğursuzları gördüm... İstəmədim daha bir gecəmi burada itirim, özümə təsəlli verdim ki, həyatım hələ qabaqdadır. Bir qutu pivə alıb çimərliyə yollandım. Həyatımda ilk dəfə fikirləşməyə başladım ki, indi mən neyləməliyəm. Hətta özümü qınadım ki, gərək atamın məsləhətinə qulaq asıb sənədlərimi ikiillik kollecə verəydim. Amma məktəbdən, təhsildən o qədər uzaqlaşmışdım ki, bu fikir də mənə gülünc və mənasız göründü. Bəxtim gətirməyi, ya gətirməməyi idi – bilmirəm, amma elə bu vaxt iki dəniz piyada əsgəri yanımdan qaçıb keçdi: gənc, boy-buxunlu, özünə arxayın. “Niyə mən də onlar kimi olmayım?” – düşündüm.

Bir-iki gün götür-qoy elədim, sonra atama bu barədə dedim. Yox, müzakirə-zad olmadı, onsuz da o vaxt danışmırdıq. Bir gecə mətbəxə girəndə atamı stolun arxasında oturmuş gördüm. Elə bil onu birinci dəfə görürdüm. Gur saçları seyrəlmişdi, qulaqlarının yanındakı saçları gümüş rənginə çalırdı. Tezliklə pensiyaya çıxmalı idi. Birdən ürəyimə gəldi ki, atamın bu qədər elədiklərindən sonra mənim onu pis vəziyyətdə qoymağa haqqım yoxdu.

Ona görə də orduya hərbi xidmətə getdim. Əvvəlcə istədim dəniz piyada qoşunlarına gedim, çünki onları daha yaxşı tanıyırdım. Çimərlikdə Lejen və Çerri-Poynt bazasından olan başı qırxıq dəniz piyada qoşunlarının əsgərlərini çox görmüşdüm, amma sonda ordunu seçdim. Fikirləşirdim ki, hara getsəm, onsuz da əlimə avtomat verəcəklər. Amma bir təsadüf də işimi yoluna qoydu: dəniz piyadası qoşunları üçün əsgər yığımı məntəqəsinə gələndə növbətçi zabit nahara getmişdi, onun həmkarı – quru qoşunları zabiti isə yerində idi. Onun ofisi küçənin o tayında idi. Dedim, nə olar-olar. Qorxmadan dördillik müqavilə ilə orduya yazıldım. Zabit əlini kürəyimə vurub məni təbrik elədi. Bayıra çıxandan sonra yalnız indi dərk etməyə başladım ki, özümü nə cəncələ salmışam. 1997-ci il idi, mənim iyirmi yaşım vardı.

Gənc əsgərlər üçün Fort-Benninqdəki təlim düşərgəsi elə təsəvvür etdiyim kimiydi. Hər şey elə qurulmuşdu ki, bizi alçaltsınlar, beynimizə yeritsinlər ki, siz necə əmr olur olsun, tabe olmalısınız. Amma mən bir çoxlarından tez öyrəşdim buna. Təlim düşərgəsindəki həyatımı başa vurub piyada qoşunlarına düşdüm, sonra Luzianada, Fort-Breqdə

hərbi təlimlərdə iştirak etdim. Adam öldürməyi, sındırmağı, vurub-dağıtmağı məşq edirdik. Bir müddətdən sonra bizim Birinci Piyada diviziyasını Almaniyaya göndərdilər. Almanca bircə kəlmə də bilmirdim, amma ətrafdakılar hamısı ingiliscə danışırdı. Əvvəlcə asan gəlirdi, sonra əsl ordu həyatı başladı. Yeddi ay Balkanlarda əziyyət çəkdim – 1999-cu ildə Makedoniyada, sonra Kosovoda. Kosovoda 2000-ci ilin yazına qədər qaldım. Orduda cüzi maaş verirlər, amma mənzil ödənişi, yemək və sair xərclər yoxdur deyə, hesab kartımda bir az pul yığılmışdı. Çox deyildi, amma hər halda var idi.

Birinci məzuniyyətimi evdə keçirdim, darıxmaqdan lap vəhşiləşirdim. İkinci məzuniyyətimdə Las Veqasda idim – dostlarımdan biri orada yaşayırdı. Onlarda olduğum müddətdə evlərini yaman günə qoymuşduq. Orada pullarımın çoxunu xərclədim. Üçüncü məzuniyyətimi evdə keçirmək arzusundaydım. Kosovodan gəlmişdim, bir az dincəlmək istəyirdim. Uzaqda olduğumdan atamla az-az zəngləşə bilirdik, amma o mənə müntəzəm məktub yazırdı, həmişə də məktublarının üstündəki ştampda ayın 1-i göstərilirdi. Atamın məktubları yoldaşlarımın ana-bacılarından, ya da arvadlarından aldığı məktublara oxşamırdı: mənim üçün darıxdığı, sevgisi-filanı hiss olunmurdu. Sikkələrdən də heç bir söz yox idi. Qonşularda olan dəyişikliklərdən, bir az da havadan yazırdı. Bir dəfə Balkanlarda atışdığımızı yazmışdım, atam da yazmışdı: "Oğul, yaxşı ki sağ qalmısan". Vəssalam. Sözlərindən başa düşürdüm ki, atam təhlükəli şeylər haqqında eşitmək istəmir. Mənim bu təhlükəli döyüşlərdə iştirakım onu

qorxudurdu, ona görə də qorxulu şeyləri daha yazmırdım ona. Yazırdım ki, dünyada ən darıxdırıcı iş qarovulda olmaqdır, bu vaxt ərzində mənim yeganə əyləncəm qarovul yoldaşımın bir gecədə neçə siqaret çəkməyini saymaqdır. Hər məktubunda yazırdı ki, tezliklə yenə məktub yazacaq, həmişə də dediyi vaxtda yazırdı. Yalnız sonralar başa düşdüm ki, atam daha yaxşı adamdır, amma mən bunu dərk etmirəm.

Orduda üç il xidmət edəndən sonra əməlli-başlı yaşlandım. Yəni, necə deyərlər, uşaq kimi orduya getdim, kişilik məktəbini keçdim və sair. Amma nə deyirsiniz deyin, hərbi xidmət hər kəsi ağıllanmağa məcbur edir, xüsusilə, piyada əsgərləri. Sənə müəyyən ləvazimatlar verirlər, özü də bunlar ucuz deyil. Sənə inanırlar, səndən çox şey asılıdır, əgər doğrultmasan, təkcə həmin gün ac qalmaqla iş bitmir, daha ağır cəzalar gözləyir. Əlbəttə, orduda xeyli kağız-kuğuz işi, zəhlətökən şeylər var, burada demək olar ki, hamı siqaret çəkir, kobud sözlərsiz keçinmək olmur, danışanda hökmən sözünə bir söyüş də əlavə edirlər, hər kəsin çarpayısı altda çirkli jurnallar yığılan bir qutu olur. Sən hərbi hazırlıq keçmiş, amma barıt iyi hiss etməmiş ehtiyat zabitlərə sübut etməlisən ki, beynin-başın yerindədir, neandertal deyilsən. Amma istər-istəməz ən vacib həyat dərsini alırsan – hər kəsin vəzifəsi var və onları lazımi qaydada yerinə yetirməlidir. Əmr verilirsə, "yox" deyə bilməzsən. Bəlkə həmin əmrdən bir çoxlarının taleyi asılıdır? Bir səhv addım yoldaşlarının məhv olmasına səbəb olar. Ordu bu prinsiplə qurulur. Bir çoxları təəccüblənir ki, əsgərlər necə risk eləyib həyatlarını təhlükəyə məruz

qoyurlar, yaxud da inanmadığı şey uğrunda döyüşürlər? Şübhəsiz, hamı inanmır. Mən, demək olar ki, hər cür siyasi əqidədə olan adamlarla işləməli olmuşam. Əsgərlər arasında orduya nifrət edənlər də var, bəziləri orduda karyera axtarır, ağıllı və ya səfehlər də gəlir orduya, amma siyasətçilərin sözü qurtarıb toplar danışmağa başlayanda biz bir-birimiz üçün nə lazımdı, eləyirik. Dostluğumuz üçün eləyirik. Ölkə üçün, vətənpərvərlik üçün yox. Ona görə yox ki, biz proqramlaşdırılmış ölüm maşınlarıyıq, ona görə ki, yanındakı sənin yoldaşındır. Yoldaşın üçün vuruşursan. Vuruşursan ki, o yaşasın, o da sənin üçün vuruşur, bütün ordu bu sadə həqiqət üzərində qurulub.

Dediyim kimi, mən yaşa dolmuş, dəyişmişdim. Orduya gedəndə siqaret çəkirdim, təlim düşərgəsində dəhşətli dərəcədə öskürürdüm, amma hərbi hissəmizdə siqareti atdım, iki ildən də artıq siqaretə əlimi vurmadım. Elə içkini də demək olar ki, tərgitdim – həftədə bir-iki butulka pivə bəs edirdi, spirtli içkini isə heç bir ay da içməsəm, yadıma düşmürdü. Xidmət dəftərçəm tərtəmiz idi. Əvvəlcə kapral, altı aydan sonra isə serjant oldum. Özümdə idarə etmək qabiliyyəti kəşf etdim. Əsgərləri döyüşə aparırdım, mənim bölüyüm Balkanlarda çox qorxulu bir müharibə canisini tutmaqda iştirak etdi. Komandirim məni Fort-Benninqdəki zabit məktəbinə göndərmək istədi, tərəddüd edirdim: gedim, getməyim? Açığı, buradakı kağız-kuğuz işindən zəhləm gedirdi, zabitlər də yazı-pozu ilə məşğul idi. Orduya getməzdən əvvəl serfinqdən başqa heç bir idmanla məşğul olmurdum. Amma üçüncü dəfə məzuniyyətə buraxılana qədər əzələlərimi bərkitdim, qarnımdakı piyi əritdim.

Vaxtımın çoxunu qaçmaqla, boksla, ştanq qaldırmaqla keçirir, dostum Toni ilə turnikdə çəkişirdik. Toni Nyu-Yorkdan idi, həmişə də qışqıra-qışqıra danışırdı, deyirdi, bu Meksika likörü ki var, adamın ehtirasını qaldırır. Amma ən yaxşı dostum idi Toni. Elə onun xahişi ilə mən də onun kimi qollarıma tatuirovka elədim. Vaxt keçdikcə keçmiş günlərin xatirəsindən uzaqlaşırdım...

Mən həm də çox kitab oxuyurdum. Orduda oxumağa vaxt olur, kazarmada kitablar əldən-ələ gəzir, cildləri cırılana qədər oxunurdu. Elə düşünməyin ki, oxuyub alim olacaqdım. Heç vaxt. Nə Çoser, nə Prust, nə Dostoyevski, nə də başqa ölü dahilər məni cəlb eləmirdi. Əsasən detektiv, triller, ya da Stiven Kinqin kitablarını oxuyurdum. Arada Karl Hayasenin kitabları məni cəlb elədi. Onun dili çox yüngül idi, yumoru da öz yerində. Elə buradaca deyim ki, əgər onun əsərlərini məktəbdə keçsələr, Amerika yazıçılarının şöhrəti xeyli artardı.

Başqa yoldaşlarımdan fərqli olaraq mən qadınlara heç maraq göstərmirdim. Təəccüblüdür, yox? Gənclik illəri, hormonları stimullaşdırmaq ərəfəsi – qadınların köməyi ilə hərdən gərginliklərdən qurtulmağın ən yaxşı, təbii yolu... Bundan gözəl nə ola bilər? Amma bu mənlik deyildi. Bir neçə yoldaşımız qadınlarla görüşürdü. Almaniyada, Vursburqda dayandığımız zaman bir-ikisi orada evləndi də. Amma sonra bildik ki, o izdivacların çoxu tezliklə pozulub. İnanın, hərbiçilərlə ailə qurmaq doğrudan da çətin işdi. Özümə gəldikdə isə yaxşı bir qızla yaxın olmağa, əlbəttə, etiraz etməzdim, amma beləsi hələ ki, yox idi. Toni məhz bu cəhəti başa düşmürdü.

– Gedək də mənimlə, – yalvarırdı. – Sən heç vaxt gəlmirsən...

– Həvəsim yoxdu.

– Necə yəni həvəsim yoxdu? Sabina and içirdi ki, onun rəfiqəsi gözəl qızdı. Ucaboy, sarışın. Həm də likörü çox xoşlayır.

– Don getsin səninlə. O, onsuz da hazırdı.

– Kastelou? Nə danışırsan? Sabinanın ondan zəhləsi gedir.

Dinmədim.

– Gedək, bir az əylənək.

Mən başımı buladım. Fikirləşdim ki, əvvəlki kimi lazımsız şeylərə uymaqdansa, tək qalsam yaxşıdı. Amma birdən ağlıma gəldi ki, sonra atam kimi rahibliyə başlayaram...

Məni fikrimdən döndərə bilməyəcəyini başa düşən Toni hirsini gizlətməyə çalışmadan qapıya sarı yeridi:

– Hərdən səni heç başa düşə bilmirəm, – dedi.

Aeroportda atam əvvəlcə məni tanımadı, əlimi çiyninə vuranda diksindi də. Atam elə bil boyca bir az kiçilmişdi, bir az da sınıxmışdı. Məni qucaqlamaqdansa, əlmi sıxdı, soruşdu ki, uçuş necə keçdi. Bilmirdik nə danışaq, terminaldan keçib maşına yaxınlaşdıq. Hər şey tanış idi, amma qəribə və yad gəlirdi mənə. Elə bil keçən məzuniyyətimdə olduğu kimi bir az əsəbiləşirdim də. Çantanı baqaja qoyanda köhnə Ford-Eskort maşınımızın üstündə bu sözləri oxudum: “Ordumuza dəstək verək!” Bilmirdim, atam əslində buna necə yanaşır, amma mənə çox xoş gəldi.

Evdə şeylərimi yerbəyer elədim. Hər şey əvvəlki kimi idi. Rəfdə toz basmış bəzi “antikvarlar” da, mələfə dolabında yarısı görünən, yarısı içilmiş “Vəhşi Hinduşka” viskisi də. Heç nə dəyişməmişdi. Qonaq otağındakı divana əvvəlki kimi adyal çəkilmişdi. Yaşıl rəngli soyuducu mətbəxdə heç nə ilə uyuşmurdu, televizor da cəmi dörd kanalı birtəhər tuturdu. Atam spagetti bişirdi. Cümə günləri həmişə makaron olurdu. Süfrə arxasında nəsə danışmalı idik.

– Adam öz evinə qayıdanda çox sevinir, – dedim.

Atamın üzündən ani bir təbəssüm keçdi.

– Hə, çox yaxşıdı, – dedi. Südünü içib – şam yeməyində biz həmişə süd içirdik – baxışlarını boşqabına dikdi.

– Toni yadındadı? – dedim. – Gərək ki, onun haqqında sənə yazmışdım. Nə isə, o, bir qadını sevir. Adı Sabinadır. Altıyaşlı qızı da var. Ona deyirəm ki, bu yaramaz bir işdir, amma o, heç eşitmək istəmir.

Atam Parmezan pendirindən boşqabına səpdi. Diqqət edirdi ki, spagettinin hər tərəfində pendir olsun.

– Bax belə, – o dedi. – Yaxşı.

Bundan sonra susmalı olduq. Mən yeyib-içdim. Həm də çox yedim. Divarda saat çıqqıldadı.

– Yəqin sevinirsən ki, bu il pensiyaya çıxırsan? – dedim. – Bax da, bir az sərbəst olarsan, gəzməyə çıxarsan, dünyanı görərsən...

Az qala deyəcəkdim ki, Almaniyaya, məni görməyə gələrsən, amma vaxtında dayandım. Bilirdim ki, atam heç yana getməz, buna görə onu pis vəziyyətdə qoymaq

istəmirdim. İkimiz də çəngəllə spagettini eşələyirdik, nə cavab verəcəyini gözləyirdim.
– Bilmirəm, – nəhayət dedi.

Onu danışdırmaq cəhdimdən əl çəkdim. İndi mətbəxdə yalnız çəngəllərin boşqaba dəyən cingiltisi eşidilirdi. Yeməkdən sonra hərə öz otağına getdi. Yorğun olduğumdan çarpayıya sərələndim, amma əsgərlikdə vərdiş etdiyimdən hər saatdan bir oyanırdım. Səhər oyananda isə atam artıq işə getmişdi. Yemək yedim, stolun üstündəki qəzetə göz gəzdirdim, bir tanışıma zəng etmək istəsəm də, alınmadı. Sonra qarajdan serfinq taxtasını götürüb çimərliyə yollandım. Dalğa az olsa da, fərqi yox idi. Mən üç il idi ki, serfinqdən ayrılmışdım, əvvəl bir az ayaq üstə dura bilmədim, heyifsilənirdim ki, bazamız okeana yaxın deyil.

İki mininci ilin iyun ayının əvvəlləri idi. Hava isti, dəniz suyu tərtəmiz idi. Ləpələr üzərində müvazinətimi saxlamağa çalışaraq sahilə baxdım – adamlar şeylərini qumluqlar boyu düzülmüş yay evlərinə daşıyırdılar. Dediyim kimi, Raytsvill-Biçdəki kotteclər bir-iki həftəliyə buraya gələn ailələrlə həmişə dolu olurdu. Bəzən Çapel Hilldən, ya da Rolidən tələbələr də gəlirdi. Məni maraqlandıran da tələbələrdi. Evlərin birinin arxasındakı dəniz körpüsündə bikini geymiş bir dəstə gənc qız görünürdü. Bir müddət onların dalınca baxdım, sonra serfinqimlə dalğaya qalxıb sürüşdüm, öz su dünyama qapıldım.

İstədim köhnə vərdişimlə “Leroy” kafesinə gedim, sonra fikirləşdim ki, orada yəqin ki, hər şey əvvəlki kimidi, ona görə də köşkdən bir butulka pivə alıb körpüdə oturdum.

Günəş batmaqda idi... Körpüdən tilov atan balıqçıların çoxu getmişdi, bir-ikisi də yır-yığışla məşğul idi. Bir azdan okeanın tunc-boz rəngi əvvəlcə narıncı-çəhrayı, getdikcə isə sarı rənglə əvəz olundu. Körpüdən o yanda, ləpədöyəndə qutanlar suyun üzündə görünən delfinlərin belinə qonurdu. Bu gün bədirlənmiş Ay görünməli idi – döyüş təcrübəsi olanlar istər-istəməz belə şeylərin fərqində olur. Heç nə haqda fikirləşmək istəmirdim – qoy xəyalım hara istəyir getsin. İnanın, bu saat qızla tanış olmaq kimi romantik bir ovqatım heç yox idi.

Məhz elə bu vaxt ona rast gəldim – o, körpüyə qalxırdı. Daha doğrusu, körpüdə iki qız göründü. Biri ucaboy, sarışın, o biri gözəl, qarabuğdayı. Bir-iki yaş məndən kiçik olardılar. Yəqin ki, kollec tələbələri idi. Şortik, mayka geymişdilər. Qarabuğdayı qızın əlində toxunma çanta vardı – beləsini adətən uşaqları ilə çimərlikdə bir neçə saat qalmağa gələnlər götürürdü. Yaxınlaşdıqca gülüşlərini, danışdıqlarını eşidirdim.

– Salam, qızlar, – onlar yaxınlaşanda dedim. Amma hiss etdim ki, namünasib səsləndi. İnanmırdım ki, cavab versinlər.

Sarışın qız fikrimin təsdiqi kimi serfinqimə, əlimdəki pivəyə çəpəki nəzər salıb baxışlarını yayındırdı. Qarabuğdayı qız isə məni təəccübləndirdi.

– Salam, – təbəssümlə dedi. Serfinqimə işarə ilə: – Yəqin, bu gün yaxşı dalğa olub dənizdə...

Cavabından karıxdım – onun səsində gözləmədiyim mehribanlıq duydum. Qızlar körpünün axırına kimi getdilər. Orada məhəccərə söykənib dənizə baxırdılar. Gözlərimi

onlardan çəkmirdim. Əvvəlcə, dedim, gedim tanış olum, sonra fikrimdən daşındım. Onlar mənim zövqümcə deyildi, daha doğrusu, mən onların. Pivəmdən iri bir qurtum alıb, onlara baxmamağa çalışdım.

Amma baxışlarım qeyri-ixtiyari qarabuğdayı qıza tərəf çevrilirdi. Səslərini eşitməməyə çalışırdım, amma sarışın qızın beyinə işləyən səsi vardı. O, dil boğaza qoymadan Bred adlı oğlandan, onu nə qədər sevdiyindən danışırdı. Deyirdi ki, onların universitetindəki qadın klubu Şimali Karolinada ən yaxşı klubdu, kursun qurtarması münasibətilə təşkil etdikləri mərasim çox yaxşı keçib, qarabuğdayı rəfiqəsi də gələn il onların klubuna gəlsə yaxşı olar, onun rəfiqələri yataqxanada qalan "şimallı" oğlanlardan çəkinirlər, onlardan biri hətta uşağa qalmışdı, amma o özü günahkardı, çünki onu xəbərdar etmişdilər... Qarabuğdayı qız az danışırdı. Başa düşmürdüm, o əylənir, yoxsa danışmağa tənbəllik edir. Hərdən yalnız gülürdü. Gülüşündə nədənsə yenə anlayış və mehribanlıq hiss edirdim. Elə bil doğma bir adamın səsini eşidirdim, amma bu, əlbəttə, belə deyildi. Boş pivə butulkasını kənara qoyanda qarabuğdayı qızın çantasını məhəccərin üstünə qoyduğuna gözüm sataşdı.

Qızlar beş-on dəqiqə idi ki, körpüdə idi. Bu zaman iki oğlan körpüdə göründü. "Yəqin, bunlar da tələbədir", düşündüm. Narıncı və qırmızı lakoste köynəkləri dizlərinə qədər olan şortiklərinin üstündən sallanırdı. Əllərində ağzı açıq pivə butulkası vardı. Təxminimə görə, bunlardan biri sarışın qızın dediyi Bred olmalı idi, o biri də onun yoldaşı. Səssizcə, oğrun-oğrun qızlara yaxınlaşıb sanki qorxutmaq,

ya da təəccübləndirmək istəyirdilər onları. Fikirləşdim ki, yəqin qızlar da onları gözləyir, kollec tələbələri bir-birini görəndə olduğu kimi indi zarafatla, çığırtı ilə əl-ələ vurub görüşəcək və birlikdə körpüdən enib əylənməyə gedəcəklər.

Yəqin ki, belə də olmalı idi, çünki oğlanlar dediyim kimi aparırdı özlərini. Yaxınlaşanda onlar səs-küylə qızların üstünə atıldılar, qızlar kənara sıçrayıb çığırışdılar, gülüşdülər. Oğlanlar da çığırışıb belə hallarda olduğu kimi razı şəkildə qəhqəhə çəkdilər. Qırmızıköynəkli isə əlindəki pivəni dağıtdı, əlləri arxasında, ayaqlarını şəstlə çarpazlayıb arxasını çantanın qoyulduğu məhəccərə söykədi.

– Bir azdan tonqal qalayırıq ha, – narıncıköynəkli oğlan dedi və sarışın qızı qolları arasına alıb boynundan öpdü. Sonra: – Hazırsız? Gedək? – soruşdu.

Sarışın qız da rəfiqəsinə tərəf döndü:

– Hazırsız?

– Əlbəttə.

Qırmızıköynəkli məhəccərdən aralandı. Bu zaman deyəsən əli məhəccərin üstündəki çantaya toxundu. Çanta sürüşüb şappıltı ilə suya düşdü, sanki balıq suya atıldı.

– O nə idi? – oğlan arxaya çevrilib baxdı.

– Mənim çantam! – qarabuğdayı qız təşvişlə dedi. – Sən onu suya saldın...

– Oy, bağışla.

Amma heç heyifsiləndiyi hiss olunmurdu.

– Mənim pulqabım da onun içində idi...

Oğlan guya tutuldu.

– Dedim axı bağışla.

– Nə qədər batmayıb, çantanı çıxarmaq lazımdı.

Tələbə oğlanlar donuxub bir-birinə baxdılar. Gördüm ki, heç birinin suya atılmaq fikri yoxdu. Əvvəla, yəqin ki, çantanı tapmayacaqdılar. İkincisi, üzüb sahilə qədər gəlmək lazım idi, amma onlar sərxoş idi, belə hallarda suya girmək qorxuludu. Yəqin, qarabuğdayı qız da qırmızıköynəklinin üzündə eyni ifadəni oxudu, çünki hər iki əlilə məhəccərdən yapışıb, bir ayağını da məhəccərin alt taxtasına qoymuşdu artıq...

– Axmaqlama, onsuz da çanta batdı, – qırmızıköynəkli oğlan bunu deyib, əlini qızın əlinin üstünə qoydu. – Buradan kim tullanar ki! Köpəkbalığı ola bilər orda. Bir pulqabı nədir ki? Təzəsini alaram sənə.

– Mən onu istəyirəm. Bütün pullarım onun içindədir!

Əlbəttə, bilirdim ki, bu işin mənə heç bir dəxli yoxdu. Amma bu saat beynimdə yalnız bir fikir vardı, ona görə də cəld ayağa qalxıb körpünün kənarına yaxınlaşdım. Nə olar, olar...

## İkinci fəsil

Güman edirəm ki, oxucu məndən izahat gözləyir – mən çantanı çıxarmaq üçün dənizə niyə tullandım? Sizi inandırıram ki, o qızın məni bir qəhrəman zənn etməsi, yaxud onda bir təəssürat yaratmaq və ya pulunu tapıb qaytarmaq üçün bunu eləmədim. Məni suya atılmağa sövq edən onun saf təbəssümü, səmimi və hərarətli gülüşü idi. Hətta suya tullananda belə sentimental hərəkətimin nə qədər yersiz olduğunu bilirdim, amma daha gec idi. Bir anda suya baş vurdum, tez də suyun üzünə çıxdım. Məhəccərin

yanından mənə dörd üz baxırdı. Qırmızıköynəkli isə pərt və hirsli idi.

– Çanta hara düşdü? – aşağıdan yuxarı qışqırdım.

– Bax, ora! – qarabuğdayı qız dedi. – Elə bil mən onu görürəm də. Odur, batır...

Axşamın boz-tutqun qaranlığına bürünən okean dalğaları arasından bir anlığa çantanın düşdüyü yeri müəyyən elədim, amma dalğalar məni körpüyə tərəf itələməkdə idi. Birtəhər çantanın dəstəyini əlimə keçirib geriyə üzdüm. Çantanı suyun üzərində tutsam da, o artıq islanmışdı. Sahilə tərəf üzmək bir az asan oldu. Hərdən suyun üzündən körpüdəkilərə baxırdım, onlar da mənimlə eyni vaxtda körpünün üstü ilə sahilə tərəf hərəkət edirdi.

Bir azdan ayağım dənizin dibinə dəydi, quruya çıxdım. Başımı silkələyib saçlarımın suyunu sıxdım, qumla bir az getmişdim ki, onlar gəlib çatdılar. Çantanı ona uzadıb dedim:

– Buyurun, götürün.

– Çox sağ olun, – qarabuğdayı qız dedi. Baxışlarımız toqquşdu. İnanın, arada sanki nə isə çıqqıldadı – qıfılın içində açar çıqqıldayan kimi. And içirəm, mən romantik deyiləm, ilk baxışdan sevməyə də inanmıram, amma o anda, məhz o anda bütün varlığımla nəsə hiss etdim... və gözlərimi çəkə bilmədim ondan...

Yaxından daha gözəl idi, amma məsələ onda deyildi ki, o necə görünürdü, məsələ onda idi ki, o, əslində necə idi; məsələ onun ağappaq dişlərinə yaraşıq verən iri, sadə təbəssümündə də deyildi. Alnına düşmüş bir qom saçını əlilə

təbii, sadə bir şəkildə arxaya, qulağının arxasına yığması nə qədər cazibədar idi...

– Siz nahaq əziyyət çəkdiniz, – dedi. Səsində bir az heyrət duydum. – Çanta mənimdi, özüm götürməli idim.

– Hə, gördüm, siz artıq tullanmağa hazırlaşırdınız.

O, başını yana əydi.

– Yəqin, çətin vəziyyətə düşmüş bir qadına kömək etməyə bilmədiniz, hə?

– Buna oxşar bir şey...

Deyəsən, bir anlıq verdiyim cavabı götür-qoy etdi, sonra çantası ilə məşğul oldu. Çantanın içindəkiləri çıxarmağa başladı: uzunsov portmanat, günəş eynəyi, gündən qorunmaq üçün alın günlüyü, çimərlik kremi... Bunları bir-bir çıxarıb sarışın qıza uzatdı. Sonra çantanı o üzünə çevirdi.

– Şəkillərin islanıb, – sarışın qız heyifsiləndi, sonra portmanatı eşələməyə başladı.

Qarabuğdayı qız onun dediyinə əhəmiyyət vermədi, dinməzcə çantanı gah bu üzə, gah o üzə çevirirdi. Nəhayət, işini qurtarandan sonra şeylərini yenidən çantaya yığmağa başladı.

– Bir də sağ olun, – dedi. Ləhcəsi bu tərəflərin adamlarının ləhcəsinə oxşamırdı. Yəqin Bun tərəflərdə – dağlarda, ya da Cənubi Karolinanın qərbində anadan olub.

– Dəyməz, – dedim, amma yerimdən də tərpənmədim.

– Ey, bəlkə bu, mükafat gözləyir, – qırmızıköynəkli hiss olunacaq tərzdə bərkdən dedi.

O, əvvəlcə qırmızıköynəkliyə, sonra mənə baxdı.

– Siz məndən mükafat gözləyirsiz?

– Yox, – əlimi yellədim. – Sadəcə, kömək etdim.

– Mən həmişə deyirdim ki, cəngavərlik tamam yox olmayıb, – qarabuğdayı qız dedi. Səsində istehza-filan yox idi.

Sarışın qızı qolları arasına alan qırmızıköynəkli oğlan məni sınayıcı nəzərlərilə gözdən keçirdi, qısa vurulmuş saçıma baxdı.

– Dəniz piyadası bölüyündənsən?

Mən başımı buladım.

– Yox, mən o “fərqlənmək istəyənlər”dən deyiləm, bununla fəxr-zad da eləmirəm. Sadəcə, dedim, görüm əlimdən bir şey gəlirmi, ona görə də hərbi xidmətə getdim.

Qarabuğdayı qız güldü. Atamdan fərqli olaraq, o, yəqin ki, bu mövzuda verilən reklama baxmışdı.

– Mənim adım Savannadır, – deyib əlini mənə uzatdı. – Savanna Linn Kertis. Bu, Breddir. Bunlar da Rendi və Suzen.

– Con Tayri, – adımı dedim, mənə tərəf uzanmış əlini əlimə aldım. Əli məxmər kimi yumşaq və isti idi. Amma ovcunda elə bil qabarlar da dəydi əlimə. Birdən yadıma düşdü ki, nə vaxtdı əlim qadın əlinə dəymir.

– Mənə elə gəlir ki, sizə necəsə təşəkkür etməliyəm.

– Buna heç bir ehtiyac yoxdur.

– Bəlkə şam yeməyini bir yerdə eləyək? – o soruşdu, cavabımı gözləmədən sözünə davam etdi. – Biz onsuz da piknikdən sonra bir yerdə yemək yeyəcəkdik. Bizimlə gedərsiz?

Oğlanlar baxışdılar. Qırmızıköynəkli lap pərt olmuşdu. Nə gizlədim, mənimsə bundan xoşum gəldi. "Bəlkə bu, mükafat gözləyir?" Di, partla!

– Doğru deyir, gedək bizimlə, – Bred dilləndi. Səsində sevinc-zad yox idi. – Birlikdə daha yaxşı olacaq. Körpüyə yaxın xudmani bir yer tapıb əyləşərik. – Əlilə sahildəki evlərin birini göstərdi. Evin açıq balkonlarında adamlar istirahət edirdi.

Bu tələbələrlə getməyə heç həvəsim yox idi, amma Savanna elə mehriban gülümsəyirdi ki, qeyri-ixtiyari dedim:

– Yaxşı fikirdir. Qoy körpüdən serfinq taxtasını götürüm, gəlim.

– Onda orada görüşürük, – Rendi sözümü havada tutdu, sonra Savannaya doğru çevrildi. Amma Savanna ona fikir vermədi.

– Mən sizinlə gedirəm, – Savanna mənə dedi və yoldaşlarından ayrıldı. – Sizlinlə getsəm, mənə də yaxşı olar. – Çantasını çiynində rahatladı və yoldaşlarına dedi. – Bir azdan görüşürük, yaxşı?

Biz qum təpələrinə doğru getməyə başladıq. Oradan pillələrlə körpüyə qalxacaqdıq. Savannanın dostları bir anlıq dayandılar, sonra Savannanın mənimlə yanaşı getdiyini görüb onlar da dönüb çimərlik boyu sahilə tərəf yeridilər. Gözümün ucu ilə görürdüm ki, Bredin qoltuğunda olan sarışın qız hərdən başını dolandırıb bizə tərəf baxır. Rendi də qaşqabaqlı halda arxamızca boylanırdı. Bilmirdim, Savanna nə isə hiss edirdimi, amma bir neçə addım gedəndən sonra dedi:

– Suzen indi fikirləşəcək ki, mən dəli olmuşam.

– Niyə?
– Ona görə ki, sizinlə gedirəm. O hesab edir ki, Rendi mənim üçün ən yaxşı namizəddir. Bu gün səhər buraya gələndən bəri çalışır ki, bizi yaxınlaşdırsın, ona görə də Rendi bütün günü yanımdan əl çəkmir.

Bilmədim nə deyim, başımı tərpətdim. Uzaqda, dənizlə üfüqün birləşdiyi yerdən bədirlənmiş Ay yavaş-yavaş qalxırdı. Gördüm ki, Savanna da bu mənzərəyə diqqət verir. Sahilə can atan dalğalar buradaca daşlara çırpılıb dağılır, minlərlə gümüşü damcı havaya sıçrayır, elə bil nəhəng bir fotoaparatın bir anlıq yanıb sönən işığında parlayıb tökülürdü. Körpüyə çatdıq. Yan sürahilər qum və duzdan kələ-kötür olmuşdu, illər boyu günəşdə, küləkdə solub bozarmış taxta pillələr cadar-cadardı, biz qalxdıqca ayağımızın altında cırıldayırdı.

– Hərbi hissəniz haradadır ki? – Savanna soruşdu.

– Almaniyada. Mən bir neçə həftəliyə evə buraxılmışam. Atama dəyməyə gəlmişəm. Sən necə? Mənə elə gəlir ki, sən dağ rayonlarından birindən gəlmisən, elədir?

– Lenuardan, – o, baxışlarını heyrətlə mənə dikdi. – Hə, yəqin, mənim ləhcəmə görə belə fikirləşirsən. Demək istəyirsən ki, əyalətdən gəlmişəm, hə?

– Yox, elə də yox.

– Amma mən doğrudan da bir az ucqar yerdənəm. Rançoda böyümüşəm. Ləhcəm də var, hiss olunur, amma bəziləri onu çox xoşlayır.

– Yəqin, Rendi də belə fikirləşir.

Düzü, bu sözlər nagah çıxdı dilimdən. Amma gec idi. Namünasib bir vəziyyət yarandı. O, əlilə saçlarını geriyə sığalladı.

– Rendi nəzakətli, cavan bir oğlandır, – Savanna bir azdan dedi. – Amma mən onu heç tanımıram. Bizim kottecdə yaşayanları da yaxşı tanımıram. Tanıdığım ancaq Tim və Suzendir. – Əlilə üzünə qonan ağcaqanadı qovdu. – Timlə bir azdan tanış olacaqsan. Yaxşı oğlandır, xoşuna gələcək. O, hamının xoşuna gəlir.

– Bura birhəftəliyə gəlmisiz? İstirahətə?

– Ümumiyyətlə, bir aylığa gəlmişik. Amma istirahətə yox. "İnsanlar üçün mənzil" proqramı haqqında eşitmisən? Biz o proqram çərçivəsində könüllü olaraq gəlmişik bura. Ev tikməyə kömək edəcəyik. Bizim ailəmiz bir neçə ildi ki, bu proqramda iştirak edir.

Yaxınlaşdıqca kottecin qaraltısı seçilirdi. Sonra adamlar görünməyə başladı, musiqi səsi gəldi; orda-burda bərkdən gülüş səsləri eşidilirdi. Bred, Suzen və Rendi artıq burada idilər. Onları pivə içən bir neçə oğlan və qız dövrəyə almışdı. Onlar heç bir işə yarayana, kömək eləyənə-zada oxşamırdılar, daha çox, vaxtını yaxşı keçirmək, zərif cinsin nümayəndələrinə ilişmək istəyən imkanlı tələbələrə oxşayırdılar. Savanna yəqin ki, fikirlərimi oxumuşdu.

– Tikinti işləri bazar ertəsi başlayacaq. Onlar da tezliklə başa düşəcəklər ki, işimiz heç də oynamaq, əylənmək deyil.

– Mən bir şey demədim...

– Demədin, amma necə baxırdın... Əslində də belədir. Onların çoxu proqrama ilk dəfə qoşulur, – sonra icmala nə isə yazmaq üçün. Tezliklə təhsili qurtarırlar, axı. Heç

bilmirlər ki, nə qədər iş görmək lazımdır. Hər halda, işimiz ev tikməkdir, onlar tikiləcək də. Həmişə belə olur.

– Əvvəllər də bu işlə məşğul olmusan?

– On altı yaşımdan bəri hər yay. Əvvəlcə kilsəmizin adından gedirdim, Çapel Hillə köçəndən sonra orada bir qrup yaratdıq. Əslində, Tim təşəbbüs göstərdi. O da Lenuardandır. Bu il kolleci bitirib, payızda yəqin ki, magistr kurslarına gedəcək. Çoxdan tanıyıram onu. Yayda evdə qalıb müxtəlif işlərə kömək etməkdənsə, ya da tələbə praktikasına getməkdənsə, dedik, tələbələri bir yerə yığaq, qoy hər kəs özünü göstərə bilsin. Kotteci şərikli tutmuşuq, hər kəs də öz xərclərini özü ödəyir. Çantam dənizdə batanda buna görə çox narahat idim. Yoxsa bir ay nə yeyəcəkdim?

– Dostların səni ac qoymazdı, yəqin.

– Bilirəm, amma bu düz olmazdı, onlar onsuz da xeyirxah bir iş görürlər.

Hiss edirdim ki, ayaqlarım quma batır.

– Bəs niyə Uilminqtonda? – dedim. – Niyə Lenuarda, ya da Rolidə yox, burada gəlib ev tikməlisən?

– Çimərliyə görə. Adamları tanıyırsan da. Tələbələri bir ay könüllü işlətməyə razı salmaq çətindir, amma tikinti belə bir yerdə – dəniz sahilində olanda iş asanlaşır. Nə qədər çox adam yığa bilsən, iş də o qədər yüngülləşir. Bu il qrupumuza otuz adam yazılıb.

Başımla dediklərini təsdiq etdim, həm də diqqət etdim ki, biz çox yaxın yeriyirik.

– Sən də bu il qurtarırsan? – soruşdum.

– Yox, bir ilim qalıb. "Çətin tərbiyə olunan uşaqların təlimi" ixtisasını alıram.

– Elə onu soruşmaq istəyirdim...

– Bilirəm, çünki tələbələrdən adətən bunu soruşurlar.

– Məndən də tez-tez soruşurlar ki, orduda xidmət xoşuma gəlirmi?

– Doğrudan da, xoşuna gəlirmi?

– Bilmirəm.

Savannanı gülmək tutdu. Gülüşü mahnı kimi idi, dönə-dönə eşitmək istəyirdim.

Körpünün axırına çatdıq. Mən serfinq taxtasını əlimə götürdüm, boş pivə butulkasını zibil qutusuna atdım. Butulka orada gumbuldadı. Ulduzlar tək-tək sayrışmağa başlayırdı. Qum təpələri boyunca uzanan evlərin pəncərələrindən süzülən işıqlar mənə Hallovin bayramında düzəldilən balqabaq fənərlərini xatırladırdı.

– Soruşmaq olarmı ki, niyə orduya xidmətə getdin? Bir halda ki, bilmirsən ordu xoşuna gəlir, ya yox?

Bir anlıq fikirləşdim: nə cavab verim? Serfinq taxtasını bu qolumdan o qoluma keçirdim, guya ki, vaxt qazanıram.

– Elə bilirəm, düzgün cavab budur: “o vaxt buna ehtiyacım vardı”.

Savanna yenə nəsə deyəcəyimi gözləyirdi, amma mən daha bir şey demədim, o da başı ilə təsdiq etdi.

– Hər halda arada evə gəlmək yaxşıdır, yox?

– Əlbəttə.

– İndi atan yaman sevinir.

– Yəqin ki.

– Şübhəsiz. İnanıram ki, o, səninlə fəxr edir.

– Ola bilər.

– Elə danışırsan ki, elə bil özün buna inanmırsan.

– Atamı tanısaydın, məni başa düşərdin. O, içindəkini hələm-hələm büruzə vermir, az danışandı.

Ayın işığı onun qara gözlərində parıldadı, səsi bir az həlimləşdi.

– Səninlə fəxr etdiyini dili ilə demək vacib deyil, bəzən atalar bunu başqa cür ifadə edirlər.

Fikrə getdim, yəqin ki, belə idi. Elə bu an evlərin yanından bır çığırtı səsi gəldi. Tonqalın yanında bir oğlan qollarını bir qızın belinə dolayıb onu ocağa tərəf itələyir, qız da bərkdən gülür, zarafatla müqavimət göstərir, oğlanın əlindən qurtarmağa çalışırdı. Bredlə Suzen bir az o yanda qol-boyun idilər, Rendi isə qeybə çəkilmişdi.

– Deyirdin, burada bir ay birlikdə yaşayacağın adamları demək olar ki, tanımırsan?

O, başını buladı, yəni tanımıram. Hamar saçları çiyinlərinə dağıldı və o yenidən saçlarını düzəltməli oldu.

– Yəni yaxından tanımıram. Çoxlarını ilk dəfə siyahı tutulanda gördüm, bir də ki, bu gün, bura gələndə. Ola bilər, hansınısa tələbə şəhərciyində görmüşəm. Onlar bir-birini yaxşı tanıyırlar, mən az tanıyıram. Bir çoxu qadın məclislərində tanış olublar. Mən isə hələ də yataqxanada yaşayıram. Amma yaxşı uşaqlardı.

Onun cavabından belə bir nəticə çıxartdım ki, Savanna başqası haqqında heç vaxt pis söz deməyən insanlardandır. Onun başqalarına münasibəti yetkin bir adamın münasibəti idi və bu xoşuma gəldi. Qəribə olsa da, təəccüblənmədim. Bu lap əvvəldən onda hiss etdiyim həmin izaholunmaz xasiyyətin bir parçası idi: onu başqalarından ayıran özünə xas davranışı...

– Neçə yaşın var? – kottecə çataçatda soruşdum.

– Keçən ay iyirmi bir yaşım tamam oldu. Bəs sənin?

– İyirmi üç... Qardaşın, bacın varmı?

– Yox, tək uşağam. Ata-anam Lenuarda yaşayır. Artıq iyirmi beş ildir ki, evlidirlər. Bəs səninkilər?

– Mən də tək uşağam. Amma bizim ailəmizdə bir mənəm, bir də atam.

Düşündüm ki, bu saat suallar başlanacaq: bəs anam necə olub? Amma təəccüblüdür ki, Savanna heç nə soruşmadı. Əvəzində dedi:

– Yəqin serfinqi atan öyrədib sənə?

– Yox, özüm öyrənmişəm, uşaq vaxtından.

– Sən yaxşı üzürsən, bir az əvvəl sənə baxırdım. Çox asanlıqla üzürsən, elə rahat ki, adam sənə həsəd aparır.

– Həvəslə öyrədərəm, – dedim. – Bu elə də çətin deyil. Mən sabah da çimərlikdə olacam.

O, ayaq saxladı, baxışlarını mənə dikdi.

– Söz verirsən? Birdən sonra yerinə yetirə bilmədin? – dedi və mənim danışmağıma imkan vermədən əlimdən tutub tonqala tərəf çəkdi. – Hə, təzə adamlarla tanış olmağa hazırsan?

Mən udqundum, qəfildən boğazım qurudu; qəribə idi – heç vaxt belə olmamışdım.

***

Yaxınlaşdığımız üçmərtəbəli, böyük evin altında qaraj və yəqin ki, altı-yeddi yataq otağı vardı. Birinci mərtəbənin hər tərəfdən taxta balkonları vardı, məhəccərlərdən

dəsmallar asılmışdı, otaqlardan müxtəlif səslər eşidilirdi. Balkonda qoyulmuş qrildən hotdoq, ya da çolpa ətinin iyi gəlirdi. Köynəksiz, gen şalvar geymiş bir oğlan qrilin üzərinə əyilmişdi. Şəhərin ədabaz oğlanları kimi aparırdı özünü. Hər nəsə, gülmək tutdu məni.

Qumlar arasındakı çökəkdə tonqal qalanmışdı. Nəzərə çarpacaq dərəcədə iri ölçülü idman fufaykaları geymiş qızlar stullarda dövrələmə oturmuşdular. Yanlarındakı oğlanlara guya ki, tamam biganə idilər. Oğlanlarsa özlərini o yerə qoymadan, guya lap tasadüfən, hiss etmədən elə bir pozada dayanırdılar ki, qollarının əzələlərini nümayiş etdirsinlər. Mən bu halları əvvəllər Leroy kafesində müşahidə etmişdim. Savadlı-savadsız, cavan hər yerdə cavandır. Hərəsinin iyirmi yaşı vardı, istəkləri, ehtirasları da kəlləçarxda. Üstəgəl, çimərlik, pivə... Sonrasını təsəvvür etmək çətin deyildi, amma o zaman mən buralarda olmayacaqdım.

Biz onlara yaxınlaşarkan Savanna bir anlıq dayandı, sonra əlilə bir yeri gostərib dedi:

– Ora necədir? O qum təpəsinin yanında oturaq?

– Oturaq, – dedim.

Biz tonqalla üz-üzə oturduq. Qızların bir neçəsinin nəzərləri üstümdə idi – təzə oğlanı gözdən keçirirdilər. Amma bir azdan yenə öz söhbətlərinə qayıtdılar. O yandan Rendi əlində bir butulka pivə tonqalın qırağında göründü. Savanna ilə məni görüb tez də arxasını çevirdi, o da eynən qızlar kimi özünə “qayıtdı”.

– Çolpa, yoxsa hotdoq? – Savanna bütün bunlara məhəl qoymadan soruşdu.

– Çolpa.

– Bəs içməyə?

Üzünə düşən alov işığı onu daha cazibədar göstərirdi.

– Nə olsa. Təşəkkür edirəm.

– İndi qayıdıram.

O, pillələrə tərəf getdi, onun ardınca getməkdən özümü güclə saxladım. Əvəzində, tonqala yaxınlaşdım, köynəyimi soyunub tonqalın yanındakı boş stula sərdim. Yerimə qayıdanda gen şalvarlı gicbəsərin Savannaya söz atdığını gördüm. İstər-istəməz pörtdüm, amma üzümü çevirib boş verdim. Mən Savannanı az tanıyırdım, heç onun haqqımda nə düşündüyünü də bilmirdim. Bir də, bir şeyi ki, başa vura bilməzdim, onu heç başlamağa da həvəsim yoxdu, çünki iki həftədən sonra çıxıb gedəcəkdim buralardan. Özümü müxtəlif dəlillərlə inandırmağa çalışırdım ki, yemək yeyən kimi çıxıb evə getməliyəm.

Bu zaman kiminsə mənə yaxınlaşdığını sezdim. Ucaboy, arıq, seyrəlməyə başlayan sıx saçlarını yanlara ayırmış cavan bir oğlan idi. Cavan olsa da, elə bil uşaqlıqdan yaşlı kimi doğulmuşdu. Razılaşın ki, belə adamlar da var.

– Siz, yəqin ki, Consuz, – gülə-gülə dedi və qarşımda yerə çöməldi. – Mənim adım Tim Ueddondur, – əlini uzatdı. – Savanna üçün nə etdiyinizi dedilər. Öz aramızdı, o, sizin orada olmağınıza çox sevinir.

Mən onun əlini sıxdım.

– Tanışlığımıza şadam.

Təvazökarlığıma baxmayaraq, Ueddon çox mehribancasına güldü. Breddən və Rendidən daha mehriban. Həm də çox təəccüblü idi ki, o, tatuirovkama da heç nə demədi, halbuki tatuirovkam heç də görünməz bir şey

deylidi, çiynimdən biləyimə qədər uzanırdı. Mənə deyirdilər ki, sonra buna görə peşman olacaqsan, amma o vaxt mənim üçün fərqi yox idi. Heç indi də vecimə deyil.

– Bu stola oturmaq olarmı? – soruşdu.

– Buyurun.

Ueddon əyləşdi. Nə çox yaxın, nə də çox uzaqda oturdu.

– Yaxşı ki, gəlmisiz. Demək istəyirəm ki, lap çox imkanımız olmasa da, yeməyimiz boldu. Yemək istəyirsiz?

– Doğrusu, acam.

– Yəqin, serfinqdən sonra belə acmısız.

– Siz də serfinqdə üzürsüz?

– Yox, amma okean sahilində adam bərk acır. Məktəb tətillərindən bunu hiss etmişəm – biz hər yay Payn Noll sahillərinə gedirdik. Oralarda olmusuz?

– Bircə dəfə olmuşam. Buralarda onsuz da hər şey var.

– Hə, əlbəttə, – serfinq taxtama işarə ilə, – deyəsən, uzun taxtalar xoşunuza gəlir? – dedi.

– Hər cürəsi xoşuma gəlir. Amma burdakı dalğalar üçün uzun taxta yaxşıdır. Qısa serfinq taxtalarında Sakit Okean dalğalarında üzmək rahatdır.

– Oralarda olmusuz? Havay adaları, Bali, Yeni Zellandiya? Deyirlər, ən yaxşı yerlər oralardı...

– Yox, olmamışam, – dedim. Serfinq yerləri haqqında belə məlumatlı olmağına təəccübləndim. – Nə vaxtsa olaram, yəqin.

Tonqalda odun çartıldadı, havaya qığılcımlar qalxdı. Əllərimi qoşalaşdırıb barmaqlarımı ovuşdurdum. İndi soruşmaq növbəsi mənim idi.

– Siz, demək, yoxsullar üçün evlər tikəcəksiz burda?

– Savanna dedi bunu? Hər halda, biz belə fikirləşirik. Evlər o ailələr üçün tikilir ki, yaşayış şəraitini yaxşılaşdırmağa ehtiyacları var. Elə bilirəm, iyul ayının axırlarına qədər tikintini qurtaracağıq.

– Çox xeyirxah iş görürsüz.

– Amma təkcə biz yox... Eh, dayan, dayan, mən axı sizdən nə isə soruşmaq istəyirdim.

– Yəqin, istəyirsiz ki, mən də könüllü yazılım sizə?

O güldü.

– Yox, yox. Amma əvvəllər də belə zarafatları eşitmişəm. Adamlar məni görən kimi qaçırlar. Yəqin, üst-başımdan bilinir. Hər halda, inanılası deyil, amma soruşmaq istəyirdim ki, mənim dayım oğlunu tanımırsız ki? O, indi Fort-Breqqedədir.

– Yox, – deyə başımı buladım. – Bizim hərbi hissəmiz Almaniyadadır.

– Ramşteyndə?

– Yox, Ramşteyn yaxınlığımızda hava bazasıdır. Bəs siz Ramşteyni haradan tanıyırsız?

– Dekabr ayında Frankfurtda idim. Yeni İli orada ailəmizlə bir yerdə qarşıladım. Bizim əslimiz Almaniyadandır, babamla nənəm indi də orada yaşayır.

– Gör dünya necə balacadır...

– Almanca danışmağı öyrənmisiz?

– Heç bircə söz də.

– Mən də öyrənə bilmədim. İşə bax ki, ata-anam almanca danışa bilir, uşaqlıqdan evimizdə almanca danışıq eşidirəm, üstəlik, Almaniyaya getməzdən əvvəl dil

kurslarına da getdim, amma bu dildə danışa bilmirəm. Bacardığım ancaq odur ki, yemək stolunun arxasında başımı tərpətməklə özümü elə aparıram ki, guya almanca danışılanların hamısını başa düşürəm. Bir təsəllim var ki, qardaşım da mənim kimi kütdür, o da almanca bilmir.

Güldüm. Tim Ueddonun açıq, mehriban sifəti vardı, bir az əvvəl deyirdim ki, yemək yeyən kimi çıxıb gedəcəyəm evə, indi isə onun səmimiyyətindən xoşum gəldi, rəğbətim artdı.

– Bəlkə yeməyə nəsə alıb gətirim?

– Yox, Savanna alıb gətirəcək.

– Hə? Doğrudan da. O, bunları yaxşı bacarır, qonaqpərvərdir, həmişə də belədir.

– Savanna deyirdi, bir yerdə böyümüsüz.

Ueddon başı ilə təsdiq etdi:

– Onların rançosu bizimki ilə yanaşıdır. Bir məktəbə, bir kilsəyə getmişik, sonra da bir universitetə girdik. Kiçik bacı kimidir mənə. O, "ayrı cür" qızdır.

"Bacım" desə də, Ueddon "ayrı cür" sözünü xüsusi bir tərzdə dedi, hiss etdim ki, sözlə deyə bilmədiyi daha mübhəm hissləri var. Amma Rendidən fərqli olaraq, məni buraya dəvət etdiyi üçün Savannanı qısqanmadı.

Bunları götür-qoy edərkən Savanna pillələrin başında göründü, sonra tələsik addımlarla qumluğa endi.

– Görürəm, Timlə tanış olmusan, – Savanna başı ilə Timə işarə etdi. Bir əlində içində çolpa əti, kartof salatı, kartof qızartması olan iki boşqab tutmuşdu, o birində iki diyetik "Pepsi" vardı.

– Hə, gəldim ki, Conla tanış olum, həm də cəsarətinə görə təşəkkür edim, – Tim tələsik izahat verməyə başladı. – Sonra da ailə söhbətləri elədik bir az.

– Çox yaxşı. Onsuz da fikirləşirdim ki, siz görüşsəniz, yaxşı olar, – Savanna boşqabları bizə uzatdı. O da Tim kimi mənim köynəksiz olduğuma, tatuirovkama əhəmiyyət vermədi. – Yemək hazırdır. Tim, istəyirsən boşqabımı verim sənə? Gedib birini də götürərəm.

– Yox, özüm gedib götürərəm indi, – Tim dedi və ayağa durdu. – Siz isə yeməyinizi yeyin. – Şortikindən qumu çırpdı. – Tanış olmağımıza şad oldum, Con. Bu tərəflərə yolunuz düşsə, gəlin, şad olarıq.

– Təşəkkür edirəm.

Tim geriyə baxmadan pillələrlə yeyin-yeyin qalxdı, gedə-gedə kiminləsə salamlaşdı, bir tullanışla pillələrin başında göründü.

Savanna boşqabı, plastik çəngəl-bıçağı mənə uzatdı, sonra o biri əlilə "Pepsi"ni verib yanımda oturdu. Lap yaxın oturdu mənə, hiss etdim. Boşqabını dizləri üstə qoyub "Pepsi"ni açdı, bir anlıq tərəddüdlə "Pepsi"ni mənə göstərib dedi:

– Sən bir az qabaq pivə içirdin, amma dedin ki, nə olsa fərqi yoxdur, ona görə də "Pepsi" götürdüm. Bilmədim, nə xoşlayırsan.

– "Pepsi" yaxşı içkidir.

– Doğrudan? Amma burada soyuducular pivə ilə doludur. Mən sizin haqqınızda, hərbiçilər haqqında bir az eşitmişəm...

Mən içimi çəkdim.

– Hımm, nə bilim... – “Pepsi”ni aça-aça dedim. – Belə başa düşdüm ki, sən içmirsən.

– Yox, içmirəm, – o dedi. Səsində heç bir özünə haqq qazandırmaq istəyi yox idi. Sadəcə olanı deyirdi, vəssalam. Bu xoşuma gəldi.

Çolpa ətindən bir dişləm alıb yeməyə başladı. Mən də sakitcə yeyə-yeyə fikirləşirdim. Görəsən, Timin əsl hisslərindən xəbəri varmı onun? Bəs özü ona necə münasibət bəsləyir? Arada nəsə vardı, amma başa düşmürdüm. Bəlkə də Tim düz deyir – yalnız qardaş-bacı münasibətidir bu? İnanmaq olmurdu.

– Orduda nə iş görürsən? – nəhayət, çəngəlini boşqaba qoyub soruşdu.

– Mən piyada hissəsində serjantam. Avtomatçılar bölüyünün komandiri.

– Bu nə deməkdir? Yəni hər gün nə edirsiz? Avtomatdan atırsız, nəsə partladırsız, ya nə?

– Hərdən atırıq, hərdən partladırıq. Amma ümumiyyətlə, qarnizon həyatı çox darıxdırıcı, yeknəsəqdir, xüsusən bazada olanda. Səhər saat altıda cərgədə olmalısan, yoxlama vaxtıdı, sonra hərə öz bölüyündə məşqlərə gedir. Basketbol, qaçış, ağırlıq qaldırmaq və s. Bəzən təlim dərsləri olur – silahı söküb yenidən yığmaq, ya da gecə topoqrafiya təlimi, hərdən də poliqona güllə atmağa gedirik. Heç nə planlaşdırılmayıbsa, kazarmaya qayıdırıq, kimsə video oyunlarına girişir, kimsə oxuyur, kimsə özü üçün veyllənir, bütün günü beləcə. Saat dörddə axşam yoxlamasına düzülürük, burda sabah nə edəcəyimizi elan edirlər. Bununla da həmin günün xidməti başa çatır.

– Sən video oyunlar dedin?

– Şəxsən mən ya məşq edirəm, ya da oxuyuram. Amma yoldaşlarım kompüter oyunlarında əsl peşəkardırlar. Yaxşı atmağı öyrənirlər. Həm də oyun nə qədər sərt və amansız olsa, o qədər xoşlarına gəlir.

– Nə oxuyarsan ki?

Oxuduqlarımı saydım. Savanna bir az fikrə getdi, sonra dedi:

– Bəs sizi hərbi əməliyyatlar zonasına göndərəndə nə olur?

– Onda, – mən son tikəmi çeynəyib uddum, – başqa hər şey cür olur. Keşikdə dururuq, ya da görürsən, texnika sınır, xarab olur, düzəltmək lazımdır; həmişə nə iləsə məşğul olursan, hətta naryadda olmasan da. Piyadalar yerüstü qoşun növüdür, çox vaxt çöldə-bayırda oluruq.

– Heç qorxduğun vaxt olur?

Necə cavab verəcəyimi fikirləşdim bir az.

– Hə, olur. Hərdən. Ancaq bu o demək deyil ki, həmişə qorxa-qorxa gəzirsən, lap dörd yanın cəhənnəm kimi alışıb yansa da. Necə deyim, sadəcə, bu, təbii reaksiyadır, sağ qalmağa çalışmaq cəhdi. Hər şey elə sürətlə baş verir ki, fikirləşməyə vaxt olmur, sadəcə öz işini görürsən, çalışırsan ki, səni vurmasınlar. Qorxu sonra gəlir. Döyüşdən sonra sənə aydın olur ki, ölüm sənə necə yaxın olub, bax, onda səni dəhşət bürüyür, canına lərzə düşür, adamın içi-içalatı ağzına gəlir. Bax, belə bir şey.

– Sənin elədiklərini mən heç vaxt eləyə bilməzdim...

Savannanın bu dediklərinə yəqin ki, cavab vermək lazım deyildi, ona görə də mövzunu dəyişdim.

– Niyə “çətin tərbiyə olunan uşaqların təlimi” ixtisası? – soruşdum.

– Bu, uzun əhvalatdır. Doğrudan, bilmək istəyirsən?

Başımla “hə” dedim. O, dərindən köksünü ötürdü.

– Bizim Lenuarda Alan adlı bir oğlan var, gözlərim önündə böyüyüb. Autizm xəstəliyinə tutulmuşdu, adamlara az yovuşurdu, uzun müddət heç kim bilmirdi ki, onunla neyləsinlər, necə yaxınlaşsınlar ona. Bir dəfə ona lap yazığım gəldi. Onda balaca idim. Bu haqda ata-anama deyəndə, onlar dedilər ki, bəlkə Allahın onunla bağlı nəsə bir ayrı planı var. Əvvəlcə bu mənə çox mənasız göründü, amma Alanın böyük qardaşı vardı. O, kiçik qardaşına qarşı çox səbirli idi. Həmişə səbirli idi. O, Alana heç vaxt inamını itirmirdi, yavaş-yavaş ona kömək edə bildi. Alan bu xəstəlikdən tam sağalmasa da, çox dəyişdi. Düzdü, yenə ata-anası ilə yaşayır, tək heç hara çıxmır, amma çox dəyişib, əvvəlki kimi özünə qapılmır, heç nəyə laqeyd deyil. Bax, mən də o cür, Alan kimi uşaqlara kömək etmək istəyirəm.

– Bu fikrə düşəndə neçə yaşda idin?

– On iki.

– İndi sən məktəbdə o cür uşaqlarla işləməyəcəksən?

– Yox. Mən Alanın qardaşı kimi eləmək istəyirəm. O, bu işdə atlardan istifadə etdi. – Savanna bir az susdu, fikirlərini toplayıb dedi. – Autizm xəstəliyi olan uşaqlar elə bil öz balaca dünyalarına qapılırlar. Amma təlim-tərbiyə, ya da terapiya ənənəvi üsullarla aparılır. Mənsə onlara yeni qapılar açacağam. Bunun necə baş verdiyini gözümlə görmüşəm: Alan əvvəlcə atlardan yaman qorxurdu, amma qardaşı inadla çalışdı, onu öyrətdi, sonra Alan atların

boynunu tumarlayır, şappıldadır, burunlarını silir, hətta yemləyirdi onları. Sonra Alan at minməyi öyrəndi. Yadımdadı, ilk dəfə ata minəndə necə sevinirdi... Bilirsən, inanılmaz bir şeydi... Xoşbəxt uşaq təbəssümü ilə gülürdü Alan... Mən istəyirəm ki, uşaqlar xoşbəxtliyi, bax, o cür hiss etsinlər, qoy lap bir an çəksin. Bax, mən onda başa düşdüm ki, həyatda nə istəyirəm. Dedim, bəlkə bir atçılıq düşərgəsi açım, burada autist uşaqlarla işləmək imkanı olsun. Bəlkə o zaman onlar da Alan kimi xoşbəxtliyi hiss edə bilərlər.

Savanna danışdıqlarından tutulmuş kimi oldu, sonra çəngəli, boşqabı kənara qoydu.

– Gözəl məqsəddir, – dedim.

– Baş tutsa, görərik... – dedi, qamətini düzəltdi. – İndisə bu yalnız bir arzudur.

– Belə başa düşdüm ki, sən atları çox sevirsən?

– Bəs bilmirsən, bütün qızlar atları sevir? Mən də atları çox sevirəm. Mənim ərəb atım var, adı Midasdır. Hərdən elə darıxıram ki, onunçün... mən burdayam, o orda. İndi elə çapardım onu...

– Belə de, nələr varmış gör...

– Bəs nə bilmişdin? Amma mən hələ burada, bu tikintidə nə qədər qalmalıyam. Evə qayıdanda səhərdən axşama qədər minəcəyəm onu. Sən at minmisən heç?

– Bir dəfə minmişəm.

– Xoşuna gəldi?

– Səhəri günü bütün bədənim ağrıyırdı, heç yeriyə bilmirdim.

Savanna xəfifcə güldü, öz-özümə dedim ki, gör onunla danışmaq necə də asandı. Asan və təbii. Bir çoxlarından

fərqli olaraq. Başımızın üstündə Orion ulduzları sayrışırdı. Üfüqdə, okeanın üzərində ağappaq, süd rəngli Venera ulduzu bərq vururdu. Oğlanlar, qızlar tappıltı ilə pilləkənləri düşür-qalxır, pivənin təsirindən aldıqları cəsarətlə zarafatlaşır, məzələnirdilər. Mən köksümü ötürdüm.

– Mən daha getsəm yaxşıdır, atam narahat olar. İndi fikirləşir ki, görən, haraya getmişəm. Əlbəttə, əgər hələ yatmayıbsa.

– Bəlkə zəng edəsən? Bizim telefonlardan zəng elə.

– Yox, getsəm yaxşıdı. Yol da bir az uzaqdı.

– Maşının yoxdu?

– Yox, səhər də yol maşını ilə gəlmişəm.

– İstəyirsən, Tim aparsın səni? O etiraz etməz.

– Yox, özüm gedərəm.

– Gülməli söz danışırsan. Özün dedin ki, yol da yaxın deyil. İndi Timə deyərəm, aparar səni. Bir az gözlə.

Ağzımı açmamış durub evə keçdi, bir azdan Timlə qapıda göründü.

– Tim səni aparar, – özündən razı halda dedi.

– Doğrudan? – Timə tərəf dönüb soruşdum.

– Nə söz ola bilər ki? Maşınım odur, oradadır. Serfinq taxtasını da kuzova qoyarsan. Kömək eləyim?

– Yox, – deyib ayağa durdum. – Özüm qoyaram. – Tonqalın yanına gəlib qurumuş köynəyimi, serfinqi götürdüm. – Hər halda sağ ol.

– Dəyməz, canım, – Ueddon dedi, sonra cibini yoxladı. – Bu saat gedib açarı götürüm, gəlim. Yaşıl kuzovlu maşındı, orada, otluqda saxlamışam. Mən də ora gələrəm.

Tim gedəndən sonra Savannaya tərəf döndüm:

– Tanış olduğuma çox şad oldum.

O, üzümə baxdı.

– Mən də. Əvvəllər heç vaxt hərbiçi ilə danışmamışdım. Heç demə, hərbiçinin yanında adam özünü arxayın hiss edir. Rendi bu gün daha mənə yaxınlaşmaz, sənin tatuiorvkan onu yaman qorxutdu.

Demək, özü də tatuirovkama baxmamış deyildi.

– Bəlkə də yenə görüşdük bu tərəflərdə...

– Sən bilirsən məni harada tapmaq olar.

Kəsdirə bilmədim – bu, yenidən görüşməyimiz üçün eyham idimi? Onun bəzi davranışları mənim üçün az qala sirr idi. Amma onu da deyim ki, onu lap az tanıyırdım axı.

– Amma bir az əvvəl dediyini yaddan çıxarmısan, bax, bu, məni çaşdırır, – o, birdən yadına düşmüş kimi dedi.

– Nəyi yaddan çıxarmışam?

– Demədin ki, sənə serfinqdə üzməyi öyrədəcəyəm?

Tim, mənim Savannaya vurulduğumu, ya da ertəsi gün onun dalınca gəlib buralarda bitəcəyəmi lap ötəri fikirləşsə belə, bunu heç cürə bildirmirdi. Əvəzində, bütün diqqətini yola cəmləyib maşınını sürür, yol qaydalarına səylə əməl eləyirdi. Tim o sürücülərdən idi ki, sarı işıqda da maşını saxlayır, keçib getmirdi.

– Məncə, vaxtını yaxşı keçirtdin, yox? – o soruşdu. – Amma onu da bilirəm ki, tanımadığın adamlar arasında adam özünü birtəhər hiss edir.

– Yox, hər şey yaxşı idi.

– Sən Savanna ilə tez dil tapdın. O, xüsusi bir qızdır, yox? Məncə, sən onun xoşuna gəldin.

– Xeyli yaxşı söhbətlərimiz oldu, – ehtiyatla dedim.

– Çox gözəl. Onun bura gəlməyinə görə bir az narahat idim. Keçən il ata-anası ilə gəlmişdi, bu il ilk dəfədir ki, tək gəlir. Daha böyük qızdır, əlbəttə, amma buradakılar onun gördüyü adamlar deyil. Çox istəyirəm ki, ümumiyyətlə gecələr bu oğlanlardan bacardıqca uzaq olsun.

– Məncə, o bunun öhdəsindən gələr.

– Yəqin ki, düz deyirsən. Amma bunlardan bəziləri lap qır-saqqızdır...

– Hə də, ağzında oğlan deyirsən.

Tim güldü, başı ilə maşının qabaq şüşəsinə işarə edib soruşdu:

– İndi hayana?

Mən yolu göstərməyə başladım – burdan sağa, burdan sola... Bir azdan evimizin qabağında maşını saxlatdırdım. Atamın otağından işıq gəlirdi.

Maşının qapısını aça-aça Timə tərəf dönüb:

– Sağ ol, – dedim.

– Dəyməz, – Tim sükan arxasında arxaya söykəndi. – Yenə deyirəm, nə vaxt istəsən, gəl. Gündüzlər tikintidə olacağıq, amma axşamlar, bazar günləri onsuz da boşuq.

– Nəzərə alaram.

Evə girib atamın otağının qapısını açdım. "Numizmatın bülleteni"nə başı o qədər qarışmışdı ki, evə nə vaxt girdiyimi hiss etmədi.

– Bağışla, – dedim, astanadaca oturdum. Atamın otağı bir pillə yuxarıda idi. – Qorxutdum, deyəsən.

– Heç nə olmaz, – yalnız bunu dedi. Bilmirdi bülleteni bir kənara qoysun, ya yox. Sonra onu bir qırağa qoydu.

– Bu gün yaxşı dalğa vardı, – dedim. – Az qala serfinq yadımdan çıxmışdı, suda adam özünü qəribə hiss edir.

O gülümsündü, amma heç nə demədi. Yerimdən qalxa-qalxa:

– İşlərin necədir? – soruşdum.

– Əvvəlki kimi. – O, yenə öz düşüncələrinə daldı. Fikrimdən keçdi ki, bizim söhbətlərimiz də "əvvəlki kimi"dir, onun bu axırıncı sözləri kimi.

## Üçüncü fəsil

Serfinq – birnəfərlik idmandır, uzun müddət süst həyat keçirən adam birdən-birə çox fəal hərəkət etməli olur. Təbiətlə mübarizə aparmaq əvəzinə onunla nəfəs-nəfəsə, həmahəng olmağı öyrənirsən... Elə bil bir su tunelində qəribə bir axına düşürsən. Hər halda, serfinqdən yazanlar belə deyir, mən də bir çox hallarda bununla razıyam. Sahilə doğru aşa-aşa gələn, burulan bir dalğanın içinə girib bir neçə an su divarları arasında qalmaqdan daha həyəcanlı nə ola bilər?! Amma mən dərisi codlaşmış, saçları pırtlaşıq, həyatın mənası bu imiş kimi, səhərdən axşama kimi sudan çıxa bilməyən adamlardan deyiləm. Yox, əlbəttə. Mənim üçün serfinq ona görə yaxşıdı ki, ətrafımız dəhşətli dərəcədə səsli-küylüdür, su divarları arxasında isə elə sakitlik olur ki, ürəyinin döyüntüsünü, fikirlərini eşidirsən az qala.

Bazar günü səhər tezdən okean sahilinə gedə-gedə Savannaya bunları deyirdim. Yəni fikrimdə bunları demək istəmişəm. Amma Allah bilir nə danışırdım, elə hey çalışırdım o bilməsin ki, bikinidə mənim necə xoşuma gəlir.

– Eynilə at minməkdə olduğu kimi, – Savanna başı ilə təsdiq edirdi.

– Nə mənada?

– At minəndə də adam elə bil öz fikirlərini eşidir. Ona görə də at minməyi xoşlayıram.

Mən bir az tez gəlmişdim. Okeanda səhər tezdən yaxşı dalğa olur. Aydın bir səhər açılırdı, göydə bir parça bulud yox, yəqin ki, hava isti olacaqdı, çimərlikdə də tünlük. Savanna dəsmala bürünüb pilləkəndə oturmuşdu, bir az qabaqda dünənki tonqalın yeri qaralırdı. Tələbələr yəqin ki, gecə keçənə qədər əylənmişdilər, amma ətrafda heç bir zir-zibil, boş butulka yox idi. Yeni tikinti manqasına rəğbətim artdı.

Səhər tezdən olsa da, hava isti idi. Suyun lap kənarında, qumlar üstə Savannaya serfinqin əsas cəhətlərini izah etdim. Taxtanın üstünə nə vaxt tullanmaq lazım olduğunu başa saldım. Savanna hazır olduğunu deyəndə mən taxtanı götürüb suya girdim. Savanna da arxamca.

Belə tezdən dənizdə serfiqnçi az idi – yalnız əvvəllər gördüyüm bir-iki nəfərdi. Elə bir yer axtarırdım ki, Savanna üçün kifayət qədər sahə olsun, həm də yıxılanda onu görüm.

– Dayan, dayan, – arxamdan səs gəldi. – Dayan, dedim...

Arxaya çevrildim. Savanna pəncələri üstə dayanıb müvazinətini saxlamağa çalışırdı, bədəninə dəyən ilk su damcılarından tükləri biz-biz olmuşdu. Sudan qalxmağa, çıxmağa çalışırdı.

– Gərək mən... bir az öyrənim bunu... – o, tez-tez nəfəs alır, tövşüyür, büzüşərək qolları ilə özünü qucaqlayırdı. – Aman, Tanrım! Necə soyuqdu! Üşüdüm ki...

“Aman Tanrım?” Əsgərlər üşüyəndə başqa cür deyirlər.

– Eybi yox, indi keçib gedər, – dedim.

– Soyuqdan heç xoşum gəlmir. Zəhləm gedir soyuqdan.

– Sən axı dağlarda yaşayırsan, orada isə qar yağır...

– Hə... Amma soyuq olanda əlcək, gödəkcə, papaq geyirik, ona görə də dözmək olur. Bir də ki, bizdə səhər tezdən heç kim buz kimi soyuq suya girmir.

– Daha da əyləncəlidir, – təriflədim onu.

Savanna yerindəcə atılıb-düşürdü.

– Hə, çox əyləncəlidir... İşə bax da!

Məni gülmək tutdu. Savannanın tövşüməsi dayandı, amma tükləri hələ biz-biz idi. Astaca bir addım da irəli atdı.

– Yaxşı olar ki, birdəfəlik suya tullanasan, yavaş-yavaş suya girəndə həmişə belə olur. Üşüdür adamı...

– Sən o cür elə, mən də necə bacarsam, o cür, – nəsə mənim məsləhətim xoşuna gəlmədi. – İnana bilmirəm ki, belə tezdən gəlmisən. Deyirdim, gündüz gələrsən, su bir az isinər, sonra...

– Suda iyirmi altı dərəcə isti var indi...

– Hə, hə, – Savanna deyinirdi, amma azca öyrəşdi, deyəsən. Qollarını açaraq bir neçə dəfə dərindən nəfəs aldı, sonra bir az suya girdi. Cəsarətə gələrək suyu şappıldatdı, qollarına atdı. – Bax, daha gəlirəm... – dedi.

– Tələsmə, nə qədər istəyirsən, gözlə. Doğru deyirəm...

– Yaxşı, sağ ol, – mənim atmacama əhəmiyyət verməyərək dedi. – Yaxşşşı, – bu dəfə məndən çox özünə

“yaxşı” deyirdi. Sonra bir addım atdı, birini də. Üzündən görünürdü ki, bütün diqqətini toplayıb. Üzünün ifadəsi xoşuma gəldi – ciddi, gərgin, həm də məzəli bir görünüş.

– Gülmə mənə, – üzümün ifadəsindən sezmişdi yəqin.

– Mən sənə gülmürəm.

– Üz-gözündən görürəm. İçində gülürsən mənə.

– Yaxşı, gülmürəm.

Savanna yavaş-yavaş lap mənə yaxınlaşdı. Su çiyinlərimə çatırdı, serfinq taxtasını tutub saxladım ki, o, taxtanın üstünə çıxsın. Taxtanı möhkəm-möhkəm saxlayaraq ona baxmamağa çalışırdım. Bu isə mümkün deyildi, füsunkar qadın qaməti lap qabağımda idi. Arxamızda dalğaların aramsız qabarıb qalxdığını hiss edirdim.

– İndi nə?

– Bilirsən neyləməlisən? Əvvəlcə əllərinlə suda möhkəm avar çəkirsən, sonra hər iki əlinlə taxtanın qabaq hissəsindən tutursan və cəld ayağa qalxırsan.

– Bildim.

– Əvvəlcə bir az çətin olur. Yıxılsan, qorxma, dalğaya müqavimət göstərmə, sadəcə dalğa ilə get... sahilə qədər... Ola bilsin birinci dəfədən alınmasın...

– Yaxşı, – dedi.

Qabağımızda kiçik bir dalğa qabarırdı.

– Hazırlaş! – Bir gözüm dalğada komanda verdim. – İndi avar çəkməyə başla!

Dalğa kürəyimə dəyəndə var gücümlə taxtanı irəli itələdim, Savanna, deyəsən, dalğanı tutdu. O anda nə gözlədiyimi bilmirdim, amma onun ayağa qalxacağını, asanca müvazinətini düzəldəcəyini, dalğanın üstündə sahilə

qədər üzəcəyini heç düşünmürdüm. Sahildə, suyun dayaz yerində serfinq sürətini azaltdı, Savanna tullanıb yerə düşdü, təşəxxüslə çevrilib mənə baxdı.

– Hə, necədir? – o bərkdən dedi.

Aramızdakı məsafəyə baxmayaraq mən gözlərimi ondan çəkə bilmirdim. “Oğlan, səni nələr gözləyir?” – öz-özümə dedim.

– Mən bir neçə il gimnastika ilə məşğul olmuşam, – Savanna deyirdi. – Özümü düz saxlaya bilirəm. Sən deyəndə ki, birdən yıxılaram, gərək bunu sənə deyəydim.

Bir saatdan çox suda qaldıq. O, hər dəfə asanlıqla serfinqə qalxır, sahilə qədər üzürdü. Taxtanı hələ idarə edə bilmirdi, amma şübhəm yox idi ki, istəsə, bir neçə dəfədən sonra öyrənər.

Sonra evə qayıtdıq. Mən aşağıda gözlədim, Savanna yuxarı qalxdı. Tələbə inşaatçıların əksəriyyəti yuxudan qalxmamışdı – üç qız balkondan okeanı seyr edirdi, qalanları, görünür, dünənki axşam dəsgahından sonra yatırdı... Bir azdan Savanna şortikdə və futbolkada qayıtdı, əlində iki fincan qəhvə vardı. Pillələr üstə, yanımda oturdu.

Qəhvə içir, okeana baxırdıq.

– Mən demədim ki, sən mütləq yıxılacaqsan, – mən bayaqkı fikrimi izah etməyə ehtiyac duydum. – Dedim ki, əgər yıxılsan, dalğa ilə birlikdə sahilə tərəf get.

– Aha, – o mızıldadı, üzündə şıltaq bir ifadə vardı. – Qəhvə xoşuna gəlir?

– Əla qəhvədir, – dedim.

– Səhər-səhər qəhvə içməsəm, olmur. Bu mənim yeganə eybimdir.

– Hər kəsin bir eybi var.

O mənə baxdı.

– Bəs sənin?

– Mənim eybim yoxdur, – dedim. Savanna ərklə məni dümsüklədi – təəccübləndim.

– Dünən gecə bildin ki, bədirlənmiş Ay ilk dəfə görünürdü?

Bilirdim, amma özümü o yerə qoymadım.

– Doğrudan? – dedim.

– Mən bədirlənmiş Ayı çox xoşlayıram. Lap uşaqlıqdan. Həmişə mənə elə gəlir ki, bu, yaxşı əlamətdir. Bəlkə də bədirlənmiş Ay yaxşı bir şeydən xəbər verir. Məsələn, bir işi səhv görmüsən, onu düzəltmək olar, ya da yenidən başlaya bilərsən.

O susdu, sonra fincanı dodaqlarına yaxınlaşdırdı. Fincandan qalxan zərif buğ onun üzündə qəribə şəkildə əks edirdi.

– Bu gün nə işlərin var? – soruşdum.

– Bu gün iclasımız olacaq, başqa heç nə. Bir də, kilsəyə getmək istəyirəm. Ola bilsin ki, kimsə mənə qoşuldu. Görəsən, saat neçədir?

Saatıma baxdım.

– Ona işləyir.

– Hə? Demək, vaxtım azdır. İşimiz onda başlanır.

Mən başımı tərpətdim, bildim ki, birlikdə keçirdiyimiz vaxt qurtarır.

– Mənimlə getmək istəyirsən? – Savanna dedi.

– Kilsəyə?

– Hə, kilsəyə. Getmək istəmirsən?

Bilmirdim nə deyim. Görünür, bu onunçün vacib idi. Cavabım onu məyus edəcəkdisə də, yalan demək istəmədim.

– Elə də yox, – dedim. – Çoxdandı kilsədə olmamışam. Uşaqlıqda getmişəm, sonra isə... – Susdum. Bilmirəm, niyə?

Savanna ayaqlarını uzatdı, gözlədi ki, görsün daha nə deyəcəyəm. Sonra qaşlarını çatıb dedi:

– Yaxşı, gedirsən?

– Hımm...

– Mənimlə kilsəyə gedirsən, ya yox?

– Heç paltarım da yoxdur. Nə varsa, əynimdədir. Gedərdim, amma evə getməyə, duş qəbul etməyə, qayıtmağa vaxt lazımdır, bilmirəm, çatdıra bilərəmmi?

Savanna sınayıcı baxışlarla başdan-ayağa məni süzdü.

– Yaxşı, – deyə yüngülcə dizimi şappıldatdı. İkinci dəfə idi ki, mənə toxunurdu. – Gedib sənə paltar tapım...

***

– Əla görünürsən, – Tim məni inandırmağa çalışırdı. – Köynəyin boynu bir az dardı, amma heç bilinmir.

Güzgüdə xaki rəngli şalvar geymiş, darköynəkli, qalstuklu yad bir adam mənə baxırdı. Axırıncı dəfə nə vaxt qalstuk taxdığım yadımda deyildi. Bütün bunlar xoşuma gəlir, ya yox, bilmirdim. Niyyətimizi bilən Tim isə xeyli xoşhal görünürdü.

– O səni necə razı saldı buna? – dedi.

– Nə bilim?!

Tim güldü, əyilib ayaqqabılarının bağlarını bağlayanda mənə baxıb göz vurdu:

– Dedim də sənə, xoşu gəlir səndən.

Orduda keşişlər var, hamısı da yaxşı oğlanlardı. Bazada onların ikisi ilə həmsöhbət olmuşdum. Biri Ted Cenkins adli keşiş idi. O dəqiqə inanırdın ona. İçki içmirdi, amma bizlərdən də deyildi, yanımıza gələndə isə hamı sevinirdi. Tedin arvadı, iki nadinc uşağı vardı, on beş il idi ki, bu xidmətdə idi. Ailə və ordu problemlərini yaxşı bilirdi, gəlib onunla danışmaq istəsəydin, səni dinləyirdi. Ona hər şeyi demək lazım deyildi. Tedin zabit rütbəsi vardı, bir dəfə mənim bölüyümdən olan, keşişlə həddən ziyadə açıq-saçıq söhbətlər etmək istəyən iki əsgərə qarşı çox sərt rəftar etmişdi. Amma elə bir adam idi ki, ürəyin qızırdı ona, hər şeyi demək istəyirdin. Bu, yəqin, onunla bağlı idi ki, o, yaxşı insan və orduda hörmətli bir keşiş idi. Sən öz dostun haqda necə danışırsansa, o da Allahdan elə təbii danışırdı. İbrət dərsi vermirdi, bazar günləri kilsəyə getməyə məcbur etmirdi. Bunu hər kəsin öz vicdanına buraxırdı. Şəraitdən, təhlükənin dərəcəsindən asılı olaraq bir-iki əsgərlə, ya da yüzlərlə əsgərlə eyni zamanda danışa bilirdi. Bizim hərbi hissəmizi Balkanlara göndərəndə Ted tez-tələsik bəlkə də əllidən artıq əsgəri xaç suyuna sala bilmişdi.

Məni uşaqlıqda xaç suyuna salmışdılar, ona görə də bu iş məndən yan keçdi. Amma dediyim kimi, çoxdan idi ki, kilsəyə getmirdim. Çoxdan idi ki, atamla da oraya getmirdim, indi bilmirdim heç hansı diləklə gedirəm kilsəyə. Keşiş yavaşdan moizə edirdi, musiqi də pis deyildi. Vaxt tez keçdi, amma yadımdadı ki, uşaqlıqda çox çəkirdi bu. Mənə bir elə təsir etməsə də, buraya gəldiyimdən razı idim –

atamla danışmağa mövzu vardı. Savanna ilə də birlikdə olmağa imkan yaranmışdı.

O, Timlə mənim aramda oturmuşdu. Gözümün ucu ilə görürdüm necə oxuyur. Sakit, incə səslə, amma eyni tonda oxuyurdu. Xoşuma gəldi. Tim bütün diqqətini dua kitabına vermişdi. Kilsədən çıxanda isə o, keşişlə söhbət etməyə girişdi, mən Savanna ilə kilsənin qabağındakı zoğal ağacının kölgəsində onu gözlədik.

– Köhnə dostlardı? – mən başımla Timə işarə etdim. Kölgədə durduğumuza baxmayaraq isti idi, kürəyimdən tər axırdı.

– Yox, deyəsən, Timin atası bu keşiş haqqında ona danışıb. Dünən Tim internetdə bu kilsəni axtarıb tapıb, – Savanna üzünü yelpiklədi. Yüngül sarafanda o əsl cənub gözəllərinə oxşayırdı. – Bizimlə gəldiyinə görə şad oldum.

– Mən də.

– Acmısan?

– Bir az.

– İstəsən, gedib bizdə yeyərik. Timin də paltarlarını verərsən. Bu geyimdə deyəsən sənə istidir, həm də sıxır səni.

– Hər halda, nə qədər isti olsa da, kaska, çəkmə, dəmir jiletdəkindən isti deyil.

Savanna üzümə baxdı.

– Dəmir jiletdən çox maraqla danışırsan. Bizimkilərdən heç kim belə danışmır.

– Məni ələ salırsan?

– Yox, sadəcə olanı deyirəm. – Sonra əda ilə ağaca söykəndi. – Deyəsən, Tim keşişlə söhbətini qurtarır. – Nəzərlərini izlədim, bir şey başa düşmədim.

– Nədən bildin?

– Görürsən, əllərini necə qoşalaşdırıb? Bu o deməkdir ki, xudahafizləşməyə hazırlaşır. İndi Tim əlini ona uzadıb gülümsəyəcək, baş endirəcək, sonra da ayrılıb gələcək.

Eynilə Savanna deyən kimi, Tim keşişlə xudahafizləşib yüngül addımlarla bizə tərəf yeridi. Savannanın üzündə məzəli bir ifadə vardı. Mənim təəccübləndiyimi görüb çiyinlərini çəkdi.

– Balaca bir şəhərdə yaşayanda başqa işin-gücün olmur, istər-istəməz, adamları müşahidə edirsən, tədricən tanış adamların vərdişlərini, adətlərini görüb yadda saxlayırsan.

Düzü, mənə elə gəldi ki, Savanna Timin yeriş-duruşunu beləcə çox tez-tez müşahidə eləyib, amma bu fikrimi dilimə gətirmədim.

– Hə, gedirik? – Tim yaxınlaşdı. – Hazırsız?

– Səni gözləyirik də... – Savanna dedi.

– Bağışla, – Tim əlüstü cavab verdi. – Bir az söhbət etdik.

– Sən əlinə kim keçdi, söhbət eləyirsən.

– Bilirəm, amma həddən artıq mehriban olmağı yavaş-yavaş tərgidirəm.

Savanna bərkdən güldü, onların bu ərkyana zarafatı bir anlığa məni onlardan uzaqlaşdırdı, amma elə bu an Savanna qolunu qoluma keçirdi və biz beləcə maşına sarı getdik.

Tələbə inşaatçılar artıq ayaq üstə idi – bu dülgər və suvaqçılar çimərlik paltarlarında özlərini günəşə verirdilər. Bir neçəsi yuxarıda – eyvanda uzanmışdı, qalanları çimərliyə yayılmışdı. Pəncərələrdən musiqi yayılırdı. Pivə ilə dolu soyuducular da öz yerində. Bir neçəsi artıq səhər-

səhər pivə içirdi – gecənin məstliyini çıxarmağın sınanmış yolu. Nə iradım ola bilərdi? Pivə yaxşı şeydi, amma nəzərə alsaq ki, mən indicə kilsədən gəlirəm, deməк, hələ bir az gözləmək lazımdı.

Paltarımı dəyişdim, Timin kostyumunu orduda öyrəndiyim kimi qatlayıb qoydum, sonra mətbəxə qayıtdım. Tim xeyli sendviç hazırlamışdı.

– Gəl otur, qonaq ol, – o, stolu göstərdi. – Yeməyimiz boldur. Kim bilməsə də, mən bilirəm – dünən üç saat bazarlıq eləmişəm. – Əllərini yuyub dəsmalla sildi. – Yaxşı, mən gedim paltarımı dəyişim. Savanna indi gələcək.

O, bayıra çıxdı. Tək qalanda ətrafa göz gəzdirdim. Otaq ənənəvi çimərlik üslubunda idi: tünd rənglənmiş hörmə mebel, balıqqulağı şəklində lampalar, buxarı rəfində qoyulmuş kiçik mayaklar, divarlarda okean-sahil görüntüləri.

Lusinin ata-anasının da belə bir evi vardı. Bald Hed adasında. Onu heç vaxt kirayə vermirdilər, özləri yayda orada istirahət edirdilər. Yaşına baxmayaraq, Lusinin atası hələ də Uinston Seylemdə işləyirdi, arvadı ilə həftədə bir-iki günlüyə şəhərə qayıdır, yazıq Lusini orada tək-tənha qoyurdular. Məni çıxmaq şərti ilə, əlbəttə. Amma bilsəydilər ki, həmin günlərdə nələr olur, onlar bizi tək buraxmazdılar.

– Bu da mən, – deyə Savanna içəri girdi. O yenə bikini və şortik geymişdi. – Görürəm, özünə gəlmisən.

– Nə mənada?

– Gözlərin bərəlməyib, çünki köynəyinin yaxası sıxmır.

Gülümsündüm.

– Tim sendviç hazırlayıb.

– Nə yaxşı! Mən acından ölürəm, – deyə mətbəxdə dolanmağa başladı. – Sən yedin?

– Yox.

– Onda gəl. Heç vaxt təkcə yeyə bilmirəm.

Biz ayaq üstə yeyirdik. Balkonda uzanmış qızların vecinə deyildi ki, mətbəxdə adam ola bilər. Onlardan biri bərkdən gecə bir oğlanla çıxardığı oyunlardan danışırdı, düzünü desəm, bunun yoxsullar üçün ev tikməyə köməyə gəlmiş xeyirxahlığa heç dəxli yox idi. Savanna üz-gözünü turşutdu: "Nə çox danışır?" Sonra soyuducuya tərəf döndü.

– İçmək istəyirəm. Nə götürüm?

– Yaxşı nə varsa.

O, soyuducudakı butulkalara tərəf əyildi. Nə qədər çalışsam da, əynində yuxarı dartınan şortikdən gözümü çəkə bilmədim. Düzünü desəm, birtəhər oldum. Görəsən, Savanna ona baxdığımı hiss etdimi? Güman edirəm, hə. Çünki dikəlib arxaya dönəndə üzündə işvəli bir ifadə vardı. Butulkaları stolun üstünə qoyub soruşdu:

– Yeməkdən sonra serfinq necədir?

Məgər etiraz etmək olardı?

Günortadan sonra bir neçə saat suda qaldıq. Serfinq taxtasında uzanmış Savannaya baxmaqdan gözlərim dincəlir, şövq və nəşə duyurdum. Daha çox onun qorxmadan serfinqdə üzməsi sevindirirdi məni. Sonra Savanna çimərliyə çıxıb bir az qızınmaq istədi, dedi ki, həm də ordan mənim necə üzməyimə baxacaq. Yəqin, mən dalğalarda üzərkən bir az uzaqdan, ayrıca və mübhəm düşüncələri ilə müşahidə etmək istəyirdi.

Saat dörddə biz kottecin arxasındakı qumluqda dəsmallarımızı sərib uzanmışdıq. O biri tələbələr də yaxınlıqda idi. Əvvəlcə hiss etdim ki, elə bil hərdən bizə tərəf baxırlar, sonra mənim burda olmağıma heç kəs fikir vermədi. Əlbəttə, Rendi və Suzendən başqa. Suzen Savannaya görə lap qaşqabaqlı idi, Rendi isə Bredlə Suzenin yanında özünü artıq hiss edirdi, ona görə də yaralarını sağaltmaqla məşğul idi. Tim heç yanda görünmürdü.

Savanna üzü üstə uzanmışdı. Hisslərim ixtiyarımı əlimdən alırdı. Mən onun yanında, arxası üstə uzanıb azalmaqda olan axşam bürküsündə mürgüləmək istəyirdim, amma onun burada, mənimlə böyür-böyürə uzanması fikirlərimə aman vermirdi.

– Con, – Savanna mızıldadı. – Tatuirovkaların haqda danış mənə.

Başımı ona tərəf çevirdim.

– Nə danışım?

– Nə bilim. Niyə yazdırmısan? Onlar nə deməkdir?

Dirsəkləndim. Qartal və bayraq çəkilmiş sol çiynimi göstərdim.

– Yaxşı... Bu, piyada qoşunların emblemidir, bunlar isə hərfləri, sözləri göstərdim, – bizim batalyonun, rotanın və polkun nömrəsidir. Mənim bölüyümdə hər kəsin belə tatuirovkası var – Corciyada, Fort-Benninqdə təlimlərimiz qurtaranda yazdırdıq.

– Bəs onun altındakı “Möhkəm start” sözləri nə deməkdi?

– Bu mənim ləqəbimdir. Onu mənə Fort-Benninqdə sıra təlimi serjantı verib. Avtomatı sürətlə söküb-yığa bilmirdim,

o da dedi ki, əgər bir də çatdırmasam, dalımdan bir “möhkəm start” təpiyi ilişdirəcək. Adım o deyən kimi də qaldı.

– Amma yaxşı səslənir, – Savanna mənə sataşdı.

– Hə... Biz o serjanta öz aramızda “Lusifer” deyirdik, – dedim.

O gülümsündü.

– Bəs o üstdəki tikanlı məftil nədir?

– Heç nə, – deyib başımı buladım. – Onu hələ orduya getməzdən qabaq yazdırmışdım.

– Bəs o biri qolda?

O biri qolumda Çin heroqlifləri çəkilmişdi. İstəmirdim ki, bunlar haqda Savannaya danışım.

– Yeniyetmə vaxtlarda belə bir devizim vardı: “Mən onsuz da heç nəyə yaramıram. Cəhənnəm olsun hər şey!” Heç bir mənası yoxdu...

– Bu, Çin heroqlifi deyil?

– Hə, elədir.

– Onda bir mənası var da. Bəlkə cəsarət, ya da hünər?

– Yox, söyüşdü bu...

– Belə de... – Savanna şıltaqcasına dedi.

– Dedim də, indi bunun mənim üçün heç bir əhəmiyyəti yoxdu.

– Hər halda, Çin tərəflərə getsən, bu tatuirovkanı heç kimə göstərmə.

Məni gülmək tutdu.

– Hə, gərək nəzərə alım...

Savanna bir az susdu.

– Demək, qiyamçısan?

– Bir ara hər şeyə qiyam edirdim, – boynuma aldım. – Üstündən çox da keçməyib, amma elə bil yüz il qabaq olub.

– Ona görə də deyirdin ki, o vaxt orduya getmək istəyirdin?

– Hə, bunun mənə xeyri oldu.

Savanna fikrə getdi. Sonra:

– De görüm, o vaxt mənim çantamın dalınca suya tullanardın? – soruşdu.

– Yox. Yəqin ki, gülərdim ancaq.

Savanna mənim cavabımı götür-qoy etdi – düz deyirəm, ya yox. Sonra dərindən köksünü ötürdü.

– Onda yaxşı ki, orduya getmisən. O çanta mənə çox lazım idi.

– Hə, görürsən də.

– Daha nə?

– Necə yəni, “daha nə?!”

– Daha nə deyə bilərsən özün haqda?

– Nə bilim. Nəyi bilmək istəyirsən?

– Özün haqda mənə elə bir şey de ki, heç kim bilmir.

Nə deyəydim?

– Məsələn, deyə bilərəm ki, 1907-ci ildə üstündə hindu başı təsvir olunmuş, kənarları haşiyəsiz neçə dənə ondollarlıq sikkə buraxılıb.

– Neçəsi buraxılıb ki?

– Qırx iki. O sikkələr əvvəlcə heç pul kimi buraxılmamışdı, zərbxananın işçiləri özləri və dostları üçün zərb etmişdi onları.

– Numizmatika ilə maraqlanırsan?

– Belə deməzdim. Amma bu uzun əhvalatdır.

– Vaxtımız ki var!

Tərəddüd etdim. Bu zaman Savanna çantasına əl uzatdı.

– Bir dəqiqə, – deyə o, çantasını eşələməyə başladı. Oradan bir "Kopperton" tubiki tapıb çıxartdı. – Kürəyimə losyon sürtəndən sonra danışarsan, yoxsa kürəyim yanır, deyəsən.

– Qoyursan? Bacararam, hə?

Savanna göz vurdu.

– Səmimi olduğun üçün icazə verirəm.

Çiyinlərinə, kürəyinə losyon sürtdüm. Əlbəttə, bədəninin o biri hissələrinə də... harada ki, qızarmış yerlər vardı. Amma bədəninin yanıq yerləri sabah onu yaman incidəcəkdi.

Sonra Savannaya babam, atam, numizmatika sərgiləri haqqında, qoca, xeyirxah Eliasberq barədə danışdım. Başa düşürdüm ki, bunlar onun sualına cavab deyildi. Amma heç özüm də bilmirdim ki, düzgün cavab nə ola bilər. Sözümü qurtarandan sonra Savanna mənə tərəf çevrildi.

– Atan indiyə qədər də sikkə toplayır?

– Hə. Yəqin ki, hə. Çünki biz daha numizmatikadan danışmırıq.

– Niyə?

Bunun da səbəbini dedim. Əslində, mən özümü yaxşı cəhətdən təqdim etməli idim, Savannanın təəssüratı yaxşı olsun deyə. Amma mümkün olmurdu. Nədənsə ona hər şeyi açıq, düz demək istəyirdim, halbuki cəmi ikicə gün idi ki, tanış idik. Savanna mənə qulaq asandan sonra bir az elə bil donuxub qaldı.

– Ola bilsin, o vaxt özümü qanmaz kimi aparmışam, – mızıldadım. Eyni zamanda fikirləşdim ki, bəlkə də ondakı davranışıma daha münasib söz tapmaq olardı, amma onu da düşündüm ki, birdən bu söz Savannanın yanında nalayiq görünər...

– Ola bilər, – dedi. – Amma mən onu fikirləşmirəm. İstəyirdim səni o illərdə təsəvvür edim, çünki indi sən o dediyin adama heç oxşamırsan.

Hər hansı cavabım qeyri-səmimi görünə bilərdi, hətta onun iradı düzgün olsa da. Ona görə də tərəddüd içində atamın üsuluna əl atdım – susub danışmadım.

– Atanın xasiyyəti necədir? – Savanna soruşdu.

Bildiklərimi dedim. Mən danışanda Savanna fikirli-fikirli baxırdı. Ovcuna doldurduğu qum barmaqları arasından axıb tökülürdü. Nə qədər təəccüblü olsa da, axırda dedim ki, mən atamla elə bil yad adamlarıq.

– Hə, elədir, – o dedi. Elə beləcə. İşgüzar bir tonla, amma heç bir mühakiməsiz-zadsız. – Sən iki il evdə olmamısan, özü də fikirləşirsən ki, xeyli dəyişmisən. O səni necə tanısın?

Dikəlib oturdum. Çimərlikdə iynə atsaydın, yerə düşməzdi. Gələn gəlmişdi. Gedən hələ ki, yox idi. Rendi ilə Bred suyun kənarında hay-küylə frisbi (plastik boşqabı kim daha uzağa atar) oynayırdılar. Bir neçəsi onların ətrafına yığışıb növbə gözləyirdi.

– Bilirəm, – dedim, – Amma məsələ təkcə bunda deyil. Biz həmişə yad olmuşuq. Onunla danışmaq çətindir.

Bunu deyən anda fikirləşdim ki, Savanna bu mövzunu müzakirə etdiyim ilk yad adamdır. Elə bil dərdim açılıb,

içimdəkiləri açıb demək istəyirəm. Bölüşmək istəyirəm kiminləsə. Savannaya dediklərimin çoxu özümə də qəribə gəlirdi.

– Bizim yaşımızda olanların çoxu valideynləri haqda belə danışır.

“Bəlkə də elədir, – düşündüm. – Amma mənimki nəsə başqa cürdür, nəsillərin bir-birini başa düşməməsi deyil. Atamla yalnız sikkələr haqda danışmaq olur”.

Daha heç nə demədim. Savanna əlini quma çəkib sığallayırmış kimi onu hamarladı, qəfildən nazik bir səslə dedi:

– Mən onu tanımaq istərdim.

Ona tərəf çevrildim.

– Nə üçün?

– O, maraqlı adama oxşayır. Həyatı belə... ehtirasla sevən adamlar xoşuma gəlir.

– O yalnız köhnə sikkələri belə sevir, həyatı yox, – mən onun səhvini düzəltdim.

– Hər halda, güclü istəkdi. Bu, bir şövq və məşğuliyyətdi, bekarçılığın dərmanıdı, fərqi yoxdu nəyə yönəlib. – O, dabanları ilə qumu yastıladı. – Yəni çox vaxt belə olur. Əlbəttə, mən pis, eybəcər aludəçiliyi demirəm.

– Sənin kofeinə olan şövqün kimi...

O gülümsündü, dodaqları arasından bir az aralı bitmiş iki qabaq dişi göründü.

– Hə. Bu, sikkə də ola bilər, idman da, siyasət də, atlar da, musiqi, ya etiqad da. Həyatda gördüyüm ən kədərli adamlar heç nə ilə maraqlanmayan adamlardır. Ehtiras və həyatdan razılıq hissi bir-birinə bağlıdı, bunsuz hər cür

xoşbəxtlik ötəridi, çox çəkməz. İstərdim ki, atan sikkələrdən danışsın, mən dinləyim, çünki insan özünü nədə yaxşı göstərə bilirsə, o an xoşbəxt olur. Belə xoşbəxtlik həm də başqasına sirayət edir.

Mən onun sözlərinə mat qalmışdım. Savannanın sadədilliyi haqqında Timin dedikləri hara, onun mühakimələri hara? O, yaşıdlarımızın çoxundan ağıllı görünürdü. Həm də Savanna bikinidə elə cazibədar idi ki, hətta telefon kitabçasını oxusaydı belə məni məftun edəcəkdi.

Savanna dikəlib yanımda oturdu, hiss etdim ki, baxışları nəzərlərimi axtarır ki, görsün hara baxıram. O yanda frisbi oyunu qızışmışdı. Bred diski atır, iki nəfər qaçıb onu tutmağa çalışırdı. Onlar ikisi də eyni vaxtda suya baş vuranda suyun dayaz yerində şappıltı ilə kəllə-kəlləyə gəldilər. Qırmızı şortikdə olan əliboş idi, elə bil deyinir, başını bulayırdı. Şortiki quma batmışdı. O biri iştirakçılar gülürdülər. Mən də gülümsündüm, istər-istəməz onun pərt olduğunu düşünüb tutuldum bir az.

– Gördün? – mən oynayanlara işarə etdim.

– Bir dəqiqə dayan, – Savanna əvəzində dedi. – İndi gəlirəm. – Yerindən qalxıb qırmızışortiklinin yanına cumdu. Oğlan qızı görən kimi donub qaldı. Yanındakı da. Savannanın bikini cazibəsi, görünür, təkcə məni valeh etməmişdi. Gördüm ki, o, əliboş gələn oğlana tərəf baxıb təkidlə, gülə-gülə nəsə deyir, o isə tənbeh edilmiş uşaq kimi başı ilə təsdiq edirdi. Sonra o qayıdıb yanımda oturdu. Heç nə soruşmadım, başa düşürdüm ki, bu, mənim işim deyil, amma bilirdim ki, marağımı üzümdən oxumuşdu.

– Başqa vaxt qarışmazdım, amma indi ona dedim ki, dilini dinc saxlasın. Burada ailəliklə istirahət edirlər, – Savanna dedi. – Ətrafda uşaqlar var. O da mənimlə razılaşdı.

Mən bunu təxmin etməli idim.

– Sən ona dedin ki, yalnız “Aman, Tanrım!” deyə şikayətlənsin?

O gülümsünüb gözlərinin ucu ilə mənə baxdı.

– Bu ifadə, deyəsən, xoşuna gəlib?

– Bölüyümdəki əsgərlərə bu sözü öyrədim gərək. Qoy düşməni qorxutmaq üçün daha bir nidaları olsun. Düşmənin səngərinə atılanda, ya da RPQ-ni dolduranda belə desinlər.

O güldü.

– Bu, doğrudan, güclü sözdü, amma RPQ nədir, bilmirəm.

– Reaktiv qranat atan silahdı. – Getdikcə Savanna daha çox xoşuma gəlirdi. – Bu gün axşam nə işin var?

– Elə bir işimiz yoxdu – iclasdan başqa, əlbəttə. Nədir, yoxsa məni atanla tanış etmək istəyirsən?

– Yox. Qalsın başqa bir vaxta. Bu gün Uilminqtonu göstərmək istəyirdim sənə.

– Məni gəzməyə dəvət edirsən?

– Hə, – dedim. – Sonra dərhal gətirəcəyəm bura. Yadımdan çıxmayıb. Sabah siz işə çıxırsız. Amma yaxşı bir yer var burda, çox istəyirəm ki, oranı sənə göstərim.

– Necə yerdi?

– Restorandı. Orada dəniz məhsullarından hazırlanmış yeməklər verirlər. Təzə bir şeydi, adamın gözü-könlü açılır, təzələnir.

Savanna dizlərini qucaqladı.

– Mən tanımadığım adamlarla gəzintiyə getmirəm, – dedi. Bir az fikrə gedib, əlavə elədi: – Səninlə də yalnız dünən tanış olmuşuq. Sənə inana bilərəm?

– Mən sənin yerində olsaydım, inanmazdım, – düzünü dedim.

Savanna güldü.

– Yaxşı, elə isə, istisna kimi, dəvətini qəbul edirəm.

– Yaxşı?

– Yaxşı, – dedi. – Başı qırxıq, səmimi oğlanlara inanmaya bilmirəm də. Saat neçədə?

## Dördüncü fəsil

Saat beşdə evdə idim. Çimərlikdə necə yandığımı hiss etməmişdim; bu ağ dərili cənubluların bədəni necə yanırmış! Duşun altında əməlli-başlı yandığımı bildim. Su şırnaqları sinəmə, çiyinlərimə vurduqca gicitkən kimi yandırırdı, sifətim elə göynədirdi ki, elə bil qızdırmam vardı. Duşdan sonra evə gəldiyim vaxtdan bəri ilk dəfə üzümü qırxdım, təmiz şort, açıq-göy rəngli köynək geyindim (köynəyi Lusi almışdı, deyirdi ki, mənə çox yaraşır). Köynəyimin qollarını çırmaladım, yaxamı açıq qoydum, sonra şkafdan köhnə səndəllərimi axtarıb tapdım. Mətbəxin aralı qalmış qapısından atamı gördüm. Öz yerində oturmuşdu. Birdən ağlıma gəldi ki, mən dalbadal iki gündü ki, evdə şam yeməyi yemirəm. Heç bazar günləri də ona diqqət verməmişdim. O, əlbəttə, narazılığını bildirməzdi, amma mən istər-istəməz günahımı hiss etdim. Daha sikkələrdən danışmırdıq, demək,

yalnız səhər və nahar yeməyində danışmaq imkanımız olurdu. İndi isə məlum olurdu ki, atamı bu son imkandan da məhrum etmişəm. Bəlkə də düşündüyüm kimi, çox da dəyişməmişəm. Ata evində qalırdım, yeməyini yeyirdim, indi də hazırlaşırdım ki, xahiş edim, maşınını mənə versin – yəni atamdan istifadə edərək öz həyatımı yaşayırdım. Görəsən, Savanna buna nə deyərdi? Mənə elə gəlirdi ki, onun nə deyəcəyini artıq bilirəm. Düzünü deyim ki, bu qız bircə an da yadımdan çıxmır, kirayə pulunu ödəmədən köçüb beynimdə sakin olmuşdu. İndi də elə bil onun pıçıltısını eşitmiş kimi oldum: "Madam ki, özünü günahkar hesab eləyirsən, demək, nəyi isə düzgün eləmirsən". Fikirləşdim ki, atamın yanında daha çox olmalıyam. Əlbəttə, bu, bir barışıq jesti idi, amma bilmirdim, daha nə edim.

Qapını açanda atam təəccüblənmiş kimi oldu, mənə tərəf boylandı.

– Salam, ata, – dedim. Keçib həmişəki yerimdə oturdum.

– Salam, Con, – dedi və gözaltı stolu gözdən keçirdi, sonra əlini seyrəlməkdə olan saçlarına çəkdi. Məndən daha bir şey eşitməyəndə yəqin fikirləşdi ki, oğlunun həyatı ilə maraqlansın. – Günün necə keçdi?

Yerimdə qurcalandım.

– Yaxşı. Demək olar, bütün günü Savanna ilə olmuşam. Onun haqqında demişəm sənə.

– Hə... – adəti üzrə nəzərlərini yana çevirdi ki, gözlərimə baxmasın. – Mənə heç nə deməmisən.

– Deməmişəm?

– Yox. Amma eybi yoxdu, dünən həm də gec idi bir az.

Yəqin ilk dəfə idi ki, məni belə geyimli-kecimli görürdü, amma soruşmağa da üzü gəlmirdi ki, niyə belə geyinmişəm.

Köynəyimi əynimdə sığayıb hamarladım, onu nigarançılıqdan qurtarmaq üçün dedim:

– İstəyirəm onun xoşuna gəlim, onu bu gün şam yeməyinə dəvət etmişəm. Yaxşı olardı ki, sənin maşınında gedim.

– Hə... nə olar? Çox yaxşı.

– Bilmək istəyirdim ki, görüm, maşın bu gün sənə lazım olar? İmkan olmasa, onda mən tanışlardan birinə zəng edim.

– Yox, – atam dedi. Tez də əlini cibinə salıb açarları çıxardı. Kim olsaydı, açarları eləcə üstümə atardı ki, tutum, o isə – mənim atam – bir qom açarı mənə uzatdı.

– Özünü yaxşı hiss eləyirsən? – soruşdum.

– Bir az yorğunam, – dedi. Durub açarları əlindən aldım.

– Ata...

O, sualedici baxışlarını qaldırdı.

– Bir-iki gündü bir yerdə nahar eləmirik, bağışla.

– Eybi yoxdu, – dedi. – Başa düşürəm...

Çimərlikdəki evə yaxınlaşanda günəş üfüqə doğru əyilirdi, Almaniyada gördüyümdən tamam fərqli, səmanın ənginliklərinə yayılıb ürəyi intəhasız bir sevinclə dolduran əlvan rənglər göz oxşayırdı. Bazar gününün axşamı həmişə olduğu kimi əsas yolda maşın çox idi, yolboyu maşınların

buraxdığı gömgöy qazları uda-uda yarım saatdan sonra, nəhayət, qumluqlara çatdım.

Qapını döymədən açdım. Giriş otağında iki oğlan divanda oturub televizorda beysbol oyununa baxırdı.

– Salam, – deyə onlar laqeydcəsinə səsləndilər.

– Savannanı görməmisiz?

– Kimi? – onlardan biri yenə də ötəri soruşdu.

– Yaxşı, özüm taparam.

Giriş otağından keçib evin arxasındakı balkona çıxdım. Burada yenə həmin yarıçılpaq oğlan qril bişirirdi, üç-dörd nəfər də yanında durmuşdu. Savanna görünmürdü. Geri qayıtmaq istəyirdim ki, kimsə yüngülcə çiynimə toxundu.

– Kimi axtarırsan?

Çevrilib baxdım.

– Heç, bir xanımı axtarıram, – dedim. – O xanım körpüdə şeylərini itirir, amma serfinqi öyrənəndə böyük məharət göstərir.

Savanna əllərini belinə vurub dayandı. Məni gülmək tutdu. O, şortik və çiyinləri ipli yay bluzkası geymişdi. Yanaqlarına azca sürmə çəkmişdi. Kirpiklərinə, dodaqlarına da əl gəzdirmişdi. Onun təbii gözəlliyini xoşlasam da – mən axı çimərlikdə böyümüşəm – indi Savanna daha gözəl idi. Mənə yaxınlaşanda zərif ətir iyi hiss etdim.

– Bəlkə o xanım mənəm? – o, şuxluqla, bir az da ciddi əda ilə soruşdu. Bir anlıq ürəyimdən keçdi ki, elə buradaca, bu saat onu qollarımın arasına alım.

– Deyəsən, axı bu sənsən, – mən də qəsdən təəccüblənərək bərkdən dedim.

Divanda oturan iki oğlan bizə tərəf boylandı, sonra yenə gözləri televizorun ekranına dikildi.

– Gedək? – dedim.

– Qoy çantamı götürüm, – Savanna dedi. O, mətbəx şkafından çantasını götürdü, biz qapıya tərəf cumduq.

– Bəs hara gedirik?

Cavabımı eşidəndə qaşları dartıldı.

– Sən məni qonaqlığa hara aparırsan? O “daxma” dediyin yerə?

– Mən sıravi bir əsgərəm, aldığım da qəpik-quruşdu. Bundan artıq nə eləyə bilərəm?

Gedə-gedə Savanna məni yüngülcə dürtmələdi.

– Elə ona görə də az tanıdığım oğlanlarla görüşmürəm!

“Dəniz yengəcləri daxması” Uilminqtonun mərkəzində, Keyp Fir çayının sahilindəki qədim bir guşədə idi. Bu tarixi yerlərin bir hissəsi turistlərin başını qatmaq üçündü – hədiyyə köşkləri, əntiq mallar dükanları, bir neçə gözəl restoran, qəhvə dükanı və cürbəcür daşınmaz əmlak ofisləri. Amma Uilminqton üzünün əski və işgüzar liman görkəmini də saxlayır – iri, bəzən heç istifadə olunmayan anbarlar, yarımçıq fəaliyyət göstərən köhnə ofis binaları çox şey deyir. İnanmıram ki, yayda dəstə-dəstə buralara axan turistlər bu ucqarlara gəlib çıxsınlar. Mən maşını elə həmin yerə sürdüm. Köhnə küçələrlə gedirdik, getdikcə tək-tük adamlar gözə dəyirdi. Bir azdan yolda-izdə ins-cins görünmürdü, orda-burda görünən tənha evlər də tamam köhnəlmişdi, deyəsən, kimsə yaşamırdı.

– Bəs hanı restoran? – Savanna soruşdu.

– Bir az o yanda, – dedim. – Bax, o tərəfdə.

– Belə yerdə, yoldan-izdən uzaqda kim restoran tikər?

– Bunu yerlilər üçün tikiblər, – dedim. – Sahibinin nə vecinə turistlər bura gəlir, ya yox. Heç yadına da düşmür.

Bir azdan maşının sürətini azaltdım, anbarların birinin yanındakı maşın meydançasına dönüb saxladım. Həmişə olduğu kimi, "Yengəc daxması"nın qabağında onlarla maşın dayanmışdı. "Daxma" heç dəyişməmişdi. Onu ilk dəfə gördüyüm vaxtdan bəri elə həmin uçuq-sökük restoran idi – qabağında cürbəcür taxta-tuxta ilə örtülmüş enli, yöndəmsiz artırmasına, solub bozarmış divarlarına, əyilmiş, donqar damına baxanda deyirdin ki, bu saat uçub töküləcək, halbuki bu köhnə məkan 40-cı illərdən bəri çoxlu qasırğalara sinə gərmişdi. Bayırdan restoran balıqçı torları, maşın təkərlərinin disk qapaqları ilə, köhnə bir lövbərlə, avarlarla, paslı zəncirlərlə "bəzədilmişdi". Girişdə köhnə, sınıq-salıq balaca bir qayıq "gəl-gəl" deyirdi.

Restoranın qapısına çatanda göyün bayaqkı əlvan rəngləri yavaş-yavaş nisbətən tutqun rənglərlə əvəz olunurdu. Fikrimdən keçdi ki, Savannanın qolundan tutum, amma son anda bu fikrimdən vaz keçdim. Bəlkə də hormonal impulsların təsiri ilə bəzən qadınların yanında özümü yaxşı hiss etmişəm, amma indi bu sayaq, laqeyd olmadığım qızların yanında özümü necə aparım, bilmirdim. Üstəgəl, cəmi bir gün idi ki, tanış idik, amma hiss edirdim ki, naməlum bir əraziyə daxil oluram.

Artırmaya girdik. Savanna kənarda köhnə avarlı qayığı göstərdi.

– Bəlkə qayığı dənizdə batdığı üçün bu restoranı açıb?

– Aha, ola bilər. Ya da kimsə atıb onu bura, restoran sahibi də tənbəllik eləyir, onu götürüb atmır burdan. Yaxşı, hazırsan?

– Həmişə hazıram, – Savanna dedi. Mən restoranın qapısını açdım.

Bilmirəm, Savanna içəridə nə görmək istəyirdi, amma içəri girəndə üzündə bir razılıq ifadəsi vardı. Restoranın bir divarı boyunca bar piştaxtaları uzanırdı, pəncərələr çaya baxırdı, qonaqlar üçün taxta skamyalar qoyulmuşdu. Saçlarını pırpız daramış iki ofisiant – elə bil heç dəyişməmişdilər – stollar arasında gəzişir, əllərindəki qablarda yemək daşıyırdılar. Qızardılmış yengəc (krab) və yağ qoxusu, siqaret tüstüsü adamın burnunu deşirdi, amma elə bil belə daha yaxşı idi, belə də olmalı idi. Stolların çoxu tutulmuşdu. Biz musiqi avtomatının yanındakı boş stola tərəf getdik. Səsini tanımadığım müğənni köhnə bir xalq mahnısı oxuyurdu. Mən isə klassik rok mahnılarını çox sevirəm.

Stolların arasından keçib getdik. Müştərilərin çoxu yorğun-əzgin görünürdü. Sadə iş adamı idilər: inşaatçılar, torpaq işi görənlər, ağır maşınların sürücüləri... Hamısı da üstündə "NASCAR" yazılmış beysbol papaqlarında. Heç vaxt bu qədər beysbol papağı görməmişdim. Mənim bölüyümdə avtoyürüş azarkeşləri vardı, amma bir neçə maşının günlərlə, nərildəyə-nərildəyə bir-birini təqib etdiyinə baxmağa məndə heç həvəs yox idi, həm də təəccüblənirdim ki, qəzetlər bu yarışlar haqda xəbərləri niyə nəqliyyat guşəsində deyil, idman guşəsində çap edirlər.

Biz üz-üzə əyləşdik, Savanna ətrafa göz gəzdirir, tanış olurdu.

– Belə yerlər xoşuma gəlir, – Savanna dedi. – Orduya gedəndən qabaq pivə içməyə bura gəlirdin?

– Yox, bura təsadüfdən-təsadüfə, xüsusi hallarda gəlmişəm. Mən adətən "Leroy" barında fikrimi dağıdırdım. Raytsvill-biçdə.

Savanna metal salfet qabı ilə ketçup butulkası və "Texaslı Pit" sous şüşəsi arasında qoyulmuş menyunu götürdü.

– Bura çox yaxşıdır, – dedi. Menyunu açdı: – İndi görək bura hansı yeməyi ilə öyünə bilər?

– Dəniz yengəci ilə.

– Doğrudan? – o soruşdu.

– Ciddi sözümdü. Hansı yengəcdən istəsən var. "Forrest Qamp" kinosu yadındadı? Bubba yengəcinin necə bişirilməsi haqda Forrestə danışır orda. Qril yengəci, yağda qızardılmış yengəc, şişdə bişirilmiş yengəc, Keycansayağı, limonlu, Kreolsayağı, yengəc kokteyli... Gör nələr var burda...

– Bəs sən hansını xoşlayırsan?

– Mən soyutma yengəci xoşlayıram, yanında da kokteyl sousu. Ya da qızardılmışını.

Savanna menyunu qatladı.

– Onda sən seç, – dedi. Menyunu mənə uzatdı. – Mən sənə inanıram.

Menyunu öz yerinə – ketçupla salfet qabı arasına qoydum.

– Seçdin?

– Soyutmasını, özü də zənbildə. Barmaqlarını yalayacaqsan...

Savanna stolun üstünə əyilərək:

– Barmaqlarını yalayan neçə qadın gətirmisən bura?

– Özünü də deyirsən? Qoy yadıma salım. – Barmağımla stolu döyəcləməyə başladım. – Yalnız birini.

– Mənə böyük iltifat göstərirsən.

– Mən də, dostlarım da buraya yalnız yemək üçün gəlirik, içməyə yox. Bütün günü serfinqdə üzəndən sonra ən yaxşı yemək budur.

– Görək də...

Ofisiant yaxınlaşdı, istədiyimizi sifariş etdik. İçmək söhbəti gələndə bilmədim nə deyim.

– Lütfən, mənə şirin çay, – Savanna dedi.

– Mənə də.

Ofisiant uzaqlaşandan sonra biz qeyri-ixtiyari söhbətə girişdik. Çay gətirəndən sonra da söhbətimiz davam etdi. Daha çox ordudan, ordu həyatından danışdıq. Nədənsə Savannanı daha çox ordu həyatım maraqlandırırdı. Uşaqlığım, yeniyetməliyim necə keçib burada? Gözləmədiyim halda çox şeylər haqda danışdım ona – orta məktəb illərindən daha ətraflı danışdım, orduya getməzdən üç il qabaqkı illərdən.

Savanna diqqətlə qulaq asır, hərdən suallar verirdi. Mən çoxdan idi ki, belə bir görüşdə olmamışdım. Bir neçə il olardı. Hər halda, Lusidən sonra belə bir görüşüm olmamışdı. Savannaya baxa-baxa düşünürdüm ki, qərarımı qətiləşdirim: onunla birlikdə olmaq, onu tez-tez görmək istəyi boylanırdı içimdən. Təkcə bu gün yox, sabah da,

ondan sonrakı gün də, hər gün, həmişə. Onda hər şey – özünə, öz fikirlərinə adəti üzrə rişxənd edə bilməsi, ətrafdakı adamlara laqeyd qalmamağı mənim üçün təzə idi, məni riqqətə gətirir, heyrətli dərəcədə xoşuma gəlirdi. Bu gözəl varlığın yanımda olması daha bir sirrin üstünü açdı – nə qədər tənha olduğumu başa düşdüm. Açığı, belə bir hissi boynuma almırdım, amma Savanna ilə olduğum bu iki gündə başa düşdüm ki, belədir ki var!

– Gəl bir musiqi çaldıraq, – Savanna məni düşüncələrimdən ayırdı.

Yerimdən qalxdım, cibimdən xırda pul götürüb avtomata yanaşdım. Xırda pulu avtomata saldım. Savanna bir az əyilib əllərini şüşənin üstünə qoydu, avtomatdakı mahnıların siyahısına baxdı, xoşladığı bir neçə mahnı seçdi. Stola çatmamış avtomatdan mahnının melodiyası yayıldı.

– Bilirsən, mənə elə gəlir ki, bu gün ancaq mən danışıram, həm də çox.

– Hə, sən bu gün çox danışdın, – Savanna sözümü tutdu.

Salfetə bükülmüş çəngəl-bıçağımı çıxardım.

– Amma sən heç danışmırsan. İndi haqqımda demək olar ki, hər şeyi bilirsən. Mənsə sənin haqqında heç nə bilmirəm.

– Əksinə, çox şey bilirsən, – o dedi. – Bilirsən ki, neçə yaşım var, harada, hansı ixtisasda təhsil alıram; ən əsası, bilirsən ki, içki içmirəm... Bilirsən ki, mən Lenuardanam, rançoda yaşayıram, atları sevirəm, yayda "İnsanlar üçün mənzil" proqramında könüllü kimi işləyirəm. Gör haqqımda nə qədər şeylər bilirsən!

“Daha nələr, nələr... Amma sən onlardan danışmırsan” – deyə mən ürəyimdən keçirdim.

– Bu azdır, – dedim. – İndi növbə sənindir.

Savanna stola dirsəkləndi.

– Nə istəyirsən, soruş.

– Valideynlərin haqda danış mənə.

– Yaxşı, – dedi. Salfet götürüb stəkanını sildi. – Atamla anam iyirmi beş ildi ki, evləniblər. İndiyə qədər də xoşbəxtdirlər, bir-birini hədsiz sevirlər. Onlar Appalaç Universitetinin kollecində tanış olublar. Anam bir neçə il bankda işləyib, mən doğulandan sonra isə evdə qalıb, evdarlıq eləyib. Anam məktəb işlərində həmişə iştirak edib – hamıya kömək edib, məktəb avtobusunu pulsuz sürüb, futbol komandamıza məşqçi olub, valideynlər şurasına rəhbərlik edib. Mən məktəbi qurtarandan sonra o yenə də nəsə bir iş görür – kitabxanaya, məktəbə, kilsəyə nəsə kömək edir. Atam tarix müəllimidir, mən uşaq olandan məktəbin qızlardan ibarət voleybol komandasının məşqçisidir. Keçən il onlar ştatın mükafatı uğrunda voleybol yarışlarda finala gəlib çıxmışdılar, amma finalda uduzdular. O həm də yerli kilsəmizdə dyakondur (aşağı dərəcəli keşiş), uşaqlara kilsə xorunu öyrədir. İstəyirsən, şəklini göstərim.

– Əlbəttə, – dedim.

O, əl çantasını götürüb portmanatını çıxartdı, onu kitab kimi açıb stolun üstünə qoydu. Barmaqları əlimə toxundu.

– Suya düşdüyü üçün şəklin kənarları bir az islanıb, – dedi. – Amma baxa bilərsən...

Şəkli əlimdə oyan-buyana çevirdim. Savanna atasına daha çox oxşayırdı – əsmər bənizi eynən atasınkı idi.

– Yaraşırlar bir-birinə.

– Mən onları çox sevirəm, – deyib portmanatı götürdü. – Onlar hamıdan yaxşıdır.

– Atan müəllimdir, amma rançoda yaşayırsız...

– Yooox, bu əsl ranço deyil, ancaq adı var. Babam işlədirdi onu, o vaxt böyük fermer təsərrüfatı idi. Sonra bir az torpaq satıblar ki, vergiləri ödəsinlər. Vərəsəlik atama keçəndə isə orada cəmi on hektar torpaq qalmışdı. Orada bir ev, bir tövlə və açıq pəyədən başqa heç nə yoxdur. Rançodan çox böyük bir həyətə oxşayır, amma adı "ranço" qalıb.

– Deyirdin ki, məktəbdə gimnastika ilə məşğul olurdun. Atan məşqçi idi, onda voleybol komandasında da oynayırdın?

– Yox, – Savanna dedi. – Atam yaxşı məşqçi idi, amma mənə həmişə deyirdi ki, nəyi sevirəmsə, onunla məşğul olum. Voleybol mənim işim deyil. Yoxlamışam da, oynaya bilirəm, amma mənlik deyil.

– Sən isə atları sevdin...

– Lap uşaqlıqdan. Anam mənə bir at heykəlciyi vermişdi, hər şey ondan başladı. Səkkiz yaşım olanda ilk dəfə Milad bayramında mənə at hədiyyə etdilər. İndiyə qədər aldığım ən yaxşı Milad bayramı hədiyyəsi odur. Slokum yaxşı bir at idi, səkkizyaşlı qızcığaza ən yaxşı hədiyyə. Ata-anamla razılaşdıq ki, Slokuma mən baxacam – yemləyəcəm, qaşovlayacam, yerini təmizləyəcəm. Slokuma baxmaq, gimnastika ilə məşğul olmaq, başqa heyvanlar... güclə çatdırırdım.

– Başqa heyvanlar?

– Mən uşaq olanda evimiz lap fermaya oxşayırdı. İtlər, pişiklər, hətta lama da yaşayıb bizdə. Sahibsiz heyvanların yanından laqeyd keçə bilmirdim. İş o yerə çatmışdı ki, valideynlərim daha bu barədə mənimlə mübahisə etmirdilər. Bəzən evimizdə dörd-beş heyvan olurdu. Hərdən görürdün ki, heyvanı itmiş birisi bizə gəlir, əvəzində bizdən bir heyvan alıb aparırdı. Evimiz elə bil lombard idi.

– Valideynlərin çox səbirli olub.

– Hə, – Savanna dedi. – Amma onlar da sahibsiz itlərə, pişiklərə baxa bilmirdilər. İllah da ki, ürəyi yuxa anam. Əlbəttə, boynuna almırdılar.

Mən zəndlə ona baxdım.

– Bilirəm ki, yaxşı oxuyan tələbəsən.

– Yalnız “əla” qiymətlər alırdım. Bizim buraxılışda ən yaxşı tələbə idim.

– Bu heç məni təəccübləndirmir.

– Doğurdan? Niyə? – Savanna əlüstü soruşdu.

Cavab vermədim.

– Heç oğlan dostun olub?

– İndi də, deyəsən, xırdaçılıq eləyəcəyik, hə? Niyə belə, niyə elə?

– Elə-belə soruşdum.

– Sən necə fikirləşirsən?

– Mən hələ fikirləşirəm... – güclə dedim. – Bilmirəm.

Savanna gülə-gülə:

– Onda gəl mövzunu dəyişək. Bir az da gizlinlər olsa yaxşıdır, – dedi. – Həm də mənə elə gəlir ki, sən özün artıq bu sualın cavabını bilirsən.

Ofisiant bir səbət yengəc, plastik qabda sous gətirdi, onları səriştə ilə stolun üstünə düzüb bizə çay da süzdü. Sonra dabanları üstə fırlanıb uzaqlaşdı, heç soruşmadı da bəlkə əlavə nəsə istəyirik.

– Buranın adamları nə yaman qonaqpərvərdi!

– Sadəcə, işi çoxdu, – Savanna fikrimə etiraz etdi. Sonra əlini yengəcə uzatdı. – Həm də görür ki, burada məni bərk sorğu-suala tutublar, ona görə də hesab edir ki, hakim bilər, müttəhim bilər.

Yengəci iki bölüb soymağa başladı, sonra sousa batırıb dişlədi. Mən də əlimi səbətə saldım, bir neçə yengəc götürüb boşqabıma qoydum.

– Daha nə bilmək istəyirsən?

– Nə bilim? Hər şeyi. Kollecdə nə xoşuna gəlir? Nə gəlmir?

Bir az fikrə getdi, boşqabına iki-üç yengəc qoydu.

– Yaxşı müəllimlərimiz var, – dedi. – Kollecdə özün öz müəllimlərini seçə bilirsən. Əlbəttə, cədvəl daxilində. Bax, bu xoşuma gəlir. Bunu lap əvvəldən atam da məsləhət görmüşdü. Deyirdi ki, müəllimə görə mühazirələri seç. Məcburi fənləri onsuz da öyrənməlisən. Diplomu almaq üçün. Bax, burada yaxşı müəllimin əvəzi yoxdu. Onlar adamı həvəsləndirir, maraqlandırır, darıxmağa qoymur, özün də bilmədən xeyli bilik qazanırsan.

– Çünki onlar öz fənlərini sevib öyrədirlər, – onun fikrini müdafiə etdim.

– Düzdü, – Savanna gözləri ilə təsdiq etdi. – Atam da doğru deyirdi. Elə mühazirələrə qulaq asmalı oldum ki,

mənə heç vaxt gərək olmayacaqdı. İxtisasıma dəxli olmayan şeylər. Amma indi də yadımda qalıb o lazımsız şeylər.

– Təəccüblüdür. Mən də deyirəm ki, sən indi kollecdə unudulmaz voleybol yarışlarından danışacaqsan. Axı bizim Çapel Hilldə idman da din kimi vacib bir şeydir.

– İdman da xoşuma gəlir, dostlarla görüşüb danışmaq da. Ata-anamdan ayrı həyatım da, başqa şeylər də. Lenuardan gedəndən sonra çox şeylər öyrənmişəm. Orada, əlbəttə, daha yaxşıdır, valideynlərim də gözəl insanlardı, amma mən sanki monastırda yaşayırdım. Burada isə əsl həyatı görmək, tanımaq imkanı var. Adamın gözü açılır...

– Məsələn, necə?

– Çox şey. Məsələn, kompaniyada içməyə məcbur edilmək, ya da məclisdə-zadda kimləsə sözləşmək, intriqa salmaq. Birinci il kollecdəki atmosfer heç xoşuma gəlmirdi, hesab edirdim ki, bu mühit mənim üçün deyil. Əslində də mənim üçün deyildi. Ata-anama yalvarırdım ki, qoy evə qayıdım, ya da başqa kollecə keçim, amma onlar razılaşmadı. Yəqin bilirdilər ki, sonra mən buna peşman olaram. Olsun ki, onlar haqlı idi. Yaxşı ki, ikinci kursda bəzi qızlarla tanış oldum. Fikirlərimiz, düşüncələrimiz üst-üstə düşürdü. Ondan sonra elə bil işlər yoluna düşdü. Xristian tələbələrin iki birliyi vardı. Mən bu birliklərə üzv oldum. Şənbə günləri Rolidəki yoxsullar evində xidmət edirdik. Heç kim səni məcbur etmirdi ki, filan məclisə gedək, ya da oğlanlarla görüşək, əylənək. Şadlanıb əylənmək könlümdən keçəndə özüm necə istəyirəmsə, elə də eləyirəm. Sadəcə, dərk etdim ki, mən hamı kimi olmalı deyiləm. Dedim, nəyi düzgün hesab eləyirəmsə, onu da edəcəyəm.

Fikrimdən keçdi ki, deməк, buna görə dünən axşam mənim yanımda idi. Demək, indi də özü istədiyindən mənimlədir.

Onun eyni açıldı.

– Bu elə bil bir az da sənin işinə oxşayır. Son iki ildə mən də xeyli yaşa dolmuşam. Görürsən ki, həm serfinqi yaxşı bilirik, həm də nə qədər oxşar, ümumi cəhətlərimiz var, – dedi.

Mən qəhqəhə ilə güldüm.

– Amma mən səndən çox əziyyət çəkmişəm bunlara görə.

Savanna bir azca mənə tərəf əyildi.

– Atam həmişə deyirdi ki, əgər bir şeyə qarşı mübarizə edirsənsə, ətrafına bax, görərsən ki, hər kəsin öz döyüş meydanı var, hər kəs nə iləsə mübarizə aparır, hamı üçün çətindir, elə sənin üçün olduğu kimi.

– Sənin atan ağıllı adamdır.

– Anam da, atam da. Kollecdə də beş ən yaxşı oxuyanın arasında olublar. Yəni kolleci əla bitirən beş ən yaxşı məzundan ikisi atamla anam olub. Elə orda da tanış olublar. Kitabxanada. Təhsil onlar üçün çox mühüm şərtdir – bu mənada onlar məni də bir təhsil layihəsi kimi fikirləşiblər. Bağçaya gedəndə oxumağı bilirdim. Elə edirdilər ki, oxumaq məni bezdirməsin. Yadıma düşəni, onlar mənimlə həmişə yaşlı bir adam kimi danışırdılar.

Bir anlığa düşündüm ki, belə valideynlərlə mənim günüm necə olardı, dərhal da bu fikri başımdan qovdum. Bilirdim ki, atam əlindən gələni edib, mən də öz həyatıma heç peşman deyiləm. Yola təəssüf etmək olar, amma

məqsədə yox, çünki hər necə olsa da, indi, burada, şəhərin mərkəzindəki bu yarıqaranlıq restoranda oturub dadlı yengəcdən yeyə-yeyə heç vaxt unuda bilməyəcəyim bir qızla söhbət edirəm.

Şam yeməyindən sonra dəniz kənarındakı evə qayıtdıq. Qəribə sakitlik vardı. Astadan musiqi çalınsa da, tələbələrin əksəriyyəti tonqalın dövrəsində sakitcə mürgü vururdu – sabah erkən oyanmalı idilər. Tim də onların arasında idi, nəsə danışırdılar. Onlara tərəf dönmək istəyəndə Savanna əlimdən tutdu.

– Gedək, bir az gəzək, – dedi. – Yediyimiz də həzm olunsun.

Göydə başımız üstə xəfif buludlar ulduzlaracan yayılmışdı. Üfüqdən xeyli qalxıb bədirlənmiş Ay ətrafa zər ələyirdi. Yanaqlarımda mehin nəfəsini duyur, uzaqda sahilə çırpılan dalğaların ahəngdar səsini eşidirdim. Dalğalar geri çəkilir, bizə yol verirdi. Lap suyun kənarına, qumların nisbətən bərk olduğu yerə gəlib çıxdıq. Savanna əlini çiynimə qoyub söykəndi, səndəllərini bir-bir ayağından çıxartdı. Mən də səndəllərimi soyundum. Bir az sakitcə yeridik.

– Bura elə gözəldi ki! Mən, əlbəttə, dağları çox sevirəm, amma buranın öz gözəlliyi var. Gör ətraf necə sakit və gözəldi.

İstədim elə bu sözləri Savannaya deyim, amma deyə bilmədim.

– Heç inanmaq olmur ki, səni yalnız dünən görmüşəm, – o dedi. – Elə bil yüz ildi səni tanıyıram.

Ovcuma sığınan zərif əlinin istisini hiss edirdim.

– İndicə mən də onu düşünürdüm, – dedim.

Savanna gülümsədi, ulduzlara boylandı. Dodaqlarında xəyal kimi şirin bir təbəssüm vardı.

– Görəsən, Tim bunu necə yozacaq? – dodağının altında mızıldadı. – O deyir ki, mən bir az sadəlövhəm.

– Bəs əslində necədir? Doğru deyir o?

– Deyəsən, hərdən, – Savanna boynuna aldı. Mən güldüm. Savanna sözünə davam etdi: – Bilirsən, hərdən bir qızla bir oğlanın dəniz sahilində bizim kimi beləcə qoşa gəzdiyini görəndə elə xoşuma gəlir ki. Düşünürəm ki, nə var axı burda? Heç ağlıma da gəlmir ki, onlar bu saat gedib haradasa qumluqların arxasında sekslə məşğul olacaqlar. Amma əslində elə belə də olur. Mənsə sonra bunu eşidəndə qulaqlarıma inanmıram. Guya çox qəribə imiş. Axı niyə? Məsələn, dünən gecə sən gedəndən sonra burada iki nəfərin məhz bu işlə məşğul olduğunu eşitdim. İnana bilmədim.

– Mənsə ona təəccüblənərdim ki, niyə bu baş verməyib.

– Mən də elə bunu xoşlamıram da. Kollecdə deyirlər ki, tələbəlik illərində hər şey etmək olar... eksperiment kimi... Burada seksə, spirtli içkilər içməyə, hətta narkotiklərə adi bir şey kimi baxırlar. Bəlkə də aldığım tərbiyə bir az köhnədir, amma bunun əksi sadəcə mənə çatmır. Yəqin ona görə də hamıyla birgə gedib tonqalın yanında otura bilmirəm. Düzünü desəm, mən o iki nəfərin bura gəlişinə də peşmanam. İndi necə olsun? Heç nə olmamış kimi, bu söz-söhbəti qulaq ardına necə vurmaq olar? Bəlkə də onları mühakimə etməyə haqqım yoxdu. Bəlkə də yaxşı insandırlar, buraya köməyə gəliblərsə, demək, elədir ki, var. Amma onların bu hərəkətinə nə ad verək? Məgər özünü

sevdiyin adam üçün qorumalı deyilsən? Axı belə yaxınlıq qarşılıqlı məsuliyyətdir həm də. Belə deyil?

Mən axırıncı sualı ritorik saydım, ona görə də cavab vermədim. Əvəzində:

– O iki nəfər haqqında sənə kim dedi? – soruşdum.

– Tim. Məncə, o da peşmandı. Amma neyləyə bilər? Qovaq, qaytaraq onları?

Biz çimərlik boyu xeyli getmişdik, daha qayıtmaq istəyirdik. Uzaqda, tonqalın ətrafında dövrə vurub oturmuş tələbələri seçirdim. Hərdən havaya sovrulan su damcıları şoran qoxusu verirdi, bizi yaxınlaşan görən yengəclər ayağımızın altından həyula kimi qaçıb deşiklərinə girirdilər.

– Yəqin, bir az artıq-əskik danışdım, – Savanna günahkarcasına dedi.

– Nə barədə?

– Belə... yəni adamlar mühakimə edə bilməzlər. Mühakimə etmək mənim işim deyil.

– Hamı mühakimə edir. Burda nə var ki? Bu, insanın təbiətindədir, – dedim.

– Bilirəm, amma... heç kim mükəmməl deyil. Mən də o sıradan. Sonda yalnız Allahın mühakiməsi düz olur. Onu da bilirəm ki, kimsə Allahın əvəzinə mühakimə etməyə qabil deyil.

Gülümsədim.

– Nəyə güldün? – o soruşdu.

– Bizim hərbi hissədə bir keşiş vardı, sən onun kimi danışırsan.

Ləpədöyəndəki bərk qumluqdan çıxıb evə tərəf üz tutduq. İndi qumlar ayağımızın altında məxmər kimiydi,

eşələnir, dağılırdı. Ayağımız quma batdıqca onun kiçicik əli bərk-bərk əlimdən yapışırdı. "Görəsən, tonqala yaxınlaşanda Savanna əlimi buraxacaqmı?" düşünürdüm. O belə də etdi, mən də xeyli məyus oldum.

– Hə, gəldiniz... – Timin lütfkar səsi eşidildi.

Rendi də burada idi, yenə də qaşqabağı yer süpürürdü. Düzünü desəm, onun öz incikliyini belə nümayiş etdirməsi mənə toxunurdu. Suzen Bredin sinəsinə söykənib durmuşdu. Maraq ona güc gəlirdi. Üz-gözündən görünürdü ki, bilmir – baş verənlərə məmnun olduğunu göstərsin ya... – onsuz da hər şeyi Savannadan soruşub öyrənə bilərdi – ya da özünü elə göstərsin ki, Rendiyə görə halı pərişandı?..

Digər tələbələr öz işində idi. Tim ayağa qalxıb bizə tərəf gəldi.

– Şam yeməyi necə keçdi?

– Əla, – Savanna dedi. – Yerli mədəniyyətin dadını bildim. "Yengəc daxması"na getmişdik.

– Hər halda, maraqlıdır, – Tim dedi.

Onun hərəkətində, davranışında qısqanclıq əlamətləri axtardım, tapmadım. Tim çiyinləri üstdən tonqalın ətrafında olanları göstərib:

– Bizimlə oturursuz? Sabahkı işimizdən qabaq dincələrik bir az.

– Düzü, yaman yuxum gəlir, Conu maşına qədər ötürüm, gedib yatıram. Sabah saat neçədə qalxmalıyıq?

– Saat altıda. Yemək yeyib, səkkizin yarısında tikinti sahəsinə gedəcəyik. Günəş kremini yaddan çıxarma, bütün günü günün altda işləyəcəyik.

– Yaddan çıxarmaram. Hamıya de!

– Demişəm, sabah bir də deyəcəm. Amma bəziləri qulaq asmır, sonra da yanıb külə dönürlər.

– Yaxşı, sabaha qədər, – Savanna dedi.

– Yaxşı. – Mənə tərəf çevrildi: – Con, məmnunam ki, bu gün gəldin.

– Mən də, – dedim.

– Bax da, əgər gələn həftələrdə darıxıb eləsən, gəl, bizə iki əl artıqlıq eləməz, məşğuliyyət taparıq.

Güldüm.

– Bilirdim, belə deyəcəksən.

– Mən beləyəm də, – Tim zarafatlaşdı. Əlini mənə uzatdı. – Nə isə, gəl, şad olarıq.

Biz əl verib görüşdük. Tim yoldaşlarının yanına getdi. Savanna başı ilə evə tərəf işarə etdi. Biz qumluqlara qalxdıq. Dayanıb səndəllərimizi geydik, buradan o yana taxta döşənmiş çığırla gedib evin arxasına keçdik. Bir azdan maşının yanında idik. Qaranlıqda üzünün ifadəsini seçmirdim.

– Bugünkü axşam çox gözəl keçdi, – dedi. – Günüm də yaxşı keçdi.

Mən udqundum.

– Bir də nə vaxt görə bilərəm səni?

Sadəlövhcəsinə verilmiş sual idi. Hətta gözlənilsə də. Amma nədənsə səsim titrədi və titrəyən səsim qəlbimdəkini ələ verdi – bu necə işdi, mən onu heç öpməmişəm də.

– Elə bilirəm, – o dilləndi, – bu, səndən asılıdır. Bilirsən ki, mən harada oluram.

– Bəlkə sabah axşam? – az qala təngnəfəs dedim. – Başqa bir restoran yeri bilirəm. Canlı musiqi, əyləncələr...

Üzünə tökülən saçını qulağının arxasına sığadı.

– Gəl, birisi gün axşam görüşək, yaxşı? Tikintidə birinci gün həmişə gərgin olur. Adam yorulur... Bütün dəstə bir yerdə şam eləyəcək, mən də onu buraxmaq istəmirəm.

– Yaxşı, – dedim. Amma “bunun harası yaxşı oldu ki?” düşündüm.

Səsimdə nəsə duymuş kimi tələsik dedi:

– Tim necə dedi: “Nə vaxt istəsən gəl, görməyə şad olaram”.

– Yox, hər şey yaxşıdı. Elə birisi gün axşama qalsın.

Ayrılmaq vaxtı idi. Elə bir an gəlib çatmışdı ki, tərəddüd etmək, gözləmək olmazdı. Məhz elə bu an Savanna çevrilib getdi, onu öpmək arzum dodağımdan asılı qaldı. Əvvəllər olsaydı, səbrim çatmazdı, hadisələri qabaqlayardım. Ola bilsin ki, mən şəxsi yaşantılarımı çox da açıb göstərməyi sevmirəm, amma başqa hallarda fövrən qərar qəbul edir, dərhal da hərəkət edirəm. Amma Savannanın yanında elə bil ovsunlanmışdım, əl-qolum bağlanmışdı. O heç özü də heç hara tələsmirdi axı.

Yanımdan şütüyüb keçən maşın bu ovsunu dağıtdı. Savanna evə tərəf bir addım atdı, sonra dayanıb əlini qolumun üstə qoydu. Məsum bir hərəkətlə dodaqlarını yanağıma yapışdırdı. Lap bacı kimi öpdü məni. Amma dodaqları elə yumşaq idi ki! Dərisinin, saçlarının qoxusu ağlımı başımdan aldı. O geri çəkiləndən sonra da bu hiss məni tərk etmədi.

– Doğrudan, bu günüm çox yaxşı keçdi, – o mızıldadı. – Bu günü hələ uzun-uzun illər unutmayacam.

Xəyal içində hiss etdim ki, əlini qolumdan çəkdi. Və elə son pıçıltıları ilə də qeyb oldu. Ardınca evin girişində ayaqlarının səsini eşitdim.

Həmin gün gecə evdə yatağıma qor doldu elə bil yata bilmədim. Gündüz olanları yada salır, elə hey o üz-bu üzə çevrilirdim. Durub yatağımda oturdum, heyifsilənməyə başladım ki, niyə Savannaya demədim ki, bu birinci gün mənim üçün necə unudulmazdır. Pəncərəmdən o üzdə, göydən işığı göz qamaşdıran ağappaq bir ulduz axdı. İnanmaq istədim ki, bu nəyinsə əlamətidir. Amma nəyin, bilə bilmədim. Əvəzində, Savannanın o kövrək öpüşünü yanağımda dönə-dönə hiss edir, düşünürdüm ki, bu necə ola bilər? Yalnız bir gün qabaq gördüyüm qızı bunca necə sevə bilərəm?

## Beşinci fəsil

– Sabahın xeyir, ata, – deyib, yuxulu-yuxulu, səhərin gün işığında gözlərimi qıyaraq mətbəxə keçdim. Atam sobanın qabağında dayanmışdı. Qızardılmış donuz ətinin iyi mətbəxi doldurmuşdu.

– Hə, Con, salam.

Özümü stulların birinə yıxdım, gözlərimi yuxudan aça bilmirdim.

– Bilirəm, hələ tezdir, amma durdum ki, işə getməmiş səni görüm.

– Ooo, – atam dedi. – Yaxşı, qoy sənin üçün də yemək hazırlayım.

Belə xırda, gündəlik işlər zamanı atam həmişə həyəcanlı, işgüzar bir ovqatda olurdu. Ən çox bu anlarda hiss edirdim ki, o, mənim evdə olmağıma sevinir.

– Ata, qəhvəmiz varmı? – soruşdum.

– Odur, qəhvədanda.

Özümə qəhvə süzüb stolun o başına keçdim. Təzə qəzetlər hələ açılmamışdı. Atam onları həmişə səhər yeməyi zamanı gözdən keçirirdi. Yaxşı bilirdim ki, onlara toxunmaq olmaz. Qəribə, həm də məzəli idi – amma atam həmişə istəyirdi ki, qəzeti birinci özü oxusun. Həmişə də qəzeti eyni ardıcıllıqla oxuyurdu.

Gözləyirdim ki, Savanna ilə görüşümüzün necə keçdiyini soruşsun, amma atam heç nə demədi, fikri-zikri yemək bişirməklə məşğul idi. Saata baxdım, dedim, hə, Savanna bir neçə dəqiqədən sonra tikinti sahəsinə gedəcək. Görəsən, mən onun haqqında düşündüyüm qədər o da mənim haqqımda fikirləşirmi? Yadıma düşdü ki, səhərin bu çağında, hamının işə tələsdiyi bir vaxtda Savanna çətin ki, məni yada salsın. Gözlənilmədən, elə bu qənaətdən ürəyim bərk sıxıldı.

– Dünən gecə nə iş gördün? – deyə atamdan soruşdum, həm də bununla fikrimi Savannadan yayındırmaq istəyirdim. Atam sözümü eşitməmiş kimi yemək bişirməyində idi. – Ata? – təkrarən soruşdum.

– Hə?

– Dünən gecəni necə keçirdin?

– Necə yəni "necə keçirdin?"

– Gecə də... necə keçdi? Bir şey baş vermədi ki?

– Yox, – o dedi. – Heç nə. – Gülümsündü, sonra tavada qızartdığı ət parçalarını çevirdi. Cızdağın səsi artdı.

– Dünən çox gözəl keçdi, – mən şövqlə dedim. – Savanna, doğrudan, yaxşı qızdır. Hələ kilsəyə də getdik.

Hər halda, dedim, yəqin məndən daha çox şey soruşacaq, yəni əslində istəyirdim ki, maraqlansın, soruşsun, ata kimi oğluna bir-iki tərifli söz desin, sataşsın həm də, zarafat etsin. Amma o, plitənin o biri gözünü yandırdı, kiçik tavaya yağ atıb sındırdığı yumurtaları tavaya tökdü.

– Sobanın üstünə bir-iki dilim çörək qoya bilərsənmi, qızarsın? – dedi.

Mən köksümü ötürdüm. Başa düşdüm ki, səhər yeməyimizi yenə də lal-karlar kimi yeməli olacağıq.

– Əlbəttə. Niyə bilmirəm ki? – dedim.

Sonra bütün günü yalnız serfinqlə məşğul oldum, daha doğrusu, guya məşğul oldum. Gecə hava sakit olduğundan okeanda serfinq üçün lazım olan dalğa yox idi. Kiçik dalğalarsa uzağa, okeanın içərilərinə cumurdu, dayazda da ki, serfinq ləzzət eləmir. Hərdən dalğa qalxsa da tez də enib dağılırdı. Əvvəllər belə olanda Ouk Aylendə, ya da lap Atlantik Biçə gedirdim, ordan da yol maşınları ilə Şeklford sahillərinə qədər gedirdim ki, yaxşı dalğa olan yer tapım. Amma bu gün nəsə həvəsim yox idi.

Bunun əvəzində, elə həmin yerdə, üç gün ərzində serfinqdə üzdüyüm yerdə, çimərlikdəki həmin kottecdən bir az aralı üzürdüm. Bu gün elə bil kottecdə heç kim yaşamırdı, arxa qapısı bağlı idi, həyətdə, balkonlarda dəsmallar asılmamışdı, pəncərələrdə heç kim görünmürdü. Fikirləşdim

ki, görəsən, sakinlər nə vaxt qayıdacaq. Yəqin ki, saat dördə-beşə. O vaxta qədər də mən də çıxıb gedəcəyəm. Deməк, burda qalmağa bir səbəb yoxdur. Bir də, heç istəmirdim ki, Savanna mənim onu izlədiyimi, bir qadın düşkünü olduğumu zənn etsin.

Saat üçdə çimərlikdən çıxdım, yolüstü Leroy kafesinə döndüm. Bar ala-qaranlıq, həm də həmişəkindən çirkli idi. İçəri girər-girməz hiss etdim ki, bura daha xoşuma gəlmir. Həmişə mənə elə gəlirdi ki, Leroy bara oxşar bir şeydi, peşəkar alkaşlar üçündü, bu saat buna heç dəlil-sübut da lazım deyildi. Dairəvi oturmuş bir neçə nəfər "Ən yaxşı Tenessi" stəkanlarından içərək həyat problemlərindən qaçmağın yollarını "müzakirə edirdilər". Leroy özü də burada idi. İçəri gərəndə məni tanımışdı. Oturan kimi pivə parçını kranın altına qoyub doldurmağa başladı.

– Çoxdan görünmürsən, – dedi. – Cavanlığını korlamaq istəmirsən, hə?

– Hə, elə bir şeydi, – mızıldadım. Bara göz gəzdirdim. O, pivə parçını qabağıma qoydu. – Görürəm, buraları bir az dəyişmisən, təzələmisən.

– Hə, əlbəttə. Məxsusi sənin üçün. Bir şey yeyəcəksən?

– Yox, sağ ol. Pivə bəs edər.

Leroy piştaxtanı silib əsgini çiyni üstən arxaya atdı, o biri müştəriyə yanaşdı.

Bir dəqiqədən sonra kimsə çiynimi şappıldatdı.

– Conni! Sən neyləyirsən burda?

Dönüb baxdım, heç əvvəllər də xoşuma gəlməyən köhnə tanışlardan biriydi. Məsələ burasındadır ki, Leroyla bağlı hər şeydən zəhləm gedirdi, dost-tanışlarım da içində.

Amma özüm də bilmirəm, bura niyə döndüm. Bəlkə də bar yolun üstündə olduğu üçün, ya da buralarda başqa bir yer yoxdur deyə.

– Salam, Tobi, – dedim.

Həmin caydaq, arıq Tobi yanımdakı oturacağa əyləşdi, üzünü mənə tərəf çevirəndə gördüm ki, gözləri öləziyib. Elə bil günlərlə yuyunmurdu, əynində çirkli, ləkəli köynək vardı.

– Hələ də Remboluq eləyirsən? – dili dolaşa-dolaşa dedi. – Elə bil idmanla məşğul olursan, hə?

– Hə, bir az, – çox da dərinə getmədim. – Sən nə ilə məşğulsan?

– Elə buralarda dolaşıram, bir neçə həftə olar. Kvik Stopda işləyirdim, oranın sahibi... heyvərə... işdən çıxartdı məni...

– Ata-ananla olursan?

– Əlbəttə, – az qala fəxrlə dedi. Butulkanın ağzını açıb başına çəkdi, sonra yenə qollarıma, əzələlərimə baxdı. – Yaxşısan, yəqin idmanla məşğul olursan?

– Hərdən, – dedim. Bildim ki, bir dəqiqə əvvəl bunu soruşduğu yadında deyil.

– Bir az da eninə böyümüsən.

Nə deyim, bilmədim. Tobi butulkanı bir də başına qaldırdı.

– Hə, bu gün Mendigildə məclis var. Mendi yadındadı? – o soruşdu.

Yadımda idi o qız. Bir az da yaxın olmuşduq. Amma yaxınlığımız cəmi bir həftə çəkmişdi. Tobi yenə öz havasında idi.

– Onun valideynləri Nyu Yorka, ya da harasa elə bir yerə köçüb. Yaxşı şənlik olacaq, indi bir az hallanıb əhvalımızı axşama kökləyirik. Bizimlə gedəcəksən?

Sonra küncdəki stolun arxasında oturan dörd cavan oğlanı göstərdi. Stolun üstündə boş pivə parçları vardı. İkisini tanıdım, digər ikisini yox.

– Gedə bilmərəm, – dedim. – Bu gün şam yeməyini atamla birlikdə yeyəcəyik. Hər halda, sağ ol.

– Əh, atanı neyləyirsən? Yaxşı olacaq orda! Kim də gələcək.

Keçmiş həyatımdan daha bir qız. İçimdən bir rəşə keçdi. Yəni o adam mən olmuşam? O vaxtkı özümdən zəhləm getdi. Başımı bulayıb:

– Yox, gələ bilmərəm, – dedim. Az qala dolu parçı stolun üstündə qoyub qalxdım. – Söz vermişəm. Hələ ki, atamın yanında qalıram. Bilirsən də, ata-ana nə deməkdir.

Tobi sözlərimi başa düşdü deyəsən, başını silkələdi.

– Onda gəl bazar günü görüşək. Onsuz da bazar günü hamımız birlikdə Okrakokaya – serfinqə gedirik.

– Baxarıq da, – dedim ki, əl çəksin.

– Evinizin telefon nömrəsi dəyişməyib?

– Yox, dəyişməyib.

Bilirdim ki, o, heç vaxt zəng edən deyil. Mən də heç vaxt daha Leroya gələn deyiləm.

Evə gələndə qızartmaq üçün bir az ət, bir paket salat, sous və kartof aldım. Maşınsız serfinq taxtasını və aldıqlarımı evə gətirmək rahat olmasa da, mən həvəslə bu işi gördüm. Son illər piyada min kilometrlərlə yol getmişdim,

indi bu yay ayaqqabıları adət etdiyim əsgər çəkmələrindən çox-çox rahat idi.

Evdə qaraja düşüb qril manqalını axtardım, kömür torbasını, neft butulkasını tapdım. Manqal toz-pas içində idi, neçə vaxtdı istifadə olunmurdu. Onu arxa artırmaya çıxarıb sildim, hörümçək torunu-zadı təmizlədim, günəşə qoydum ki, qurusun. Sonra ətə duz-istiot səpdim, sarımsaq doğradım, kartofları folqa kağızına büküb duxovkaya qoydum, salatı da boşqaba çəkdim. Manqal quruyandan sonra kömürü alışdırdım, stolu bayıra çıxartdım.

Atam həyətə girəndə mən əti manqalın üstünə düzürdüm.

– Ata, – çiynim üstdən qanrılıb dedim. – Deyirəm, bu gün şam yeməyini mən hazırlayım.

– Həə? – Elə bil bu gün mənə şam yeməyi hazırlamayacaq fikrini bir neçə saniyə götür-qoy etdi. Sonra:
– Yaxşı, olsun, – dedi.

– Sənin üçün əti çox bişirim, ya az?

– Nə çox, nə az, qaydasında, – atam dedi. Əvvəlki kimi sürüşmə şüşə qapının yanında durmuşdu.

– Elə bil mən gedəndən sonra manqalı heç işlətməmisən... – dedim. – Nahaq yerə. Manqalda bişirilən ətdən dadlı heç nə yoxdu. Evə gələ-gələ ağzımın suyu axırdı.

– Gedim, paltarımı dəyişim.

– Ət on dəqiqədən sonra hazır olacaq.

Mətbəxə qayıdıb duxovkadan kartofları götürdüm, salat boşqabını, ədviyyat, yağ, bifşteks sousunu da gətirib stoluna yığdım. Şüşə qapı aralandı, atam əlində iki stəkan süd

qapıda göründü. Şortik, qara corab, tennis səndəlləri, güllü Havay köynəyində o, kruiz gəmisində səyahət edən turistə oxşayırdı. Qıçları həddən artıq ağ idi, sanki illərlə, ya da heç vaxt şortik geyməmişdi. Arxaya qayıdıb deyim ki, onu şortikdə gördüyüm mənim də yadıma gəlmir. Özümü elə göstərdim ki, hər şey yaxşıdır, atam çox layiqli geyimdədir.

– Düz vaxtında gəldin, – deyib manqala tərəf döndüm, ətləri boşqablara çəkib birini onun qabağına qoydum.

– Çox sağ ol, – dedi.

– Nuş olsun.

O, boşqabına salat, mayonez qoydu, sonra kartofunu soyub yağ əlavə elədi. Bir az da sous tökdü. Hər şey adi, hər şey təbii idi. Bir şeydən savayı – o bütün bunları dinməz-söyləməz edirdi.

– Günün necə keçdi? – həmişəki kimi soruşdum.

– Əvvəlki kimi, – o da həmişəki kimi dedi. Gülümsündü, amma daha heç nə demədi.

Atamla bağlı nəsə sosial yanlışlıq var, düşündüm. Təəccüblüdür, o, niyə belə çətinliklə ünsiyyətə girir? Onu cavanlığında təsəvvür elədim. O, necə evlənib? Bu axırıncı sual nəsə bir az meşşancasına alındı, amma elə belə, boş yerə deyil. Maraqlandırır məni. Yemək zamanı yalnız çəngəllərin cingiltisi bizim birlikdə olduğumuza dəlalət edirdi.

– Savanna deyirdi ki, səninlə görüşmək istəyir, – nəhayət, mən dilləndim. Atam bir parça ət kəsdi.

– Sənin xanım dostun? – Yalnız atam fikrini bu sayaq ifadə edə bilərdi, özü də bu sözlərlə.

– Hə, – dedim. – Görərsən, o sənin xoşuna gələcək.

O, başı ilə təsdiq etdi.

– O tələbədir, Şimali Karolina Universitetində oxuyur, – əlavə etdim.

Bilirdi ki, indi danışmaq, soruşmaq növbəsi onundur, hiss etdim ki, sualı ilə birlikdə bir rahatlıq da gəldi ona.

– Onunla necə tanış olmusan?

Mən Savannanın okeana düşən çantasından danışdım, həm də bu zaman həmin vəziyyəti bir az da yumorla bəzəyib təsvir etdim. Amma atam yumoru tuta bilmədi.

– Sən comərdlik etmisən, – o məni təriflədi. "Sözümüz qurtardı" deyə düşündüm. Sonra özümə bir parça da ət kəsdim.

– Ata, etiraz etməsən, bir şey soruşardım.

– Əlbəttə yox, soruş.

– Sən anamla necə tanış olmusan?

Bu illər ərzində ilk dəfə idi ki, anam haqqında soruşurdum. Çünki anam heç vaxt "həyatımın bir parçası" olmamışdı, heç xatırlamırdım da. Bu haqda soruşmağa da ehtiyac hiss etmirdim. Heç indi də məni o qədər ilgiləndirmirdi bu mövzu. Sadəcə, istəyirdim ki, atam mənimlə söhbət etsin. Atam bir neçə dəqiqə kartofunu yağlamaqla məşğul oldu, görürdüm ki, cavab vermək istəmir.

– Biz şam yeməyi zamanı tanış olmuşduq, – nəhayət, dilləndi. – O, ofisiant idi.

Gözlədim. Daha heç nə demədi.

– Gözəl idi?

– Hə, – atam dedi.

– Məsələn, necə gözəl idi?

Atam kartofunu əzdi, səliqə ilə üstünə duz səpdi.

– Sənə oxşayırdı, – o dedi.

– Nə mənada?

– Hımm... – tərəddüd etdiyi görünürdü. – O, hərdən çox tərs və inadkar idi.

Bilmirdim, nə fikirləşim, bununla o nə demək istəyir... Amma təzə nəsə soruşacağımı zənn edib stəkanını götürdü, ayağa durdu.

– Yenə süd istəyirsən? – soruşdu. Bildim ki, anam haqqında daha heç nə deməyəcək.

## Altıncı fəsil

Vaxt nisbi anlayışdır. Bunu ilk bilən adam mən deyiləm, üstəlik, heç məşhur bir adam da deyiləm. Bunu başa düşməyimin enerji, ya da kütlə ilə, yaxud da işığın sürəti və Eynşteynin tapdığı daha nə iləsə heç bir əlaqəsi yoxdur. Amma Savannanı gözləyərkən vaxtın, saatların dəhşətli dərəcədə belə ləng getməsinin məsələyə dəxli var.

Atamla şam yeməyi yeyəndən sonra onun haqqında fikirləşməyə başladım. Bir də səhər, yuxudan oyanandan sonra yenə onu düşündüm. Gündüz serfinqə getdim, dalğalar dünənkindən yaxşı olsa da, əlim-ayağım heç cür taxtaya yatmırdı, günorta qərara aldım ki, daha bəsdi, gedim evə. İstədim çimərliyin həndəvərindəki kiçik köşkdən bir çizburqer alım – burada çox yaxşı burqer bişirirdilər, – amma iştaham olsa da, fikrimdən daşındım, evə getdim, dedim, sonra Savanna ilə birlikdə bura gələrik. Stiven Kinqin təzə romanından bir az oxudum, sonra kitabı qatlayıb

kənara qoydum, duş qəbul elədim, cins şalvarımı, polo köynəyimi geyib sonra bir az da oxudum. Mənə elə gəlirdi ki, bir neçə saat keçib, amma saata baxdım, cəmi iyirmi dəqiqə keçmişdi. Vaxtın nisbi olduğu məni buna görə məşğul edirmiş.

Atam evə qayıdanda məni geyimli-kecimli gördü, dərhal da maşının açarlarını mənə uzatdı.

– Savannanı görməyə gedəcəksən? – deyə soruşdu.

– Hə, – dedim. Durub açarları aldım. – Ola bilsin, bir az gec gəldim.

O, başının arxasını qaşıdı.

– Yaxşı, – dedi.

– Amma sabah səhər yeməyini birlikdə yeyərik.

– Yaxşı. – Bu dəfə "yaxşı"nı nəsə bir az çəkinə-çəkinə dedi, niyəsini başa düşmədim.

– Yaxşı, mən getdim, – dedim. – Axşam görüşərik, ata.

– Sən gələndə mən yatmış olacağam yəqin.

– Ata, mən elə-belə "gec" dedim...

– Ehh, – dilləndi. – Yaxşı da...

Qapıya sarı yeridim, addımımı çölə atmışdım ki, köksünü ötürdüyünü eşitdim.

– Mən Savannanı tanımaq istəyirəm, – bu sözləri elə dedi ki, güclə nə dediyini başa düşdüm.

Çimərlikdəki evə yaxınlaşanda hava hələ işıqlı idi, üfüqə əyilən günəşin şəfəqləri okean sularında par-par yanırdı. Maşından çıxanda hiss etdim ki, ürəyim bərk-bərk döyünür. Axırıncı dəfə görüşdən qabaq haçan həyəcanlandığım yadımda deyil. Elə bil qorxurdum ki,

Savannanı görmədiyim bu qırx səkkiz saat ərzində nəsə dəyişə bilər. Bilmirəm, niyə belə fikirləşirdim, amma təsəvvür etmirdim ki, əgər belə olsa, mən neyləcəm.

Qapını döymədən açıb, içəri girdim. Qonaq otağında kimsə yox idi, amma içərilərdən səs gəlirdi, arxa balkonda yığışanlar vardı. Taxta döşəməyə keçib Savannanı soruşdum, ordan biri dedi ki, çimərlikdədir.

Cəld qayıdıb bayıra çıxdım, qumlar boyunca yüyürdüm. Savannanı Rendinin, Bredin və Suzenin yanında oturmuş görüb duruxdum. Savanna məni görmürdü, deyəsən, Rendinin hansı sözünəsə gülürdü. “Sanki bir-biri üçün yaranıblar”, deyə fikrimdən keçdi, lap Suzen və Bred kimi. Amma belə deyildi, ola bilsin ki, bu saat onlar tikiləcək evlə bağlı nəsə danışırdılar; ya da son günlərin qayğılarından söhbət edirdilər, hər halda bu, heç xoşuma gəlmədi. O da xoşuma gəlmədi ki, Savanna Rendiyə yaxın oturmuşdu, lap mənə yaxın oturduğu kimi. Görəsən, görüşümüz haqda fikirləşirmi heç? Yadına düşürmü?

Məni görəndə Savanna heç nə olmayıbmış kimi gülümsündü.

– Gəlmisən, Con? – dedi. – Mən də bayaqdan fikirləşirəm ki, görəsən, nə vaxt gələcəksən.

Rendi irişdi. Savannanın dediklərinin əksinə olaraq, o, qalib görkəmində idi. Sanki deyirdi: “Pişiklər evdə olmayanda siçanların bayramıdır”.

Savanna ayağa qalxıb mənə tərəf gəldi. Qolsuz, ağ bluzka, yüngül, yeridikcə əynində titrəyən yubka geymişdi. Açıq havada işləməkdən çiyinləri günəşdə bir az yanmışdı. Yaxınlaşıb pəncələri üstə qalxdı, yanağımdan öpdü.

– Salam, – dedi, sonra əlini belimə doladı.

– Salam.

Yüngülcə aralandı, sanki üzümün ifadəsini görmək istəyirdi. Eyhamla:

– Elə bil darıxmısan mənimçün, – dedi. Məni qəsdən hirsləndirənə oxşayırdı.

Adətim üzrə münasib cavab tapa bilmədim, o isə darıxdığımı boynuma ala bilməməyimə görə mənə göz vurdu.

– Bəlkə mən də darıxmışam səninçün... – o əlavə etdi. Mən əlimi onun çiyninə vurub:

– Hazırsan? Gedirik? – dedim.

– Həmişə hazıram.

Maşına sarı yeridik. Gedə-gedə əlindən tutdum, əlim əlinə toxunanda hiss etdim ki, dünyada hər şey düz qurulub – əsasən, düz qurulub...

Qamətimi şax tutdum.

– Gördüm, Rendi ilə danışırdın... – mümkün qədər yumşaq deməyə çalışdım.

Əlimi sıxdı.

– Gördün? Nə olsun ki?

Bir də dedim:

– Elə bil iş prosesində barışmısız?

– Əlbəttə. Bilirsən, mən düz deyirdim, o, yaxşı oğlandı. Tikintimiz qurtarandan sonra o, Nyu Yorka gedəcək – “Morqan Stenli”də altıhəftəlik təcrübə keçməyə.

– Hımm... – mızıldadım.

Savanna yavaşdan güldü.

– Amma demə ki, qısqanırsan.

– Mən qısqanmıram.

– Lap yaxşı, – dedi. – Onsuz da qısqanmaq üçün bir səbəb yoxdur.

Dediyi son sözlərdən ürəyim riqqətə gəldi. Doğrusu, Savannanın bu sözləri deməyinə lüzum yox idi, amma dedi və mən bu sözlərin qanadında səmalara uçdum. Maşına çatanda qapını açdım.

– İstəyirdim, səni bu gün "İstridyə"yə aparım, – dedim. – Çimərliyin o başında gecə klubudur. Yaxşı ansamblları var, axşamlar musiqi çalırlar, rəqs də eləyə bilərik orda.

– Bəs o vaxta qədər neyləyəcəyik?

– Aclığın var? – soruşdum. Bayaq gördüyüm çizburqer yadımdaydı.

– Bir az, – o dedi. – İşdən qayıdandan sonra yemişəm, elə də aclığım yoxdu.

– Onda çimərlikdə gəzək...

– Hımm, bəlkə bir az sonra...

Aydın idi ki, onun nəsə başqa bir fikri var.

– Nə istədiyini niyə demirsən?

O qızardı.

– Dedim bəlkə atanla görüşməyə gedək?

Qulaqlarıma inanmadım.

– Doğru deyirsən?

– Hə, doğrudan, – dedi. – Yalnız bir neçə dəqiqəliyə, sonra da yeməyə gedərik. Rəqs etməyə də...

Mənim tərəddüd etdiyimi görüb, əlini çiynimə qoydu:

– Xahiş edirəm.

Onun təklifinə elə də sevinmədim, amma elə xahiş etdi ki, etiraz etmək mümkün deyildi. Mən planımın dəyişməsi

ilə artıq barışmışdım, amma bir az dilxor idim, yaxşı olardı ki, bu günü Savanna ilə ikimiz birlikdə keçirəydik. Onu da başa düşmürdüm ki, niyə belə tezliklə atamı tanımaq istəyir, amma nədənsə mənimlə təklikdə qalmaq bir elə də ürəyincə deyil. Düzü, bu fikir məni çox sıxırdı.

Amma Savannanın əhvalı yaxşı idi, keçən iki gün ərzində gördükləri işlərdən dil-dil ötürdü. Sabah onlar pəncərələri qoyacaqdılar. Məlum oldu ki, Rendi elə Savanna ilə yanbayan işləyir – demək, "dostluq" bərpa olunmuşdu, onun da əhvalı buna görə yaxşıdı. İnanmıram ki, Rendi baş verənləri bu cür izah etsin.

Bir neçə dəqiqədən sonra biz evimizə aparan yola tərəf döndük. Atamın otağından işıq gəlirdi. Motoru söndürəndən sonra bir az açarları əlimdə oynatdım, sonra düşdüm.

– Sənə demişəm də, atam çox da ünsiyyətcil deyil.

– Hə, – Savanna dedi. – Amma bunun əhəmiyyəti yoxdu, mən onu tanımaq istəyirəm.

– Niyə? – soruşdum. Bilirəm ki, bu çox qəribə sual oldu, amma ağzımdan çıxmışdı.

– Çünki o sənin ailənin yeganə üzvüdür, bir nəfər doğman var, o da atandır, çünki o səni böyüdüb, boya-başa çatdırıb.

***

Savanna ilə birlikdə evə gəldiyimi görüb atam mat-məəttəl qaldı. Aydın idi ki, belə bir şeyi təsəvvür etmirdi. Ona görə də təəccüb içində idi. Belə hallarda lazım olan ümumi tanışlıqdan sonra, nəhayət, özünə gəlib əlini seyrək saçlarına çəkdi, nəzərlərini döşəməyə dikdi.

– Bağışlayın ki, xəbərsiz gəldik, amma Conun burada günahı yoxdur, mən təkid elədim, – Savanna dedi.

– Həə, – atam dedi. – Eybi yoxdur, hər şey yaxşıdı.

– Bir az vaxtsız gəldik amma...

– Yox, yox – o baxışlarını qaldırdı, sonra yenə döşəməyə dikdi. – Yaxşı ki, tanış olduq, çox şadam.

Üçümüz də qonaq otağında ayaq üstə dayanmışdıq, bir anlıq araya sükut çökdü. Savannanın üzündə belə hallar üçün təbii olan bir təbəssüm vardı, amma çətin ki, atam bunu sezə bilərdi.

– Nəsə içmək istəyirsiz? – atam soruşdu, sanki birdən yadına düşmüşdü ki, o, ev sahibidir.

– Yox, sağ olun, – Savanna dedi. – Con deyirdi ki, siz numizmatika ilə maraqlanırsız...

Atam mənə sarı çevrildi, deyəsən, bilmək istəyirdi ki, nə cavab versin.

– Hə, bir az, – nəhayət, astadan dedi.

– Xəbərsiz gəlməklə bəlkə elə bu işinizə mane olduq? – Savanna bayaq çimərlikdə məni söhbətə çəkdiyi kimi indi də sözə körpü atdı. Təəccüblü idi, atam əsəbi tərzdə güldü. Bərkdən olmasa da, hər halda güldü. Maraqlı idi.

– Yox, mane olmadız. Bu gün təzə bir sikkə almışdım, sadəcə onu gözdən keçirirdim.

Atam danışdıqca hiss edirdim ki, dediklərinə mənim reaksiyamı bilmək istəyir.

Savanna ya bunu görmürdü, ya da özünü görməzliyə vururdu.

– Doğrudan, – o maraq göstərdi. – Hanı? Necə sikkədir?

Atam duruxdu, sonra təəccübümə rəğmən, başını qaldırıb Savannaya baxdı, dedi:

– Baxmaq istəyirsiz?

Qırx dəqiqəyə qədər evimizdə olduq.

Mən yalnız qulaq asırdım, atam az qala əzbər bildiyim şeylərdən danışırdı. Ciddi kolleksiyaçılar kimi, o da sikkələrdən yalnız bir qismini evdə saxlayırdı. Qalanlarını harada saxlayırdı, bilmirdim. Amma nə sirr idisə, kabinetində həftədə, on gündə təzə sikkə görmək olurdu. İş yerində də, adətən, bir neçə sikkə nümunəsi saxlayırdı, həm də bunlar elə də qiymətli deyildi, amma mənə elə gəlirdi ki, o lap adi bir Linkoln sikkəsini Savannaya göstərsəydi, Savanna heyrətlənərdi. Savanna tez-tez suallar verirdi, o suallara mən də, numizmatika sorğu kitabları da asanlıqla cavab verə bilərdi, amma söhbət uzandıqca o daha “incə” suallar verməyə başladı. Məsələn, “Filan sikkə niyə belə baha qiymətləndirilir?” əvəzinə, soruşurdu ki, atam onu haçan, harda alıb, beləliklə, atam da böyük həvəslə mənim yeniyetmə vaxtlarımda Atlantaya, Çarlstona, Roliyə, yaxud da Şarlottaya etdiyimiz cansıxıcı həftəsonu səfərlərimizdən müfəssəl danışırdı.

Atam o səfərlərimizdən çox danışdı. Yəni Savanna üçün çox danışdı. Onun özünə qapanmağı, danışmağa çox da həvəs göstərməməyi yenə öz yerində idi, amma bu qırx dəqiqə ərzində o, Savannaya daha çox şeylər danışdı, nəinki məzuniyyətə gəldiyim bu bir neçə gündə mənə. Demək, Savannanın dediyi o şövq və ehtiras bu imiş – görürdüm ki, atam sikkələrdən necə ehtirasla danışır. Amma bu həvəsi, bu

ehtirası mən hər gün görürdüm. Ona görə indi də o fikirdəydim ki, sikkələr atam üçün həyatdan, reallıqdan uzaq olmaq üçün bir bəhanədir, həyata daha fəal müdaxilə, həyatla ünsiyyət əvəzinə o, bu yolu seçmişdi. Mən onunla sikkələr haqda daha danışmırdım, çünki istəyirdim ki, başqa şeylər haqda da danışaq. Atam mənimlə sikkələr haqda daha danışmırdı, çünki nə düşündüyümü hiss edirdi, amma başqa şeylər haqda da danışmırdı. Hər halda, indi də...

Atam xeyli sevincək olmuşdu, görürdüm ki, sikkələri göstərəndə gözləri necə parıldayır, zərbxananın möhürünü göstərib sikkənin necə aydın kəsildiyindən, ya da sikkənin üstündəki ox və dəfnə çələnginin təsvirindən asılı olaraq onun qiymətinin dəyişməsindən necə vəcdlə, yerli-yataqlı danışır. Savannaya çox sevdiyi sikkələri – Uest-Poyntdə sınaq üçün zərb edilmiş sikkə nümunələrini göstərirdi. Stolun siyirməsindən lupanı çıxarıb sikkənin səthindəki qüsurları Savannaya göstərir, o isə lupanı tutub baxanda fərəhdən atamın üz-gözü işıqlanırdı. Mənim sikkələrə neqativ münasibətimə baxmayaraq, atamın məmnunluğu mənə də sirayət edir, qeyri-ixtiyari gülümsəyirdim.

Amma atamın xasiyyətini bilirdim, heç bir möcüzə də baş vermədi. Sikkələrini Savannaya göstərdikdən və onları necə əldə etməsindən ətraflı danışandan sonra atam başqa şeylərdən də danışdı. Uzaqlara getdikcə özünü təkrar etməyə başladı, sonra təkrarçılıq etdiyini başa düşüb bir az tutulan kimi oldu, sonda səsini lap yavaşıtdı. Savanna onun pərtliyini vaxtında hiss etdi, odur ki, stolun üstündə qoyulmuş sikkələrə işarəylə:

– Çox sağ olun, cənab Tayri. Elə bil yaxşı bir mühazirə dinlədim. Doğrudan da, xeyli təzə şeylər öyrəndim, – dedi.

Atam gülümsündü, adət etmədiyi belə sorğu-sualdan bezmiş kimiydi. Hiss etdim ki, getmək vaxtıdır, ayağa durdum.

– Çox yaxşı, amma elə bilirəm, getmək vaxtıdır.

– Hə, əlbəttə...

– Tanış olmağıma şad oldum, – Savanna dedi.

Atam başı ilə təsdiq etdi. Savanna bir az irəli əyilib səmimiyyətlə onu qucaqladı.

– Bir də vaxt tapıb gələcəm, sikkələrdən danışaq... – Savanna az qala pıçıltı ilə dedi. Atam da onu qucaqladı. Uşaq vaxtı məni necə quru, soyuq-soyuq qucaqladığı yadıma düşdü. Görəsən, Savanna bunu hiss etdimi, axı aydın görünürdü ki, atam çox sıxılır.

Maşında Savanna sakitcə oturub yaman fikrə getmişdi. İstəyirdim, atamla tanışlıqdan aldığı təəssüratı danışsın, amma cavabını eşitmək istədiyimə əmin deyildim. Bizim ata-oğul münasibətlərimiz çox da yaxşı deyildi, amma Savanna düz deyirdi – atam mənim yeganə doğma adamım idi, məni böyüdüb, boya-başa çatdırmışdı. Övlad kimi, borcluyam ona. Hərdən ondan narazılıq eləyirdim, amma bir özgəsi bunu eləsə, əlbəttə, xoşuma gəlməzdi.

Hər halda düşünmürdüm ki, Savanna nəsə xoşa gəlməyən bir şey deyə bilər, həm də sadəcə ona görə ki, bu, onun təbiətinə yad idi. Dönüb mənə baxdı, gülümsündü.

– Sağ ol ki, bizi tanış elədin, – dedi. – Sənin atanın çox... isti qəlbi var.

Heç vaxt belə bir fikir eşitməmişdim, amma bu, yaman xoşuma gəldi.

– Şadam ki, atam xoşuna gəlib.

– Hə, xoşuma gəldi. O çox... mehribandır, – Savanna dedi. Sonra mənə baxdı. – Amma, deyəsən, başa düşürəm ki, gəncliyində niyə problemlərin olub. Atan isə heç də sərt adama oxşamır.

– Hə, elədir... – mən onunla razılaşdım.

O, sınayıcı baxışlarını üzümə dikdi.

– Doğma atanı aldatmısan həmişə...

Güldüm.

– Bəlkə də olub, hərdən... – dedim.

Savanna başını buladı.

– Hər halda, özün daha yaxşı bilirsən.

– Uşaq olmuşam...

– Hə də, gənclik illərinin üzrxahlığı... Yaxşı bilirsən ki, belə şeylər keçmir. Mən heç vaxt ata-anamı aldatmamışam.

– Sən ideal uşaq olmusan, bildik bunu...

– Məni ələ salırsan?

– Yox, əlbəttə yox.

Savanna iti nəzərlərini məndən çəkmirdi.

– Məncə, hə...

– Yaxşı da, ola bilsin, bir azca...

Cavabım, deyəsən, onu düşündürdü.

– Hə, nə olsun, mən buna layiq olmuşam. Amma biləsən ki, mən də ideal uşaq olmamışam.

– Yox?

– Əlbəttə, yox. Məsələn, yaxşı yadımdadı ki, dördüncü sinifdə testdən "dörd" qiymət almışdım.

Mən guya ki, dəhşətə gəldim, onun belə qiymət almasına inanmadım.

– Yooox! Bircə onu demə!

– Amma bu doğrudur.

– Bəs sonra necə dözdün buna?

– Səncə necə? – o, çiyinlərini çəkdi. – Özümə söz verdim ki, bu, bir də təkrar olmayacaq.

Şübhə etmirdim ki, elə belə də olub.

– Hələ acmamısan? – soruşdum.

– Ehh, elə bilirdim daha soruşmazsan.

– Onda necə deyirsən, elə eləyək.

Saçlarını yığıb bağladı, atdı kürəyinə:

– İri, dadlı çizburqer necədi? Gedək?

Bunu eşidəndə təəccüblə düşündüm: Savanna çox yaxşı qızdır, həyatda belə qızların olmasına inanmaq çətindi.

## Yeddinci fəsil

– Deməliyəm ki, sən məni ən yaxşı yerlərə yeməyə aparırsan, – Savanna çiyinləri üstdən ətrafa boylanıb dedi. Uzaqda, qum təpələri arxasında, çınqıl döşənmiş maşın meydançasının ortasında yerləşən "Co Burger" köşkündən üzübəri, ziq-zaq şəklində uzun növbə düzülmüşdü.

– Şəhərdə ən yaxşı burger burda olur, – iri burgerdən bir dişləm alıb dedim.

Savanna yanımda, qumun üstündə, üzü okeana oturdu. Burgerlər çox ləzzətli, həm də qalın idi, kartofundan az qala yağ damırdı, yedikcə adam doyurdu. Yeyib qurtarandan sonra Savanna axşam günəşinin şəfəqlərində üzən okean

dalğalarına baxdı, mən də ona baxa-baxa fikirləşirdim ki, məndən çox, o, buralıya oxşayır.

Onun atamla necə danışdığını xatırladım. Mənimlə, ətrafındakılarla necə danışırdısa, atamla da o cür söhbət etdi. O bilirdi ki, kimlə necə danışmaq lazımdı – bu nadir xüsusiyyətdi. Həm də heç dəyişib eləmirdi. Yaxından-uzaqdan ona bənzəyən birisi yadıma gəlmirdi. Nə zahirən, nə də daxilən. Nəydi onda məni cəlb eləyən, başa düşmürdüm. Biz tamamilə fərqli adamlar idik. O, bir dağ şəhərindən gəlmişdi, istedadlı və gözəl qız idi, qayğıkeş valideynlər onu tərbiyə etmişdi, ehtiyacı olanların hamısına kömək etməyə tələsirdi. Mən piyada ordu əsgəri, qolları tatuirovkada, möhkəmlənmiş, bir az da kobudlaşmış, ata evində də özünü yad hiss eləyən birisi. Atamla bir anda necə dil tapdığını xatırlayıb fikirləşirdim ki, gör valideynləri onu necə də nəcib tərbiyə ediblər. İndi yanımda oturan Savannaya baxdıqca deyirdim ki, kaş bu xasiyyət məndə də olaydı.

– Bu gün niyə belə fikirlisən? – incə səsi məni fikrimdən ayırdı.

– Səhərdən fikirləşirəm ki, sən niyə burdasan? – açıq dedim.

– Ona görə ki, çimərliyi sevirəm, amma həmişə gəlməyə imkanım olmur. Doğulduğum yerlərdə nə dalğalar var, nə də dəniz yengəci ovlayan qayıqlar.

Üzümün ifadəsini görüb, Savanna şuxluqla əlini əlimin üstünə vurdu.

– Sözdü də, danışırıq, – dedi. – Ona görə burdayam ki, burda olmaq istəyirəm.

Yarısını yediyim burgeri kənara qoyub fikirləşməyə başladım: məni rahatsız edən nədir belə? Duyduğum, hiss etdiyim nəsə təzə bir şeydi. Savanna əlini xəfifcə əlimə toxundurub yenə okeana sarı boylandı.

– İlahi mənzərədi! O dəniz sularında batan günəşə bax – insana lazım olan şey varsa, o da budur.

– Həmişə bunu görmək üçün onda gərək məmləkətin o biri başına gedəsən, – deyə söz atdım.

– Doğrudan? Yadıma salmaq istəyirsən ki, günəş Qərbdə batır? – Onun baxışlarında şux, şıltaq bir ifadə vardı.

– Hər halda, mən belə anladım.

Savanna yarımçıq burgerini kağız torbaya qoydu. Sonra mənimkini də onun yanına qoydu. Torbanın ağzını elə yığdı ki, külək açmasın. Sonra ayaqlarını uzadıb yerini rahatladı, mənə tərəf döndü, şux və günahsız baxışları ilə mənə baxdı.

– Bilirsən nə fikirləşirəm? – dedi. Gözləri süzüldü. Baxışları şərbət kimi kimiydi. – Heyifsilənirəm ki, bu son iki günü sən yanımda olmadın. Mən adamları yaxından tanımağı xoşlayıram. Biz dünən bütün dəstə ilə birlikdə nahar elədik. Şamı da bir yerdə yedik. Amma elə bil nə isə çatmırdı. Nə isə itirmişdim elə bil. Elə ki, çimərlikdə səni gələn gördüm, rahatlandım. Başa düşdüm: demək, çatmayan sən idin.

Udqundum. Başqa vaxtı mən bu sözləri deyən qızı öpərdim, amma indi, bunu çox istəsəm də, etmədim. Ya da edə bilmədim. Əvəzində ona baxır, baxışlarından sərməst olurdum. O da çəkinmədən gözlərimə baxırdı.

– Sən soruşanda ki, burda neyləyirəm, mən zarafat elədim. Düşündüm ki, cavab onsuz da aydındır. Səninlə bir

yerdə olmaq... necə deyim, yaxşıdır, daha doğrusu, çox rahatdır. Belə də olmalıdır. Məsələn, mənim valideynlərim. Onlar bir yerdə çox rahatdırlar. Mən də həmişə arzulamışam ki, mənim də həyatım, bax, elə olsun. – O susdu. – İstəyirəm, bir gün onlarla tanış olasan.

Boğazım qurumuşdu.

– Mən də bunu istərdim.

Onun kiçik əli ovcuma sığındı, barmaqları barmaqlarıma hörüldü.

Sakitcə oturmuşduq. Ləpədöyəndə su quşları dimdikləri ilə qumu eşələyir, yem axtarırdılar. Dalğalar coşduqca qağayılar qalxıb enirdi. Səmaya yavaş-yavaş qaranlıq gəlir, buludlar qorxunc şəkil alırdı. Havanın tutqun fonunda çimərlik boyu tək-tük qoşa gəzən qaraltılar gözə dəyirdi.

Dənizdən serfinq taxtasının vıyıltı-şappıltısı eşidilirdi. Qəribə idi – hər şey təzə gəlirdi mənə – təzə, amma rahat və ürəyə yatan. Elə bil yüz ildi ki, bir-birimizi tanıyırıq. Heç çox yaxın da deyildik hələ. “Heç bəlkə də yaxın olmadıq” – bir səs qulağıma pıçıldadı. Bir həftədən sonra çıxıb gedəcəyəm Almaniyaya, bununla da hər şey bitəcək. Uşaq deyiləm ki! Bilirəm ki, Atlantik okeanın sahillərində doğulan belə romantik sevgi üçün iki həftə azdır. Lap qeyri-adi olsa da. Çox eşitmişdim, məzuniyyətə gəlmiş əsgərlərim and içirdilər ki, ömürlük bir sevgiyə düçar olublar. Bəlkə də olmuşdular, amma bu, sonra davam etmirdi.

İndi, Savanna ilə burda oturduğum yerdə elə hey götür-qoy edirdim ki, görəsən, bu ənənəni pozmaq olarmı. Mən onu hər gün görmək istəyirdim, hiss edirdim ki, onu yaddan çıxara bilmirəm. Qəribə görünsə də deyim ki, Savanna

həyatımın bir parçası olmuşdu, onu sabah, ya biri gün, ya da sonralar görməmək, görə bilməmək fikrini ağlıma sığışdıra bilmirdim. Bəlkə biz bu "ümumi qaydanı" pozaq? – deyə fikirləşirdim. İstisna kimi. Nolar ki?

– Ora bax! – Savanna qışqırdı. – Ora! – Okeanı göstərdi – Ləpədöyəndə.

Okeanın tunc rəngli səthinə baxdım, bir şey görmədim. Savanna ayağa sıçrayıb sulara doğru yüyürdü.

– Gəl! – çiyni üstdən qanrılıb mənə səsləndi. – Tez gəl!

Təəccüb içində qalxıb onun dalınca qaçdım. Sürətlə qaçıb tez də çatdım ona. Savanna lap suyun kənarında dayanıb tövşüyürdi.

– Nə olub ki? – soruşdum.

– Ora bax!

Gözlərimi qıyıb onun göstərdiyi səmtə baxdım. Delfinlər bir-birinin ardınca dalğaların üstü ilə üzürdülər, sahilin dayaz sularında gözdən itir, sonra bir az uzaqda yenə görünürdülər.

– Ağ delfinlərdi, – dedim. – Onlar demək olar ki, hər axşam adanın yanından üzüb keçirlər.

– Bilirəm, – Savanna dedi. – Elə bil onlar serfinqdə üzürlər.

– Hə, oxşayır bir az. Onlar əylənir, oynayırlar. Adamlar sudan çəkilib, indi də delfinlərin növbəsidir.

– İstəyirəm onların yanına gedim. Həmişə istəmişəm ki, delfinlərlə üzüm.

– İndi oynamaqdan yorulub daha uzaqlara üzəcəklər. Onlar çox məzəlidir. Serfinqdə üzəndə çox görmüşəm. Maraq göstərsələr, lap adamın yanına gəlirlər, diqqətlə

baxırlar sənə, onların dalınca düşsən, ildırım sürəti ilə üzüb gözdən itirlər.

Delfinlərin arxasınca xeyli baxdıq, onlar üfüqdə, artıq qaranlığa bürünən səmanın altında yox oldular.

– Yəqin, daha getmək vaxtıdır, – dedim.

Geriyə, maşına sarı qayıtdıq, şeylərimizi yığmağa başladıq.

– Bilmirəm, musiqiçilər indi çalırlarmı, hər halda, indi başlayarlar.

– Eybi yox, – Savanna dedi. – Bir şeylə məşğul olarıq. Amma onu da deyim ki, mən yaxşı rəqs eləyə bilmirəm ha...

– İstəmirsənsə, getməyək. Başqa bir əyləncə taparıq.

– Ayrı neyləyə bilərik ki?

– Gəmiləri xoşlayırsan?

– Hansı gəmiləri?

– Nəhəng gəmilər, – dedim. – Burada, yaxında ABŞ hərbi-dəniz qüvvələrinin bir gəmisi dayanıb, – "Şimali Karolina". Gedək baxaq.

Savanna məzəli şəkildə üz-gözünü turşutdu. Bildim ki, istəmir. İlk dəfə deyildi ki, beləcə heyifsilənirdim – kaş öz evim olaydı! Amma olsaydı belə, Savannanın mənimlə gedəcəyini xəyal etmirdim. Onun yerinə mən də olsaydım, getməzdim. Belə də olmalıdır.

– Bir dəqiqə dayan, – dedi. – Mən bilirəm, hara gedək. İstəyirəm sənə bir şey göstərim.

Maraq məni götürdü.

– Hara?

***

Nəzərə alsaq ki, tələbə inşaatçılar evi tikməyə yalnız bir gün əvvəl başlayıblar, təəccüblənməmək mümkün deyildi. Evin tikintisi demək olar ki, qurtarmaq üzrə idi. Hətta damı da qaldırmışdılar. Maşının pəncərəsindən evi seyr edən Savanna mənə tərəf döndü:

– Baxmaq istəyirsən: gör nə işlər görmüşük?!

– Əlbəttə, – dedim.

Maşından düşəndə Savannanın üz-gözündə oynayan ay işığına qibtəylə baxdım. Arxasınca yeridim. Torpaqlı-palçıqlı tikinti sahəsinə ayaq basan kimi qonşu otaqlardan birinin mətbəx pəncərəsindən radio səsi eşitdim. Musiqi səsi gəlirdi. Giriş qapısından bir neçə addım aralı dayanan Savanna tikilmiş evi fəxrlə mənə göstərdi. Yaxın gəlib onu qollarımın arasına aldım, Savanna başını çiynimə qoydu. Elə bil dincəlmək istəyirdi.

– Budur o. Son günlərimi, bax, burda keçirmişəm, – gecənin sakitliyində az qala pıçıltı ilə dedi. – Xoşuna gəlir?

– İnanmaq olmur! – dedim. – Mərc gəlirəm, gələcək sakinlər çox razı qalacaqlar.

– Bəs necə?! Yaxşı bir ailədir. O qədər əziyyət çəkiblər ki, belə bir ev onlara layiqdir. Fren qasırğası evlərini dağıdıb, amma bir çoxları kimi onlara da daşqına görə sığorta verilməyib. Üçuşaqlı bir anadır – əri bir neçə il qabaq evdən çıxıb gedib. Sən onları görsən, xoşuna gələr. Uşaqların üçü də məktəbdə yaxşı qiymətlər alır, həm də kilsədə xorda oxuyurlar. Elə mehriban, tərbiyəli uşaqlardı ki! Dərhal bilinir ki, uşaqların tərbiyəli, mərifətli olması üçün anaları çox zəhmət çəkib.

– Elə başa düşdüm ki, sən artıq onlarla tanış olmusan.

Savanna başı ilə evə işarə etdi.

– Son iki gündə onlar da bizə kömək ediblər, – qamətini düzəltdi. – İçəri girib baxmaq istəyirsən?

Könülsüz-könülsüz qollarımı açdım.

– Gedək də...

Ev çox da böyük deyildi, elə bizim ev boyda idi, amma planlı tikildiyindən bizimkindən geniş görünürdü. Savanna əlimdən tutdu, bir-bir otaqları göstərib hamısı haqqında məlumat verdi. Mətbəx üçün divar kağızları, evə gələn çığıra döşənmiş plitələrin rəngi, qonaq otağında pərdələrin parçası zövqlə seçilmişdi. Sobanın üstündəki rəfi də özü bəzəmişdi. Hamısını özü eləmişdi. Delfinləri gördüyü zaman necə sevinirdisə, indi də o cür heyrət və sevinclə danışırdı. Bir anlığa mənə elə gəldi ki, o lap balaca qızcığazdır.

Sonra çıxış qapısına gəldik. Uzaqlarda şimşək çaxırdı. Qapı arasında dayanıb baxırdıq. Mən Savannanı özümə tərəf çəkib belini qucaqladım.

– Burada üstüörtülü artırma olacaq, – o dedi. – Bir, ya iki yelləncəkli kreslo da, ya da bir yelləncək. Sakinlər yay gecələrində kilsə ibadətindən sonra burada otura biləcəklər. Kilsə isə, bax, ordadır – deyib əli ilə o tərəfə işarə etdi. – Ona görə də ev çox yaxşı yerdə tikilib.

– Elə danışırsan ki, elə bil yüz ildi onları tanıyırsan.

– Yox, onlarla bir neçə dəqiqə söhbət etmişəm, – Savanna dedi. – Qalan şeyləri özüm fikirləşmişəm. Hər dəfə belə olur. Tikdiyimiz evlərdə otaqları bir-bir gəzirəm, çalışıram təsəvvür eləyəm ki, burada sakinlər necə yaşayacaq. Onda evi tikmək də maraqlı olur.

Ayın buludların arxasına girməsi ilə səma qaraldı. Üfüqdə şimşəklər çaxdı, bir azdan narın yağış başladı, ilk damlalar artıq damda təbil çalmaqda idi. Şimşək səsi boş evdə əks-səda verdi. Küçə boyunca əkilmiş palıdların əlcə-əlcə yarpaqları küləyin ağzında bərkdən vıyıldadı.

– Restorana getmək istəyirsənsə, yağış bərkiməmiş gedək.

– Yadına sal, məgər hökmən harasa getməliyik? Bir də ki, mən şimşəkləri çox sevirəm.

Mən onu lap yaxına çəkdim. Saçlarını qoxladım. Şirin bir rahiyyəsi vardı saçlarının. Yetişmiş çiyələk ətri verirdi.

Bayaqdan narın yağan yağış indi leysana çevrilib dörd bir yandan çırpılırdı. Küçə fənərlərinin uzaqdan düşən zəif, tutqun işığında Savannanın yarı işıqlanan üzü mübhəm bir cazibə saçırdı.

Göy qurultusunun yeni dalğası evi lərzəyə saldı, divarlardan yağış suyu axmağa başladı. Su taxta kəpəyi səpilmiş döşəməyə yayılır, göllənirdi, evin yanında palçıqlı gölməçələr yaranırdı. Şimşəklər guruldamağında olsun, mənim qəlbimdə əsl yay havası vardı. Küncdə boş yeşiklər gördüm. Onları üst-üstə yığıb oturacaq düzəltdim. Çox rahat olmasa da, ayaq üstə durmaqdan yaxşı idi.

Savanna yanımda oturdu, yalnız bu an başa düşdüm ki, bura gəlməkdə düz hərəkət etmişik, belə də olmalı idi. İlk dəfə idi ki, beləcə gözdən uzaq, ikilikdə, tək qalırdıq. Belə yanaşı oturmuş halda dadlı düşüncələrə daldım – elə bil illər boyu birlikdə olmuşduq.

## Səkkizinci fəsil

Amma narahat, taxta yeşiklər xoş niyyətimi doğrultmadı. Savanna etirazsız-zadsız oturub kürəyini yeşiyə söykədi, kənarları iti taxtalar deyəsən, dərisinə batdı, çünki tez də ayağa durdu.

– Bağışla, – dedim. – Elə bildim, belə rahat olacaq...

– Heç nə olmaz, keçib gedər. Bir az ayaqlarım yorulub, pəncələrim ağrıyır, deyəsən. Oturacaq yaxşıdır.

Hə, əlbəttə, yorulanda oturduğun hər yer rahat gəlir adama. Qarovulda durduğum uzun gecələri xatırladım. Xəyalımda sevdiyim qızla beləcə oturub gələcək arzularıma baş vurur, dünyanı rahat və xoşbəxt təsəvvür edirdim. İndi bilirdim ki, qalan xidmət illərimdə nəyin həsrətini çəkəcəyəm. Savannanın başını çiynimə qoyduğunu hiss edəndə ürəyimdən keçdi ki, kaş orduya getməyəydim, xidmət etdiyim hərbi hissə başqa ölkədə olmayaydı; kaş ayrı bir həyat yolu seçəydim. Qalıb onun həyatının bir parçası olardım. O oxuyan Çapel Hilldə tələbə olaydım. Yayda onunla birlikdə ev tikib, sonra at minəydim.

– Nə yaman dərin fikrə getmisən? – Savannanın səsi məni xəyallardan ayırdı.

– Bağışla, – dedim. – Bugünkü günümüz haqqında fikirləşirdim.

– Yəqin, yaxşı şeylər fikirləşirsən də...

– Əlbəttə, yaxşı şeylər... – dedim.

Savanna oturduğu yerdə yerini rahatlamaq istəyəndə bir az da mənə tərəf qısıldı.

– Mən də, – dedi, – səhərdən atan haqqında fikirləşirəm. O həmişə belədir? Beləcə sıxılır, utanır, adamla danışanda adamın gözünün içinə baxmır?

– Hə, – dedim. – Niyə soruşursan ki?

– Sadəcə, maraqlıdır.

Bir az o yanda tufanla yağan yağış, deyəsən, son gücünü göstərirdi – qəfildən vedrədən tökülən kimi yağmağa başladı. Yenidən ildırım çaxdı. Bu dəfə lap yaxında, başımızın üstündə çaxdı elə bil. Evin pəncərələrində şüşə olsaydı, gör nə cingildəyərdi, düşündüm.

Savanna bir az da mənə qısıldı, mən onu qucaqladım. O, oturduğu yerdə ayağını ayağının üstünə çarpaz uzadıb mənə söykəndi. Ömrümün axırına qədər beləcə oturmağa hazır idim.

– Sən tanıdığım oğlanlara heç oxşamırsan, – Savanna az qala pıçıltı ilə, intim bir səslə qulağıma dedi. – Daha yetkinsən... həm də yüngül deyilsən...

Gülümsündüm. Sözləri xoşuma gəldi.

– Üstəlik, saçım qısa qırxılıb, tatuirovkam var...

– Hə, saçını qısa qırxdırmısan, tatuirovkan isə... qoy onlar da ümumi ahəngə daxil olsun. Heç kim nöqsansız deyil.

Yüngülcə böyrünü dirsəklədim – guya xətrimə dəydi sözləri.

– Bilsəydim xoşuna gəlməyəcək, çəkdirməzdim onları...

– İnanmıram, – dedi, bir az məndən aralandı. – Amma sən haqlısan. Mən bir az artıq şeylər dedim. Bunu da ona

görə dedim ki, yəni tatuirovka məndə olsaydı, belə hiss eləyərdim. Səndə isə, necə deyim, onlar elə bil obrazı tamamlayan bir ştrixdir. Həm də yaraşır sənə.

– O hansı obrazdır elə?

Savanna barmağı ilə tatuirovkalarıma işarə etdi. Çin heroqliflərindən başladı.

– Məsələn, bunlar deyir ki, sən öz qaydalarınla yaşayırsan, başqasının nə dediyi səni maraqlandırmır. Piyada bölüyünün emblemi o deməkdir ki, sən öz işinlə fəxr edirsən. Bu tikanlı məftillər isə yeniyetməlik dövründən xəbər verir.

– Lap psixoloji təhlilə oxşadı. Mənsə fikirləşirdim ki, burada yalnız təsvir xoşuma gəlir.

– Mən də psixologiyanı ikinci ixtisas kimi öyrənmək istəyirəm.

– Sən artıq psixoloqsan.

Külək qalxdı, yağış səngiməyə başladı.

– Sən heç sevmisən? – Savanna qəfildən söhbəti dəyişdi. Təəccübləndim.

– Bu hardan çıxdı birdən-birə?

– Eşitmişəm ki, gözlənilməz hərəkət qadınların sirrini-sehrini daha da artırır.

– Hə, yəqin ki. Sualına gəldikdə isə, heç bilmirəm nə deyim.

– Necə yəni, bilmirəm?

Tərəddüd etdim, bilmirdim, nə deyim.

– Bir neçə il qabaq sevdiyim bir qızla görüş təyin etdim. Hər halda, mənə elə gəlirdi ki, sevirəm onu. İndi dönüb arxaya baxanda görürəm ki, yox, yəqin, sadəcə bir-

birimizə öyrəşmişdik, vaxtımızı xoş keçirirdik, ona görə... Görməyəndə darıxırdım. Necə deyim, birlikdə idik, amma birlikdə olmaq hələ bir olmaq, qoşa olmaq deyildi. Çox tanımırdım onu. Lap doğmalaşa bilmirdik... Bax, belə...

Savanna cavabımı eşidib fikrə getdi. Düşündüm ki, yəqin indi mənim növbəmdi.

– Bəs sən? Sevmisən heç?

Savannanın üzü tutuldu.

– Yox, – dedi.

– Amma yəqin, elə mənim kimi, sənə də elə gəlib ki, sevmisən, hə? – Savanna tez-tez köksünü ötürdü. Mən davam etdim. – Mənim bölüyümdə də istər-istəməz psixoloq olmaq lazım gəlir. İntuisiyam deyir ki, sənin də sevdiyin olub...

O güldü. Bir az laqeyd və qəmli idi gülüşü.

– Bilirdim ki, hiss edəcəksən, – zəif səslə dedi. – Hə, birini sevmişdim. Kollecin birinci kursunda. İnanırdım ki, onu sevirəm.

– İndi isə inanırsan ki, yox, sevməmisən. Elə deyil?

Bu dəfə cavab çox gecikdi.

– Yox, – o mızıldadı. – İndi sevmirəm.

Üzünə baxdım.

– Danışmaq istəmirsənsə... – dedim.

– Yox, fərq etməz, – o sözümü kəsdi. – Hər halda çətindi. Çalışdım ki, unudum. Həm də valideynlərimə heç demədim. Heç kimə demədim. Bilirsən, mənasız görünür bir az. Kiçik əyalət şəhərindən gəlmiş sadədil bir qız, universitetin birinci kursunda oxuyan zaman yuxarı kursda oxuyan gözəl bir oğlanla qarşılaşır. Bu oğlan həm də

həmyerli tələbələrin təşkilat sədridir. Tələbələr arasında tanınır, zəngin ailədəndir, üstəlik, yaraşıqlı oğlandır. Əyalətdən gəlmiş qız da düşünür ki, belə bir oğlan onun kimi bir qızla maraqlana bilər. Bu özündən müştəbeh oğlan da əhatəsinə göstərmək istəyir ki, guya bu qıza xüsusi münasibət bəsləyir, qız da görür ki, o biri "birincilər" ona necə həsəd aparır. Ona görə də özünün belə "xüsusi münasibət"ə layiq olduğunu düşünür, xəyallar qurur. Qız da bu xəyallarla Yeni İli şəhər kənarındakı oteldə bayram eləyən həmin oğlanın dəstəsinə qoşulur. Qıza deyirlər ki, oğlana çox da inanma, o, sevgi hissi-zadı bilmir, çarpayısına dartdığı qızların sayı ilə fəxr edir.

Savanna gözlərini yumdu, elə bil davam etməyə çətinlik çəkirdi.

– O qız  isə dostlarının sözünə baxmır, halbuki onlar istədiklərindən onu xəbərdar edirdilər. O sadədil qız spirtli içki içmir, belə olanda oğlan ona su gətirir. Bir azdan qız hiss edir ki, başı hərlənir, oğlan onu otelin arxa otaqlarından birinə aparır ki, bir az uzansın. Sonra qız hiss edir ki, deyəsən, onlar yataqdadırlar, öpüşürlər. Əvvəlcə bu, xoşuna gəlir, sonra görür ki, get-gedə özünü pis hiss edir, başı hərlənməkdə davam edir. Bir qədər sonra ağlına gəlir ki, bəlkə oğlan suya nəsə qatıbmış və bu, elə əvvəldən onun niyyəti olub.

Savanna tez-tez, kəsik-kəsik danışırdı, elə bil sözlərdən canını qurtarmaq istəyirdi.

– Sonra oğlan qızın döşlərini sıxmağa başlayır, paltarını dartışdırır, tumanını çıxarmaq istəyir. Oğlan qızın üstünə uzanıb, özü də elə ağırdır ki, itələmək, qaldırmaq olmur. Qız

özünü köməksiz hiss edir, oğlanı saxlamaq istəsə də, bacarmır, çünki heç vaxt belə şey görməyib. Başı yenə hərlənir, dili dolaşır, qışqıra da bilmir... Hər şey beləcə qurtaracaqdı, amma bu zaman bir qızla bir oğlan içəri daxil olur. Oğlan özünü itirir, qız durub paltarını birtəhər düzəldir, səntirləyə-səntirləyə otaqdan çıxır, tualetə qaçır. Orada hıçqırmağa başlayır. Dəstədən olan o biri qızlar içəri girir, onu ağlayan görürlər. Onun paltarı cırılmış, gözünün sürməsi üzünə yayılmışdı. Qızlar ona təsəlli vermək əvəzinə gülürlər, ələ salırlar, deyirlər ki, o, əvvəldən bilməli idi ki, belə olacaq; ona görə də o, başına gələnlərə layiqdir. Sonra qız oğlan dostuna zəng edir, dostu maşınla otelə gəlir, ondan heç nə soruşmadan götürüb aparır.

Dinlədikcə qəzəb məni boğurdu. Mən müqəddəs adam deyiləm, amma mənimlə yaxınlıq etmək istəməyən qadını güclə buna heç vaxt məcbur etmərəm.

– Bağışla, – güclə deyə bildim.

– Sən neyləyəsən ki? Sən eləməmisən bunu...

– Bilmirəm, nə deyim? Təkcə onu bilirəm ki... – səsimi boğdum.

Savanna mənə tərəf döndü. Yanaqlarından yaş axırdı. Belə səssiz ağlamağından ürəyim yaman sıxıldı.

– Təkcə nəyi bilirsən?

– Onu bilirəm ki, əgər istəyirsənsə onun əzişdirim, dərsini verim.

Savanna kədərlə güldü.

– Təsəvvür eləmirsən ki, mən bunu nə qədər arzulamışam.

– Dərsini verəcəm onun, – dedim. – Sən bircə onun adını de. Mən haqq-hesab çəkəcəm onunla. Sənlik burda heç bir şey yoxdu.

O, əlimi sıxdı.

– Bilirdim ki, belə də deyəcəksən.

– Mən ciddi deyirəm, – dedim.

O, güclə gülümsündü. Bu halında o elə pərişan idi ki! Eyni zamanda məsum bir uşağa oxşayırdı.

– Elə ona görə də adını deməyəcəyəm. Amma inan, sənin sözündən çox mütəəssir oldum. Çox nəcib oğlansan.

Bu sözlər mənə çox xoş gəldi. Yan-yana oturub əlini möhkəm-möhkəm tutmuşdum. Yağış, nəhayət ki, kəsdi. Sakitlik içində yenidən yaxınlıqdakı evdən radio səsi eşidildi. Mahnını tanımırdım, deyəsən, keçmiş caz melodiyalarından idi. Bölüyümdəki əsgərlərdən biri caz vurğunu idi.

– Hər halda, – o dedi, – buna görə sənə deyirdim ki, birinci kursda çox çətin keçdi mənimçün. İstəyirdim ki, universiteti atım. Valideynlərim isə, Allah onları saxlasın, elə bilirdilər ki, ev üçün darıxıram, birtəhər dilə tutdular məni. Amma... baş verənlərdən nə isə öyrəndim, dərs oldu mənə bu, belə ağrılı şeylərə dözməyi öyrəndim. Demək istəyirəm ki, daha pis ola bilərdi, çox pis ola bilərdi. Amma onda, həqiqətən, çox üzüldüm, çox...

Yalnız bu zaman bir şey yadıma düşdü.

– Həmin gecə səni maşında aparan Tim idi, hə?

Savanna diksinib heyrətlə mənə baxdı.

– Başqa kimə zəng eləyə bilərdin ki? – özüm-özümə izah etdim.

O, başı ilə təsdiqlədi.

– Hə, o idi. Tim özünü çox alicənab apardı o vaxt. Məndən heç nə soruşmadı, mən də heç nə demədim. Amma elə o vaxtdan məni müdafiə eləyir, həyan olur mənə, mən də etiraz etmirəm.

Araya sükut çökdü, mən onun nələrə dözdüyünü təsəvvür etdim. Yəqin, sonralar da dözməli olub. Özü deməsəydi, başına belə iş gəldiyi heç ağlıma da gəlməzdi. Başına belə bir iş gəldiyi halda dünyanı, həyatı belə ümidlə sevə bilmək, belə nikbin olmaq asan deyil.

– Söz verirəm ki, centlmen kimi hərəkət edəcəyəm, – dedim.

Savanna mənə tərəf döndü.

– Nədən danışırsan?

– Bu gün də, sabah da, elə hər vaxt... mən o əbləh kimi olmayacam...

O, barmağı ilə çənəmə toxundu, hiss etdim ki, bu toxunuşdan vücudum ehtizaza gəldi, bədənim titrədi.

– Bilirəm, – şuxluqla dedi, – bilməsəydim, səninlə gəlməzdim.

Mehriban sözləri ruhuma işlədi, onu öpməkdən özümü zorla saxladım. İndi ona bu lazım da deyildi, xüsusən, indi.

– Bilirsən, birinci dəfə axşam sən gedəndən sonra Suzen nə dedi?

Gözlədim, görüm nə deyib Suzen.

– Dedi ki, sən çox qorxunc görünürsən. O, heç vaxt səninlə bir yerdə bir an da qalmaq istəməzdi.

Mən gülümsündüm.

– Mənə başqa şeylər də deyiblər...

– Yox, dediyimi tuta bilmədin. Demək istəyirəm ki, o, heç başa düşmürdü ki, nə deyir, çünki birinci gün çimərlikdə sən çantamı mənə uzadanda sənin hərəkətlərində vicdan, arxayınçılıq, daha çox nəciblik gördüm, nəinki qorxu, vahimə. Qəribə görünə bilər, amma həmin gün mənə elə gəldi ki, səni illərdi tanıyıram.

Bir şey deməyib üzümü o yana çevirdim. Küçə fənərlərinin işığında yerdən qalxan buğ dalğa-dalğa yayılırdı – gündüzün istisindən qızmış torpaq yağışın rütubətini canına çəkir, buxarlandırırdı. Cırcıramalar səs-səsə verməkdə idi. Boğazımda quruluq hiss etdim, qarışıq, utancaq bir duyğudan udqundum. Əvvəlcə, Savannaya, sonra otağın tavanına, öz ayaqlarıma, sonra yenə də ona baxdım. O, incə bir sığalla əlimi sıxdı, nəfəsim təngidi elə bil heyrət hissi məni bürüməkdə idi – necə olur ki, belə adi bir gündə, sadə bir yerdə Savanna Linn Kertis adlı qeyri-adi bir qızı sevməyə başlayıram. Necə olur bu?

Savanna üzümün ifadəsindən halımı düz başa düşmədi, deyəsən.

– Bəlkə nə isə artıq-əskik dedim, – o, pıçıltı ilə dedi. – Hərdən məndə belə olur, fikirləşmədən danışıram, sonra da... Nəzərə almıram ki, dediklərim başqasına necə təsir edə bilər...

– Hər şey yaxşıdı, – dedim, əlimlə onun üzünü özümə tərəf çevirdim. – Sadəcə, indiyə qədər heç kim mənə belə, bu sayaq bir şey deməyib.

Bir anlıq susdum. Hiss etdim ki, sözlərimi içimdə boğsam, sonra gec olar, gec olar... Demək istədiyimi məhz indi deməliyəm.

– Təsəvvür etmirsən ki, bu son günlər mənim üçün nə deməkdir, – dilim açıldı. – İndiyə qədər həyatımda baş verən ən yaxşı şey səninlə görüşməyimdir. – Tərəddüd etdim yenə, amma başa düşdüm ki, indi deməsəm, cəsarət edib heç vaxt deyə bilmərəm ürəyimdəkiləri. – Mən səni sevirəm, – pıçıldadım.

Mənə elə gəlirdi ki, bu sözləri demək çox çətin olacaq, amma belə olmadı, çünki mən hələ heç vaxt dediyimə bu qədər əmin olmamışdım. Savannanın da bir gün bu sözləri mənə deyəcəyinə çox ümid edirdim. Amma indi çox sakit şəkildə, həyəcansız-zadsız onu sevdiyimi dedim, ondan heç nə gözləmədən, əvəz ummadan.

Bayırda hava sərinləşir, orda-burda gölməçələr ay işığında parıldayırdı. Buludlar dağılırdı, dağıldıqca aralarından ulduzlar boylanırdı. O ulduzlar indicə etiraf edilmiş sevgimin şahidləri idi.

– Ömründə belə bir şey təsəvvür etmişdin? – Savanna soruşdu. – Bax, belə, indiki kimi – sən, mən... ikimiz...

– Yox, – dedim.

– Bu məni qorxudur bir az...

Nəfəsim təngidi, birdən mənə elə gəldi ki, o heç də mənim kimi eyni hisslər yaşamır.

– Sənin də bu sözləri hökmən deməyin lazım deyil, – dedim. – Mən ona görə demədim ki, səndən də bu sözləri eşidim...

– Bilirəm, – o, sözümü kəsdi. – Məni başa düşmədin: mən ona görə qorxmuram ki, sən bunu etiraf etdin. Qorxum ondan idi ki, mən də eyni sözləri sənə demək istəyirdim. Mən səni sevirəm, Con...

İndi də bilmirəm ki, bu necə oldu. Bir an qabaq biz axı danışırdıq, bir an sonra isə köksümə sığınan Savannanı bərk-bərk qucaqlamışdım. Tərəddüd edirdim, birdən onu öpsəm, bizi ağuşuna almış bu heyrət tilsimi dağılar. Amma gec idi, buna qarşı dayanmaq müşkül idi. Dodaqlarımız biri-birinə toxunanda başa düşdüm ki, bundan sonra yüz il də yaşasam, hayana yolum düşsə də, bu saat heç nə... heç nə bu anla, xəyallarımdakı qızı ilk dəfə öpdüyüm bu anla müqayisə oluna bilməz, çünki inanırdım ki, sevgimiz əbədidir.

## Doqquzuncu fəsil

Ayrılmaq istəmirdik, ayrıla bilmirdik. Yenidən çimərliyə getdik, qumlar boyu xeyli gəzdik, o vaxta qədər ki, Savanna əsnəməyə başladı. Onu evə qədər gətirdim, artırmanın işığına çırpılan pərvanələrin aramsız tap-tupu altında bir-birimizi təzədən öpüşlərə qərq etdik.

Savanna haqqında xeyli düşündüyüm əvvəlki günlə sonrakı gün müqayisəyə gəlməz – bu gün o, bir an da yadımdan çıxmırdı. Girib oturmuşdu beynimdə. Amma dünən-bu gün duyduqlarım tamam fərqli şeylərdi. Bu gün elə hey səbəbsiz-zadsız gülümsünürdüm, atam axşam işdən gələndə o da bunu hiss etdi. Heç nə demədi, nəsə deyəcəyini də gözləmirdim, əlbəttə. Amma ləzzətli italyan yeməyi hazırladığını eşidib kürəyini sevinclə şappıldadanda təəccüblənib-eləmədi. Elə hey Savannadan danışırdım ona. Sonra o öz otağına çəkildi. Mənimlə az danışdı, amma aydın görünürdü ki, mənə görə xoşbəxtdir, çünki dil boğaza qoymadan hər şeyi danışırdım. Bir gün sonra gecə evə yenə

gec gələndə, mətbəxdə atamın sevincinin daha bir nişanəsini gördüm: stolun üstündə fıstıq yağı ilə qızardılmış dadlı yemək, üstündə də belə bir qeyd yazılmış kağız vardı: "Süd soyuducudadır".

Savannanı əvvəlcə dondurma yeməyə, sonra Uilminqtonun görməli yerlərinə apardım. Dükanları gəzdik. Savanna antikvar şeylərə çox maraq göstərirdi. Sonra onu keçən dəfə getmədiyi gəmiyə baxmağa apardım, amma orada çox qalmadıq. O haqlı idi, nəsə maraqlı bir şey yoxdu orda. Sonra da Savannanı çimərlikdəki evə apardım, onun tələbə dostları ilə tonqal ətrafında oturduq.

Sonrakı iki axşam Savanna bizim evdə oldu. Hər iki axşam şam yeməyini atam hazırladı. Birinci axşam Savanna atamdan sikkələrlə bağlı heç nə soruşmadı, söhbətimiz çətin alınırdı. Atam ancaq qulaq asırdı. Savanna üzünə xoş ifadə verərək onu söhbətə çəkmək istəyir, o isə adəti üzrə susub boşqabına baxırdı, ona görə də əsasən biz ikimiz danışırdıq. Savanna xudahafizləşib gedəndə bir az qaşqabaqlı idi, atam haqqında onun təəssüratının dəyişməsini istəməsəm də, görürdüm ki, onsuz da dəyişib.

Təəccüblü idi – sonrakı gün o, xahiş etdi ki, axşam bizə gəlmək istəyir. Gəlib atamla sikkələr haqqında uzun-uzadı danışdılar. Deyirdim, görəsən, Savanna mənim böyüdüyüm bu mühitdə özünü necə hiss edəcək, Allaha yalvarırdım ki, qoy o məndən diqqətli, məndən həssas olsun. Amma narahatlığım əbəs imiş, çimərlikdəki evə qayıdanda yolboyu Savanna ən xoş sözlərlə atamdan danışır, mənim kimi bir oğul böyütdüyünü xüsusilə qeyd edirdi. Nə baş verdiyini

axıra qədər dərk etməsəm də, dərindən köksümü ötürdüm: Savanna, axır ki, deyəsən, atamı olduğu kimi qəbul etmişdi.

Həftəsonu günlərdə çimərlikdəki evin sakinləri məni görməyə adət etmişdilər. Çoxları adımı bilirdi, amma mənimlə az maraqlanırdı. Ağır işdən sonra yorğun olurdular. Axşam saat yeddi-səkkizdə əksəriyyəti televizorun başına yığışırdı, görünür, yorğunluq içkini, çimərlik əyləncələrini arxa plana atmışdı. Tələbə inşaatçılar günəşdə yanıb qaralmışdılar, hamının əlində, barmağında döyənək plastırları görə bilərdin.

Şənbə günü axşam isə elə bil onların ehtiyat enerjisi işə düşürdü, çünki həmin gün mən ora gələndə bir dəstə oğlan maşından pivə yeşiklərini boşaldırdı. Mən pivələri yuxarı daşımaqda onlara kömək etdim, amma yadıma düşdü ki, Savanna ilə tanış olandan bəri dilimə spirtli içki dəyməyib. Bir həftə əvvəl olduğu kimi, tələbələr qril bişirir, biz də tonqal ətrafında yeyirdik. Hamı ilə bir az oturub sonra Savanna ilə çimərliyə gəzməyə çıxdıq. Mən bir adyal və içində müxtəlif yeməklər olan ağzı örtülü zənbil götürmüşdüm. Adyalın üstündə uzanıb axan ulduzları heyrətlə seyr edirdik. Bir anlıq, məzəli şəkildə göy üzündən qopan ulduzlar parlaq xətt kimi yerə doğru axırdı. Gözəl hava vardı. Unudulmaz gecə idi. Yüngül dəniz küləyi istini qovur, ürəyə yayılan sərinlik gətirirdi. Biz saatlarla danışır, öpüşürdük. Sonra qol-boyun olub bir-birimizin ağuşunda oradaca yuxuya getdik.

Bazar günü səhər tezdən, günəş üfüqdən təzəcə boylananda mən qumlar üstə oyanıb Savannanın yanında oturmuşdum. Sübhün şəfəqi onun üzündə əks etmişdi,

saçları adyalın üstünə dağılmışdı. Bir əli sinəsində dincəlirdi, o birini başının üstündən uzatmışdı. Bu saat təkcə onu düşünürdüm ki, nə ola, qalan bütün ömrümü bu qızla yanaşı yatım.

Yenə kilsəyə getdik. Tim adəti üzrə canfəşanlıq edirdi, amma həftə ərzində onunla bir-iki kəlmə danışmışdıq, ya yox. O isə mənə yenə tikintidə işləməyi təklif etdi. Dedim ki, mən üç-dörd gündən sonra gedirəm, ona görə də onlara çətin ki, kömək edə bilim.

– Sən axırda Conu təngə gətirəcəksən, – Savanna gülə-gülə Timə dedi.

Tim əllərini qaldırdı:

– Heç olmasa deyə bilməzsiz ki, mən demədim.

Bu həftə bəlkə də həyatımda ən ruhsal günlərimi yaşadım. Savannaya olan sevgim gündən-günə artırdı. Amma günlər keçdikcə qəlbimi bir nigaranlıq sarmaqda idi, hiss edirdim ki, tezliklə bunlara son qoyulacaq. Özümü sakitləşdirməyə, həyəcanlarımı boğmağa çalışırdım. Amma bazar günü gecə heç cür özümü ələ ala bilmirdim, Savannanı düşünür, yuxum ərşə çəkilirdi. Yatağıma qor dolmuşdu elə bil. Təsəvvür edirdim ki, tezliklə mən okeanın o tayında olacağam, onu burada, bu oğlanlar arasında qoyub okeanın o tayında necə rahat ola bilərəm? Birdən onların biri onu sevə bilər, sevmək istəyər...

Bazar ertəsi günü çimərlikdəki evə gəldim. Amma Savannanı tapa bilmədim. Xahiş etdim, onu axtardılar, özüm də tualetləri bir-bir yoxladım. Evin arxasındakı taxta döşəməyə də baxdıq. O, yox idi.

Çimərliyə enib burada dincələnlərdən soruşdum. Onu gördüm deyən olmadı. Bir neçəsi heç onun burda olmadığını bilmirdi. Axırda qızlardan biri – adı Sendi, ya da Sindi idi – dedi ki, təxminən bir saat qabaq Savannanı qum təpələrinə tərəf gedən görüb.

Xeyli axtarandan sonra onu tapdım. Çimərliyi ələk-vələk edəndən sonra dedim, bir dəniz körpüsünə də baxım. Sahil daşlarına çırpılan dalğaların səsi altında körpüyə qalxanda Savannanı gördüm. Dedim, yəqin, buralara çəkilib ki, delfinlərə, ya da serfinqdə üzənlərə tamaşa etsin. O, dirəklərdən birinin yanında oturmuşdu, kürəyini dirəyə söykəyib, ayaqlarını qucaqlayıb oturmuşdu. Yaxın gələndə ağladığını hiss etdim.

Heç vaxt bilməmişəm ki, bir qız ağlayanda nə etmək lazımdı. Ümumiyyətlə, kimsənin ağladığını görəndə nə etmək lazım olduğunu bilmirəm. Atam heç vaxt ağlamırdı, hər halda, yanımda ağlamamışdı, özümsə axırıncı dəfə üçüncü sinifdə olanda ağlamışdım. Onda da taxta daxmadan yıxılıb biləyimi əzmişdim. Orduda bir neçə dəfə kişilərin ağladığını görmüşdüm. Əgər bölüyümdəki əsgərlərdən biri ağlayırdısa, təskinlik üçün yavaşca əlimi kürəyinə vurur, sakitləşdirir, keçib gedirdim. Qalan işləri psixoloqun öhdəsinə buraxırdım.

Savannanı ağlayan görəndə bilmədim nə edim. O da məni gördü. Tələsik də şişib qızarmış gözlərini sildi. Təlaş içində köksünü ötürdüyünü eşitdim. Bir neçə gün qabaq okeandan çıxardığım çantasını ayaqlarının arasında bürmələmişdi.

– Yaxşısan? – soruşdum.

– Yox, – dedi. Mənim də ürəyim sıxıldı.

– Bəlkə tək qalmaq istəyirsən?

Savanna fikrə getdi. Sonra:

– Özüm də bilmirəm, – dedi.

Mən də nə etmək lazım olduğunu bilmirdim. Quruyub qalmışdım. Savanna köksünü ötürdü.

– İndi keçib gedər, – dedi.

Əllərimi cibimə salıb yenə soruşdum:

– Bəlkə mən gedim? Belə yaxşıdır?

– Gərək hökmən cavab verim?

Nə deyim, tərəddüd etdim.

– Hə...

O rişxəndlə gülümsündü.

– Qala bilərsən, – dedi. – Əslində, gəlməyin çox yaxşı oldu.

Yanında əyləşdim. Bir anlıq tərəddüddən sonra çiynini qucaqladım. Bir az dinməzcə oturduq. Savanna uzun-uzadı köks ötürdü. Sonra nəfəsi rahatlandı. Yanağında gilələnmiş göz yaşlarını sildi.

– Sənə bir şey almışam, – o dedi. – Elə bilirəm, xoşuna gələcək.

– Yəqin ki... – mızıldandım. Savanna burnunu çəkdi.

– Bilirsən, burada oturub nə haqda fikirləşirdim? – Cavabımı gözləmədən davam etdi. – O haqda ki, səninlə ilk dəfə necə görüşdük, birinci dəfə axşam necə danışdıq, tatuirovkalarda ilk dəfə necə görünürdün, Rendiyə necə zəhmlə baxdın, ilk dəfə serfinqə gedərkən mən taxta üstə üzüb sahilə gəlib çatanda sən necə təəccüb içində qalmışdın...

O susdu. Mən belini qucaqladım.

– Nəsə elə bil mənə kompliment demək istəyirsən.

O gülümsəməyə çalışdı, alınmadı, dodaqları əsdi.

– O ilk günləri anbaan xatırlayıram, üstəlik, həftə boyu baş verənləri də. Atanla söhbət etdik, dondurma yedik, hələ gəmiyə baxmağımız... hamısı...

– Daha getməyəcəyik, – zarafata saldım, amma o, əlini qaldırdı.

– Qoy sözümü qurtarım, – dedi. – Əsas fikrimi tutmadın. Məsələ burasındadır ki, mən bu günlərin hər anını sevirəm. Mən bunu gözləmirdim. Hər şey elə gözlənilməz oldu ki... Buraya bunun üçün gəlməmişdim. Səni sevməyə gəlməmişdim bura. Nə də atanla söhbət etməyə gəlməmişdim...

Dinməzcə, gərgin halda qulaq asırdım ona. O, saçını qulağının arxasına yığdı.

– Məncə, sənin atan çox yaxşı adamdır. Sənə yaxşı tərbiyə verib. Amma ata-oğul münasibətləriniz gərgindi bir az...

Deyəsən, içindəkiləri ifadə etməyə lazım olan sözü tapa bilmirdi. Nə demək istəyirdi, mat qalmışdım. Dedim:

– Elə buna görə ağlayırdın? Ona görə ki, atamla mənim münasibətim belədir?

– Yox, – dedi. – Sən elə bil məni eşitmirsən. – Dayandı bir az. Elə bil dağınıq hisslərini, düşüncələrini sahmana salırdı. – Mən heç kəsi sevmək istəmirdim. Buna hazır deyildim. Onsuz da bir dəfə çəkmişdim bunu. Heç özümdə deyildim. Sən, əlbəttə, başqa cürsən, amma sən də bir-iki

gündən sonra çıxıb gedəcəksən, hər şey də bununla bitəcək... mən yenə qalacam fikirlər əlində...

– Niyə hər şey hökmən bitməlidi? – etiraz etdim ona.

– Amma bitəcək də... – o dedi. – Bilirəm, yazışmaq olar, telefonla danışmaq olar, səni yalnız evə məzuniyyətə gələndə görə bilərəm. Amma bizim istəyimiz bu deyil axı. Səni görməyəcəm. Mənə belə heyrətlə, mat-mat baxan səni görməyəcəm ki! Yenə qumluqda elə yanaşı uzana bilmərik ki! Ulduzlara baxa-baxa, bir-birinə qısılıb qəlbimizdəkiləri pıçıltılarla bir-birimizə deməyəcəyik... bölüşməyəcəyik... İndiki kimi məni qucaqlayan qolların yanımda olmayacaq daha...

Üzümü döndərdim, qəlbimdə baş qaldıran əndişə və ümidsizliyi boğmaq istədim. Savannanın dedikləri doğru idi...

– Mən bunu yalnız bu gün dərk etdim, – Savanna davam etdi. – Kitab dükanında kitablara baxa-baxa. İstəyirdim sənə bir kitab alım. Kitabı tapandan sonra fikirləşdim ki, görəsən, sən buna nə deyəcəksən. Bilirdim ki, bir-iki saatdan sonra səni görəcəyəm. İnanırdım ki, hətta hədiyyəm sənin xoşuna gəlməsə belə, hər şeyi üz-üzə, göz-gözə, rahatca danışıb ayırd edə bilərik. Bilirsən, nə qədər ki, bir yerdəyik, bizim üçün mümkün olmayan şey yoxdu. – Bir az tərəddüd etdi, sonra yenə davam etdi. – Amma lap tezliklə bu bitəcək. Elə əvvəldən də bilirdim ki, sən beş-altı günlük burdasan, amma ağlıma gəlməzdi ki, vidalaşmaq belə əzablı olacaq mənimçün.

– Mən səndən ayrılmıram, vidalaşmıram, – deyib üzünü ehmalca özümə tərəf çevirdim.

Bir az aşağıda dalğalar hirslə dirəklərə çırpılıb dağılırdı. Başımızın üstündən qağayılar uçub keçdi. Əyilib Savannanı öpdüm, dodaqlarım onun dodaqlarına yapışdı. Elə bil nəfəsinə darçın, ya da nanə qatmışdı. Bu, mənə bir daha evdə olduğumu xatırlatdı.

Üzüntülü fikirlərdən ayırmaq üçün onu bərk-bərk qucaqladım, çantasına işarə etdim.

– Yaxşı, mənə hansı kitabı almısan?

Bir anlıq donub qaldı, karıxdı bir az, amma dərhal özünü ələ alıb danışdı.

– Hə, bəs necə, əlbəttə, elə vaxtıdır, – dedi.

Elə dedi ki, çantasındakının heç də Hayasenin son romanı-zadı olmadığını başa düşdüm. Gözlədim, baxışlarını axtardım, amma o, üzünü çevirdi.

– Əgər onu sənə versəm, – səsi ciddiləşdi, – mənə söz verərsən ki, onu oxuyacaqsan?

Düzü, bilmirdim, nə fikirləşim.

– Əlbəttə, – güclə dedim. – Söz verirəm.

O yenə tərəddüd içində idi. Sonra çantasını açdı, bir kitab çıxarıb mənə uzatdı. Kitabı mənə uzadanda adını oxudum, amma bir şey başa düşmədim. Bu daha çox dərslik idi, autizm və Asperger sindromu haqqında elmi kitab idi. Mən bu xəstəliklər haqqında eşitmişdim, amma hamı kimi mən də az bilirdim bu haqda.

– Bu kitabı bizim qadın professorlardan biri yazıb, – o, izah etməyə başladı. – Kollecdə ən yaxşı müəllimdir. Onun mühazirələri həmişə tələbələrlə dolu olur, hətta başqa qruplardan da onun yanına gəlir, onu eşitmək istəyirlər. O, insan inkişafının psixi pozuntuları üzrə mütəxəssisdir,

görkəmli alimlərdən biridir, elmi tədqiqatlarını yaşlılara həsr edib.

– Maraqlıdır, – dedim, amma bunun bu saat bizə nə dəxli vardı, niyə “maraqlı” idi, bilmirdim və bunu gizlətmirdim.

– Mənə elə gəlir ki, indi bəzi şeylər biləcəksən, – Savanna inadla deyirdi.

– Yəqin ki, – dedim. – Görünür, burada çoxlu informasiya var.

– Məsələ onda deyil, – səsini lap endirdi. – İstəyirəm ki, sən bu kitabı atana görə oxuyasan. Səninlə atanın münasibətlərinə görə oxuyasan.

Elə bil başıma soyuq su tökdülər. Tanışlığımızdan bəri ilk dəfə idi ki, belə hirslənirdim.

– Bu kitabın atama nə dəxli var?

– Mən həkim deyiləm, – Savanna başladı. – Amma dalbadal iki semestr bu kitabı bizə öyrədiblər, yəni bir il hər gecə onu oxumalı, hazırlaşmalı olmuşam. Dediyim kimi, o qadın professor psixi pozuntuları olan üç yüzdən çox yaşlı adamı danışdırıb, dindirib.

Qollarımı onun belindən çəkib acıqla soruşdum:

– Sonra?..

Hiss etdim ki, Savanna acığımı başa düşdü, təlaşlandı bir az.

– Əlbəttə, mən hələ tələbəyəm, amma Asperger sindromu olan uşaqları saatlarla laboratoriyada müşahidə etmişəm... Bu cür yaşlı xəstələri də lap yaxından görmüşəm. Professorun dindirdiyi adamlar arasında. Bu kitabda onlar haqqında da var... – Savanna dizi üstə yerə gəlib əlimi tutdu.

– Sənin atan həmin Asperger sindromlu xəstələrə oxşayır bir az.

Yalnız indi başa düşdüm ki, o nə demək istəyir, amma nədənsə istəyirdim ki, Savanna hər şeyi açıq desin.

– İndi bütün bunlar nə deməkdir? – təkidlə soruşdum, özümü güclə ələ alıb ondan ayrılmadım.

O dərhal cavab vermədi. Handan-hana:

– Məncə, sənin atanda Asperger sindromu var, – dedi.

– Mənim atam kəmağıl deyil!

– Mən belə demədim, – Savanna dilləndi. – Asperger yalnız psixi inkişafın pozuntusudur.

– Heç bilmək də istəmirəm ki, bu nədir, – mən səsimi qaldırdım. – Atam belə xəstə deyil. O məni böyüdüb, o işləyir, hesablarını özü ödəyir. Bir dəfə evli olub...

– Bu, Asperger sindromu ilə də mümkündür...

Bu an elə bil məni ildırım vurdu, nəyisə xatırladım.

– Dayan, dayan – dedim və onun məhz əvvəl necə dediyini xatırlamağa çalışdım, bu zaman hiss etdim ki, boğazım tamam quruyub. – Sən deyirdin ki, atam çox gözəl iş görüb, məni böyüdüb, yaxşı tərbiyə edib.

– Hə, – Savanna təsdiq etdi. – Demək istəyirdim ki...

Onun dediklərinin mənasını tam anlayanda dişlərimi qıcadım, onu ilk dəfə görürmüşəm kimi üzünə nəzər saldım.

– Amma sənin dediyin kimi, hətta atamda autuzim xəstəliyi olsa da, bu problemə baxmayaraq, öz işinin öhdəsindən çox yaxşı gəlib.

– Yox... məni başa düşmədin. Asperger xəstəliyinin mərhələləri var – orta və ağır dərəcələri var.

Onu güclə eşidirdim. Qan vurdu beynimə, qulaqlarım guruldadı.

– Sən də buna görə ona hörmət eləyirsən? Amma əslində ondan xoşun gəlmir, hə?

– Yox, yox, dayan bir az...

Ayrılıb ayağa qalxdım. Elə bil nəsə genişlik istəyirdim, üzbəüzdəki məhəccərə doğru yeridim. Deməк, Savanna təkidlə atamla yenidən görüşmək istəyəndə heç də onunla söhbət etmək yox, onu müşahidə etmək istəyirmiş. Tibbi bir obyekt kimi.

İçimdə nəsə sıxılır, burulurdu. Soruşdum:

– Sən buna görə bizə gəlirdin?

– Nə?

– Ona görə yox ki, atamla söhbət etmək sənin xoşuna gəlirdi, ona görə ki, bilmək istəyirdin, sənin fikrin düzdür, ya yox? Hə?

– Yox...

– Yalan demə! – qışqırdım.

– Mən yalan demirəm.

– Sən onun yanında oturub onu müşahidə edirdin, özünü elə göstərirdin ki, guya sikkələrlə maraqlanırsan. Əslində isə onu qəfəsdəki meymun kimi tədqiq edirdin, hə?

– Yox, belə deyil, – o dedi və ayağa qalxdı. – Mən sənin atana hörmət edirəm.

– Ona görə ki, sənin fikrincə, o, xəstə imiş, sonra necə olubsa bunun öhdəsindən gəlib, – ona danışmağa imkan verməyib daha da bərkdən çığırdım. – İndi başa düşürəm mən...

– Yox, sən səhv edirsən, atan mənim xoşuma gəldi.

– Demək, buna görə evimizdə eksperiment aparırdın? – qəzəbdən boğulurdum. – Hə, az qala yadımdan çıxmışdı, kimsə kiminsə xoşuna gəlirsə, onun üzərində eksperiment aparmalıdır. Sən bunu demək istəyirsən?

O, başını buladı.

– Yooooх! – Deyəsən, ilk dəfə idi ki, öz hərəkətinin doğruluğuna şübhə yaranmışdı onda. Çünki dodaqları əsirdi. Yenidən danışmaq istəyəndə səsi titrədi.

– Sən düz deyirsən. Mən bunu etməməli idim. Amma istəyirdim ki, sən onu başa düşəsən.

– Niyə? – dedim. Bir addım yaxına gəldim. Hiss etdim ki, əzələlərim gərilir, yumruqlarım sıxılır. – Mən onu çox yaxşı başa düşürəm. Yadında saxla, mən onun yanında böyümüşəm. Neçə illərdi yanında yaşayıram.

– İstəyirdim, kömək eləyim, – Savanna baxışlarını yerə dikdi. – İstəyirdim ki, dil tapasan onunla.

– Səndən kömək istəməmişdim mən. İstəmirəm sənin köməyini. Axı nəyə görə başqasının işinə burnunu soxmalısan?

Savanna üzünü çevirdi – göz yaşlarını silirdi, deyəsən.

– Bu, əlbəttə, mənim işim deyil, – səsi güclə eşidildi. – Dedim, bəlkə sənin bunu bilməyin vacibdi.

– Nəyi bilməyim vacibdi? – israr etdim. – Yəni sənin fikrinə görə, o nəsə xəstədir? Yəni mən atamla insani münasibət saxlaya bilmərəm? Yəni əgər onunla danışmaq istəyirəmsə, yalnız sikkələrdən danışmalıyam? Hə?

Qəzəbimi gizlətməyə çalışmırdım da. Bu vaxt gözümün ucu ilə sezdim ki, yanımızdan keçən iki balıqçı dönüb bizə tərəf baxdı. Amma görünür, hiddətli baxışlarımdan çəkinib

yaxınlaşmadılar. Dedim, yaxşı ki, müdaxilə etmədilər. Savannaya qeyzlə nəzər salıb birnəfəsə verdiyim sualların cavabını da gözləmədim. Doğrusu, heç istəmirdim də cavab versin. Beynimdə elə hey bu fikir dolaşırdı ki, Savannanın atamla etdiyi söhbətlər sadəcə bir oyun idi.

– Ola bilər, – o pıçıltı ilə dedi.

Mən gözlərimi döydüm – eşitdiyimə inanmadım, dedim, yəqin yanlış eşitdim.

– Nə?

– Bildin də nəyi deyirəm, – o, irəli gəlib çiynimi qucaqladı. – Bəlkə də sikkələr yeganə şeydi ki, onunla yalnız o barədə danışa bilərsən. Atan ancaq bu mövzuda danışa bilər.

Hiss etdim ki, yumruqlarım düyünlənir.

– Səncə, belə çıxır ki, mənə yalnız bu qalır?

Cavabını gözləməsəm də, o cavab verdi.

– Bilmirəm, – dedi. Baxışlarımız birləşdi. Gözləri hələ də yaşlı idi, səsi isə təəccüblü dərəcədə inandırıcı görünürdü. – Ona görə də bu kitabı aldım sənə. Onu oxu. Dediyin kimi, sən onu məndən yaxşı tanıyırsan. Həm də mən heç onun qabiliyyətsiz olduğunu demədim, bir halda ki, o həmişə çalışır, işləyir. Amma bu barədə fikirləş. O öz qaydaları ilə yaşayır – bu faktdır ki, o danışanda heç vaxt müsahibinin üzünə baxmır, onun dostları yoxdu, kimsə ilə ünsiyyət saxlamır...

Sərxoş adamlar kimi başım hərləndi, nəyisə vurub dağıtmaq arzusu ilə yumruğum düyünləndi.

– Nəyinə lazımdı bu? – sakit-sakit soruşdum.

– Çünki mən olsam, bilmək istəyərdim. Maraqlanardım. Bunu ona görə demirəm ki, sənin xətrinə dəyim, ya da atanı təhqir edim. Sənə ona görə dedim ki, istəyirəm, onu başa düşəsən.

Onun məsum, saf ürəkliliyi ağrılı dərəcədə aydın deyirdi ki, o, dediyinə inanır. Amma mənimçün fərqi yox idi. Dönüb pillələrə tərəf addımladım. Uzaqlaşmaq lazım idi – bu yerdən, ondan.

– Hara gedirsən? – Arxadan Savannanın səsini eşitdim. – Con, dayan! Gözlə!

Dönüb baxmadan addımlarımı yeyinlətdim. Bir dəqiqədən sonra artıq pilləkənlərdə idim. Pillələri az qala qaça-qaça enib quma tullandım, çimərlikdəki evə tərəf getdim. Savannanın arxamca gəldiyini bilmirdim. Tonqalın ətrafında oturan tələbələrə yaxınlaşanda onlar mənə tərəf döndülər. Yəqin ki, çox qəzəbli görünürdüm. Əlində pivə butulkası tutmuş Rendi Savannanın arxamca qaçdığını görübmüş, çünki ayağa durdu, qarşımı kəsmək istədi. Rendi ilə eyni anda tələbələrin ikisi də qarşıma yüyürdü.

– Nə baş verir? – Rendi bərkdən soruşdu. – Savannaya nə olub?

Cavab vermədən yoluma davam etdim, eyni zamanda hiss etdim ki, o, biləklərimdən tutmaq istəyir. – Ey, səninləyəm!

Bax, elə burada səhv elədi bu Rendi. Pivə iyi məni vurdu, başa düşdüm ki, pivə onu cürətləndirib, yoxsa...

– Çəkil yoldan... – dedim.

– O yaxşıdır? – Rendi inadla soruşdu.

– Çəkil, dedim, – təkrar etdim, – yoxsa biləklərini sındıracam.

– Ey, nə baş verir? – Haradansa arxadan Timin səsi gəldi.

– Savannaya nə etmisən? – Rendi yolumdan çəkilmədi. – O niyə ağlayır? Vurmusan onu?

Hiss edirdim ki, damarlarımda qanım qaynayır – adrenalin kəlləçarxa vururdu.

– Axırıncı dəfə deyirəm – çəkil yoldan!

– Ay uşaqlar, heç nədən dalaşmayın! – Timin səsi bu dəfə lap yaxından gəldi. – Yaxşı, bəsdir! Qurtarın!

Hiss etdim ki, kimsə məni arxadan tutmaq istəyir. Sonrası məndən asılı olmadı, instinktiv olaraq dirsəklərimi işə saldım. Arxadakının düz köks qəfəsinə zərbələr endirdim. İnilti səsi eşitdim. Sonra cəld Rendinin əllərini tutub burdum – qolları şaqqıldayana qədər. O, ağrı ilə çığırdı, dizləri üstə yerə yıxıldı. Və elə bu vaxt arxadan üçüncüsü üstümə gəldi. Heç dönüb baxmadan dirsəyimi onun köksünə sapladım. Hiss etdim ki, möhkəm dəydi. Kəskin hərəkətlə çevrilib ətrafa baxdım ki, görüm indi kim gəlir.

– Sən nə etdin? – Savannanın qışqırdığını eşitdim. Yəqin ki, arxamca qaça-qaça gəlmişdi ki, görsün nə baş verir.

Qumlar üstə Rendi biləyinin ağrısından qıvrılırdı, məni arxadan tutmaq istəyən oğlan isə əyilib qarnını qucaqlamışdı, nəfəsi kəsilirdi.

– Sən onu vurdun? – Savanna məni ötüb keçdi, ona yanaşdı. – O axı dalaşmağınızı istəmirdi.

Dönüb baxdım. Tim arxası üstə yıxılmış, üzünü əlləri ilə tutmuşdu. Barmaqları arasından qan axırdı. Baş verənlər hamını mat qoymuşdu. Savannadan başqa. O, Timin yanına cumdu, dizini yerə qoyub onun üstünə əyildi.

Tim zarıldayırdı. Qanımda adrenalin qaynayırdı, sinəmi elə bil çəkiclə döyürdülər. Amma içimdə nəsə sıxılırdı. Axı niyə Tim bu hala düşməli idi? Niyə məhz o? İzah etmək istəyirdim ki, mən onu vurmaq istəmirdim, amma belə alındı, bu, mənim günahım deyil. Amma heç nə demədim. Bir də ki, nə fərqi vardı? Nə qədər istəməsəm də, olan olmuşdu. Heç o iddiada da deyildim ki, onlar başlamışdı bunu, onlar da üzr istəməlidir.

Heç kimə baxmadan geriyə döndüm, narahat, qəzəbli baxışlarla burdakıların yanından keçib getdim. Əmin idim – yol verəcəklər mənə. Gedə-gedə Savannanın təlaşlı səsini eşidirdim:

– İşə bax, sən Allah! Gör necə qan axır?! Həkimə aparmaq lazımdı səni...

Geriyə baxmadan xeyli gedib, sonra pilləkənlərə qalxdım. Yalnız burada bir az açılışdım, evin yanından sürətlə keçərək maşına tərəf gəldim. Bir neçə dəqiqədən sonra artıq maşında gedərkən öz-özümü söyürdüm ki, bu nə işdi mən elədim. Etdiyimi, bugünkü günü lənətlədim.

## Onuncu fəsil

Bilmirdim hara gedim, ona görə də bir xeyli hara gəldi maşını sürdüm. Axşam baş verənlər dönə-dönə beynimdə canlanırdı. Başqalarına görə o qədər də yox, amma Timi

vurduğuma görə öz-özümə acığım tuturdu. Savannanı da bağışlaya bilmirdim – körpüdəki danışıqlara görə.

Başım çıxmırdı – bütün bunlar axı necə baş verdi? Bir az əvvəl Savannanı dünyalar qədər sevirdim, bir an sonra isə biz dalaşırdıq. Onun bu cür bicliyə əl atması məni özümdən çıxarıb, hisləndirib, amma qəzəbimin əsl səbəbini başa düşmürdüm. Bilirəm ki, atamla çox da yaxın deyilik, hətta onu da düşünmək olar ki, mən onu axıra qədər yaxşı tanımıram. Onda niyə özümdən çıxdım, indiyə qədər də qəzəbim soyumur? Niyə?

İçimdə güclə eşidilən bir səs deyirdi ki, ola bilsin, Savanna haradasa düz deyir.

Amma bunun əhəmiyyəti yox idi. Atamda bu sindrom var, ya yox, nə olsun? Bu nəyi dəyişir ki? Bir də ki, o niyə başqasının işinə qarışır? Nə haqqı var?

Haraya getdiyimi bilmədən gah qəzəblənir, gah da özümü sakitləşdirir, deyirdim, bəlkə Savanna doğru deyir. Dirsəyimlə Timin burnunu əzişdirdiyim yadıma düşəndə özümdə nəsə bir yüngüllük hiss etdim, amma belə niyə? Axı o niyə üstümə gəlirdi? Heyif! Gərək dirsəyim o birilərin burnuna dəyəydi. Axı bunu mən başlamamışdım!

Bəs Savanna? Eh, gərək sabah gedib üzr istəyəm ondan. Bilirdim, o dediyinə tamam inanır, çalışırdı ki, necəsə kömək etsin. Bəlkə, o haqlıdır, mənsə həqiqəti görmək istəmirəm? Onun mülahizələri bəzi şeyləri aydınlaşdırardı...

Amma mən Timi vurandan sonra necə olsun? O buna necə reaksiya verəcək? Onlar dostdurlar, əgər hətta mən and-aman eləsəm də ki, bu gözlənilmədən baş verdi, o

inanarmı? Eşidərmi məni? Bəs döydüyüm o biri iki nəfər?.. Savanna bilirdi ki, mən əsgərəm, amma indi bu əsgərliyin nə demək olduğunu az da olsa gördü, bundan sonra mənə münasibətini dəyişməyəcək ki?

Axır ki, birtəhər yolumu tapıb evə qayıtdım. Gecə yarıdan keçmişdi. Qaranlıq evə girdim, ehmalca atamın otağına boylanıb öz otağıma keçdim. Əlbəttə, atam yatırdı – o həmişə eyni vaxtda yatmağa gedirdi. O, Savannanın dediyi kimi, vərdiş etdiyi qaydalarla yaşayan adam idi.

Çarpayıma sərildim, amma bilirdim ki, gözümə yuxu getməyəcək, arzulayırdım ki, kaş həmin axşamı yenidən yaşayım. Heç olmasa Savannanın kitabı mənə uzatdığı həmin andan yenidən yaşayım. Heç nə haqqında düşünmək istəmirdim – nə atam, nə Savanna, nə də Timin əzişdirilən burnu haqqında. Bütün gecəni gözlərimi tavana dikib nəhs fikirlərin əlindən qurtula bilmirdim.

Səhər atamın mətbəxdən gələn səsinə oyandım. Dünən axşamdan paltarımı dəyişməmişdim, amma bilirdim ki, atam bunu hiss etməz.

– Sabahın xeyir, ata, – mızıldadım.

– Salam, Con, – o dedi. – Bir şey yeyəcəksən?

– Hə, – dedim. – Qəhvə var?

– Qəhvədandadır.

Özümə qəhvə süzdüm. Atam yemək hazırlayarkən mən qəzet başlıqlarına nəzər saldım. Bilirdim ki, o, əvvəlcə birinci sütunu oxuyacaq, sonra hava məlumatları ilə tanış olacaq. İdman və ictimai həyat səhifələrini oxumayacaq. Belə vərdiş edib...

– Gecən necə keçdi? – soruşdum.

– Həmişəki kimi, – dedi. Əvəzində məndən heç nə soruşmadı, mən də heç təəccüblənmədim. O, yumurtanı çalxalamağa başladı. Ət isə artıq tavada cızıldayırdı. Sonra mənə tərəf çevriləndə bildim ki, indi nə soruşacaq.

– Sobanın üstünə bir-iki dilim çörək qoya bilərsənmi?

Düz saat 7:35-də işə getdi.

O gedəndən sonra könülsüz-könülsüz qəzetə göz gəzdirdim, həvəssiz də olsa xəbərləri oxudum, sonra neyləyim, bilmirdim. Serfinqə getməyə həvəsim yoxdu, evdən çıxmağa da ərinirdim. Fikirləşirdim ki, bəlkə yatağa qayıdıb bir az da yatım, bu dəmdə evimizə yaxınlaşan maşın səsini eşitdim. Dedim, yəqin nəsə elan-zad gətiriblər, çünki bizim poçta tez-tez müxtəlif elanlar atırdılar – kanalizasiyanı təmizləmək, ya da damın kif-tozunu maşınla yumaq üçün köməklərini təklif edirdilər. Amma bir azdan qapımız döyüldü.

Qapını açanda gözlərimə inanmadım. Qapıdakı Tim idi. Məni görüb dedi:

– Salam, Con. Bir az səhər tezdən olsa da, içəri girməyə icazə verirsənmi?

Burnunun üstündən enli plastır yapışdırılmışdı, gözlərinin ətrafı bir az şişmiş və qançır olmuşdu.

– Hə, əlbəttə, – dedim və kənara çəkildim. Onu gördüyümə hələ də inanmırdım.

Tim içəri girdi, sonra qonaq otağına keçdik.

– Dedim, yəqin evinizi tapa bilmərəm, – gülümsündü. – O vaxt səni gətirəndə gecə idi, qaranlıqda yolu yadımda

saxlaya bilmədim. İki dəfə buralardan keçdim, axır ki, tapdım.

Bir də gülümsündü. Onun əlində kiçik bir kağız torba vardı.

– Qəhvə istəyirsən? – nəhayət, heyrətimi kənar edib soruşdum. Qəhvədanı göstərdim. – Orada bir fincan qalmış olar hər halda.

– Yox, təşəkkür edirəm. Az qala bütün gecəni ayaq üstə qalmışam, yaxşı olar ki, kofeinsiz keçinim. Qayıdıb bir az yatmaq istəyirəm.

Bir az tərəddüdlə dedim:

– Bura bax, dünən baş verənlər... çox təəssüf edirəm, üzr istəyirəm, mən belə istəmirdim...

O, əllərini qaldırıb məni danışmağa qoymadı.

– Keçib gedər. Bilirdim ki, sən belə istəmirdin. Mən də gərək başqa cür hərəkət edəydim. Gərək oğlanların birini tutub saxlayaydım.

Üzünə diqqətlə baxdım.

– Ağrıyır?

– Elə də yox, – dedi. – Təcili yardım otağında adi, narahat bir gecə. Bir az həkimi gözləyirsən, o da mütəxəssis çağırır ki, gəlib burnuna baxsın... Sonda həkim dedi ki, lap təzə burnum olacaq. Bir az donqar olacaq, amma əsl kişi görkəmi verəcək mənə.

Məcburən gülümsündüm, amma əməlimə görə yaman pərt oldum.

– Dediyim kimi, bir də üzr istəyirəm...

– Üzrxahlığını qəbul edirəm, – Tim dedi. – Qiymətləndirirəm bunu. Amma indi buraya buna görə

gəlməmişəm. – Divana işarə ilə: – Əyləşmək olar? – dedi. – Bir az elə bil başım hərlənir hələ də.

Mən kürsünün kənarında oturub dirsəklərimi dizimə dayadım. Tim divanda əyləşdi, aşağı oturanda bir az üz-gözünü qırışdırdı – burnu ağrıdı yəqin. Kağız torbanı yanına qoydu.

– Səninlə Savanna haqda danışmaq istəyirəm, – o dedi. – Dünən baş verənlər haqda da.

Onun adının çəkilməsi bir anda dünənkiləri mənə yenidən yaşatdı, baxışlarımı döndərdim.

– Bilirsən ki, biz onunla yaxın dostuq, elədir? – Tim cavab gözləmədi. – Keçən gecə xəstəxanada saatlarla söhbət etmişik onunla. Ona görə də bura gəlmişəm, səndən xahiş edim ki, ona hirslənməyəsən. Başa düşür ki, səhv eləyib, sənin atana diaqnoz qoymağa onun haqqı yoxdur. Sən tamamilə düz demisən ona.

– Bəs özü niyə gəlmədi?

– İndi o, tikinti sahəsindədir. Mən sağalana qədər kimsə işə rəhbərlik etməlidir. Heç o bilmir ki, mən buradayam.

Mən başımı buladım.

– Başa düşmürəm, niyə belə birdən-birə özümdən çıxdım.

– Çünki sən belə bir şeyi eşitmək istəməmisən, – Tim dedi. Səsi lap sakit idi. – Kimsə qardaşım Alan haqqında belə deyəndə mənə də pis təsir edirdi. Onda da autizm var.

Nəzərlərimi yuxarı qaldırdım.

– Alan sənin qardaşındır?

– Hə, necə bəyəm? – Tim soruşdu. – Savanna onun haqqında sənə danışıb?

– Bir az, – dedim və Savannanın Alandan çox onun böyük qardaşı haqqında dediklərini xatırladım. Savanna deyirdi ki, qardaşı xəstə Alanla çox səbirlə rəftar edir, Savanna da gələcək ixtisasını buna görə seçib, xüsusi təhsil almağa qərar verib.

Divanda yerini rahatlayarkən necə oldusa Timin əli gözlərinin ətrafındakı qançırlara toxundu, o bir az eyməndi. Sonra:

– Bax, belə, – dedi. – Bil ki, mən səninlə razıyam. Bu onun işi deyil, özünə də demişəm. Yadındadı, sənə deyirdim ki, o, hərdən çox sadəlövh olur. Bu da belə bir şeydi. O, adamlara kömək etmək istəyir, amma əksinə olur.

– Məsələ təkcə onda deyil, – dedim. – Məndə də günah var. Dediyim kimi, heç nədən özümdən çıxdım...

Tim düz üzümə baxırdı.

– Sən necə bilirsən, o, düz deyir?

Əllərimin barmaqlarını biri-birinə keçirtdim.

– Bilmirəm, inanmıram buna, amma...

– Amma sən bilmirsən. Lap o düz desə də, bu nəyi dəyişir ki? Elədir? – Tim cavabımı gözləmədən davam etdi: – Mən bunu görmüşəm, bilirəm. Uzun müddət nə mən, nə valideynlərimiz bilməyib ki, Alana nə olub: onu öyrətmək yox, müalicə etmək lazımdı. Bilirsən, axırda neylədim? Başa düşdüm ki, bu heç nəyi dəyişmir. Mən onu yenə də sevəcəm, həmişə qayğısına qalacam. Amma... onun xəstəliyini biləndən sonra bir çox şeylər asanlaşdı. Elə ki bildik, ondan adət etdiyimiz davranışı gözləmədik, nəticədə, qardaşımı necə varsa, elə qəbul etdim...

Eşitdiklərimi bir az götür-qoy etdim.

– Əgər atamda Asperger sindromu yoxdusa, onda?

– Ola bilsin, yoxdur.

– Əgər fikirləşsəm ki, var?

Tim köks ötürdü.

– Onda hər şey çox mürəkkəbdi, xüsusən, patologiyası zəifdirsə, – o dedi. – Asperger sindromunun olub-olmadığını qanın analizi ilə yoxlamaq olmur. Yalnız müşahidə aparmaqla belə bir nəticəyə gəlmək olar ki, var, ya yox. O da ola bilər ki, dəqiq bilməyəsən. Hər halda, Savannanın onun haqqında dedikləri düşünmürəm ki, nəyisə dəyişsin. Bir də ki, niyə dəyişməlidi ki? O işləyir, səni böyüdüb, boya-başa çatdırıb... ata daha nə etməlidir ki?

Tim danışdıqca atam gözlərimin qarşısına gəlirdi – məni böyüdən, işləyən, zəhmət çəkən, artıq yaşa dolmuş atamı görürdüm.

– Savanna sənə bir kitab alıb, – o dedi.

– Heç bilmirəm, harada qaldı? – ötəri dedim.

– Gətirmişəm onu, – Tim dedi və kağız torbanı mənə uzatdı. Kitab bir gün qabaq çimərlikdə gördüyümdən indi xeyli ağır göründü mənə.

– Sağ ol, – dedim.

Tim ayağa durdu, deyəsən, söhbətimiz qurtarmışdı. O, qapıya sarı addımladı, əlini qapının dəstəyinə uzatdı, əli dəstəkdə arxaya çevrilib dedi:

– Özün bilərsən, istəmirsən, oxuma.

– Bilirəm, – dedim.

O, qapını açdı, amma astanada ləngidi bir az. Hiss edirdim ki, nəsə demək istəyir, amma təəccübümə rəğmən, arxaya baxmadan dedi:

– Səndən bir şey xahiş etsəm, olarmı?

– Əlbəttə.

– Savannanın qəlbini sındırma. O səni sevir, çox istəyirəm ki, o, xoşbəxt olsun.

Deməli, səhv etməmişəm, Timin Savannaya olan hisslərini elə əvvəldən duymuşdum mən. O, maşına sarı getdi, mən pəncərədən onun ardınca baxırdım... Belə de... Deməli, o da Savannanı sevir...

Kitabı bir kənara qoyub gəzməyə çıxdım. Evə qayıdandan sonra da ona baxmamağa çalışırdım. Nədənsə, o məni qorxudurdu.

Bir-iki saatdan sonra hər halda nəhs fikirlərimi qovub kitabı əlimə götürdüm, qalan vaxtımı onu oxumaqla keçirdim. Oxuduqca deyilənləri öz müşahidələrimlə müqayisə etməyə çalışırdım.

Tim doğru deyirmiş. Bu patologiya üçün konkret diaqnoz, dəqiq və aydın üsullar yox idi. Asperger sindromu olan adamların bəzisində intellektual inkişafın aşağı səviyyəsi, kəmağıllıq xas idi, daha ağır dərəcəli autizmi olanlar, məsələn, “Yağış adam”dakı Dastin Hoffman personajı kimi olanlar isə bəzi sahələrdə dahiyanə işlər görürdülər. Bəzi belə xəstələr cəmiyyətdə özünü o qədər yaxşı aparırdılar ki, heç kim onların xəstə olduğunu bilmirdi, bəzilərini isə psixi xəstəxanalarda yerləşdirməli olmuşdular. Asperger sindromlu xəstələr haqqında hesabatda musiqidə, ya da riyaziyyatda böyük nailiyyətlər əldə etmiş adamlardan danışılırdı, amma həm də qeyd olunurdu ki, belə xəstələr arasında dahilərin faizi sağlam adamların arasında olanların

nisbətindən çox da fərqlənmir. Ən əhəmiyyətlisi, öyrəndim ki, atam cavan olanda Asperger sindromu ilə tanış olan həkimlər çox az olub. Yəqin ki, belə xəstələr də az olub, çünki onun əlamətlərini kimsə bilməyib, demək, atamın da valideynləri bilməyə bilərdi. Adamlar pensiya yaşına qədər yaşayıb, heç bilməyiblər də ki, onlarda nəsə belə deyil, elədir. Əvəzində, Asperger sindromu, yaxud da autizmi olan uşaqları utancaq, ya da kəmağıl hesab etmişlər; əgər onları xüsusi müalicə yerlərinə aparmırlarsa, demək, valideynlər ümid edirlər ki, uşaq böyüdükcə xəstəlik də keçib gedəcək. Asperger və autizm arasında fərqi belə müəyyən etmişlər: autist öz aləmində yaşayır, Asperger sindromlu adamlar isə bizim aramızda, amma öz qaydaları ilə, öz vərdişləri ilə.

Bu meyarla yanaşanda insanların əksəriyyətini Asperger sindromlu xəstələrə aid etmək olar.

Amma bəzi əlamətlər deyirdi ki, Savannanın atam haqqında dedikləri doğrudur. Uzun illər dəyişməyən vərdişləri, ünsiyyətə meyil göstərməməyi, numizmatikadan savayı heç nəyə marağının olmamağı, həmişə təkliyə can atmağı – bunlar hamısı hər bir insanda ola bilən qəribəliklərdir, vərdiş və şakərdir, amma mənim atamda nəsə bir az fərqli idi. Sağlam adamlar öz həyat yollarını sərbəst seçirlər. Atamın, elə Asperger sindromlu başqa adamların da seçimi elə bil ki, əvvəldən bu cür, sərt şəkildə müəyyən olunub. Onları bu cür yaşamağa məcbur edirlər sanki. Hər halda, başa düşdüm ki, belə bir diaqnoz atamın davranışını izah edə bilər və əgər beləadirsə, demək, bu o demək deyildi ki, o dəyişməyəcək, bu o demək idi ki, o dəyişə bilmir, bacarmır. Bütün bu qeyri-müəyyənliklər öz

yerində, amma bunu başa düşməyim nədənsə məni xeyli sakitləşdirdi. Üstəlik, Savannanın fərziyyəsi anamla bağlı məni narahat edən iki suala cavab tapmağa da imkan verirdi: anam ona niyə ərə gedib və sonra atamı niyə tək qoyub gedib.

Əlbəttə, mən bunu heç vaxt bilməyəcəyəm, heç bilməyə də həvəsim yoxdu. Amma o dəmdə, o boş və sakit evdə təsəvvürlərim məni çox uzaqlara apardı... Cavan, sakit bir kişi gənc bir ofisianta öz nadir sikkə kolleksiyası haqqında maraqla danışır. Ofisiant kasıb bir qadındır. Axşamlar yatağına uzananda daha yaxşı həyat haqqında şirin xəyallara dalır. Naz-qəmzəsi ilə özünü kişiyə bəyəndirməyə çalışıb, ya yox, hər halda, kişi nahara həmişə bu kafeyə, həm də onu görməyə gəlib. Vaxt keçdikcə, qadın kişinin xeyirxahlığına və səbrinə inanıb – elə bu xasiyyətlərlə sonralar atam məni böyüdüb. Qadın düşünüb ki, belə sakit xasiyyəti yəqin onun düzlüyünə, vicdanlılığına dəlalət edir, başa düşüb ki, bu xasiyyətlə kişi ona heç vaxt hirslənməz, kobudluq etməz, əl qaldırmaz. Düşünüb ki, bu, ər deyil, əsl xəzinədir, sevgisiz də bunlar ona kifayətdir. Ona ərə getməyə razı olub, ümid eləyib ki, sikkə kolleksiyasını satıb yaxşı güzəran içində yaşayacaqlar. Sonralar qadın hamilə olub. Biləndə ki, kişi heç də kolleksiyasını satmaq fikrində deyil, başa düşüb ki, həyatını elə bir adamla bağlayıb ki, arvadının istəkləri onun heç vecinə deyil. Ola bilsin, qadının təkliyi, tənhalığı onun yaxşı xasiyyətlərini korlayıb, ya da eqoist olub, uşaq doğulanda bu fürsətdən istifadə edib, aradan çıxıb.

Bəlkə də tamam başqa cür olub, nə bilim.

Yəqin ki, həqiqəti heç vaxt bilməyəcəyəm, amma indi daha çox atam haqda düşünürdüm. Lap ola bilsin beynində nə isə pozulub, amma indi artıq özü üçün məqbul qaydalar müəyyənləşdirib ki, bunlar onun dünya ilə əlaqəsinə kömək edir. Ola bilər ki, bu qaydalar, bu vərdişkarlıq elə də normal deyil, buna baxmayaraq, o, indiki məni böyüdüb, ayağa qaldırıb! Bu isə mənim üçün bəsdir, hələ çoxdur da.

O mənim atam idi, bacardığını etmişdi. Bunu yalnız indi dərk etmişdim mən. Kitabı qatlayıb kənara qoyandan sonra pəncərədən bayıra baxdım, kövrəldim, boğazımdakı qəhəri udmağa çalışarkən hiss etdim ki, atamla necə fəxr edirəm.

Atam işdən qayıdandan sonra paltarını dəyişdi, mətbəxə keçib spagetti hazırlamağa başladı. Onun həmişəki hərəkətlərini müşahidə etməyə başladım, eyni zamanda onu da başa düşdüm ki, Savannaya məhz belə etdiyi üçün hirslənmişdim. Qəribədir, bilik qavrayışımızı necə də dəyişdirə bilir.

Bu gün fikir verib gördüm ki, atam spagetti qutusunu necə səliqə ilə açdı, sonra onu kənara qoyub yastı taxta qaşığı necə ehmalca götürdü, qızartdığı ət parçalarını onunla düzbucaq vəziyyətdə necə çevirdi. Bax, indi duz və istiot səpəcək. Elə də etdi. Sonra, tomat bankasını açacaq. Açdı. Adəti üzrə, atam işlərim haqda heç nə soruşmadı; sakitcə işini görürdü. Dünən fikirləşirdim ki, bu, aramızda yaranmış soyuqluğa görədir, bu gün isə bir şey də başa düşdüm: ola bilər ki, bu, ömrümüzün axırına qədər davam etsin, aramızda bu məsafə qalsın. Amma həyatımda ilk dəfə olaraq, bu, məni narahat etmədi.

Nahar stolu arxasında atamdan öz işləri haqqında soruşmadım, bilirdim ki, heç nə deməyəcək. Bunun əvəzinə, ona Savanna haqqında, onunla vaxtımızı necə keçirdiyimiz haqda danışdım. Sonra qabları yumaqda ona kömək etdim, beləcə söhbətimizi davam etdirdik. Amma bu, monoloq idi, yalnız mən danışırdım. Qabları yuyandan sonra atam yenidən əsgi götürdü, ikinci dəfə mətbəx stolunun üstünü sildi, sonra duzqabını, istiotqabını evə gəldiyi vaxt necə idisə, stolun üstündə o cür də qoydu. Hiss etdim ki, elə bil mənimlə danışmaq istəyir, amma bilmir necə etsin. Amma yox. Deyəsən, təsəvvür etdiyimi həqiqət kimi görmək istəyirdim, çünki gördüm ki, atam dönüb öz otağına getməyə hazırlaşır.

– Ata, – dedim, – son zamanlar aldığın sikkələrdən mənə göstərə bilərsənmi? İstəyirəm onlar haqda mənə danışasan.

Gözlərini mənə dikdi, elə bil eşitdiyinə inanmadı, sonra baxışları döşəməyə sancıldı. Seyrək saçlarını sığalladı, lap təpəsində saçları xeyli dazlaşmışdı. Nəhayət, yenidən mənə baxdı, amma demək olar ki, qorxa-qorxa.

– Yaxşı, – dedi.

Birlikdə onun otağına getdik, gedə-gedə atam əlini ehmalca kürəyimə qoydu və yalnız bu zaman hiss etdim ki, uzun illər özümü gör nələrdən məhrum etmişəm.

## On birinci fəsil

Ertəsi gün axşam körpüdə dayanıb okeanın səthinə gümüşü pəyandaz kimi sərilən Ay işığına baxa-baxa

vivo www.vivo-book.com

düşünürdüm ki, görəsən, Savanna gələcəkmi. Ötən gecə, atamla bir neçə saat sikkələrə baxandan, aldığı yeni sikkələr haqqında onun şövqlə danışdıqlarını dinləyəndən sonra çimərliyə getdim. Yanımdakı skamyada Savannaya yazılmış məktubum qoyulmuşdu. Məktubda ondan xahiş edirdim ki, burada məni gözləsin. İçində məktubum olan zərfi dünən Timin maşınına qoymuşdum ki, onu Savannaya versin. Bilirdim ki, zərfi açmadan Savannaya verəcək. Onun üçün nə qədər çətin olsa da. Qısa müddətdə mən onu yaxşı tanıdım, inanırdım ki, atam kimi, Tim də çox gözəl insandı, mənim onlara çatmağıma çox-çox illər lazımdı.

Çox götür-qoy etdim, axırda məktub yazmağa üstünlük verdim. Çünki dalaşmadan sonra bilirdim ki, çimərlikdəki evə getməyə üzüm yoxdur. Nə Rendini, nə Suzeni, nə də başqalarını görmək istəyirdim, amma Savanna ilə necə əlaqə saxlayım, bilmirdim: onun mobil telefonu yox idi, kottecin telefonunu da bilmirdim. Bir yol qalırdı – ona məktub göndərim.

Mən özümü yaxşı aparmadım. Qızışdım, özümdən çıxdım, Savanna ilə də, o birilərlə də artıq-əskik danışdım. Gərək sakitcə çimərlikdən keçib gedəydim, özlərini cəsur hesab edən bu Rendiyə, o biri gicbəsərlərə məhəl qoymayaydım. Bu səfehlər nə bilsin ki, qarşıdakını necə cəld və təsirli vasitələrlə zərərsizləşdirməyi bizə xüsusi olaraq öyrədiblər. Bu, Almaniyada baş versəydi, mənə cəza verəcəkdilər. Hökumətin öyrətdiklərini onun qəbul etmədiyi işlərə tətbiq edəndə səni bağışlamırlar.

Məktub göndərəndən sonra bütün günü saata baxırdım. Fikir məni üzürdü: Savanna gələcəkmi? Vaxtın yetişdiyini

hiss edəndə dözmür, tez-tez çiynim üstündən arxaya boylanırdım. Uzaqdan hərəkəti, yerişi Savannaya oxşayan birisini görüb nəhayət rahat nəfəs aldım. Məhəccərə söykənib gözləməyə başladım.

Savanna məni görüb addımlarını yavaşıtdı. Yaxınlaşıb bir az aralıda dayandı. Qucaqlaşmadıq, öpüşmədik, bu quruluqdan qəlbim yaman sıxıldı.

– Sənin məktubunu aldım, – Savanna dedi.

– Şadam ki, gəldin.

– Xəlvəti çıxdım ki, kimsə sənin burada olduğunu bilməsin, – o dedi. – Təsadüfən onların söhbətini eşitdim ki, bir də buralara gəlsən, sənə neyləmək istəyirlər...

– Çox təəssüf edirəm, – müqəddiməsiz-zadsız başladım. – Sən kömək etmək istəyirdin, mən səni başa düşmədim.

– Sonra?

– Sonra... Timə görə də məni bağışla. O çox yaxşı oğlandı. Gərək bir az ağıllı hərəkət edəydim.

Savanna kirpiklərini qırpmadan baxırdı.

– Sonra?

Yerimdə qurcuxdum. Demək istədiklərimin səmimi olduğuna inanmırdım, amma bir halda ki, o eşitmək istəyirdi, gərək deyim. Mən köksümü ötürdüm.

– Sonra da ki, Rendiyə və o birilərinə görə də üzr istəyirəm.

O yenə matdım-matdım baxırdı.

– Sonra?

Quruyub qalmışdım. Gözlərinə baxmazdan əvvəl fikrə getdim.

– Sonra... – dedim. Susdum.

– Nə “sonra”?

– Sonra... – amma sonra nə deyim, ağlıma bir şey gəlmədi. – Bilmirəm, – dedim, – nə olubsa, hamısına görə üzr istəyirəm.

Savannanın üzündə şıltaq bir ifadə vardı.

– Elə bu? – dedi.

Bir az fikirləşdim, dedim:

– Daha nə deyim, bilmirəm.

Bir an, bircə an keçdi, deyəsən. Dodaqlarının küncündə güclə sezilən bir təbəssüm doğulurdu. Mənə sarı bir addım atdı.

– Deməkk, elə bu? – o təkrar etdi.

Səsi daha yumşaq idi. Heç nə demədim. O bir az da yaxınlaşdı. Və gözləmədiyim halda qollarını boynuma doladı.

– Üzr istəməyə ehtiyac yoxdu, – Savanna az qala pıçıldadı. – Utanmalı bir şey də yoxdu burada. Mən də olsam, belə reaksiya verərdim...

– Onda bu sorğu-sual nə üçündü?

– Onun üçündü ki, – dedi, – inanmaq istəyirəm ki, ilk dəfədən səhv etməmişəm mən. Sənin gözəl qəlbin var.

– Necə yəni?

– Sözün hərfi mənasında, – o dedi. – Dünən gecə uzun-uzadı söhbət edəndən sonra Tim məni inandırdı ki, mənim belə bir söhbət etməyə haqqım yoxdur. Sən haqlı idin. Mənim hələ elə bir peşəkar bacarığım yoxdur, diaqnoz-zad qoymağa da heç kim mənə hüquq verməyib. Çimərlikdə baş verənlərə gəldikdə isə hər şeyi gözlərimlə gördüm. Sənin

günahın yoxdur. Timə də nə olubsa, o da sənin günahın deyil. Amma üzr istəməyin çox yaxşıdır. Bilsəydim ki, sən gələcəkdə də bu cür hərəkət edəcəksən...

O mənə qısıldı. Gözlərimi yumdum, bu saat heç nə istəmirdim, bir-birimizə qısılıb beləcə durmaqdan savayı heç nə... İllər boyu...

Sonra, gecədən xeyli keçmiş, çimərlikdə pıçıltı və öpüşlərlə keçən bugünkü günümüzün sonunda barmağımla Savannanın çənəsini sığallayıb dedim:

– Çox sağ ol.

– Nəyə görə?

– Kitaba görə. İndi mən atamı daha yaxşı başa düşürəm. Dünən gecə onunla çoxlu söhbətlər eləmişik.

– Hə, buna görə çox şadam.

– Bir də sağ ol ki, beləsən.

O, alnını qırışdırdı. Mən onun alnından öpdüm.

– Sənin sayəndə atamla münasibətlərim yoluna düşdü. Təsəvvür eləmirsən, bu, mənim üçün nə deməkdir.

Ertəsi gün Savanna tikintidə olmalı idi, amma Tim başa düşmüşdü ki, bir-birimizi görmək üçün bu bizim axırıncı imkanımızdır – sabah mən Almaniyaya qayıtmalı idim, ona görə də bu gün görüşməyimizə imkan yaratmışdı. Mən Savannanı götürməyə gələndə Tim nisbətən hündür artırmadan enib maşının yanında, düz pəncərə bərabərində çömbəldi. Gözünün altındakı qançırlar bir az da qaralmışdı. Əlini pəncərədən mənə uzatdı.

– Tanış olmağıma şadam, Con, – dedi.

– Mən də, – ürəkdən dedim.

– Özünü qoru.

– Çalışaram, – dedim. Əl verib görüşdük. İkimiz də yaxşı bilirdik ki, bizi birləşdirən nədir.

Səhər-səhər Savanna ilə Fort-Fişerdəki “Akvarium”a baxmağa getdik. Sualtı dünyanın əcaib sakinlərinə xeyli tamaşa etdik. Uzunburun, zirehli sürünənlər, xırda dəniz atları... Nəhəng rezervuarda köpək balıqları, qırmızı, nağaraya oxşar balıqlar... Əl vuranda qaçıb bir küncdə daldalanan yengəclər... xeyli güldük bu heyvancığazlara. Hədiyyə dükanında Savanna mənə açar breloku aldı. Onun üstündə də nədənsə bir pinqvin fiquru asılmışdı, Savanna elə hey ona baxıb gülürdü.

Sonra onu lap okeanın kənarında olan, gün işığında üzən bir restorana apardım. Stolun üstündən əl-ələ tutub yelkənli qayıqların körpülər yanında necə aram-aram yellənməyinə baxdıq. Bir-birimizə o qədər başımız qarışmışdı ki, heç demə ofisiant üç dəfə bizə yaxınlaşıb, xəbərimiz olmayıb. Menyunu açıb heç baxmamışıq.

Heyrət içində idim: Savanna öz hisslərini elə sadə bir dillə, təbii ifadə edirdi ki! Hələ onu demirəm ki, atam haqqında danışarkən onun üz-gözündə yaranan mehribanlıq, lütfkarlıq... və elə bunun ardınca məni öpməsi... Nəfəsinin şirinliyini hiss etdim, əlini ovcuma alıb sıxdım, sıxdım...

– Mən... evlənmək istəyirəm səninlə...

– Bu vəddir? Söz verirsən?

– İstəsən, hə.

– Yaxşı olar, söz verəsən ki, ordudan gələndən sonra məni axtarıb tapacaqsan. Yanımda yoxsansa, sənə necə ərə gedə bilərəm?

– Yaxşı, söz verirəm.

Sonra biz Osvald Plantasiyasını gəzdik. Ştatın ən gözəl bağları yerləşən bu malikanələr Vətəndaş müharibəsindən əvvəl salınmışdır, sonralar bərpa olunmuşdur. Cənub günəşinin ilğımında min rəngə çalan yabanı çiçəklərin bəzədiyi çınqıl döşənmiş cığırlarla doyunca gəzib dolaşdıq.

– Sabah saat neçədə uçursan? – Savanna soruşdu. Buludsuz səmada günəş yavaş-yavaş üfüqə doğru əyilirdi.

– Səhər tezdən. Mən aeroporta gedəndə sən yəqin yatacaqsan.

O, başı ilə təsdiqlədi.

– Gecəni isə atanla keçirəcəksən.

– Bu barədə fikirləşmişəm... amma sən istəsən... Doğrusu, ona az vaxt ayırmışam, amma elə bilirəm, məni başa düşər...

Savanna başını buladı.

– Yox, yox, fikrini dəyişmə. İstəyirəm ki, atanla bir yerdə çox olasan. Elə bilirəm, belə də olacaq, ona görə bu gün səhərdən səninləyəm.

Yaxşı qulluq edilmiş bitkilərlə səliqəli şəkildə haşiyələnmiş cığırın axırına çatdıq.

– Yaxşı, nə fikirləşdin? – soruşdum. – Mənim təklifim...

– Bu elə də sadə deyil, – Savanna köksünü ötürdü.

– Nə olsun ki, sadə deyil? – təkidlə dedim. – İstəmirəm ki, bütün bunlar bitsin, qurtarsın... – dayandım. Bildim ki,

sözlər kifayət etməz. Savannanı arxadan qucaqlayıb özümə sarı çəkdim. Boynunu, qulaqlarını öpüşlərə qərq etdim. Dodaqlarım onun zərif dərisində gəzir, xoşbəxt olurdu. – Tez-tez zəng edəcəyəm, zəng edə bilməyəndə məktub yazacağam, bir ildən sonra isə yenə məzuniyyət götürəcəyəm. Harada olsan, ora gələcəyəm.

Savanna bir az geri çəkildi ki, üzümü görsün.

– Doğrudan, gələrsən?

Yenidən onu qollarımın arasına aldım.

– Hökmən gələcəyəm. Səndən ayrılmaq mənim üçün əzabdır. Çox istəyirəm ki, bizim hərbi hissəmiz haradasa yaxında olsun, indi isə hələlik söz verirəm ki, yazacağam, zəng edəcəyəm sənə. Qarnizona gedən kimi yerimi dəyişmək üçün ərizə verəcəyəm, amma bilmirəm, bu nə qədər çəkəcək, həm də belə şeylər necə olur, hələ bilmirəm.

– Başa düşürəm, – Savanna mızıldadı. Nədənsə onun üzünün belə ciddi ifadəsi məni əsəbiləşdirdi.

– Məktub yazacaqsan mənə? – soruşdum.

– Yazmasam... – məni hirsləndirirmiş kimi səsini uzatdı. Nigaranlığım bir anda əridi. – Əlbəttə, yazacağam, – dedi və gülümsündü. – Hələ bir soruşursan da. Hər gün, hər gün yazacağam. Mən yaxşı məktublar yazıram.

– Şübhə etmirəm.

– Doğru sözümdü, – o dedi. – Bizim ailəmizdə tətillərdə, bayram günlərində həmişə məktublar yazırıq. Biz doğma adamlarımıza məktub yazırdıq – onlar necədir, onları çox istəyirik, onlarla nə vaxt görüşəcəyimizi səbirsizliklə gözləyirik.

Bir də boynunu öpdüm.

– De görüm, məni nə qədər istəyirsən? Yenidən görüşməyimizi necə həsrətlə gözləyəcəksən?

O, arxaya çəkildi bir az.

– Bax, bunu məktublarımdan biləcəksən.

Bərkdən güldüm, amma hiss etdim ki, ürəyim parçalanır.

– Çox darıxacağam səninçün, çox, – dedim.

– Mən də.

– Səsində nəsə hiss olunmur.

– Bu ona görədir ki, mən dünəndən ağlayıram. Yadında deyil? Bir də, başa düşdüm ki, biz həmişəlik ayrılmırıq. Əlbəttə, çətin olacaq, amma vaxt tez keçir, onsuz da yenə görüşəcəyik. Mən bilirəm, hiss edirəm bunu, necə ki, sevgimizi hiss edirəm. Sənin, mənim – bizim sevgimizi. Qəlbimdə hiss edirəm ki, bitməyib, qurtarmayıb bu. Bir çox sevənlər ayrılığa dözürlər. O biri tərəfdən, əlbəttə, çoxları da ayrılığa dözmür, ayrılır... Amma bu o demək deyil ki, biz də ayrılacağıq...

İnanmaq istəyirdim ona. Çox istəyirdim. Amma doğrudanmı hər şey belə sadə olacaq, bilmirdim.

Günəş üfüqlər arxasında gizlənəndə mən Savannanı çimərlikdəki evə gətirdim. Maşını bir az aralı saxladım ki, kimsə bizi görməsin. Maşından düşdük, Savannanı qollarımın arasına aldım. Biz öpüşdük, mən onu köksümə bərk-bərk sıxdım, bir an da yadımdan çıxmırdı ki, bu bir il necə uzun çəkəcək mənimçün. Allahım, nolar, vaxtı arxaya döndər, deyə düşünürdüm. Kaş heç orduya yazılmayaydım! İndi özüm öz başımın ağası olardım. Amma mən azad deyildim.

– Gərək gedim daha...

Savanna başını silkələdi və hıçqırdı. Ürəyim sıxıldı.

– Yazacağam sənə, – dedim.

– Yaxşı, – o dedi. Gözlərinin yaşını sildi, çantasını açdı. Oradan kağız-qələm çıxartdı. Savanna tələsmədən nə isə yazdı. – Burda mənim ev ünvanım, telefonum var. Elektron poçt ünvanım da.

Başımı tərpətdim.

– Yadında saxla, gələn il mən başqa yataqxanaya köçəcəyəm, köçən kimi ünvanımı bildirəcəyəm sənə. Amma valideynlərimdən mənim harada olduğumu öyrənə bilərsən. Nə yazsan, onlar mənə göndərəcəklər.

– Bilirəm, – dedim. – Poçtumuzun nömrəsi səndə var. Hətta hərbi tapşırıqla harda olsam belə məktubların gələcək mənə. Elektron məktubların da. Orduda hər şey kompüterlə idarə olunur – lap səhrada da.

Savanna qolları ilə özünü qucaqladı, elə bil yetim uşaq idi.

– Məni qorxudan odur ki, sən əsgərsən, – o dedi. – Bu çox qorxuludur... .

– Mənə heç nə olmaz, – onu inandırdım. Sonra maşının qapısını açdım, pulqabımı çıxarıb ünvanlar yazılmış kağızı onun alt cibinə qoydum. Sonra yenə qollarımı açdım. Savanna yaxın gəldi, onu sinəmə sıxıb xeyli beləcə saxladım, sanki bütün varlığımla onun qoxusunu, hərarətini özümə çəkəcəkdim.

Bu dəfə Savanna qurdalandı, əl çantasını açıb içindən bir zərf çıxartdı.

– Bu məktubu axşam yazmışam. Təyyarədə açıb oxuyarsan. Ona qədər açma, yaxşı? – dedi.

Başımı tərpətdim, onu bir də, axırıncı dəfə öpdüm. Sükanın arxasına keçib motoru işə saldım. Tərpənəndə onun çağırdığını eşitdim:

– Atana salam de. De ki, ola bilsin, bu yaxın günlərdə ona baş çəkim, yaxşı?

Yola düşəndə arxa güzgüdə Savannanı hələ görə bilirdim. Bir anlıq fikrimə gəldi ki, maşını saxlayım, dönüm, atam başa düşər məni, bilir ki, Savanna mənim üçün necə əzizdir. Axırıncı gecə bir yerdə olmağımıza yəqin etiraz etməz. Amma yoluma davam etdim, güzgüdə görürdüm ki, mənim Savannam getdikcə kiçilir, kiçilirdi...

Şam yeməyimiz həmişəkindən də sakit keçdi. Nəsə danışmağa həvəsim yoxdu, deyəsən, atam da bunu hiss etmişdi. Mən stolun arxasında oturmuşdum, o isə yemək bişirir, həmişəki kimi öz işinə diqqət etməkdənsə hərdən sualedici baxışlarla mənə tərəf boylanırdı. Sobanı söndürüb mənə tərəf gələndə, düzü, diksindim bir az.

Əlini kürəyimə qoydu, amma bir şey demədi. Heç demək də lazım deyildi: görürdüm ki, atam mənim necə iztirab çəkdiyimi başa düşür. Sakitcə dayanıb elə bil iztirablarımı özünə çəkmək istəyirdi, müztərib duruşu ilə “dərdin-sərin mənə gəlsin” deyirdi.

***

Səhər atam məni aeroporta apardı, uçuş meydançasının lap qapısına qədər gəldi mənimlə. Dayanıb uçuşun elan edilməsini gözlədik. Ayrılanda atam əlini mənə uzatdı,

amma mən dözmədim, onu qucaqladım. Atam gərgin bir vəziyyətdə durmuşdu, mən buna fikir vermədim.

– Ata, mən səni çox sevirəm.

– Mən də, Con.

– Yaxşı sikkələr tap, – dedim. – Onlar haqqında mənə hələ çox danışarsan, yaxşı?

O, nəzərlərini döşəməyə dikdi.

– Savanna mənim xoşuma gəlir, – dedi. – O, yaxşı qızdır.

Bu, əlbəttə, gözlənilməz oldu, amma hər halda indi eşitmək istədiyim məhz bu idi.

Təyyarədə yerimə oturandan sonra Savannanın məktubunu dizlərim üstə qoydum. Elə bu saat onu açıb oxumaq istəyirdim, amma gözlədim ki, təyyarə havaya qalxsın, sonra açım. İllüminatordan okeanın sahil xəttini görürdüm, gözlərim əvvəlcə körpünü axtardı, sonra kotteci. Savanna, yəqin ki, hələ yatırdı, amma inanmaq istəyirdim ki, indi o, qumlar üstə dayanıb məni baxışları ilə yola salır.

Sonra fikrimi topladım, zərfi açdım. Zərfin içində Savannanın şəkli (elə burada yadıma düşdü ki, gərək mən də şəklimi ona verəydim) vardı. Uzun-uzadı şəklə baxdım. Sonra şəkli kənara qoyub dərindən köks ötürdüm, məktubu oxumağa başladım:

*"Əzizim Con!*

*Sənə demək istədiklərim çoxdur, amma bilmirəm, nədən başlayım. Bəlkə ondan başlayım ki, səni sevirəm? Ya da yazım ki, səninlə keçirdiyim günlər həyatımın ən xoşbəxt günləri idi? Bəlkə ondan ki, səni tanıdığım bu az müddətdə mən inandım ki, bu tale işidir – biz birlikdə olmalıyıq?*

*Bunların hamısını deyə bilərəm, hamısı da doğru olar. Amma qayıdıb yazdığımı bir də oxuyanda bircə onu fikirləşə bilirəm ki, kaş indi səninlə olaydım, əlindən tutaydım, sənin daim sirli olan təbəssümünü görəydim.*

*Bilirəm, gələcəkdə birgə keçirdiyimiz günləri dönə-dönə yaşayacağam. Gülüşünü eşidəcək, üzünü görəcəyəm, qollarını belimdə hiss edəcəyəm. Mən daha çox şeylər üçün darıxacağam, sənin təsəvvür edə bildiyindən də çox. Con, sən az-az tapılan, nəcib oğlanlardansan, bu, çox qiymətli cəhətdir. Birlikdə olduğumuz bütün vaxtlarda heç vaxt məni məcbur etmədin ki, səninlə yatım, bunun mənim üçün nə demək olduğunu sənə izah edə bilmirəm. Bu, onu göstərir ki, biz, deyəsən, tamam ayrı bir dünyanın adamlarıyıq, ona görə də birgə olduğumuz vaxtları həmişə anmaq, xatırlamaq istəyirəm. Təmiz, ağappaq bir işıq kimi – nəfəs dərmədən ona baxmaq, baxmaq istəyirəm.*

*Hər gün sənin haqqında düşünəcəyəm. Hərdən qorxuram ki, bir vaxt mənə olan hisslərin zəifləsin, birdən yadından çıxararsan ki, bizi birləşdirən nədir, ona görə də bax, belə bir şey fikirləşdim. Bədirlənmiş Ayı görəndə harada olsan da, nə etsən də – ilk dəfə görüşdüyümüz həmin gecə yadındadır? – istəyirəm ki, həmin gecə Aya baxıb məni xatırlayasan, birlikdə olduğumuz həmin yeddi günü xatırlayasan. Mən də harada olsam, həyatımda nə baş versə də, həmin gecə Aya baxacağam. Madam ki, birlikdə ola bilmirik, heç olmasa o gecəni, o anı yaşamaqla birləşək. Harada olsaq da! Bəlkə o zaman bu hisslərimizin, ikimizin qəlbində boy atan bu sevgimizin ömrünü uzada bildik.*

*Con Tayri, mən səni sevirəm. Mənə söz verdiyin kimi, mən də sənə söz verirəm. Qayıdacaqsansa, sənə ərə gedəcəyəm. Əhdini pozsan ürəyimi sındıracaqsan.*

*Səni sevən Savanna".*

Pəncərədən baxa-baxa gözlərimin yaşı ləpələnirdi. Aşağıda yalnız bulud laylarını görürdüm. Bilmirdim, haradayıq. Bildiyim təkcə o idi ki, ürəyim parçalanır, elə burdan geri qayıtmaq istəyirdim. O yerə ki, orada mənim doğmalarım vardı, o yerə ki, məni orada gözləyirdilər.

# İkinci hissə

## On ikinci fəsil

Bir neçə saat sonra, Almaniyaya gəldiyim günün axşamı, elə ki tək qaldım, Savannanın məktubunu yenidən oxudum, birlikdə olduğumuz günləri, anları xəyalımda canlandırmağa çalışdım. Bu, çətin olmadı – xatirələrim demək olar ki, elə arxamca gələnə oxşayırdı, həm də əsgər həyatımdan daha real görünürdü. Az qala Savannanın kiçik əlini əlimdə hiss edir, dənizdə islanmış saçlarının suyunu necə sıxdığını görürdüm. Onun ilk dəfə serfinq taxtasında dik durub sahilə qədər üzdüyünə heyrətləndiyimi xatırlayıb bərkdən güldüm; yanında olduğum o yeddi gün məni o qədər dəyişmişdi ki, əsgər yoldaşlarım da bunu hiss etdilər. Dostum Toni iki həftə elə hey məni cırnadıb deyirdi ki, zərif cinsin nümayəndələri ilə ünsiyyətin vacib olduğunu deməkdə haqlı imiş, çünki guya məhz onun təbliğatı öz

rolunu oynayıb. Səhv eləyib Savanna haqqında ona danışmışdım. Daha məndən əl çəkmir, dönə-dönə bu haqda soruşur, daha çox bilmək istəyirdi. İndi də əlimə kitab alan kimi o da mənimlə üz-üzə oturub dişlərini ağartdı.

– Hə, səni dəli eləyən o məzuniyyət günlərindən bir danış görüm, – dedi.

Kitabdan gözümü ayırmadan, özümü qəsdən eşitməzliyə vurdum.

– Savanna? Adı belə idi, hə? Sa-van-na. Lənətə gələsən, bu ad yaman xoşuma gəlir. Belə... necə deyim... Gözəl addır ha! Amma mərc gəlirəm ki, o, yəqin, dişi canavar balasıdır...

– Toni, mumla...

– Mənə yox da! Mən sənə öyrətmirdim bunları? Güclə qızlarla görüşə itələyirdim səni. Axır ki, dediyimə qulaq asdın, indi sən mənə danış görüm, necə baş verdi bunlar.

– Bunun sənə dəxli yoxdur.

– Heç olmasa, spirtli tekila kokteyli içdinizmi? Deyirdim sənə, bu, yaxşı təsir edir.

Heç nə demədim. Toni əl-qolunu ölçə-ölçə:

– Yaxşı da, uzatma, köhnə dostuna da deyə bilmirsən? – dedi.

– Bu haqda danışmaq istəmirəm.

– Ona görə ki, sevirsən? Həə, axı o gün bəzi şeylər danışırdın, mən də fikirləşdim ki, yəqin, şişirdirsən nəsə...

– Hə də, yalan deyirdim; əl çəkirsən?

Toni başını bulayıb ayağa durdu.

– Yoox, deyəsən, doğrudan sevirsən. Xiffət səni birtəhər eləyib...

Dinmədim, amma Toni gedəndən sonra başa düşdüm ki, o haqlıdır. Dərk etdim ki, Savannaya vurulmuşam və bundan nicatım yoxdu. Hər şeyə hazır idim, təki onunla bir yerdə olum. Birləşmiş Ştatlara köçürülməyim haqda xahiş ərizəsi yazdım. Hər şeyə praktik yanaşan komandirim xahişimə ciddi münasibət göstərdi. Səbəbini soruşanda atamın səhhəti ilə bağlı olduğunu dedim. Komandir sözümə qulaq asandan sonra stulun oturacağına yayxanıb dedi:

– Bax ha, atanın səhhəti ilə bağlı olmasa, xahişin çətin ki, keçsin.

Komandirin yanından çıxandan sonra ümidsizlik içində qovrulurdum – ən azı on altı ay burdan heç yerə gedə bilməyəcəkdim. Növbəti bədirlənmiş Ay görünəndə kazarmadan çıxıb yaxınlıqda tez-tez futbol oynadığımız çəmənliyə getdim. Arxası üstə uzanıb Aya baxdım, Savanna ilə keçirdiyim günləri anbaan xatırlamağa başladım. Xatırladıqca bağrım şan-şan olurdu. Axı niyə belə uzaqda idim?

İlk günlər müntəzəm zəngləşir, məktublaşırdıq. E-mail məktubları da yazırdıq. Bir az sonra başa düşdüm ki, Savanna məktub yazmağı xoşlayır. İstəyirdi ki, mən də yazım. Elə belə də yazırdı mənə: “Bilirəm, məktub yazmaq e-mail kimi tez olmur, amma mən yazmağı xoşlayıram. Poçt qutusunda məktub görəndə adam yaman sevinir. Əlində məktub, tələsirsən, həyəcanla onu açmaq istəyirsən. Görəsən, içindən istədiyin xəbər çıxacaqmı? Nəsə gözləyirsən ondan. Səni sevindirəcək, içini tərpədəcək bir xəbər. Mən onu özümlə götürə bilirəm, harada olsam oxuyuram, lap bir ağaca söykənib, üzümə sərin meh əsə-əsə

oxuyuram. Kağızda sənin sözlərini görəndə onları yazarkən nələr düşünmüsən, hansı ovqatda olmusan, əyninə nə geymisən, qələmi necə tutmusan, – bütün bunları təsəvvür etməyə çalışıram. Bəlkə də heç belə deyil, amma mən təsəvvür edirəm ki, indi sən çadırda, əldəqayırma bir stulda oturub neft lampasının işığında məktub yazırsan, bayırda isə külək uğuldayır. Bu elə romantikdir ki – nəinki musiqi, ya da elmi axtarışlar üçün işlətdiyimiz kompüterdə e-mail məktubları yazmaq".

Mən gülümsədim. O, çadır, neft lampası və yeşiklərdən düzəlmə stul barədə, əlbəttə, səhv edirdi, amma razılaşdım ki, onun dedikləri bizim taxta baraklarda hökumətin puluna alınmış süni işıq lampaları və yazı stolundan daha romantikdir.

Günlər ötür, həftələr keçir, mənimsə Savannaya olan sevgim daha da alovlanırdı. Hərdən əsgər yoldaşlarımdan ayrılıb xəlvətə çəkilirdim. Tək qalıb Savannanın şəklinə baxır, baxır, hər bir cizgini dönə-dönə yaddaşıma köçürürdüm. Qəribə idi, ona sevgim artdıqca, birgə keçirtdiyimiz günləri xatırladıqca vaxt keçir, yay öz yerini payıza, payız isə qışa verirdi, mən isə yalnız onun şəklinin ümidinə qalmışdım. Öz-özümə deyirdim ki, hə, bax, üzü dəqiq yadımdadır, amma bəzən görürdüm ki, üzünün cizgiləri yadımdan çıxır. Bəlkə yaxşı baxmamışam, ya da sadəcə, görməmişəm, deyə fikirləşirdim. Məsələn, şəkildə Savannanın sol gözünün altında xalı vardı, amma heç xatırlamırdım; ya da bir az diqqətlə baxanda görürdün ki, təbəssümü dodağında bir az əyilir. Ona yaraşıq verən bu "eyiblər" Savannanı daha da gözəlləşdirir, ucaldırdı

gözümdə. Amma niyə axı mən bunlara şəkildə baxmalı idim, deyə bağrım sökülürdü.

Həyat isə davam edirdi. Savanna bir an da yadımdan çıxmırdı. Mən onunçün darıxırdım, amma xidməti vəzifələrim də vardı. Sentyabr ayının əvvəllərində hətta ordunun izah edə bilmədiyi vəziyyətlə əlaqədar olaraq bölüyümüzü təkrarən Kosovoya, orada sülhməramlı missiyasını yerinə yetirən Birinci Zirehli Diviziyaya birləşməyə göndərdilər, halbuki piyada hissəmizin əksəriyyəti Almaniyaya qaytarıldı. Kosovoda nisbətən sakitlik idi, bir güllə də atmadım, amma bu o demək deyildi ki, mən bütün günü gül-çiçək yığırdım, ya da Savannanın xəyalı ilə danışırdım. Avtomatımı silir, qarovula gedirdim – fanatiklərin mümkün hücumlarına qarşı həmişə hazır olmalı idik. Belə saatlarla çəkən gərginlikdən axşam yorulur, ayaq üstə dayana bilmirdin. Açığı, bəzən görürdün ki, iki-üç gün Savanna haqqında heç fikirləşə bilmirdim, yadıma düşmürdü. Bəlkə bu, sevgimi gerçəklikdən uzaqlaşdırırdı bir az? Bu sualı özümə dönə-dönə verirdim, hər dəfə də "yox" deyirdim, çünki onun surəti pusquda durmuş kimi heç gözləmədiyim yerdə qabağıma çıxır, ondan ayrıldığım gün duyduğum o amansız həsrəti dönə-dönə yaşatmaqla üzürdü məni. Ən adi bir şey onu xatırlada bilirdi: yoldaşlarımdan kimsə arvadından danışanda, qoşa gəzən serb oğlanlarını, qızlarını, ya da küçədən keçəndə bizə tərəf boylanıb gülümsəyən sakinlərin təbəssümünü görəndə...

Savannanın məktubları təxminən on gündən bir gəlirdi. Almaniyaya qayıdanda çoxlu məktub yığıldığını gördüm. Onların heç biri təyyarədə oxuduğum ilk məktuba

bənzəmirdi. Əksər məktublar elə-belə, danışmaq, bölüşmək xatirinə yazılırdı, amma hər məktubun sonunda Savanna əsl hisslərinə qayıdırdı. Mənə ətrafında baş verənlərdən də yazırdı. Heç demə, onlar birinci evi nəzərdə tutulduğundan bir az gec istifadəyə veriblər, ona görə də ikinci kotteci daha sürətlə tikməli olublar. İş saatlarını uzadan tələbə inşaatçılar işləməyi də yaxşı öyrəniblər. Birinci evi istifadəyə verəndən sonra yaxşı məclis düzəldiblər, səhərə qədər yeyib-içib, biri-birinə tost deyiblər. Məclis "Yengəc daxması"nda olub. Tim deyib ki, buradakı atmosferi heç bir restoranda görməyib. Savanna böyük sevinclə xəbər verirdi ki, adını hələ yazdan yazdırdığı bütün mühazirələrə gedəcək, yeniyetmə psixologiyasını onlara Dr. Barns adlı bir müəllim keçəcək. Bu müəllimin hansısa psixologiya jurnalında böyük bir məqaləsi çap olunub. İnanmağa ehtiyac da hiss etmirdim ki, bütün bu aylar ərzində Savanna yalnız məni düşünüb, düşünüb də fikri yayınıb, çəkici barmağına vurub, ya da pəncərəni öz yerinə qoyanda, yaxud Timlə danışanda həsrətlə arzulayıb ki, kaş Timin yerində mən olaydım onun yanında. Öz-özümə deyirdim və inanırdım ki, bizim sevgimiz belə xırda şeylərdən çox böyükdür, vaxt keçdikcə ona daha çox inanırdım, bu inamla da onu daha çox sevirdim.

Əlbəttə, çox bilmək istəyirdim ki, görəsən, Savanna məni əvvəlki kimi sevirmi və buna get-gedə daha çox inanırdım. Onun bütün məktublarını saxlamağım da yəqin bununla bağlıdır. Məktublarının axırında həmişə bir cümlə, ya da bütöv bir abzas məni o günlərə qaytarır, xatirələrimi

oyadır, həmin yeri dönə-dönə oxuyanda sanki Savannanın səsini eşidirdim. Onun ikinci məktubunda olduğu kimi:

*“Sənin haqqında, özüm haqda, sevgimiz haqqında düşünəndə, bilirəm ki, bəziləri birgə olduğumuz həmin beş-altı günü bir yay, bir dəniz sevdası zənn edəcəklər, ötəri-keçəri bir şey deyəcəklər buna. Ona görə də kimsəyə bu haqda heç nə demirəm. Onlar başa düşməyəcəklər. Bir də ki, bunu onlara izah etməyə nə hacət? Onlarsız da mən bilirəm – bunun necə gerçək olduğunu məndən başqa kimsə bilə bilməz. Sənin haqqında fikirləşəndə gülümsəməyə bilmirəm – necə oldu ki, mənim bir parçama çevrildin? Elə bil tamamladın məni. Mən səni təkcə bu saat, indiki anda sevmirəm, mən həmişə sevirəm səni, həmişə də o güclü qollarınla bir də məni qucaqlayacağın vaxtı arzulayıram”.*

Bu isə şəklimi ona göndərəndən sonra yazdığı məktubdandır:

*“Şəklə görə sağ ol. Mən onu çantamda gəzdirirəm. Şəkildə yaxşı görünürsən – sağlam, xoşbəxt. Amma görən kimi ağlamaq tutdu məni. Ona görə yox ki, həsrətini xatırlatdı mənə – hərçənd bu da var; ona görə ki, mən səni doğrudan-doğruya görə bilmirəm. Daha çox ona görə ki, başa düşdüm ki, həyatımda qiymətli bir nəsnə varsa, o da sənsən”.*

Ya da mən Kosovoda olanda ondan aldığım məktubdan bir parça:

*“Deməliyəm ki, axırıncı məktubundan çox narahat oldum. Bir az ətraflı yaz. Mən bunu bilməliyəm, qoy lap nəfəsim kəsilsin, qorxudan içim buzlasın, amma bilim ki, sənin əsgər həyatın necə keçir. Şükranlıq Günündə evimizə*

*gedəcəyəm, testlərin nəticələri barədə narahatam, bunlar öz yerində. Amma düşünəndə ki, indi sən döyüş yerlərində, düşmən əhatəsindəsən... nə bilim... Kaş o adamlar da səni mənim kimi tanıyaydı, onda sənə dəyməzdilər, təhlükəsiz olardın. Necə ki, sənin qolların arasında mən özümü təhlükəsiz hiss edirdim..."*

Həmin il Milad bayramı darıxdırıcı keçdi – evdən uzaqdasansa, onsuz da darıxdırıcı keçir. Hərbi xidmətdə odluğum müddətdə ilk dəfə deyildi ki, Milad bayramını belə kədərlə qarşılayırdım. Hər dəfə də həmin gün Almaniyada olurduq. İki əsgər kazarmada əllərinə düşən şeylərdən yolka qurdular – yaşıl brezent parçadan olan yelkəni bir ağaca dolayıb dövrəsinə yanıb-sönən lampalar bağladılar. Əsgərlərdən çoxu evlərinə məzuniyyətə getmişdi, mənim kimi bəxti gətirməyənləri isə qarovulda qoymuşdular ki, birdən rus dostlarımız bizi yenə düşmən hesab edib nəsə eləyər. Burada qalanların da çoxu şəhərdə alman pivəsinin dadını çıxarmaqla Milad axşamını keçirməyə getmişdi. Savannanın göndərdiyi hədiyyəni – nəsə Timin zövqünə uyğun bir sviter və ev peçenyesi olan bağlamanı açıb baxırdım. Bilirdim ki, o da mənim göndərdiyim ətiri alıb. Amma yaman yalqız hiss edirdim özümü; istədim, Savannaya zəng vurum, bu da olsun özümün özümə Milad hədiyyəm. O, zəngimi gözləmirdi, səsimi eşidəndə necə hıçqırdığı dalbadal bir neçə həftə sonra da dönə-dönə beynimdə səslənirdi. Bir saata qədər danışdıq. Səsi üçün darıxmışdım, onun ləhcə ilə, həm də sözləri tez-tez deyəndə azca burunda danışmağını az qala yaddan çıxarmışdım. Stulun arxasına söykənib təsəvvür etdim ki, o mənim

yanımdadır, yağan qar dənəciklərini necə təsvir edir. Elə bu vaxt gördüm ki, pəncərəmdən o üzdə – bayırda da qar yağır, bir anlıq mənə elə gəldi ki, biz yenə bir yerdəyik, birlikdəyik.

2001-ci ilin yanvarından günlərimi saymağa başladım – Savanna ilə görüşməyimə nə qədər qaldı. Yay məzuniyyətim iyun ayında olmuşdu, hərbi xidmətimin qurtarmasına bir ildən də az qalırdı. Səhər yuxudan oyananda öz-özümə deyirdim – 360 gün qaldı. Sonra 259 gün, sonra da 258 gün... Hə, Savanna ilə görüşməyimə yüz yetmiş səkkiz, yüz yetmiş yeddi, yüz yetmiş altı gün qaldı. Beləcə, günləri sayırdım. Hər şey çox yaxın və real görünürdü, yavaş-yavaş Şimali Karolinaya qayıdacağım günü arzulamağa başlayırdım. O biri tərəfdən, bu məşğuliyyətim elə bil vaxtı getməyə qoymurdu. Bir şeyi doğrudan da çox istəyəndə o ləngiyir. Necə ki, uşaq olanda sən yay tətilini arzulayırsan, günlər isə keçmir ki, keçmir. Savannanın məktubları olmasaydı, bu uzanan intizar məni üzəcəkdi.

Atam da məktub yazırdı – Savanna kimi tez-tez olmasa da. Elə bil cədvəl tutmuşdu, ayda bir dəfə yazırdı. Təəccüblü idi, onun məktubları adi səhifədən uzun olardı. Əlavə səhifələr sikkələr haqqında idi. Asudə vaxtlarımda mən kompüter mərkəzinə gedir, İnternetdə nadir sikkələr axtarırdım. Onların tarixini öyrənir, toplayır, atama göndərirdim. And içirəm, ilk dəfə idi ki, atamın məktubunu alanda vərəqdə atamın göz yaşları ləkəsini gördüm. Bunun gerçək olduğunu bilmirdim, əlbəttə, yalnız güman edirdim. Çünki atam bu haqda bir söz də yazmırdı, işarə də vurmurdu, amma inanmaq istəyirdim ki, o, göndərdiklərimi

diqqətlə öyrənir – "Numizmatika bülleteni"ni oxuyub öyrəndiyi kimi.

Fevral ayında bizi NATO hissələri ilə birgə təlimlərə göndərdilər. Bu, növbəti təlimlərdən biri idi. Adı da təxminən belə idi: "Təsəvvür edin ki, indi 1944-cü ildir, müharibə gedir". Təlimin şərtlərinə görə, mümkün düşmən qüvvələri Almaniya çöllərində sürətli tank həmləsi ilə hücuma keçmişdi. Bilmək istəsəniz, belə təlimlərin praktik dəyəri çox da böyük deyil. Belə döyüşlər keçmiş müharibənin bir parçası kimi çoxdan köhnəlmişdir: göyərtəsindəki toplarla yaxın məsafəyə atəş açan qədim ispan gəmiləri, ya da Birləşmiş Ştatların köməyə tələsən süvariləri kimi. Bizim günlərdə heç kim demir ki, düşmən kimdir, amma hamı bilir ki, bunlar ruslardır. Dayan, dayan, bu necə olur axı? Onlar ki indi bizim müttəfiqimizdir! Bir də ki, indi onların işlək tankları da çox az qalıb. Lap ola bilsin ki, ruslar uzaq Sibirdə qoca Avropanı tırtılları altında əzəcək gizli tank zavodları tikiblər, onların tank həmlələrinin qarşısını piyada əsgərlərimiz yox, hava zərbələri və zirehli diviziyalar alacaq. Amma kimdi məndən soruşan? Üstəlik, təlimlərin lap əvvəlindən çox səfeh hava vardı. Şimaldan baş alıb gələn, zəhlətökən, şaxtalı küləklər əsməyə başlamışdı. Qarlı-sazaqlı, palçıqlı çöllərə yağan dolu göz açmağa imkan vermirdi, saatda əlli mil sürətlə əsən çovğunlu küləklər paltarımızı əynimizdən çıxarırdı. Bu, Napoleonun Moskvadan geri çəkilən əsgərlərini yadıma saldı. Şaxtadan kirpiklərimiz buz bağlayırdı, nəfəs almaq ağrı verirdi, təsadüfən avtomatın lüləsinə toxunan əlim yapışıb qalırdı orda, əlimi ayırmaq istəyəndə isə dərim qopub yapışırdı

lüləyə. Ona görə də üzümü örtürdüm, əlimi qundaqda saxlayıb buz kimi soyuq, palçıqlı suda qar altında o baş-bu başa addımlayırdım, ta ki, donub buz heykələ dönməyim. Təlim olsa da, hər yandan "düşmən" gözləyirdik.

Təlimlərimiz on gün çəkdi. Əsgərlərimin yarısını şaxta sıradan çıxardı; bir neçəsi hipotermiya vəziyyətində idi, təlimlərin axırında üç, ya dörd sağlam əsgərimiz qaldı, bazaya qayıdan gün onlar da izolyatora qoyuldu. Mən də onların arasında. Əslində, məcburən iştirak etdiyim bu təlimlər az qala çox gülünc və səfeh bir tədbir oldu. Bunu elə-belə demirəm, çünki Sem dayı üçün, Birinci Amerika Diviziyası üçün bundan da səfeh tapşırıqlar yerinə yetirmişdim. Hərbi hissəmizin komandiri xəstəxana palatasına gəlib hərbi tapşırığı uğurla yerinə yetirdiyimizə görə bölüyümüzü təbrik edəndə istədim deyəm ki, yaxşı olardı ki, müasir döyüş taktikasını öyrənməyi, ya da heç olmasa telekanalların hava haqqında proqnozlarını əvvəlcədən bilməyi məşq edəydik. Bunun əvəzində mən ləyaqətli bir piyada əsgəri kimi təzim edib təbriklərə görə təşəkkür bildirdim.

Bundan sonra qarnizon xidmətimin cansıxıcı günləri başladı. Hərdən silah, ya da naviqasiyanın yeni modellərini öyrənmək üçün məşğələlərimiz olurdu. Bir neçə dəfə əsgər yoldaşlarımla şəhərə pivə içməyə də getdik. Amma yəqin ki, daha çox ağırlıq qaldırmaqla məşğul olurdum, qaçırdım, ya da rinqdə Toninin yanbızlarına zərbələr endirirdim.

Təlimlərdə şaxtalardan çəkdiyimiz əziyyətdən sonra düşündüyümüzün əksinə olaraq Almaniyada yaz yaxşı gəldi. Qar əridi, gül-çiçək boy atmağa başladı, hava isindi. Elə

ciddi istilər olmurdu, amma torpağın donu açılmışdı, bu isə kifayət idi ki, şortik geyib kazarmanın yanında frisbi, ya da beysbol oynayaq. İyun ayı yaxınlaşdıqca səbrim daralır, tezliklə Şimali Karolinaya qayıtmaq haqda düşünürdüm. Savanna kolleci bitirmişdi, yay kurslarına gedirdi ki, magistr imtahanlarına hazırlaşsın. Ona görə də birbaşa Çapel Hillə getmək fikrində idim. Deyirdim, iki unudulmaz, gözəl həftəmiz olacaq: Savanna deyirdi ki, hətta Uilminqtona, atama dəyməyə gedəndə də mənim yanımda olmaq istəyir. Onun bu sözləri məni haldan-hala salırdı – əsəbiləşdirir, bəzən də qorxudurdu. Yaxınlaşan görüşümüzün həyəcanları məni indidən çulğamışdı.

Əlbəttə, biz yazışırdıq, telefonla da danışırdıq. Birinci dəfə bədirlənmiş Ay görünəndə (Savanna yazmışdı ki, o da istəyimizə əməl edir) tamaşa etmişdim. Amma təxminən bir ildi ki, mən onu görmürdüm. Bilmirdim, məni görəndə necə hərəkət edəcək. Mən təyyarənin trapından enəndə özünü dərhal qucağıma atacaqmı, yoxsa bir az təmkinli aparacaq özünü, yalnız yanağımdan öpəcək? Dillərimiz dərhal açılacaqmı, yoxsa əvvəlcə havadan, dağdan-bağdan danaşacağıq? Bilmirdim, ona görə də gecələr yuxum gəlmirdi, görüşümüzün müxtəlif ssenarilərini təsəvvür edirdim.

Toni mənim vəziyyətimi bilirdi, başqalarına isə ip ucu vermirdi. Mayın axırlarında o, əlini kürəyimə vurub dedi:

– Tezliklə görüşəcəksiz, darıxma. Görüşə hazırsan?

– Özü də necə...

Toni irişdi.

– Yolda tekila almağı unutmayın haa, – dedi.

Tərs-tərs baxdım. Toni qəhqəhə çəkdi.

– Hər şey gözəl olacaq, – dedi. – O səni sevir, əzizim, sevməyə bilməz. Sən ki onu belə dəlicəsinə sevirsən...

## On üçüncü fəsil

2001-ci ilin iyun ayında mənə məzuniyyət verdilər. Əvvəlcə Frankfurtdan Nyu Yorka, ordan da Roliyə uçdum. Cümə günü, axşamüstü idi. Savanna demişdi ki, məni aeroportda maşında qarşılayıb Lenuara aparacaq, ata-anası ilə tanış edəcək. Sürpriz olsun deyə bu haqda mənə lap sonda, uçuşdan bir gün qabaq xəbər verdi. İndi onun valideynləri ilə tanışlığa hazır idim, həm də inanırdım ki, onlar yaxşı adamlardır, amma mənə qalsa, heç olmasa bir neçə gün Savanna ilə tək qalardıq. Bilirsiz, valideynlərin yanında istədiyin kimi davrana bilmirsən, vaxt isə gedir. Nə olsun ki, Savanna ilə fiziki yaxınlığımız yox idi. Savannanı tanıyırdım, toya qədər, yəqin, heç olmazdı da. Amma bu da birtəhər görünürdü. Onun ata-anası buna necə reaksiya verəcəkdi ki, mən onların qızları ilə səhərdən axşama qədər bir yerdəyəm? Qoy lap əl-ələ tutaq, ya da uzanıb ulduzları seyr edək. Yalnız bu. Amma... Əlbəttə, Savanna yekə qızdır, ancaq valideynlər çox zaman olmayan şeylər təsəvvür edirlər. Bəs necə? Söhbət onların uşağından gedir, ona görə də onların hər şeyi olduğu kimi başa düşəcəklərini xəyal etmirdim. Demək istəyirəm ki, Savanna onlar üçün həmişə balaca uşaq idi.

Amma Savanna yadıma saldı ki, mənim yalnız iki həftə vaxtım var. Əgər ikinci həftə atama dəyməyə getsəm, onda onun valideynləri ilə bu həftə tanış olmalıyam. Savanna, onun ata-anası ilə tanış olacağımdan elə həyəcanlı idi ki! Ona görə də dərhal razılaşdım – gərək birinci həftə onun ata-anası ilə tanış olum. Bircə şey qalırdı – görəsən, Savannanın əlindən tutub Lenuarda bir az gəzə bilərəmmi?

Təyyarə yerə enən kimi daha dözmədim – ürəyimi həyəcan sardı. Nə edəcəyimi bilmirdim. Görən kimi qabağına yüyürüm, yoxsa tələsmədən, təmkinlə yaxınlaşıb başımla salamlaşım? Fikirləşməyə vaxt yox idi. Elə bu hisslərlə asta-asta trapa tərəf yeridim. Sonra yol çantamı çiynimə atıb aşağı enən yolla az qala qaça-qaça terminala tərəf götürüldüm. Əvvəlcə Savannanı görmədim, zalda adam çox idi. İzdihama bir də diqqətlə baxanda qarşılamağa gələnlərin sol tərəfində mənim Savannamın dayandığını gördüm. Bir an içində bütün təşviş və həyəcanım yox oldu: o, mənə tərəf qaçırdı. Çantamı çiynimdən endirməyə güclə macal tapdım. Savanna o anda boynuma sarıldı. Bunun ardınca əfsanəvi bir öpüşlə dodaqlarımı xoşbəxt etdi – öz sehri, möcüzəsi, öz dili, öz naxışı ilə. Bir anlıq dodaqlarımdan ayrılıb pıçıltı ilə qulağımı bəxtiyar etdi: “Bilirsən, necə darıxmışam səninçün?!” Hiss etdim ki, bir ilin ayrılığından paralanıb yarı olan vücudum yenidən birləşdi, bütöv oldu. Qovuşdum o biri yarıma.

Bilmədim, qucaqlaşdığımız yerdə beləcə nə qədər qaldıq, amma baqajı almaq üçün yerimizdən tərpənəndə Savannanın əlindən tutdum, gördüm ki, onu o vaxtkından da çox sevirəm, yəqin, heç vaxt heç kimi belə sevməyəcəyəm.

Yolboyu elə hey danışırdıq, bir azca da gəzişdik. Maşını dayanacaqda saxlayandan sonra lap yeniyetmələr kimi bir-birimizə sarmaşdıq. Acgözlüklə öpüşürdük... Amma qoy orda olanlar elə orda qalsın...

Bir-iki saatdan sonra onların evinə gəldik. Savannanın ata-anası Viktorian üslubunda tikilmiş səliqəli, ikimərtəbəli bir evdə yaşayırdılar. Onlar evin artırmasında bizi gözləyirdilər. Təəccüblənsəm də, Savannanın anası bizi görən kimi yaxınlaşdı, məni qucaqladı, sonra da pivə təklif etdi. Mən imtina etdim, çünki gördüm ki, məndən başqa pivə içən olmayacaq. Amma onun bu nəvazişi ürəyimə yatdı. Savannanın anası Cill qızı kimi lütfkar, açıq, amma ilk baxışda göründüyündən daha çoxbilmiş idi. Atası da dala qalmazdı. Vaxtımızı yaxşı keçirdik. Savanna bir dəqiqə də əlimi buraxmırdı, amma buna görə heç sıxılıb eləmirdi də. Gecə ay işığının aydınlatdığı cığırlarla gəzməyə çıxdıq. Evə qayıdanda isə elə bilirdik, heç ayrılmamışıq, bir ilin ayrılığı yuxu kimi gəlirdi bizə.

Mən qonaq otağında yatdım, başqa cür ola da bilməzdi. Bura indiyə qədər yatdığım otaqlardan yaxşı idi – klassik üslubda mebel, rahat yorğan-döşək. İçəridə hava bir az boğanaq idi, pəncərəni açdım ki, otağa bir az dağ havası gəlsin. Yaman uzun gün oldu bu gün. Daxilən mən hələ də Almaniya vaxtı ilə yaşayırdım. Yerimə girən kimi yuxu apardı məni. Təxminən bir saat sonra qapının cırıltısına oyandım. Savanna geniş pambıq pijama və corabda qapını arxasınca örtərək barmaqları ucunda çarpayıma yaxınlaşdı.

Barmağını dodaqlarına qoyub pıçıldadı:

– Sss, valideynlərim bilsə, məni öldürər.

Sonra yanıma, adyalın altına girdi, Arktikada gecələyənlər kimi adyalı boğazınacan çəkdi. Mən onu qucaqladım, bir anda bədənim gizildədi, bütün varlığım onun hərarətindən odlandı.

Biz bütün gecəni öpüşür, gülüşürdük. Səhər tezdən Savanna öz yerinə getdi. Yanımdan gedən kimi mən təzədən yatdım. Bir də onda oyandım ki, taybatay açılmış pəncərəmdə günəş şəfəqləri oynayır. Mətbəxdən yemək qoxusu gəlirdi. Boğazlı maykamı, cins şalvarımı əynimə keçirib tez durdum, mətbəxə tərəf getdim. Savanna burada anası ilə nəsə danışır, atası isə qəzet oxuyurdu. Onların burada olmasından dərhal tutuldum bir az. Stolun arxasında oturar-oturmaz Savannanın anası mənə qəhvə süzdü, sonra yumurtalı, qızardılmış donuz əti yığılmış boşqabı qabağıma qoydu. Mənimlə üzbəüz oturmuş Savanna artıq duş qəbul etmiş, geyinmişdi. Səhərin bu erkən və mülayim çağında elə təravətli görünürdü ki!

– Yaxşı yata bildin? – soruşdu, eyni zamanda gözlərindən aldadıcı, hiyləgər bir ifadə keçdi.

Başımla "hə" dedim.

– Yaxşı da yuxu gördüm, – əlavə etdim.

– Hə? – anası təəccübləndi. – Nəymiş o yuxu?

Savanna stolun altından məni dümsüklədi, sezilmədən başını buladı. Deyim ki, Savannanın belə utanıb-sıxılması xoşuma gəlirdi. Bir az alnımı qırışdırıb fikrimi cəmləyirmiş kimi dayandım, sonra dedim:

– Nəsə yadımdan çıxıb.

– Yuxumu yaddan çıxaranda mən yaman heyifsilənirəm, – anası dedi. – Yemək necədi, xoşuna gəldi?

– Yaxşı qoxusu var, – dedim. – Çox sağ olun. – Savannaya baxdım. – Bu gün hara gedəcəyik?

O, stolun üstündən mənə tərəf əyildi:

– Bəlkə at minməyə gedək? At minə bilirsən?

Tərəddüd etdiyimi görüb güldü.

– Qorxma, yaxşı olar. Söz verirəm...

– Sənə asan gəlir...

Savanna Midası mindi, mənə isə həmişə atasının mindiyi, yəhərlənmiş Pepper adlı atı verdi. Vaxtın çoxunu cığırlarda addım-addım sürməklə, bir az da dördayaq çapmaqla keçirdik. Savanna yemək götürmüşdü, nisbətən hündür bir çəmənlikdə oturub nahar elədik. Lenuar ovuc içi kimi görünürdü burdan. Savanna uzaqdan oxuduğu məktəbi, dostlarının, tanışlarının evlərini göstərirdi. Mənə hələ indi çatırdı ki, Savanna nəinki doğulduğu yeri çox sevir, həm də başqa bir yerdə yaşamağı heç xəyalına gətirmir.

Altı-yeddi saat idi ki, yəhər üstə idik. Çalışırdım ki, Savanna ilə ayaqlaşım, amma bu, mümkün olmurdu. Atdan yıxılmasam da, hərdən Pepper elə tullanırdı ki, özümü yəhərdə güclə saxlayırdım. Yalnız şam yeməyinə yaxın başa düşdüm ki, özümü hansı bəlaya salmışam. Ayaqlarım açılmırdı, yeriyəndə ayaqlarımı sürüyürdüm, ya da ördək kimi yanlara basa-basa yeriyirdim. Ayaq əzələlərim elə ağrıyırdı ki, sanki Toni onları saatlarla yumruqlamışdı.

Şənbə günü axşamüstü kiçik bir italyan restoranına getdik. Savanna dedi ki, gəl, rəqs edək, amma mən ayaqlarımı tərpədə bilmirdim. Ayaqlarımı çəkə-çəkə maşına

sarı getdim, Savanna qayğılı baxışları ilə qarşımda bitdi. Əyilib qıçımı sıxdı.

– Burdan sıxanda ağrıdır?

Qışqırıb dik atıldım. Bu, nədənsə ona əyləncəli gəldi.

– Neyləyirsən?! Ağrıdır axı!

O, nəşə ilə gülümsündü.

– Elə-belə yoxlayırdım, – dedi.

– Yoxlayırdın? Nəyi? Dedim də, əzələlərim ağrıyır.

– Yoxlayırdım ki, görüm mənim kimi balaca adam sənin kimi orduda bərkimiş köntöy bir piyada əsgərini çığırda bilərmi?

Qıçımı ovdum.

– Bir də belə yoxlama, yaxşı? – deyindim.

– Yaxşı, – dedi. – Bağışla.

– Heç “bağışla” deyənə oxşamırsan.

– Yox, doğrudan, bağışla, – təkrar dedi. – Amma təəccüblüdür, mən də sənin qədər at üstündə olmuşam, heç bir ağrı-zad hiss eləmirəm.

– Sən həmişə at minmisən.

– Bir aydan çox olar ki, minmirəm.

– Bir ay nədir ki?

– Yaxşı, boynuna al ki, bu nəsə məzəlidir.

– Gülürsən mənə?!

Bazar günü onun ailəsi ilə birlikdə kilsəyə getdik. Mən tamam tərpənə bilmirdim, ona görə də divanda uzanıb günün qalan vaxtını Savannanın atası ilə televizorda beysbol oyununa baxdım. Sonra anası bizə sendviç gətirdi. Hər dəfə çevrilib yerimi rahatlayanda ağrıdan az qala bayılırdım. Bu

arada ekranda hakim əlavə zərbələr təyin etdi. Savannanın atası söhbətcil adam idi, əvvəlcə ordu nizam-intizamından, sonra onun məşq etdirdiyi uşaqlardan, onların gələcəyindən danışdıq. Xasiyyəti xoşuma gəldi. Uzandığım yerdən mətbəxdə söhbət edən Savannanı və anasını görürdüm. Savanna tez-tez qonaq otağına keçir, oradan əlində çirkli paltarlar olan zənbillə qayıdırdı. Anası onları paltaryuyan maşına atırdı. Kolleci bugün-sabah bitirəcək, yetkin bir qız hələ də paltarlarını yığıb gətirirdi ki, evdə anası yusun.

Axşam yenidən Çapel Hillə getdik, Savanna təzə mənzilini göstərmək istəyirdi mənə. Mebeli az olsa da, mənzil nisbətən təzə idi, qaz plitəsi, tələbə şəhərciyinə baxan kiçik balkonu vardı. Mülayim havaya baxmayaraq, Savanna qazı yandırdı, pendirdən, peçenyedən tapıb yedik. Evdə olan elə bunlar idi. Bir də ki, yarma. Bu çox romantik gəldi mənə, amma Savanna ilə təklikdə olanda onsuz da hər şey romantik idi. Az qala gecəyarısına qədər söhbət etdik. Savanna təəccüblü dərəcədə sakit idi bu gün. Yatmaq vaxtı gələndə o, yataq otağına keçdi, orada bir xeyli ləngidi. Qayıtmadığını görüncə arxasınca getdim. O, çarpayıda oturmuşdu. Məni görüncə əllərini bir-birinə keçirib sıxdı, dərindən köks ötürdü.

– Belə... – Savanna dedi.

– Necə yəni belə... – onun sakitcə oturduğunu görüb mən də eyni ahənglə dedim.

O bir də dərindən köksünü ötürdü.

– Daha gecdi. Sabah da dərslərim var mənim.

Başımla dediyini təsdiqlədim.

– Bir az yatsan yaxşı olar, – dedim.

– Hə... – Savanna dedi. Amma elə bil nəsə başqa şey deyəcəkmiş, “hə” dedi. Sonra da pəncərəyə sarı döndü.

Dayanacağa qayıdan maşınların faralarından düşən işıq jalüzlərin arasından içəri düşürdü. Savanna əsəbiləşəndə çox qəşəng, məlahətli görünürdü.

– Belə... – o, yenidən təkrarladı. Elə bil divarla danışırdı.

Mən əlimi qaldırdım.

– Olmaz ki divanda yatım?

– Sən istəyərdin?

– Əlbəttə, – yalandan dedim. Əslində, mən ayrı cür istəyərdim.

Pəncərəyə baxmaqda olan Savanna hələ də yerində oturmuşdu.

– Sadəcə, mən hələ buna hazır deyiləm, – nazik səslə dedi. – Amma çox istəyirəm bunu. Son günlər bu haqda çox fikirləşmişəm. Məncə, bu daha düz olar. Mən səni sevirəm, sən də məni. Bir-birini sevənlər bunu istəyirlər. Sən burda olmayanda çox istəyirdim bunu, hazır idim buna, indi isə... – O susdu.

– Burda nə var ki? Hər şey yaxşıdır... – dedim. Savanna mənə tərəf çevrildi.

– Sən qorxurdun? Birinci dəfə?..

Nə deyəydim ki, münasib olsun?

– Oğlanlarda başqa cür olur, qızlarda başqa cür... – dedim.

– Hə də... yəqin ki! – Özünü elə göstərdi ki, guya adyalı düzəldir, hamarlayır. Elə bunun ardınca: – Sən mənə hirslənirsən? – dedi.

– Yox.

– Heyifsilənmirsən?

– Yəni... – danışmaq istəyirdim ki, Savanna güldü.

– Bağışla məni... – o dedi.

– Üzr istəməyə səbəb yoxdu.

Savanna fikrə getdi.

– Bəs onda mənə niyə elə gəlir ki, üzr istəməliyəm səndən? Elə bil günahkaram...

– Mən bir tənha əsgərəm, yəqin... – Nəsə izah etməyə başladım, Savanna yenə güldü. Gülsə də hiss olunurdu ki, əslində gərgindir. Sonra:

– Divan elə də rahat deyil... – canıyananlıqla dedi. – Həm də balacadır. Sən əl-ayağını aça bilməzsən orda. Bir dənə də adyalım olsaydı... Evdən götürəcəkdim, nəsə yadımdan çıxıb.

– Bax, bu problemdir...

– A-ha, – Savanna tez razılaşdı. Gözlədim ki, görüm indi nə deyəcək.

– Amma sən mənimlə yata bilərsən... – O, deyəsən, cürətə gəldi.

Gözləyirdim ki, qoy Savanna içindəki sorğu-sualı həll etsin. Nəhayət, çiyinlərini çəkib dedi:

– İstəyirsən, yoxla da... Yəni mənimlə bir yerdə yatmağı...

– Necə istəyirsən...

Hiss etdim ki, nəhayət, içindəki gərginlikdən xilas oldu, çiyinləri rahatlıqla qalxıb endi.

– Yaxşı, onda yatdıq. Gedim, əynimi dəyişim, gəlim.

Savanna çarpayıdan qalxdı, komoda yaxınlaşıb siyirməni çəkdi. Anasıgildə geyindiyi pijamadan birisi də əynində idi. Geyinib gəldi. Mən qonaq otağına keçdim, şortik və boğazlı maykamı geyindim. Mən gələndə o artıq adyalın altında idi. Mən o biri tərəfdən yaxınlaşıb yanına girdim. Savanna adyalı qaldırdı, azca dikəlib stolüstü lampanı söndürdü, sonra arxası üstə uzanıb gözlərini tavana dikdi. Mən böyürüm üstə, üzü ona tərəf uzanmışdım.

– Gecən xeyrə qalsın, – o, pıçıltı ilə dedi.

– Gecən xeyrə.

Hiss edirdim ki, yata bilməyəcəyəm. Bir xeyli də yata bilmədim. Hisslərim çox qızışmışdı... Amma tərpənib oyan-buyana çevrilmirdim ki, birdən Savanna hiss edər, həyəcanlanar, narahat olar.

– Con! – onun pıçıltısını eşitdim.

– Hə?

Savanna başını mənə tərəf çevirdi.

– Bu gün ilk dəfədir ki, mən bütün gecəni kişi ilə yatacağam. Necə bilirsən, bu, yaxınlaşmaq üçün bəsdi də, yox?

– Hə, düzdür – dedim. – Bu daha bir addım yaxınlaşmaq deməkdir.

O, qolumu sığalladı.

– Kimsə səndən soruşsa, deyə bilərsən ki, biz birlikdə yatmışıq.

– Hə.

– Amma sən deməzsən də... Qoy gizli qalsın hələ...

Gülməyimi güclə saxladım.

– Yaxşı, qoy bu bizim kiçik bir sirrimiz olsun...

Sonrakı günlərimiz tez keçdi. Savannanın dərsləri günorta vaxtı qurtarırdı. Nəzəri cəhətdən bu mənə imkan verirdi ki, doyunca yatım – mənim kimi hərbi qulluqçular məzuniyyətə buraxılanda elə bunu arzulayırdılar, amma orduda illərlə səhər tezdən yuxudan durmaq vərdişi özünü göstərirdi. Ona görə Savannadan da tez oyanır, qəhvədanı doldurub plitə üstə qoyurdum, su qaynayınca gedib köşkdən qəzet alıb gəlirdim. Hərdən yolüstü bublik, ya da fransız bulkası alırdım, hərdən də yarma sıyığı yeyirdik. Bu, nəsə bizim gələcək birgə həyatımızın məşqləri kimi gəlirdi mənə. Gözlənilmədən gələn xoşbəxtlik idi bu, amma o qədər dadlı, o qədər lütfkar idi ki, doğruluğuna inanmaq olmurdu.

Hər halda çalışırdım ki, özümü buna inandırım. Ata-anasıgildə olanda o elə əvvəlki Savanna idi – ilk dəfə gecə tək qaldığımız kimi. Amma sonra... fərqi hiss etməyə başladım. Heç ağlıma gəlmirdi ki, mən yanında olmayanda Savanna öz həyatını, fəal və işgüzar həyatını yaşayır. Soyuducunun qapısına yapışdırılan qeyd kağızında demək olar ki, hər gün konsert, mühazirələr, dostları ilə keçirəcəyi məclislərin cədvəli olurdu. Bir lanç məclisində Timin də iştirak edəcəyi yazılmışdı. Dörd fəndən mühazirəyə gedirdi, aspirant kimi bir mühazirəni özü aparırdı, həftədə bir gün də professorla xəstəliyi öyrənirdi. Dediyinə görə, bu işin nəticəsi hansısa jurnalda çap olunmalı idi. Onun həyatı elə bu cür, məktublarında mənə yazdığı kimi keçirdi. Evə qayıdan kimi mətbəxə keçir, nəsə yeyə-yeyə öz işlərindən danışırdı mənə. Savanna öz işini sevirdi, işindən həvəslə, fəxrlə danışırdı. Mən hərdən suallar verir, söhbətə körpü atırdım.

Öz-özümə deyirdim ki, burada qeyri-adi bir şey yoxdu. Əksinə, əgər o öz işləri haqqında mənə heç nə deməsəydi, onda pis olardı. Hər halda kədərli bir hiss məni tərk etmirdi – bu qədər yaxın olmağımıza baxmayaraq, aramızda nəsə bir ziddiyyət yaranırdı. Elə bil mən deyirdim həmdən-həmə, o deyirdi dəmdən-dəmə. Görüşmədiyimiz bir il ərzində Savanna kolleci bitirmiş, elmi dərəcə almışdı, indi də aspirant-müəllim kimi işləyirdi. Ata-anasından ayrılıb bu balaca mənzilə köçmüşdü. Onun həyatında yeni mərhələ başlanmışdı. Mənimsə həyatımda dəyişiklik o idi ki, indi mən altı silah əvəzinə səkkiz silahı söküb yığa bilirdim, uzanan yerdə qaldırdığım ştanqa otuz funt da əlavə etmişdim, son hərbi təlimlərdə özümü yaxşı göstərmişdim. Deyirdim, indi qoy ruslar fikirləşsin – lap onlarla diviziyaları olsun, mənim kimi əsgərlərlə qarşılaşsa, Almaniyaya müdaxilə etməyə dəyərmi? Amma məni yanlış başa düşməyin. Mən Savannanı əvvəlki kimi yenə çox sevirdim. Hərdən onun da hisslərinin tüğyan etdiyini duyurdum. Həm də tez-tez. Hər şey də yaxşı idi. Savanna ya dərsə, ya da işə gedirdi, mənsə universitet şəhərciyində gəzişir, ya da örtülü manejin yanında, göy rənglənmiş dairəvi cığırlarda qaçırdım. Əsl bekarçılıq! Göydəndüşmə bir şey! Sonra bir idman zalı axtarıb tapdım ki, məzuniyyətdə olduğum vaxt burada məşğul ola bilim. Hərbiçi olduğum üçün məndən pul da götürmürdülər. Savanna qayıdana kimi mən məşqlərimi qurtarır, duş qəbul edirdim, sonra da bir yerdə olurduq. Həftənin ikinci günü axşamüstü Savannanın yoldaşları ilə Çapel Hilldə şam yeməyinə getdik. Gözlədiyimdən də maraqlı, əyləncəli oldu.

Yay kurslarına gəlmiş savadlı, bilikli uşaqlar idi hamısı. Yeniyetmələrin psixologiyasından danışırdılar. Sonrakı gün Savanna məni kollecə apardı, müəllimləri ilə tanış etdi. Axşam əvvəlki günlərdə tanış olduğum iki aspirantla görüşdük, Çin yeməyi alıb Savannanın mənzilində yedik. Savanna ensiz çiyinbağları olan mayka geymişdi, boynunun gündə yanmış yerləri aydın seçilirdi. Ona baxır, düşünürdüm ki, Savanna gördüyüm qadınlar arasında ən seksual qadındır.

Həftənin dördüncü günü istəyirdim onunla tək qalaq, yalnız ikimiz. Sürpriz olsun deyə unudulmaz bir axşam keçirək şəhərdə. O hələ dərsdə, sonra da yəqin ki, xəstələrin yanında olanda mən şəhərə gedib bir az pul xərclədim – özümə kostyum, qalstuk, ayaqqabı aldım. İstəyirdim, Savanna gözəl bir paltar geysin. Ayaqqabı dükanının satıcısı yaxşı bir restoranın yerini dedi, orada stol sifariş etdim: beşulduzlu, ekzotik menyu, şıq geyinmiş ofisiantlar, bütün dəm-dəsgahı ilə. Bu haqda Savannaya deməyi lazım bilmədim, dediyim kimi, istəyirdim sürpriz olsun. Amma evə qayıdan kimi Savanna dedi ki, yoldaşları ilə danışıb, axşam haradasa görüşəcəklər – mənim son günlər tanıdığım həmin dostları ilə. Axşamkı məclislərindən elə həvəslə, həyəcanla danışırdı ki, mən öz planım barədə ona heç nə demədim.

Məyusluğum öz yerində, bu dəfə yaman hirsləndim də. Onun öz yoldaşları, dostları ilə görüşməyinin əleyhinə deyildim. Amma hər gün? Bir ildən sonra görüşəndə, həm də bilə-bilə ki, bir yerdə olmağa vaxtımız belə azdı? Narahat idim – mən onunla təkbətək qalmaq istəyirdim. Bəs o? O niyə istəmir? Son aylar qarnizonda tez-tez düşünürdüm ki,

bir-birimizdən bir an da ayrılmarıq, bir ilin həsrətinin, ayrılığının əvəzini çıxarıq. İndisə görürdüm ki, səhv eləmişəm. Bu isə o deməkdi ki... O deməkdi ki, mən onu sevdiyim kimi o məni sevmir. Bilmirdim, nə edim, amma belə bir ovqatla yaxşı olardı ki, evdə qalım, qoy tək getsin. Özümsə hər halda kafeyə gəldim, amma onların söhbətinə qoşulmaqdan imtina edib kənarda oturdum, cürət edib mənə tərəf boylanan hər birinin baxışlarını yerə dikməyə məcbur etdim. Hərbi xidmət illərində mən qorxutmaq taktikasını yaxşı öyrənmişdim, həmin gecə də mən lazımi formada idim. Savanna görürdü ki, mən hirsliyəm, tez-tez soruşurdu, niyə narahatam, mənsə cidd-cəhdlə deyirdim ki, heç nə olmayıb, hər şey yaxşıdır.

– Sadəcə, bir az yorulmuşam.

Deməliyəm ki, Savanna çalışırdı ki, könlümü alsın, tez-tez mənə tərəf dönüb əlimi tuturdu, mənə baxanda gülümsünürdü, qabağıma su və çipsi ötürürdü. Amma tezliklə o, deyəsən, məni dilə tutmaqdan bezdi və sakit buraxdı. Mən onu günahlandırmıram. Mən özüm belə eləyirdim, həm də onu hirsləndirə bildiyim üçün içimdə bir rahatlıq hiss edirdim. “Belə olarsan!” deyə düşünürdüm. Evə qayıdarkən yolda demək olar ki, danışmadıq. Gecə yatanda da üzlərimizi çevirib aralı yatdıq. Səhər hirsim soyumuşdu, istəyirdim hər şeyi unudum. Amma Savanna, təəssüf ki, unutmamışdı. Mən qəzet almağa getdim, qayıdanda gördüm ki, gedib, yeməyə əl də vurmayıb. Tək-tənha qəhvə içdim.

Bilirdim ki, çox ağ elədim, ona görə də fikirləşirdim ki, evə gələndə danışıb yoluna qoyaram hər şeyi. İstəyirdim, narahatlığımı izah eləyim, restoran haqqında danışım,

dünənki günə görə üzr istəyim. Deyirdim, başa düşər, romantik bir şam yeməyindən sonra hər şey yaddan çıxar. Həftə axırı Uilminqtona, atamın yanına gedəcəyik, ona görə də bizə indi məhz bu lazımdı.

İnanırsız, ya yox, bilmirəm, amma atam üçün bərk darıxmışdım, bilirdim ki, indi o da mənim yolumu gözləyir. O da darıxır, amma özü bildiyi kimi. Atam yəqin ki, mənim üçün daha çox darıxırdı, amma bu, az hiss olunurdu. Bəlkə də ədalətsizdi, amma Savannanın həyatımda daha böyük mənası vardı, daha əhəmiyyətli...

Başımı buladım... Savanna... Yalnız Savanna... indi həyatımda, fikrilərimdə hər şey, hər addımım ona doğru çevrilirdi...

Saat birə qədər məşqlərimi qurtardım, evə qayıdıb hazırlaşdım. Restorana zəng eləyib sifarişi təzələdim. Savannanın cədvəlini bilirdim, o indilərdə gələcəkdi. Bekarçılıqdan divanda oturub televizoru açdım. Şou oyunlar, sabun operaları, informasiya-reklam çarxları, tok-şou, bədbəxt hadisələrdən zərər çəkmişlərə öz xidmətini təklif edən vəkillərin tez-tez verilən kommersiya elanları... Vaxt yaman ləng gedirdi. Hər beş dəqiqədən bir həyətdəki maşın dayanacağına boylanırdım, görüm Savanna gəlirmi. Bekarçılıqdan çantamı açıb təzədən bağlayırdım, bu saat gələr, deyə düşünürdüm. Vaxt keçsin deyə qabyuyan maşından qabları çıxartdım. Bir neçə dəqiqədən sonra ikinci dəfə dişlərimi yudum, bir də pəncərəyə baxdım. Savanna görünmürdü. Radionu qurdaladım, mahnıya qulaq asdım, radio dalğalarını ora-bura dəyişdim, sonra söndürdüm. Saat

iki olacaqdı. O isə yox idi. Görəsən, haradadır indiyə qədər? Hiss edirdim ki, soyumuş hirsim boğazıma qalxır, özümü sakitləşdirir, deyirdim, yəqin əsaslı bir izahı olacaq. Çantamı açdım. Stiven Kinqin axırıncı romanını əlimə aldım. Bir stəkan buzlu su qabağımda, yerimi divanda rahatladım. Oxumağa başladım. Bir də onu gördüm ki, bir cümləni təkrar-təkrar oxuyuram. Romanı kənara qoydum.

Daha on beş dəqiqə keçdi. Sonra otuz dəqiqə. Nəhayət, Savannanın dayanacağa girən maşınının səsini eşitdim. Çənəm əsir, dişlərim bir-birinə kiplənirdi. Saat dördə on beş dəqiqə işləmiş o, qapıda göründü. Heç nə olmamış kimi bəxtəvər-bəxtəvər gülümsünürdü.

– Hardasan, Con? – dedi. O, stola yaxınlaşıb çantasını boşaltmağa başladı. – Bağışla, gecikdim, dərsdən sonra bir tələbə qız yaxınlaşdı mənə, dedi ki, mənim mühazirələrimi xoşlayır, buna görə də xüsusi təhsil ixtisasını seçib. Təsəvvür edirsən? Məsləhət istəyirdi, soruşurdu ki, hansı fənləri oxusun, hansı müəllimlər yaxşıdı... Bilirsən, mənə elə qulaq asırdı ki... – Savanna başını heyrətlə buladı. – Zövq verirdi mənə. Nə deyirdim, qız hamısını diqqətlə dinləyirdi. Bu, onu göstərir ki, kiminsə işinə yarayıram, kömək edə bilirəm. Bir var ki, bu haqda müəllimlər desin, bir də var, özün bunu hiss edəsən...

Güclə gülümsündüm. Savanna söhbətinin ürəyimə yatdığını zənn edib davam etdi:

– Nə isə, o dedi ki, vaxtım varsa, bunu mənimlə ciddi müzakirə etmək istəyir. Dedim ki, bir neçə dəqiqə vaxtım var, amma söz sözü çəkdi, söhbətimiz uzandı, sonra da elə oldu ki, lanç yedik. Amma yaxşı qızdır, on yeddi yaşı var

cəmi, təmayül fənlərinin tədris olunduğu məktəbi bitirib, bir il də vaxtından əvvəl. İndi də birinci kursda oxuyur, yay seminarlarına gedir ki, daha çox şey öyrənsin. Belə tələbələrlə fəxr etmək lazımdır.

Savanna burada dayandı, yəqin, dediklərinin əks-sədasını eşitmək istəyirdi. Bəyənirəm, ya yox... Amma yalan deyə bilmədim, əvəzində: – Görünür, bacarıqlı qızdır, – dedim.

Cavabımı eşidəndə Savanna, deyəsən, nəhayət, indi ilk dəfə üzümə baxdı. Mənsə hisslərimi daha gizlədəcək halda deyildim.

– Nə olub? – o soruşdu.

– Heç nə, – yalandan dedim.

O, narazılıqla köksünü ötürüb çantanı əlləşdirməkdən əl çəkdi.

– İstəmirsən bu haqda danışım? Yaxşı, danışmaram. Amma bil ki, bu, adamı bezdirir bir az.

– Nə demək istəyirsən bununla?

Savanna sərt hərəkətlə mənə tərəf döndü.

– Onu demək istəyirəm ki... bax, belə... özünü necə aparırsan... Gizlədə də bilmirsən, Con, hər şey üzündən oxunur... Sən hirslisən, amma səbəbini demirsən mənə...

Tərəddüd etdim, hiss edirdim ki, özümü doğruldan sözlər deməliyəm. Danışmağa başlayanda çalışdım ki, səsimi qaldırmayım, sakit danışım.

– Yaxşı, – dedim, – bir neçə saatdır ki, səni gözləyirəm...

O, əl-qolunu ölçməyə başladı.

– Belə de! Dedim də bunu. İzah elədim. İnanırsan, ya yox, amma indi mənim vəzifələrim də var, axı! Gələn kimi də gecikdiyimə görə üzr istədim.

– Orası elədir, amma...

– Amma nə? Üzr istəməyim bəs deyil?

– Mən belə demədim.

– Onda nə?

Mən deyəcəyim sözü tapmayanda Savanna əllərini böyrünə vurub dayandı.

– Bilirsən, nə fikirləşirəm? – dedi. – Sən həm də dünənkinə görə hirslisən. Dayan, qoy yadıma salım. Yenə danışmaq istəmirsən bu haqda? Düzdü?

Gözlərimi yumdum.

– Keçən gecə sən...

– Mən? – o özündən çıxdı, başını əsdirməyə başladı. – Bircə onu demə! Məni günahlandırma buna görə! Mən yanlış bir şey eləmədim. Dünənki gecə çox yaxşı, əyləncəli bir gecə olacaqdı. Olacaqdı! Amma olmadı. Sən çəkilib bir qıraqda, şəstlə elə oturdun ki, elə bil kimisə güllələmək istəyirdin.

O, bir az şişirdirdi deyəsən. Bəlkə də yox. Hər halda mən dinmədim. O davam etdi:

– Bilirsən, sənin yerinə üzr istəmək üçün dünənki hərəkətinə görə nə uydurmuşam bu gün? Buna görə nələr hiss etmişəm?! Bütün il boyu səni dostlarıma tərifləmişəm, o, belə oğlandır-elə oğlandır, belə igiddir, mən onun orduda xidməti ilə fəxr edirəm... Amma əvəzində nə oldu?! Sənin bu hərəkətinlə hətta onlar da mənim görmədiyim şeyləri gördülər. Sən özünü elə kobud apardın ki!

– Bəs heç ağlına gəlmədi ki, mən özümü elə niyə aparırdım? Bəlkə mən orada olmaq istəmirdim?

Bu, onu saxladı. Amma yalnız bir anlığa. Sonra qollarını sinəsində çarpazladı.

– Bəlkə mənim bugünkü gecikməyimin səbəbi sənin dünənki hərəkətindir?

Onun bu sözü hədəfə dəyirdi. Mən bunu gözləmirdim, amma məsələ bunda deyildi.

– Keçən gecəyə görə üzr istəyirəm...

– Yaxşı ki, təəssüflənirsən, – o, sözümü kəsib qışqırdı. – Onlar mənim dostlarımdır!

– Bilirəm dostlarındır... – mən də onun sözünü kəsdim. Sıçrayıb divandan ayağa qalxdım. – Özü də bütün həftə boyu!

– Nə olsun ki?

– O olsun ki, bəlkə mən səninlə təklikdə olmaq istəyirəm. Heç bu haqda fikirləşirsən?

– Sən mənimlə təklikdə olmaq istəyirsən? – o, sözümü təkrar etdi. – Onda qoy deyim, sən axı hərəkətinlə bunun əksini deyirsən. Bu gün səhər biz tək idik. İkimiz. Mən indi evə gələndə biz yenə tək idik. Mən indicə evə gəldim, özümü elə aparıram ki, guya dünən heç nə olmayıb, hər şeyi unuduram. İndi biz yenə təkik. Sən isə elə bil dalaşmaq istəyirsən.

– Mən dalaşmaq istəmirəm, – dedim, eyni zamanda çalışdım ki, qışqırmayım. Amma alınmadı, deyəsən. Üzümü çevirdim ki, özümü ələ alım, amma təzədən danışanda səsimdə qızmış hirsimin əks-sədasını eşitdim:

– İstəyirəm ki, hər şey əvvəlki kimi olsun. Keçən yayda olduğu kimi.

– Keçən yayda nə olmuşdu ki?

Bax, bu olmadı! Necə deyim ki, mən heç yadında deyiləm onun. Daha heç nə danışmaq istəmirdim. Belə çıxırdı ki, məni sevmək üçün onu dilə tuturdum, bu isə yaxşı heç nə vəd etmir. Yenidən sözü çevirmək lazım gəldi.

– Keçən yay mənə elə gəlirdi ki, bir yerdə olmaq üçün vaxtımız çox olurdu.

– Elə deyil, – o, tələsik etiraz etdi. – Onda mən bütün günü tikintidə işləyirdim. Bir yadına sal.

O, əlbəttə, doğru deyirdi. Hər halda dedikləri qismən doğru idi. Amma mən də dediyimdən çəkilmədim.

– Sözlərimi hərfi mənada başa düşmə. Amma mənə elə gəlir ki, onda birlikdə olmağa vaxtımız çox olurdu, daha çox danışır, bölüşürdük.

– Səni narahat edən elə budur? Ona görə ki, mən işləyirəm? Ona görə ki, mənim də öz həyatım var? Bəs nə etməliyəm? Dərslərimi buraxım, gəzim? Mühazirəm olanda deyim ki, xəstəyəm? Ya da ev tapşırıqlarımı eləməyim?

– Yox...

– Bəs nə?

– Bilmirəm.

– Amma dostlarımın yanında məni utandırmaq, aşağılamaq olar?

– Mən səni aşağılamadım, – etiraz etdim ona.

– Yox? Bəs onda Trişa niyə məni kənara çəkib deyirdi ki, biz səninlə ayrı-ayrı adamlarıq, mən özümə daha yaxşı oğlan tapa bilərəm?

Bu, məni hövsələdən çıxartdı. Amma Savanna, yəqin ki, dediyinin fərqində deyildi. Özüm bilirəm, hirsli olanda adam bilmir ki, ağzından nə çıxır.

– Dünən sadəcə olaraq mən səninlə tək qalmaq istəyirdim. Mən bunu demək istəyirəm sənə.

Sözlərim ona heç bir təsir etmədi. Əvəzində təkidlə:

– Onda niyə bunu mənə demirdin? – dedi. – Demək olmazdı ki, "Bu gün yaxşı olardı ki, başqa bir şey eləyək? Bu gün nəsə heç kimə qoşulmaq, əylənmək istəmirəm?" Bunu deməyə nə vardı ki? Con, mən sənin ürəyini necə oxuyum?

Ağzımı açmaq istəyirdim, amma fikirləşdim ki, lazım deyil. Çevrilib otağın o başına getdim, şüşə qapıdan bayıra baxmağa başladım. Onun sözləri mənə o qədər təsir etmirdi, amma kədər məni boğurdu. Kədərli idi – deyəsən, mən onu itirirdim. Bəlkə də heç nədən fil düzəldirəm, ya da əslində aramızda nə baş verdiyini dəhşətlə anlayırdım.

Mən daha heç nə danışmaq istəmirdim – mübahisə, danışıq mənim işim deyildi. Bu saat istədiyim yeganə şey o idi ki, Savanna mənə yaxınlaşıb qollarını boynuma dolasın, desin: "Əzizim, mən bilirəm, səni nə narahat edir, amma bütün bunlar yersizdir".

Amma belə olmadı. Mən qəribə tərzdə özümü yalqız və tənha hiss etdim, pəncərəyə baxa-baxa dedim:

– Sən düz deyirsən, sənə bunları demək lazım idi. Bağışla, gərək deyəydim. Dünənki günə görə də bağışla məni. Gecikdiyinə görə özümdə deyildim. Sadəcə, məzuniyyətim dövründə səni daha çox görmək istəyirdim.

– Elə deyirsən ki, guya mən bunu istəmirəm.

Dönüb baxdım.

– Düzünü desəm, indi buna çox da inanmıram, – deyib qapıya tərəf addımladım.

Gecə düşənə qədər veyllləndim.

Bilmirdim, hara gedim. Evdən niyə getdim, onu da bilmirdim. Bir az tək qalmaq istəyirdim. Hökmən. Tezliklə aydın oldu ki, tələbə şəhərciyində qızmar günün altında gah bu ağacın, gah o ağacın kölgəsinə can atıram. Geriyə də baxmırdım ki, görüm Savanna arxamca gəlirmi. Bilirdim ki, gələn deyil.

Bir azdan özümü tələbə mərkəzində gördüm, buzlu su aldım özümə. İçəri nisbətən boş, həm də sərin idi, kondisioner işləyirdi, amma orada dayanmayıb çıxdım. Qeyri-ixtiyari olaraq içimdəki gərginliyi, hirsi, kədər və məyusluğu çıxarmaq istəyirdim canımdan. Yüngülləşmək istəyirdim bir az.

Bir şeyi dəqiq bilirdim. Bu gün Savanna bütün olmuşları danışmağa, mübahisə etməyə hazır gəlmişdi evə. Onun cavabları ani, əlüstü olurdu, sanki əvvəlcədən məşq eləmişdi, hazırlaşmışdı buna. Səhərdən hirsini boğubmuş. Mənim də reaksiyamı dəqiq hesablamışdı. Nə deyəcəyimi təxminən bilirdi. Bəlkə də onun hirsi, acığı dünənki hərəkətimə görə idi, amma özünü heç günahkar hesab etməməyi, hisslərimi nəzərə almamağı məni daha çox yandırırdı.

Kölgələr uzanır, günəş batmağa gedirdi, amma mən hələ də geri qayıtmağa hazır deyildim. Tələbə şəhərciyinin köşklərindən birində – bura yalnız tələbələr hesabına

işləyirdi – pitsa və pivə alıb yedim, sonra yenə xeyli gəzişdim, nəhayət, geri döndüm. Saat doqquz olardı, məni yüz yana çəkən fikirlərdən heç dözümüm qalmamışdı. Küçəyə yaxınlaşanda Savannanın maşınını dayanacaqda gördüm. Evdə yalnız yataq otağının pəncərəsindən işıq gəlirdi.

Dedim, yəqin, evin qapısı bağlı olar, amma dəstək rahatca fırlandı. Yataq otağının qapısı yarı açıq idi, işığı koridora düşürdü. Tərəddüd etdim – oraya gedim, yoxsa qonaq otağında qalım. Onun acığını heç görmək istəmirdim, dərindən köks ötürüb koridora keçdim. Yarıaçıq qapıdan içəri boylananda Savannanı gördüm. İri ölçülü, az qala dizlərinə çatan dama-dama köynəkdə, çarpayıda oturmuşdu. Savanna başını jurnaldan ayırdı. İstər-istəməz gülümsündüm.

– Salam, - dedim.

– Salam.

Otağa keçib çarpayının kənarında oturdum.

– Bağışla, – dedim. – Hər şeyə görə bağışla. Sən haqlı idin, mən dünən özümü səfeh kimi apardım, səni də dostlarının yanında pis vəziyyətdə qoydum. Gecikdiyinə görə də gərək hirslənməyəydim. Bir də belə olmayacaq.

Təəccübümə rəğmən, o, əli ilə adyalı sığallayıb hamarladı.

– Gəl bura, – pıçıltı ilə deyə bildi.

Çarpayının dəstəyindən yapışıb yavaşca yaxınlaşdım, Savannanı qucaqladım. O, sinəmə sığındı. Ürəyinin döyüntüsünü aydın eşidirdim.

– Bir də mübahisə etmək istəmirəm, – dedi.

– Mən də.

Əlini sığalladım, o köks ötürdü.

– Haraya getmişdin?

– Əslində, heç yerə. Tələbə şəhərciyində veyllənirdim. Pitsa alıb yedim. Fikirləşdim, fikirləşdim...

– Mənim haqqımda?

– Sənin haqqında. Özüm haqda. Bizim haqqımızda.

O, başı ilə təsdiq etdi.

– Mən də, – dedi. – Sən hələ də acıqlısan?

– İndi yox, – dedim. – Elə yorulmuşam ki, acıq-zad yadıma düşmür.

– Mən də, – Savanna dediyimi təkrar etdi. Sonra başını qaldırıb gözümə baxdı. – Bilmək istəyirsən, sən burda olmayanda nə fikirləşirdim?

– Əlbəttə, – dedim.

– Başa düşdüm ki, üzr istəməyə qalsa, mən üzr istəməliyəm. Dostlarımla bu qədər vaxt keçirdiyimə görə, yəni. Buna görə elə hirslənmişdim. Bilirdim, sən nəyə eyham vurursan, amma eşitmək istəmirdim bunu, çünki sən doğru deyirdin. Hər halda, müəyyən qədər haqlı idin. Amma sənin dəlillərin doğru deyildi.

Mən çaşqın halda baxırdım ona. Savanna deyirdi:

– Sən deyirsən ki, mən dostlarımla çox vaxt keçirirəm, çünki sənə az əhəmiyyət verirəm, səni əvvəlki kimi sevmirəm. Elədir? – Cavab gözləmədən davam etdi. – Əslində, məsələ tamam ayrı cürdür. Sən mənim üçün çox əzizsən, bax, ona görə də istəyirəm ki, dostlarımı tanıyasan. Ya da belə deyim, onlar səni tanısın. Məsələ səndə deyil, məndədir.

O, tərəddüd içində susdu.

– Bilmirəm, nə demək istəyirsən?

– Yadındadı, sənə deyirdim ki, birlikdə olmağımızdan güc alıram?

Mən başımla təsdiq etdim. Savanna barmaqlarını köksümdə gəzdirdi.

– Mən zarafat eləmirdim. Keçən yay sənin təsəvvür etdiyindən də vacib oldu mənimçün. Amma sənin getməyinlə ürəyim qan ağladı, təlatüm doldu içimə. Timdən soruş, tikintidə güclə dayana bilirdim. Hə, mən sənə məktublar yazırdım, istəyirdim inanansan ki, işlərim yaxşıdır. Yaxşıdır, pis deyil. Amma pis idi mənim işlərim. Hər gecə ağlayırdım, evin yanında günlərlə gözyaşı töküb sahilə, çimərliyə baxırdım ki, birdən sən gələrsən. İstəyirdim ki, sən o yanda görünüb yavaş-yavaş mənə tərəf gələsən. Başı qırxıq birini uzaqdan görəndə nə hala düşdüyümü təsəvvür elə. Elə bilirdim sənsən. Əlbəttə, başqa bir ölkədə, uzaq dənizlərdən o yana, çox vacib bir işdə, xidmətdəsən, amma mən bilmirdim ki, sənsiz yaşamaq belə çətin olacaq. Bilmirdim! Bəli, mən yaşamırdım, necə deyərlər, mövcud idim ancaq. Həsrətdən qovrulurdum. Yalnız bir neçə aydan sonra həyatım bir balaca qaydasına düşdü. Bu dəfəki məzuniyyətində də səni ondan da çox görmək istəyirəm. Amma nə qədər səni çox görmək istəyirəmsə, bir o qədər də qorxuram, iztirab çəkirəm. Tezliklə məzuniyyətin bitəcək. Yenə ayrılacağıq. Yenə gedəcəksən. Sevgimlə qorxu arasında qalmışam. Odur ki, istəyirəm, heç olmasa keçən ilki kimi olmasın. Bilirsən, yer tapmıram özümə. Ona görə də deyirəm, başımız qarışsın ki, sənin getmək fikrin

başımdan çıxsın bir az. Qəlbim qanciyər olmasın yenə. Yoxsa dəli olaram.

Hiss etdim ki, boğazım quruyub, amma heç nə demədim. Savanna danışırdı.

– Bu gün başa düşdüm ki, sənin xətrinə dəymişəm. Əlbəttə, bu sənə qarşı haqsızlıq idi. Bəs özümə qarşı necə ədalətli olum? Bir həftədən sonra sən yenə çıxıb gedəcəksən, mənsə qalıb fikirləşməliyəm ki, yaxşı, bəs indi necə olsun? Necə hərəkət edim? Bəziləri bunu bacarır. Məsələn, sən bacarırsan bunu. Mənsə...

Susub əllərinə baxdı, bir xeyli sakitcə dayandı.

– Bilmirəm nə deyim, – nəhayət, dilləndim. Kədərli əhvalına baxmayaraq Savanna bərkdən güldü.

– Mən heç bir cavab istəmirəm, – dedi. – Bir də ki, cavab yoxdur onsuz da. Bircə şeyi dəqiq bilirəm – səni incitmək istəmirəm. Bildiyim bircə budur. Çalışaram ki, bu yay ayrılığa dözməyi öyrənim.

– Bəlkə bir yerdə məşq eləyək? – könülsüz zarafat elədim, o isə yenə güldü.

– Hə, yaxşı olardı. On dəfə burnunu yuxarı qaldır, olacaqsan təptəzə, hə? Kaş hər şey belə sadə olaydı... Amma dözərəm. Çətin olacaq, amma bununla təsəlli tapıram ki, bu dəfə heç olmasa bütöv bir il deyil. Milad bayramında evdə olarsan. Bir neçə ay da keçər, əzablarım bitər.

Savannanı qucaqladım. Sinəmdə bədəninin hərarətini duyurdum. Nazik köynəyimin üstündən barmaqlarını hiss edirdim. Savanna astaca köynəyimi yuxarı qaldırıb qarnımı qucaqladı. Elə bil bədənimə elektrik axdı. Onun bircə toxunuşundan nəfəsim təngidi, əyildim ki, onu öpüm.

Öpüşü çox ehtiraslı oldu, titrək və canlı bir öpüş. Dilini dilimdə hiss elədim, bədəni kimi dili-dodağı da qızmar bir havayla, ehtirasla tövşüyürdü. Bir anlıq nəfəsim kəsiləcəkdi – Savannanın barmaqları şalvarımın siyirtməsində gəzirdi. Əllərim onun bədənində sürüşüb aşağılara endi, yalnız indi bildim ki, köynəyinin altından heç nə geyməyib, tamam çılpaqdı. O, şalvarımın siyirtməsini açdı. Mən ayrı heç nə istəmirdim, deyirdim, qoy yalnız beləcə davam etsin, amma özümü məcbur etdim ki, geri çəkilim, çox uzaqlara getməyim, bəlkə də onun hələ hazır olmadığı bir şeyə yol verməyim.

Tərəddüd edirdim, özümlə mübahisə edirkən Savanna birdən oturdu və köynəyini çıxartdı. Qarşımda çılpaq Savannanı görcək nəfəsim odlandı. Elə o anda da o əyilib mənim köynəyimi tamam qaldırdı, dodaqları pörşə-pörşə qarnımı, göbəyimi, sinəmi tez-tez öpməyə başladı, sonra əlləri ilə şalvarımı əynimdən dartdı...

Ayağa qalxıb köynəyimi başımdan çıxartdım. Savannanın əli şalvarımın zəncirbəndində gəzirdi, bir anda şalvarım ayaqlarıma düşdü. Savannanın boynunu, çiyinlərini öpdüm, öpdüm... Qulağımın dibində onun nəm dodaqlarının hərarətini hiss etdim... Bədənlərimiz bir-birinə tələsir, tövşüyür, uçunurdu...

Bir il qabaq elə beləcə də arzulamışdım. Hər şey qurtarandan sonra Savannanı yenidən qucaqladım, sanki indicə yaşadıqlarımı bədənimin, hisslərimin yaddaşıma köçürürdüm. Qaranlıqda dönə-dönə onu necə sevdiyimi pıçıldayırdım.

İstək sonsuzdu, pörşələnən hisslər soyumaq bilmirdi, yenidən sarmaşdıq.

Bir azdan Savannanın gözləri yumulurdu. Onu yuxu apardı, mən yanında uzanıb ona baxır, baxırdım. O necə də sakit yatırdı?! İpək kimi bir yuxuya getmişdi mənim Savannam. Amma nədənsə qəlbimi bir qorxu hissi bürüməkdə idi. Bir-birimizin ağuşuna tələsəndə, baş alıb gedən odlu və dəruni hisslər içində də özümü nəhs bir fikirdən saxlaya bilmirdim, beynimdə bir nigaranlıq kabusu dolaşırdı. Sanki zəif bir ümidin ətəyindən tutub yalvarırdıq ki, sevgimizi gələcək sınaqlardan qorusun. Zəif bir ümidin...

## On dördüncü fəsil

Məzuniyyətimin qalan günləri qarnizonda ilboyu arzu etdiyim kimi keçdi. Atamla keçirdiyim həftəsonu günlərini çıxsaq, qalan günlərimizi anbaan sevgi ilə dolu yaşadıq. Atamın yanında olanda yenə hər şeyi özü elədi, bizə dadlı yeməklər bişirdi, sikkələrindən də danışmağı unutmadı. Çapel Hillə qayıdan gün Savanna dərslərini qurtarandan sonra qalan vaxtı yenə birlikdə keçirdik – Franklin Stritdə dükanları gəzdik, Rolidə Tarix Muzeyinə getdik, Şimali Karolina zooparkında olduq. Şəhərdə axırıncı günün axşamı Savannanı ayaqqabı satıcısının mənə təriflədiyi həmin restorana apardım. Savanna geyinərkən ona baxmağımı istəmirdi, amma intizarda qalmağıma dəyərmiş. Hamamdan çıxanda onu görəydin – necə sevimli, cazibədar görünürdü. Şam yeməyi zamanı hərdən fəxrlə bu könül dostuma baxır, qürur duyurdum.

Bir də sevgili hisslərə qapılmadıq. Ertəsi gün yuxudan oyananda gördüm ki, Savanna yanımda oturub mənə baxır. Yanaqlarından gözyaşı axırdı. Nə baş verdiyini soruşmaq istəyirdim ki, başını bulayıb barmağını dodaqlarım üstə qoydu – ssss.

– Gecə gözəl keçdi, – dedi. – Amma bu haqda danışmaq istəmirəm. – Sonra astaca köksümə qısıldı, onu sinəmə sıxdım, beləcə xeyli dinməzcə qaldıq. Sakitcə ürəyinin aram döyüntüsünə qulaq asdım. Ürəyimə damdı ki, aramızda nəsə baş verir, amma o an məhz nəyin baş verdiyini bilə bilmədim.

Səhər tezdən getməli idim. Savanna məni aeroporta apardı. Biz yanaşı oturub reysin elan olunmasını gözləyirdik. Savanna baş barmağını əlimin arxasında gəzdirir, çevrələr çəkirdi. Elə ki, reys elan olundu, özünü sinəmə atdı, ağlamağa başladı... Sonra yəqin üzümün ifadəsini görüb, məcburən gülümsündü, amma təbəssümündə bir qüssə vardı.

– Hə, hə, mən axı söz vermişəm, – dedi. – Amma özümlə bacarmıram...

– Hər şey yaxşı olacaq, – dedim. – Altı ay nədi ki? Görərsən, elə tez gəlib keçəcək ki.

– Demək asandır, – o, içini çəkdi. – Amma sən haqlısan. Bu dəfə dözümlü olacam. Hər şey də yaxşı olacaq.

Şübhəylə üzünə baxdım.

– Doğru deyirəm, heç darıxıb eləməyəcəm, – Savanna söz verdi.

Başımı tərpətdim, dinməzcə bir-birimizə baxırdıq.

– Bədirlənmiş Aya baxmağı unutma, – o dedi.

– Hamısına baxacam, – mən də söz verdim.

Son dəfə öpüşdük. Ayrılmaq üçün. Savannanı bərk-bərk qucaqladım, qulağına onu sevdiyimi pıçıldadım. Sonra özümü məcbur etdim ki, qızı qollarımın arasından buraxım. Çantamı çiynimə atıb trapla yeridim. Çiynimin üstündən xəlvəti boylanıb arxaya baxdım. Savanna getmiş, izdiham içində itmişdi.

Təyyarədə kresloya söykənib Allaha yalvarırdım ki, Savannanın dedikləri hamısı düz olsun. Məni sevdiyini bilsəm də, qəfildən başa düşdüm ki, sevgi və qayğı bəzən kifayət etmir. Bunlar münasibətlərimizin kərpicləri idi, amma qurduğumuz kaşanə birlikdə və birgə keçirdiyimiz vaxt sementi, – labüd ayrılıqların dağıtmağa gücü çatmadığı vaxt sementi – olmadan hökmən laxlayacaq, etibarsız olacaq. Boynuma almasam da, deyim ki, mən Savannanı az tanıyırdım. Ağlıma gəlmirdi ki, keçən il ondan ayrılanda bu, ona necə təsir etmişdi. Nə qədər fikirləşsəm də, bilmirdim, görəsən, bu ilki ayrılıq ona necə təsir edəcək. Ürək ağrısı ilə hiss edirdim ki, bizim münasibətlərimiz uşaq fırfırası kimidi: bir yerdə olanda onu fırlada bilirdik, fırlandıqca gözlərimiz qarşısında ecazkar bir mənzərə canlanırdı, elə uşaq kimi də bu sevgi möcüzəyə vurulur, valeh olurduq. Amma elə ki, ayrıldıq, bu fırfıra hökmən hərəkətini yavaşıdır, dayanırdı. Düşünürdüm, necə eləyim ki, fırfıramızı dayanmaqdan xilas edim.

Keçən ilki təcrübə karıma gəldi. İyul-avqust aylarında Savannaya təkcə tez-tez məktub yazmırdım, həm də tez-tez zəng eləyirdim ona, səsinə qulaq asırdım, görüm, depressiyası varmı, yoxmu, sevgili sözlərimi, odlu

etiraflarımı eşitmək istəyirmi. Əvvəlcə, hər zəngdən qabaq əsəbiləşirdim, amma yayın axırına yaxın nə vaxt zəng edəcəyimi səbirsizliklə gözləyirdim. Savannanın dərsləri yaxşı idi. Bir-iki həftə ata-anasının yanında qalmışdı, sonra payız semestri başlanmışdı. Sentyabr gələndən bəri biz həftələri geriyə saymağa başladıq. Xidmət müqaviləmin vaxtının qurtarmasına yüz gün qalırdı. Günləri saymaq daha asan idi, nəinki həftələri, ayları. Təşvişə, həyəcana yer yox, görüşəcəyimiz gün lap yaxında idi. Əl uzatsaq çatar. Bir-birimizə deyirdik ki, qorxulu günlər arxada qaldı. İçimdəki gizli nigaranlıq da, deyəsən, çəkilib gedirdi. Təqvimin də vərəqləri get-gedə azalırdı. Get-gedə inanırdım ki, dünyada heç kim və heç nə bir yerdə olmağımıza mane ola bilməz.

Sonra sentyabrın 11-i gəldi.

## On beşinci fəsil

Bir şeyə əminəm – 11 Sentyabr gününün xatirəsi ömrümün axırına qədər mənimlə olacaq. Qoşa Qüllələrin və Pentaqonun başı üstə göyə qalxan tüstü, mənimlə birlikdə televizora baxan əsgərlərin dəhşət saçan baxışları... Ekranda alovdan canını qurtarmağa çalışıb pəncərələrdən ölümün ağuşuna atılan adamlar... Görürdüm, binalar necə dağılır, onların yerində göy tağlarına ucalan nəhəng tüstü-toz dumanı içindən xarabalıqlar görünürdü... Ağ Evin təxliyəsi məni lap qəzəbləndirdi.

Bir neçə saatdan sonra bildim ki, Birləşmiş Ştatlar terrorçulara cavab verməyə hazırlaşır və bu işdə birinci zərbəni silahlı qüvvələr vurmalıdır. Qarnizonumuz hərbi

hazırlıq vəziyyətinə gətirildi, onda hiss etdim ki, əsgərlərimlə necə fəxr edirəm. Sonrakı günlərdə hər cür fikir müxtəlifliyi və siyasi ehtiraslar arxa plana keçdi. Bu az vaxtda hamımız sadəcə amerikalı olduq.

Ölkənin hər yerində çağırış məntəqələrinə könüllülər axıb gəlirdi. Bizim aramızda – müqavilə ilə xidmət edənlər arasında isə qalıb xidmət etmək arzusu həmişəkindən də güclü idi. Mənim bölüyümdə hamıdan əvvəl Toni daha iki il müddətinə xidmətə yazıldı. Sonra o birilər də. Hətta mən də, dekabr ayında tərxis olunacağıma, Savanna ilə görüşmək üçün günləri saymağıma baxmayaraq, ümumi ovqata qoşulub müqaviləmin vaxtını uzatdım.

Olsun ki, mənim bu qərarıma ümumi əhvali-ruhiyyə təsir etmişdi. Ən böyük səbəb, zənn edirəm ki, bu ola bilər. Tutaq ki, məni də vətənpərvərlik dalğası götürmüşdü, amma bundan da artıq məni yoldaşlıq və məsuliyyət hissi saxladı burda. Mən əsgərlərimi yaxşı tanıyırdım, onları qiymətləndirirdim, odur ki, belə bir vaxtda onları qoyub getmək qorxaqlıq olardı. Biz birlikdə nələrdən keçmişdik, 2001-ci ilin həmin ağır günlərində onları tərk etmək heç ağlıma da gəlməzdi.

Savannaya zəng edib hər şeyi dedim. Əvvəlcə o məni müdafiə etdi. Hamı kimi, o da baş verənlərdən dəhşətə gəlmişdi, izah-zad gözləmədən çiynimə düşən məsuliyyəti başa düşdü. Mənimlə fəxr etdiyini də söylədi.

Amma tezliklə gerçəklik öz yerini tutdu. Ölkəmə xidməti üstün tutub şəxsi həyatımı qurban vermişdim. Terror hücumlarının təhqiqatı tez başa çatdı, 2001-ci ilin sonrakı hadisələri də bizə birbaşa toxunmadı. Əsgərlərim lap məyus

olmuşdu – bizim piyada diviziya Əfqanıstanda Taliban hökumətinin devrilməsində iştirak etmədi. Əvəzində, qış-yaz yeni bir kampaniyaya – İraqa müdaxiləyə hazırlaşdıq.

Təxminən elə bu vaxtdan etibarən Savannanın məktubları dəyişməyə başladı. Əvvəllər həftədə bir dəfə gələn məktublar indi on gündən bir gəlirdi. Bir az sonra, günlər uzandıqca məktublar da iki həftədən bir gəldi. Yaxşı ki, məktubların ovqatı dəyişmirdi, amma bir az sonra bu da dəyişdi. Yavaş-yavaş Savannanın sevgimizdən, gələcək birgə həyatımızdan bəhs etdiyi, qəlbimi riqqətə gətirən uzun abzaslar yoxa çıxdı. Bilirdik, istəyimizin həyata keçməsi hələ iki il də uzanacaqdı. Belə uzaq gələcək haqqında yazmaq hələ nə qədər gözləməli olduğumuzu yadımıza salır, ikimiz üçün də ağrılı olurdu.

May ayı gəldi, fikirləşirdim ki, heç olmasa iyun ayında növbəti məzuniyyətimdə Savannanı görəcəyəm, amma məzuniyyətə getməzdən bir az əvvəl tale məni başqa bir oyuna saldı. Komandir məni yanına çağırdı. Dedi ki, atam infarkt keçirib. Mən təcili yola düşməliyəm. Elə həmin gündən mənə əlavə məzuniyyət verildi. Çapel Hillə gedib Savanna ilə iki həftə sevgimizi ovutmaq əvəzinə Uilminqtona gedib məzuniyyətimi atamın çarpayısı yanında keçirməli oldum. Antiseptik iyi nədənsə mənə atamın sağalmasından çox onun ölümü düşüncələrini gətirirdi. Mən gələndə atam artıq intensiv terapiya şöbəsində yatırdı, demək olar ki, məzuniyyətimin axırına qədər də orada qaldı. Onun dərisi solub bozarmışdı, tez-tez və zəif nəfəs alırdı.

Birinci həftə atam tez-tez huşunu itirirdi, özünə gələndə isə üzündə heç vaxt görmədiyim ifadə olardı: hədsiz qorxu,

ani xəcalət və burada, yanında olduğum üçün mənə minnətdarlıq. Lap ürəyim parçalanırdı. Əlini əlimə alıb xeyli saxlayırdım, əvvəllər heç belə etməzdim. Boğazına salınmış şlanqa görə atam danışa bilmirdi, ona görə də həmişə mən danışırdım. Qarnizon həyatından demək olar ki, heç nə danışmırdım. Ən çox sikkələrdən danışırdım. "Numizmatın bülleteni"ni oxuyurdum ona. Sonra evə gedir, siyirmədə saxladığı köhnə nömrələri də gətirib oxuyurdum. İnternetdə "Devid Hollun nadir sikkələri" və "Numizmatika əhvalatları" saytlarına girir, oxuduqlarımı sonra gəlib atama danışırdım – hansı yeni sikkələr hansı qiymətə təklif olunur. Qəribə idi: ilk dəfə görürdüm ki, qızıla tələbatın artdığı bir vaxtda, hətta qiymətinin bir az aşağı düşməsinə baxmayaraq, həmin sikkələr atamın yaşadığı evdən təxminən on dəfə baha idi. Adi danışıq qabiliyyəti olmayan atam tanıdığım adamların hamısından varlı idi.

Atam sikkələrin qiymətində maraqlı deyildi. Mən bu haqda danışanda o, baxışlarını yayındırırdı. Sonra bir şey yadıma düşdü: atam sikkələrin qiymətindən çox onların axtarışında maraqlı idi. Hər bir sikkə onun üçün xoşbəxt sonluqla bitən bir əhvalatın maddi nişanəsi idi. Bunu nəzərə alaraq, mən yaddaşıma bir də baş vurdum, görüm, hansı sikkələri birlikdə tapmışıq. Atam həmişə dəqiq qeydlər aparırdı, yatmazdan əvvəl mən onlara göz gəzdirdim, xatirələrim canlandı... Ertəsi gün onunla birlikdə Roliyə və Şarlottaya getdiyimizi xatırlatdım, Savannadan danışdım... Həkimlər onun sağalacağına inanmasalar da, iki həftə ərzində o, çox sevinirdi, həyatı boyu bu qədər gülümsəməmişdi. Mən qarnizona qayıtmazdan bir gün

qabaq həkimlər sağalana qədər evdə ona baxmağa bir adam təyin etdilər.

Amma atamın çarpayısı yanında keçirdiyim günlər ata-oğul münasibətlərimizə xeyli yaxşı təsir etsə də, Savanna ilə münasibətlimə heç bir xeyri olmadı. Məni yanlış başa düşməyin, Savanna da gəldi, bacardığı qədər mənə kömək etdi, ağrılarıma şərik oldu. Amma xəstəxanadan çıxa bilməməyimə görə, məzuniyyətim mənimlə onun arasında görünməyə başlayan çatları sağalda bilmədi. Açığı, özüm də bilmirdim ki, ondan nə gözləyirəm. Savanna yanımızda olanda elə bil istəyirdim ki, o, orada olmasın, atamla tək qalım. Yanımızda olmayanda isə istəyirdim ki, orada olsun. Münasibətlərimiz elə bil mina basdırılmış sahə idi – Savanna bu minalardan məharətlə yayınır, istər-istəməz ona yönələn tənələrimə reaksiya vermirdi. Sanki nə fikirləşdiyimi, nə istədiyimi məndən yaxşı bilirdi.

Amma birlikdə olmağa vaxtımız yox idi. Tək qalmağa vaxtımız çatmırdı. Münasibətimizi batareya ilə müqayisə etsək, mənim okeanın o tayında olmağım bu batareyanın enerjisini işlədib sıfıra endirirdi, bizə isə bu batareyanı enerjiyə qoşub dönə-dönə doldurmaq lazım idi. Bir dəfə, çarpayıda oturub kardiomonitorun aramsız çaqqıltısı altında birdən-birə hesablayıb gördüm ki, son 104 həftədən yalnız 4-ünü Savanna ilə birlikdə keçirmişik. Vaxtımızın beş faizindən də azı. Hətta məktublar və telefon danışıqları nə qədər tez-tez olsa da, başımı qaldırıb heyrətlə göyə baxırdım – Allahım, bu iki ili necə dözəcəyik biz?!

Hərdən gəzməyə imkan olurdu, iki dəfə də birlikdə nahar eləmişdik. Amma Savanna kurslara gedirdi, özü də

işlədiyindən qala bilmirdi mənimlə. Çalışırdım, buna görə onu günahlandırmayım, amma özümü hər vaxt saxlaya bilmirdim, bəzən lap bərk mübahisə edirdik. Bu qarşılıqlı tənə-töhməti o da, mən də heç sevmirdik, amma bundan yaxa qurtarmaq da olmurdu. Mən bu məsələyə toxunanda Savanna hər şeyi cidd-cəhdlə inkar edirdi. Əsas mübahisəmiz onun üstündə idi ki, mən sözümün üstə durmayıb, vaxtında evə qayıtmamışdım. Bu ilk və son dəfə idi ki, Savanna mənə yalan deyirdi.

Çalışırdıq ki, mübahisəmizi yaddan çıxaraq. Keçən dəfəki kimi olmasa da, bu dəfə də ayrılmağımız gözyaşısız keçmədi. Amma bu dəfə Savanna tez sakitləşdi. Yəqin, səbəbi o idi ki, daha buna adət eləyirdik, ya da ikimiz də daha böyümüşdük. Amma təyyarəyə oturan kimi qəlbimin dərinliklərində hiss etdim ki, deyəsən, düzəldilməsi mümkün olmayan nəsə baş verir. Yəqin, sevgimiz köhnəlirdi, hisslərimiz öz təsirini itirirdi ki, göz yaşları belə azalmışdı.

Bu fikir yaman ağrılı gəldi mənə. Qarnizonda bədirlənmiş Ayı görən kimi gecə həmişə futbol oynadığımız çəmənliyə çıxdım. Söz verdiyim kimi, Aya baxa-baxa ilk məzuniyyətimdə Savanna ilə keçirdiyim günləri, anları xatırladım. İkinci məzuniyyətimi də xatırladım, amma qəribədir, sonrakı, üçüncü məzuniyyətim haqda heç düşünmək istəmirdim. Deyəsən, hələ onda məni gözləyənlər ürəyimə dammışdı...

Yay qurtardı, atam yavaş-yavaş da olsa sağalırdı. Məktublarında yazırdı ki, gündə üç dəfə məhlədə piyada dolaşır, hər dəfə də azı iyirmi dəqiqə gəzir, amma bu da nəsə ona çətin gəlir. Bir müsbət cəhət vardı ki, indi o, pensiyada

ikən sikkələrdən başqa nəsə bir işlə məşğul olmaq istəyirdi. Tez-tez məktub yazmaqdan əlavə, həftədə iki dəfə düz saat birdə ona zəng vururdum ki, görüm necədir. Səsinə diqqətlə qulaq asırdım, görüm, yorğunluğu yoxdu ki? Həmişə deyirdim ki, yemək-içməyinə fikir versin, yaxşı yatsın, dərman qəbul etsin. Telefonda ən çox mən danışırdım. Onun üçün telefonla danışmaq üz-üzə danışmaqdan daha çətin idi, həmişə tələsirdi ki, dəstəyi tez assın. Hərdən buna görə ona sataşırdım, amma bilmirdim, zarafatımı necə qəbul edir. Bu mənə xoş gəlirdi, gülürdüm, o isə gülüb eləmirdi, amma səsi az da olsa dəyişir, nikbin olurdu, sonra yenə susurdu. Bu, yaxşı idi. Bilirdim ki, atam zəngimi gözləyir, danışmaq istəyir. Çünki elə ilk zəngdə dəstəyi qaldırırdı. Yaxşı təsəvvür edirdim – indi oturub saata baxır, zəngi gözləyir.

Avqust, sentyabr ötüb keçdi, oktyabr ayı gəldi. Savanna Çapel Hilldə dərslərini bitirib evə getmişdi, indi də iş axtarırdı. BMT-nin iclası haqqında qəzetlərdən xəbər tutdum – Avropa ölkələri bizi İraqda hərbi vəziyyəti gərginləşdirməməyə çağırırdı. NATO – müttəfiq ölkələrin paytaxtlarında da vəziyyət gərgin idi. Qəzetlər nümayiş və bəyanatlar haqqında yazır, deyirdilər ki, ABŞ böyük səhv edir. Bu arada ölkə rəhbərliyi öz qərarını dəyişmək barədə düşünürdü. Biz isə qarnizonda öz işimizlə məşğul idik – məşq edir, nigaran olsaq da, qətiyyətlə hazırlaşırdıq. Noyabr ayında bizi yenə Kosovoya göndərdilər. Burada az qaldıq, amma bu da bəs idi. Balkanlardan, elə sülhməramlı missiyamızdan da az qala bezmişdim. Hər birimiz bilirdik ki, Yaxın Şərqdə müharibə labüddür – Avropa istəsə də, istəməsə də.

Həmin vaxt Savanna ilə müntəzəm məktublaşırdıq, zəngləşirdik. Adətən, ona axşamtərəfi, gün batanda zəng edirdim, Amerika vaxtı ilə gecəyarı. Əvvəllər həmin vaxt zəng edəndə evdə olurdusa, son vaxtlar dəstəyi götürmürdü. Öz-özümə deyirdim ki, yəqin, dostları ilədir, ya da ata-anasına dəyməyə gedib. Ağlıma min fikir gəlirdi. Dəstəyi qoyandan sonra fikirləşirdim ki, Savanna yəqin başqa birisinə rast gəlib, onu sevir. Ona görə də iki-üç dəfə zəng edirdim, hər dəfə telefon cavab vermədikcə qeyzlənir, vəhşiləşirdim.

Savanna, nəhayət, telefonu qaldıranda bircə dəfə də soruşmurdum ki, harda idin. Heç özü də bir şey demirdi. İndi bilirəm ki, nahaq soruşmamışam, özümü sındırmamışam, həmin anda danışdıqlarımıza diqqət etsəm də, amma əslində, elə bu barədə düşünürdüm. Telefonda tez-tez əsəbiləşirdim, onun da cavabları ani və gərgin olurdu. Sevgi və ayrılıq havasında danışmırdıq biz, danışıqlarımız sanki adicə nə var-nə yoxdan ibarət idi. Dəstəyi qoyandan sonra qısqanclığıma görə özümə acıqlanırdım, bir-iki gün özümü danlayırdım ki, bir də belə etməyəcəm.

Bəzi günlər o elə əvvəlki Savanna idi, inanırdım ki, məni yenə də sevir. Düşünürdüm, yəqin, sevgim daha da güclənir, çünki bəlkə uzaqda darıxır, əvvəlki vaxtların sevgisini duymaq, o günləri yaşamaq istəyirdim. Nə baş verdiyini bilirdim, əlbəttə. Aramızda açılan yarğan uçuruma dönürdü, ümiddən düşürdüm, bir zaman qoşa yandığımız hisslər üzüntü gətirirdi indi. Elə bil tilsimli bir dairəyə düşmüşdüm – ümidsizliyim şiddətlənir, bir-birimizdən daha da uzaqlaşırdıq.

Tez-tez aramızda mübahisə olurdu. Birinci məzuniyyətimdə Savannagilin evində olduğu kimi, hisslərimi ona deyə bilmirdim. O nə deyirdisə, mənə elə gəlirdi ki, mənə gülür, ələ salır, heç mənim əzablarımı yüngülləşdirməyə də çalışmır. Öz qısqanclığıma necə nifrət edirdimsə, ondan da çox bu zənglərdən zəhləm gedirdi, amma başa düşürdüm ki, bunlar bir-biri ilə bağlıdır.

Mübahisələrimizə baxmayaraq, inanırdım ki, hər cür umu-küsünü unuda biləcəyik. Heç nə istəmirdim, bircə Savannam yanımda olsun. Dekabrdan başlayaraq mən ona müntəzəm zəng etməyə başladım, qısqanclığımı da qovdum başımdan. Özümü məcbur edirdim ki, yüksək əhvali-ruhiyyə ilə danışım, bəlkə Savanna məni eşidər, qulaq asar. Deyirdim, işlər yaxşılaşır, amma doğrudan da, zahirən hər şey yaxşı idi. Miladdan dörd gün qabaq ona zəng etdim, dedim görüşməyimizə bir ildən də az qalır, necə olsa da sevinmək, sevincini göstərmək əvəzinə telefonun o başındakı Savanna susurdu. Mən yalınız onun nəfəs aldığını eşidirdim.

– Nə dediyimi eşitdin? – pərt halda soruşdum.

– Hə, – sakitcə cavab verdi. – Keçən dəfə də belə demişdin də...

Doğru deyirdi və ikimiz də bunu bilirdik. Amma bu sözdən sonra bir həftə yata bilmədim.

Bədirlənmiş Ayın görünməsi Yenil İl bayramına düşdü. Gedib Aya baxdım, sevgimizin ilk günlərini xatırladım, amma yaman tutqun idi, intəhasız bir kədər sarmışdı o günləri. İçimə çökən, içimdən qalxan kədər. Kazarmaya qayıdanda gördüm ki, yolboyu əsgərlər boş-bekar dayanıb,

hasarın dibində siqaret çəkir, qayğısız-qayğısız ordan-burdan söhbət edirlər. Görəsən, məni görəndə nə fikirləşdilər? Bildilərmi ki, həyatda ən qiymətli şeyimi itirməkdəyəm? Hiss edirlərmi ki, mən keçmişi dəyişmək istəyirəm?

Mən bilmirdim, onlar da soruşmadılar. Dünyada isə vəziyyət sürətlə dəyişirdi. Ertəsi gün səhər gözlədiyimiz əmr, nəhayət, verildi. Bir neçə gündən sonra mənim bölüyüm artıq Türkiyədə idi. İraqa şimaldan girəcəkdik. Yığıncaqlarda döyüş tapşırıqlarını müzakirə edir, ərazinin topoqrafiyasını öyrənir, döyüş planlarını təkrar-təkrar yada salırdıq. Boş vaxtımız az olurdu, təsadüfən düşərgədən kənara çıxanda yerlilərin tikanlı baxışları ilə qarşılaşırdıq. Şayiə gəzirdi ki, Türkiyə İraqa müdaxilə üçün öz ərazisindən istifadə etməyə icazə vermir. Türklərlə bu haqda danışıqlar gedirdi. Çox vaxt şayiələrə inanmasaq da, bu dəfə düz çıxdı. Tezliklə bizi Küveytə göndərdilər, hər şey də təzədən başladı.

Təyyarəmiz günortaçağı yerə endi. Buludsuz, aydın səma, göz işlədikcə uzanan kiçik qum təpələri... Dərhal bizi avtobuslara əyləşdirdilər, bir neçə saat yol gedəndən sonra böyük bir çadır şəhərciyinə gətirdilər. Ordunun rahatlığı üçün nə mümkündü, etmişdilər. Yemək yaxşı idi, hərbi dükanda əsgərə lazım olan hər şey vardı. Amma darıxdırıcı idi. Poçt yaxşı işləmirdi, bircə məktub da almamışdım, telefona isə heç növbə çatmırdı. Məşğələlər arasında əsgərlər çadırda yığışıb danışır, müdaxilənin nə vaxt olacağını təxmin edir, ya da əmrimlə kimyəvi silahdan mühafizə kombinezonunu geyməyi məşq edirdilər. Hücum

planına əsasən, mənim bölüyüm Bağdada ildırım sürətli həmlə zamanı müxtəlif hərbi hissələrə yardım göstərməli idi. Fevral ayında elə hiss edirdik ki, min illərdi səhradayıq. Səhra həyatına öyrəşən bölüyüm hücuma hazır idi.

Bir çox əsgərlər hələ noyabr ayının ortalarından Küveytdə idi, şayiələr isə ara vermirdi. Heç kim nə baş verəcəyini dəqiq bilmirdi – bioloji və kimyəvi silahdan danışırdılar. Deyirdilər, Səddam "Səhrada fırtına" əməliyyatından dərs alıb, Milli Qvardiyaya əmr edib ki, Bağdad ətrafında müdafiə qursunlar, düşmən qarşısında sipər çəksinlər. Mart ayının on yeddisində mən bilirdim ki, müharibə qaçılmazdır. Küveytdə olduğumuz axırıncı gecə hər ehtimala qarşı öz doğmalarıma məktub yazdım. Atama və Savannaya. Ertəsi gün axşam artıq İraq ərazisində idim. Hərbi kolonumuz İraqın içərilərinə doğru hərəkət edirdi.

Əvvəlcə adda-budda döyüşlər gedirdi. Hərbi aviasiyamız İraq səmasında hökmran idi, başımız üstə səmaya qorxu-ürküsüz baxırdıq, əsasən səhra yolları ilə hərəkət edirdik. İraq nizami ordusu heç yerdə gözə dəymirdi, amma bu gərginliyi bir az da artırırdı – fikirləşirdim, görəsən, bu kampaniyada mənim bölüyüm nəylə qarşılaşacaq. Arabir düşmən minomyotlarının atəşi haqqında eşidirdik, dərhal da mühafizə kombinezonlarını geyirdik, sonra bilirdik ki, bu yalançı həyəcan siqnalı imiş. Əsəblərimiz olduqca gərilmişdi. Üç gün idi ki, yatmırdım.

İraq ərazisinin dərinliklərinə getdikcə atışmalar intensivləşirdi. Mən İraqın azad edilməsi üçün hərbi əməliyyatın birinci qanununu məhz onda bildim: burada hərbi və mülki geyimli düşməni demək olar ki, ayırmaq

olmurdu. Atışmadan baş açmırdın. Haradasa güllə atılırdı, biz də cavab atəşi açırdıq. Heç bilmirdik kimə atırıq. Bağdad civarındakı "Sünni Üçbucağı"na gəlib çatdıq. Müharibə qızışırdı: Fəllucda, Ramadidə, Tiqritdə başqa diviziyaların iştirak etdiyi amansız döyüşlər gedirdi. Mənim də bölüyümün tərkibində olduğu səksən ikinci aviasiya polku Səmavə şəhərini almalı idi. Əsl müharibənin nə olduğunu ilk dəfə məhz onda bildik.

Aviasiya qüvvələri piyada döyüşçülərimizin yolunu təmizləyirdi – sutka boyu şəhərə bombalar, raket və mərmilər yağırdı. Bölüyümüz şəhərə aparan yolun üstündəki körpüyə çatanda hər yana qəribə sakitlik çökmüşdü. Biz ətraf ərazilərdə keşik çəkir, yolumuza çıxan evləri düşməndən təmizləyirdik. Müharibə səhnələri bir-birini əvəz edirdi: yanan yük maşını, həlak olmuş sürücünün meyiti, kiminsə yalnız iki divarı qalmış evi, orda-burda maşınların tüstülənən qalıqları... Təsadüfi atılan güllələrdən qorunmaq lazım gəlirdi. Keşikdə olarkən bəzən mülki adamlar əllərini qaldırıb qarşımıza çıxırdılar, biz də yaralıların xilas edilməsi üçün hər şey edirdik.

Günortaya yaxın geriyə qayıtmaq istəyirdik ki, yaxınlıqdakı evlərin birindən intensiv atəşə tutulduq. Birtəhər divara sığındıq, atəş isə güclənirdi. İki nəfərə tapşırdım ki, cavab atəşi ilə bizi qorusunlar, qalan əsgərlərlə qaça-qaça küçənin o tayına keçdik. Möcüzə idi – heç birimizə güllə dəyməmişdi. Bir az arxayın olandan sonra nisbətən sakit mövqelərimizdən pusquda duran düşməni avtomat atəşinə tutduq, minlərlə güllə yağdırdıq. Nisbi sakitlikdən istifadə edib ehtiyatla həmin evə yaxınlaşdıq.

Əsgərlərə gözləməyi tapşırdım, özümsə pəncərədən evin içinə qumbara atdım ki, qapısını partladım. İçəri bir anda toz-dumanla doldu. Ətrafı kükürd iyi bürüdü. Amma bir İraq əsgəri salamat qalıbmış. Biz içəri girəndə o, zirzəmidən atəş açdı. Toni əlindən yaralandı, o birilərimiz qəzəblə atəş açdıq. Gurultu-patıltıdan qulaq tutulurdu, heç öz səsimi eşitmirdim. Barmağımsa tətiyi sıxır, tavandan döşəməyə qədər atəş yağdırırdım. Divarlardan qopan suvaq, kərpic, taxta qəlpələri mərmi kimi dörd tərəfə səpilirdi. Nəhayət, atəşi dayandırdıq, içəridə bir nəfərin də sağ qalmadığını hesab edib hər ehtimala qarşı evin zirzəmisinə bir qumbara da atdım. Bayırda bir az gözləyəndən sonra qumbaranın partlayış səsini eşitdik.

Həyatımın ən gərgin iyirmi dəqiqəsi belə keçdi. Küçədə sakitlikdi. Amma qulaqlarım guruldayır, arabir yoldaşlarımın səsini eşidirdim. Kimsə qusur, kimsə heyrətini bərkdən ifadə edir, indicə baş verən döyüşdən aldığı təəssüratı özünə məxsus şəkildə dəyərləndirirdi. Toninin əlini sarıdım, o biri əsgərləri yoxladım – yaralanmayıblar ki?! Sonra geriyə – öz yerimizə qayıtdıq. Bir saatdan sonra bizimkilərin mühafizə etdiyi dəmiryol stansiyasına gəlib çatdıq. Yorulub əldən düşmüşdük. Axşam isə poçtu gətirdilər, son altı həftədə ilk dəfə.

Atamdan altı, Savannadan isə bir məktub gəlmişdi. Tutqun işıqda Savannanın məktubunu açdım. O yazırdı:

“*Əzizim Con*!

*Bu məktubu mətbəx stolunda yazıram. Hərflər gözümü deşir, demək istədiklərimi sənə necə deyim, bilmirəm. Çox istəyirəm ki, səninlə üz-üzə danışım, amma ikimiz də bilirik*

*ki, bu mümkün deyil. Ona görə də gözüyaşlı, lazım olan sözü axtara-axtara bu ümidlə yazıram ki, bəlkə indi sənə yazacaqlarım üçün məni bağışlayasan.*

*Bilirəm, indi sizin üçün çox ağır keçir. Çalışıram ki, müharibə haqda düşünməyim, amma qorxu məni tərk etmir. Televiziya, qəzet xəbərlərini eşidirəm. Onu da bilirəm ki, sənin hissən müharibənin lap mərkəzindədir, necə çətin şəraitdə olduğunu təsəvvür etməyə çalışıram. Hər gecə Allaha yalvarıram ki, sağ-salamat qayıdasan, həmişə də Allaha dua edəcəyəm ki, qayıdıb gələsən. Bizi gözəl hisslər birləşdirirdi, istəmirəm ki, sən onları unudasan. Onu da istəmirəm ki, düşünəsən ki, mən səni az sevirdim, bizim sevgimiz qarşılıqlı və gözəl idi. Sən çox nadir və gözəl insansan, Con. Mən səni bütün qəlbimlə sevdim, amma ondan da çox – sənə rast gələndən bildim ki, əsl sevgi nədir. Keçən iki il yarımda mən hər dəfə bədirlənmiş Aya baxıb səninlə keçirdiyim günləri dönə-dönə, anbaan yaşamışam. Birlikdə necə xoşbəxt idik, bilirəm. Səninlə ilk dəfə tanış olduğum o axşamı xatırlayıram, elə bil illərdi ki, səni tanıyırdım. İlk dəfə sevgimizin ehtiraslarına qovuşduğumuz gecəni xatırlayıram. Səninlə birlikdə olduğumu, səninlə birlikdəliyimi xatırlamaq həmişə sonsuz zövq verir mənə. Hesab edirəm ki, o anlarla ruhumuz əbədi qovuşub.*

*Hər şey yadımdadır, Con. Gözlərimi yumuram, səni görürəm. Gəzməyə çıxıram, elə bil yanımdasan, əlimdən tutmusan. O hisslər zərrə qədər azalmayıb, amma əvvəl mənə sevinc gətirən o duyğular indi ağrı, üzüntü gətirir. Orduda niyə qaldığının səbəbini başa düşürəm, sənin bu qərarına hörmət etdim. Yenə də hörmət edirəm. Amma*

*ikimiz də bilirik ki, məhz bundan sonra münasibətlərimiz dəyişdi. Elə bilirəm ki, sən də öz içində bunu başa düşürdün. Daha pisi o idi ki, özümüz də dəyişirdik. Bəlkə ayrılığımız çox çəkdi, yoxsa fərqli dünyalarda yaşadıq, ona görə? Bilmirəm. Hər dəfə mübahisə edəndə səbirsizliyimə görə özümü qınayırdım. Amma hansı möcüzəyləsə yenə bir-birimizi sevsək də, bizi birləşdirən o sirli tellər qırılırdı.*

*Bilirəm ki, üzr istəmək yersizdir. Amma lütfən, istəyirəm inanasan ki, mən heç kimi sevmək istəmirdim. Əgər mən özüm bunun necə baş verdiyini başa düşmürəmsə, səndən hansı anlayışı gözləyə bilərəm? Heç gözləmirəm də. Amma o əziz, unudulmaz günlərimizin eşqinə, sənə daha yalan demək istəmirəm. Yalan – aramızda olanları, bölüşdüyümüz o gözəl hissləri əskildər, puç edər. Ona görə də sənə doğrusunu demək istəyirəm, hətta sən bunu xəyanət hesab etsən də.*

*Bir də məni heç vaxt dindirməsən, mən bunu başa düşəcəyəm. Mənə nifrət etdiyini desən, səni başa düşəcəyəm. Boynuma alıram ki, bəzən özüm özümə nifrət eləyirəm. Məsələn, elə bu məktubu yaza-yaza. Güzgüyə baxıram, deyirəm ki, güzgüdəki qadın sənə layiq deyil. Sevilməyə layiq deyil. İnan, belədir.*

*Bəlkə də bunu eşitmək istəməzsən, amma istəyirəm, biləsən ki, sən həmişə qəlbimdə qalacaqsan, həyatımın bir parçası olacaqsan. Sənin qəlbimdə xüsusi yerin var və ömrümün axırına qədər orada olacaqsan. Sən cəsursan, nəcib insansan, xeyirxah və saf adamsan. Sən ilk kişisən ki, mən doğrudan-doğruya sevdim, əsl məhəbbətin nə olduğunu*

*bildim. Həyatım necə keçsə də, həmişə belə olacaq. Sənə olan sevgim həyatımı rövnəqləndirdi.*

*Məni bağışla.*

*Savanna”.*

# III hissə

## On altıncı fəsil

O, başqasını sevirdi.

Hiss edirdim, hələ məktubu axıra qədər oxuyub qurtarmamışdım ki, yer-göy gözümdə dondu elə bil. İlk reaksiyam o olmalı idi ki, yumruğumu düyünləyib divara çırpım. Amma əl-ayağım qıc olmuşdu, sadəcə məktubu xışmalayıb bir yana atdım. Qəzəb boğurdu məni. Mənə təkcə xəyanət etməmişdilər – Savanna dünyada mənə əziz olan hər şeyin üstündən xətt çəkmişdi. Heç nəyin mənası qalmamışdı. Mən ona nifrət edirdim, onu əlimdən almış adını bilmədiyim, üzünü görmədiyim o alçaq insana nifrət edirdim. Təsəvvürümdə xoşa gəlməz səhnələr qururdum – onu nə vaxtsa görsəm, gör ona nə eləyəcəyəm!

Elə həmin anda Savanna ilə danışmağa dəhşətli bir ehtiyac hiss etdim. Bu saat evə getmək, ya da heç olmasa ona zəng etmək istəyirdim. Buna inanmaq istəmirdim, inana bilmirdim. Bu necə ola bilərdi, bu qədər yaxın ikən, bütün bu olmuşlardan sonra? Üç ildən sonra cəmi doqquz ay qalmışdı evə getməyə. Bu mümkün idimi?

Amma heç yerə getmədim, zəng də vurmadım. Məktuba cavab vermədim, Savannadan da sonra daha məktub almadım. Yalnız onu eləyə bildim ki, əzilib bükülmüş məktubu yerdən götürdüm, əlimlə hamarlayıb yenidən zərfə qoydum. Onu həmişəlik cibimdə gəzdirəcəkdim – döyüşdə aldığım yara kimi. Sonrakı həftələrdə mən əsl əsgər kimi hərəkət edirdim – ətrafımdakı real dünyada öz yerimi tapmağa çalışırdım. Ən təhlükəli tapşırıqlara məni göndərməyi xahiş edirdim, heç kimlə danışmaq istəmirdim, keşikdə olanda qeyzlə barmağımı tətiyə sıxmaqdan özümü güclə saxlayırdım. Keçdiyimiz şəhərlərdə heç kimə inanmırdım, heç bir bədbəxt hadisə baş verməsə də – mülki adamların ölümünü orduda “bədbəxt hadisə” adlandırırlar – düzünü deyim ki, qarşıma çıxan iraqlılara qarşı elə də rəhmdillik göstərmirdim. Gözümə yuxu getmirdi, Bağdada doğru həmlələrimiz uzanır, içimdə duyduqlarım şiddət edir, gərilirdi. İşə bax ki, mənim həsrət və üzüntümü, Savanna ilə aramızda hər şeyin qurtardığı fikrini yalnız ölümcül, qorxulu tapşırıqlar unutdururdu mənə. Yalnız bu vaxt Savannanın xəyalından xilas olurdum.

Müharibədə “bəxt” dedikləri işvəkar qız kimidir. Üzünə gülər də, əlindən çıxıb gedər də. Məktubu alandan təxminən bir ay sonra Bağdad təslim oldu. Uğurlu döyüşlərin gətirdiyi qısa, sakit bir dövrdən sonrakı həftələrdə, aylarda işlər pisləşdi, hərc-mərclik, qarışıqlıq düşdü. Bir az diqqət etsən, görərsən ki, bütün müharibələr bir-birinə oxşayır: adını nə qoysan da, bu, rəqabət aparan maraqların hakimiyyət uğrunda savaşıdır. Onu da deyim ki, bu qənaət həyatımızı heç də asanlaşdırmır. Bağdad təslim olandan sonra

bölüyümdəki hər bir əsgər məcburən polis, ya da hakim kimi hərəkət etməli idi. Amma biz əsgər idik, buna hazır deyildik.

Əlbəttə, indi fikir söyləmək asandır ki, necə hərəkət etməli idik, amma döyüş şəraitində və real vaxt daxilində qərar qəbul etmək heç də asan olmur. Tez-tez yanımıza mülki insanlar gəlir, şikayət edirdilər ki, kimsə nə isə oğurlayıb, ya da hansısa bir cinayəti törədib və bizdən kömək istəyirdilər. Bu bizim işimiz deyildi. Biz ona görə burada idik ki, əsasən əmin-amanlığı qoruyaq, bu isə əslində o deməkdi ki, biz qiyamçıları öldürməli idik, – çünki onlar biz amerikalıları və yerli mülki adamları qırırdılar. Yerlilər bu qiyamçıların öhdəsindən gələ bilmirdi. Əmin-amanlığın yaradılması sakitlik hökm sürən rayonlarda da ağır gedirdi. Bu arada digər rayonlarda da hərc-mərclik başladı, sakitliyi bərpa etmək üçün bizi ora göndərdilər. Biz şəhəri qiyamçılardan təmizləyirdik, amma nizam-intizamı qorumaq üçün əsgər çatmırdı, biz gedəndən sonra qiyamçılar yenidən şəhəri ələ keçirirdi. Əsgərlər işimizin səmərəsizliyini görüb başını bulayır, amma açıq narazılıq etmirdilər.

Bilmirəm, sonrakı doqquz ayın stress, hərc-mərclik və sıxıntı ilə dolu günlərini necə təsvir edim. Bəlkə belə deyim: göz işlədikcə uzanan qum səhrası. Hə, belədir ki, var. Hər yan qum, qum təpələri. Qumdan başqa nə var ki burda? Orası da düzdür ki, mən okean sahilində yaşamışam, vaxtımın çoxunu çimərlikdə keçirmişəm. Bu da bir dərya idi – amma qum dəryası. Fərq elə bu idi. Qum dənələri paltarına, silahına, bağlı yeşiklərə, ərzağın içinə, qulaqlarına, burnuna, dişlərinin dibinə dolurdu. Tüpürəndə ağzımda qum dənələri xırçıldayırdı. Adamlar İraq hərbi kampaniyasında

iştirak edənlərin dilindən belə şeylər eşidəndə maraqla qulaq asırlar, onlara qəribə gəlir, amma heç kim həqiqəti bilmək istəmir ki, İraq bəzən cəhənnəmdən betər olurdu. Doğrudanmı, onlar eşitmək istəyirlər ki, mənim bölüyümün əsgəri təsadüfən iraqlı bir uşağı mənim gözlərimin qarşısında necə güllələdi? Uşaq hardansa çıxıb atəş altında bizə tərəf qaçmağa başladı və gülləyə tuş gəldi. Yoxsa Bağdad yolunun üstündə əldəqayırma partladıcı qurğunun əsgərlərimizdən birini necə tikə-tikə elədiyini bilmək istəyirlər? Bəlkə küçədə parça-parça olmuş bədənlərdən, yağış suyu kimi orda-burda yığılan qan gölməçələrindən deyim? Yox, adamlara qumdan danışanda maraqlı gəlir, onlar müharibə dəhşətlərini eşitmək istəmirlər. Təki müharibə söhbətlərindən dəng olmasınlar.

İndi mən səylə, cidd-cəhdlə xidmət edirdim. Müqaviləmi bir də uzadıb 2004-cü ilin fevral ayına qədər İraqda qaldım. Elə bu vaxt bizi yenidən Almaniyaya göndərdilər. Almaniyaya gələn kimi özümə bir Harley motosikleti aldım. Üstündə şəstlə elə otururdum ki, istəyirdim, hamı bilsin ki, mən müharibənin hər üzünü görmüşəm. Amma gecə qarabasmaları məni təngə gətirmişdi, səhərlər tez-tez qan-tər içində yuxudan oyanırdım. Gündüzlər tez-tez bölükdə olurdum, ən adi şeylərə görə əsəbiləşirdim. Almaniyada sakit küçə ilə gedərkən divarın yanında yığışan adamlara şübhə ilə baxırdım, şəhərin işgüzar rayonunda binaların pəncərəsində gözüm snayper axtarırdı. Demək olar ki, hamımızın müraciət etdiyi psixoloq deyirdi ki, bu normaldır, tədricən

keçəcək, amma mən şübhələnirdim – doğrudanmı keçəcək? Buna ömrüm çatacaqmı?

İraqdan sonra Almaniyadakı xidmətim mənasız görünürdü. Səhərlər, əlbəttə, yenə məşq edirdim, yeni silahlar və naviqasiya haqqında məşğələlərə gedirdim. Amma bir çox şeylər dəyişmişdi. Toni yaralanandan sonra “Qırmızı ürək” medalı ilə təltif olundu, sonra evə buraxıldı. Bağdad təslim olan kimi Bruklinə yola düşdü. 2003-cü ilin axırında müqavilə vaxtları qurtarandan sonra bölüyümdən daha dörd əsgər ehtiyata buraxıldı. Onlar hesab edirdilər ki, vətən qarşısında borclarını veriblər, indi də şəxsi həyatları ilə məşğul olmaq istəyirlər, mən də etiraz etmədim. Özümsə müqaviləmin vaxtını yenə uzatdım, həm də bunun düzgün qərar olub-olmadığını bilmədən. Amma nə ilə məşğul olum – onu da bilmirdim.

Amma təzə gələn əsgərlərə baxanda özümü burada yad hiss etdim. Bölüyümdə çoxlu təzə əsgər vardı. Hamısı yaxşı uşaqlar idi. Amma bu o deyildi. Təlim düşərgəsində bir yerdə olduğum dostlar getmişdi. Bu təzə gələnlərlə Balkanlarda ayaq döyməmişdim, İraqda onlarla vuruşmamışdım. Bunlarla necə dostluq edəcəyəm? Bir çoxları üçün mən yad idim. Bəlkə də belə yaxşıdır, deyə ayrıca məşq edirdim, mümkün olduqca şəxsi əlaqələrdən qaçırdım. Əsgərlərim məni ciddi, əzazil serjant kimi tanıyırdılar. Guya bu köhnə serjanta heç nə lazım deyil – təki bu uşaqları ata-analarına sağ-salamat versin. Məşqlərdə əsgərlərimə elə beləcə də deyirdim: əlimdən gələni edəcəyəm ki, siz sağ-salamat olasız. Amma dediyim kimi, heç nə əvvəlki deyildi.

Köhnə dostlar gedəndən sonra atama daha çox diqqət verirdim. 2004-cü ilin yazında məzuniyyətimi onun yanında keçirdim. Hərbi kampaniyanın iştirakçısı kimi, uzun bir məzuniyyət vermişdilər mənə. Sonra da yay məzuniyyəti. Dörd həftə atamın yanında qaldım. Bu dörd həftədə əvvəlki on həftədən də çox bir yerdə olduq. Atam pensiyada idi, vaxtımızı istədiyimiz kimi keçirirdik. Mən də onun rejiminə öyrəşdim. Səhər yeməyi yeyir, üç dəfə gəzirdik, sonra da nahar eləyirdik. Bu arada sikkələr haqqında da danışırdıq, hətta şəhərdə olanda bir-iki nadir sikkə də aldıq. İnternet bu işi də asan etmişdi. Bəzən axtarışlar nəticəsiz qalsa da, düşünürəm ki, bunun atam üçün fərqi yox idi. On beş ildən çox görmədiyim dilerlərlə əlaqələri yenidən qurdum. Onlar çox şad oldular, məni xatırlayıb kömək etməyə həvəslə razılaşdılar. Numizmatika aləmi çox da böyük deyil. Sifarişimiz gələndə – həmişə də ekspress çatdırma ilə – biz atamla növbə ilə sikkəyə baxır, əyər-əskiyini deyirdik, sonra da adətən sifarişli sikkələrin keyfiyyətini təyin edən Peşəkar Təsnifat Xidmətinin verdiyi kateqoriya ilə razılaşırdıq. Mən tez yorulub ayrı bir işlə məşğul olurdum, atam isə bir sikkəyə saatlarla baxırdı – sanki onda həyatın böyük bir sirri gizlənirdi.

Biz az danışırdıq, o biri tərəfdən, bu heç lazım da deyildi. O, İraq haqqında soruşmurdu, mən də heç danışmırdım. Heç birimizin şəxsi həyatı yox idi. Belə demək mümkünsə, İraq qoymadı... Atamın isə... Nə isə, o, mənim atamdır, bu barədə ondan heç soruşmuram.

Buna baxmayaraq, mən ona görə narahat idim. Gəzinti zamanı ağır nəfəs alırdı. Deyəndə ki, lap yavaş-yavaş gəzsə

belə iyirmi dəqiqə çoxdur, atam dedi ki, həkim ona belə məsləhət görüb. Onu fikrindən döndərmək mümkün deyildi. Gəzintidən sonra atam tamam heydən düşürdü, yalnız bir saatdan sonra yanaqlarındakı qızartı itirdi. Müalicə həkimi ilə bu barədə danışdım, təsəlliverici bir şey yox idi. Dedi ki, atamın ürəyi infarktdan ciddi şəkildə zədələnib və əgər xəstə hər halda hərəkət edirsə, bu, doğrudan da möcüzədir. Fiziki fəallığı olmasa, onun üçün daha pis olar.

Ola bilsin, həkimin dedikləri təsir etmişdi, ya da mənim atamla münasibətlərim yaxşılaşmışdı, sonuncu iki məzuniyyət dövründə atamla çox yaxınlaşdıq. Onu söhbətə, danışığa məcbur etməkdənsə, sadəcə onun otağına gedib yanında oturur, kitab oxuyur, ya da krossvord doldururdum, o isə sikkələrə baxırdı. Ümidim olmasa da, sakit və doğru münasibətlərimiz yavaş-yavaş yoluna düşürdü. Atam da aramızda yaranan bu dəyişikliyə öyrəşirdi. Hərdən ehtiyatla mənə baxdığını hiss edirdim, üzündəki ifadə əvvəlki deyildi. Saatlarla bir yerdə olurduq. Dinib-danışmadan. Elə bu sakit, anlaşılmaz tərzdə axırda dostlaşdıq. Tez-tez heyifsilənirdim ki, gərək atam şəklimizi atmayaydı. Almaniyaya qayıtmaq vaxtı gələndə hiss etdim ki, onun üçün çox darıxacam. Heç vaxt olmayan kimi.

2004-cü ilin payızı yaman ləng keçdi. 2005-ci ilin qışı və yazı da beləcə sürünə-sürünə keçdi. Süst bir həyat. Heç nə baş vermirdi. Bu sakitliyi hərdən yenidən İraqa qayıdacağımla bağlı şayiələr pozurdu, amma orada artıq olmuşdum və bu məni elə də ilgiləndirmirdi. Almaniyada qalaram, daha da yaxşı. İraqa gedərəm – bu da normaldı, deyə düşünürdüm. Hamı kimi, mən də Yaxın Şərqdə baş

verənləri izləyirdim, amma qəzeti əlimdən yerə qoyan kimi, ya da televizoru söndürən kimi beynimdə başqa şeylər dolaşırdı.

İyirmi səkkiz yaşım tamam olurdu, amma bu fikirdən qaça bilmirdim ki, həyat təcrübəm bir çox yaşıdlarımdan artıq olsa da, mən hələ də nəsə gözləyirdim. Orduya yazıldım ki, böyüyüm, yaşa dolum. Bunu elədim, amma hərdən mənə elə gəlirdi ki, düz hərəkət etməmişəm. Nə evim, nə maşınım vardı, atamdan başqa heç bir doğmam yox idi. Yaşıdlarım fəxrlə ciblərində arvadlarının, uşaqlarının şəkillərini gəzdirirdi, mənimsə cibimdə bir vaxt sevdiyim, sonra itirdiyim bir qızın saralıb-solmuş yeganə şəkli vardı. Eşidirdim ki, əsgərlər gələcək həyatları ilə bağlı planlar qurur, mənimsə heç bir planım yox idi. Hərdən fikirləşirdim ki, görəsən, tabeliyimdə olan əsgərlər haqqımda nə düşünürlər. Hərdən mənə elə maraqla baxırdılar ki! Keçmişim haqda onlara heç vaxt heç nə demirdim. Nəyə gərək? Onlar nə Savanna haqda, nə atam, nə də dostum Toni haqda bir şey bilirdilər. Bu xatirələr təkcə mənimki idi, bilirdim ki, bəzi şeyləri gizli saxlamaq yaxşıdır.

2005-ci ilin mart ayında atam ikinci dəfə infarkt keçirdi, ardınca pnevmoniya gəldi. Onu yenə intensiv terapiya palatasında yerləşdirdik. Böhran vəziyyətindən çıxandan sonra evə buraxdılar, amma dərman yazdılar, maşın sürməyi də qadağan etdilər. Xəstəxanadan ona bir adam qoşdular – evə yemək gətirəcəkdi. Aprel ayında atam yenə xəstəxanaya düşdü. Gündəlik gəzinti də qadağan edildi ona. Mayda o, yataq rejimində idi, gündə neçə dərman atırdı. Xətti tamam oxunmurdu, ona görə yox ki, zəif idi.

İndi atamın əlləri bərk əsirdi. Uzun-uzadı, israrlı telefon danışığından sonra, atamın qonşusu olan tibb bacısını dilə tutdum ki, tez-tez ona baş çəksin. Sonra rahat nəfəs aldım, iyun ayındakı məzuniyyətimə az qalırdı.

Amma atamın səhhəti getdikcə pisləşirdi. Son dəfələrdə telefonda onunla danışanda səsi çox yorğun idi. Həyatımda ikinci dəfə ərizə yazdım ki, məni Amerikaya köçürsünlər. Bu dəfə də komandir xahişimə həssaslıqla yanaşdı. Hətta Fort Breqqdə hava-desant təlimləri keçmək üçün mənə göndəriş də düzəltdi. Amma xəstəxanaya zəng vuranda dedilər ki, mənim oraya gəlməyim ona kömək etməz, onu müalicə pansionatında yerləşdirmək lazımdır. Ona ev müalicəsindən artıq diqqət lazımdır. O vaxt atam yalnız sup içirmiş, müalicə həkimi onu çoxdan dilə tuturmuş ki, xəstəxanaya gedək, o isə etiraz edib. Deyib ki, qoy oğlum gəlsin. Həkim deyirdi ki, hansı səbəbdənsə, atam istəyirmiş ki, məni evdə qarşılasın.

Vəziyyət ağır və gözlənilməz idi. Aeroportdan evə gedəndə yolda öz-özümə deyirdim ki, həkimlərdə adətdir – xəstəni qorxudurlar ki, qoy onlar həkimə qulaq assınlar, inansınlar; amma həkim artırıb eləmirdi – mən qapını açıb içəri girəndə atam məni qarşılamaq üçün yatağından dura bilmədi. Qəlbim sıxıldı. Atam bir ildə sanki otuz yaş qocalmışdı. Dərisi kül rəngində idi, çox arıqlamışdı. Boğazım tutuldu, udqundum. Çantamı qapının yanında qoyub güclə dedim:

– Salam, ata.

Qorxurdum ki, məni tanımasın, bir dəqiqədən sonra boğuq pıçıltısını eşitdim:

– Salam, Con.

Yaxınlaşıb divanın kənarında, yanında oturdum.

– Necəsən?

– Yaxşıyam, – dedi. Xeyli susduq. Sonra ayağa durub mətbəxə keçdim ki, görüm nə var-nə yox. Quruyub qaldım. Hər tərəfdə boş sup bankaları, plitənin üstünə haçansa daşmış xörəyin ləkələri, bərkiyib daşa dönmüş, kif gətirmiş yemək qalıqları. Zibil vedrəsi dolu. Yuyulmamış, bulanıq qablar. Kiçik mətbəx stolunun üstündə açılmamış məktublar. Ev nə vaxtdı ki, təmizlənmirdi. İlk reaksiyam o oldu ki, gedib qonşu qadını danlayım – atama baxmağa söz vermişdi. Amma sonraya saxladım.

Əriştəli, toyuq supu bankasını açıb plitənin üstündə qızdırdım, atama apardım. O güclə gülümsündü, gördüm ki, bu azacıq xidmətimə görə o necə minnətdardır. Supun hamısını içdi. Boşqabı bir də doldurdum, ağlıma gəldi ki, yəqin neçə vaxtdı heç nə yemir. Atam bu supu da içdi, uzanmağına kömək elədim, dərhal da yuxu apardı onu.

Qonşu qadın evdə yox idi. Bütün günü və axşam evi təmizlədim, mətbəxi, tualeti yudum, yığışdırdım. Atamın yataq ağlarını dəyişəndə gördüm ki, altını batırıb, ağlar bulanıb, bir anlıq gözlərimi yumdum, ağlıma gəldi ki, gedib qonşu qadının boynunu sındırım. Evi nisbətən səliqəyə salandan sonra qonaq otağına qayıtdım. Atam sakitcə yatırdı. Adyalın altında atam lap balaca görünürdü. Astaca saçını sığalladım, bir neçə tükü yastığa düşdü. Ağlamağa başladım, başa düşdüm ki, atam ölür. Bu illər ərzində ilk dəfə idi ki, ağlayırdım. Həyatımda ilk dəfə atam üçün ağladım, uzun müddət toxtaya bilmədim.

Bilirdim, atam yaxşı, xeyirxah adamdır, həyatı mürəkkəb keçsə də, məni böyütmək üçün əlindən gələni edib. Məni heç vaxt döyməyib, illər uzunu onu qınayıb, özümü səfeh kimi apardığım üçün vicdan əzabı çəkirdim. Axırıncı iki məzuniyyətimi xatırladım, yadıma düşəndə ki, atamla birgə belə adi, xoşbəxt günlərim bir də olmayacaq, ürəyim sancdı.

Bir qədər sonra atamı çarpayısına apardım. O çox yüngül idi. Heç çəkisini hiss etmədim. Adyalla üstünü örtüb, yanında döşəmədə özümə yer düzəltdim. Yorğun, xırıltılı səslə nəfəs alırdı. Gecəyarı öskürəkdən oyandı, öskürməyi xeyli çəkdi. İstədim onu xəstəxanaya aparım, amma öskürəyi, nəhayət, kəsdi.

Atam biləndə ki, onu hara aparmaq istəyirəm, dəhşətə gəldi.

– Evdə qalıram, – zəif səslə yalvardı. – Xəstəxanaya getmək istəmirəm.

Ürəyim parçalandı, amma hər halda xəstəxanaya aparmadım onu. Öz iş və yaşayış rejiminə öyrəşmiş adam üçün xəstəxana nəinki yad yerdir, hətta təhlükəlidir. Xəstəxanaya öyrəşmək üçün daha böyük qüvvə lazım idi, atamın isə qüvvəsi qalmamışdı. Bu zaman atam yenə özünü, döşəyi buladı.

Ertəsi gün qonşu qadın gəldi, elə astanadan üzrxahlıq etməyə başladı. Qızı xəstələnibmiş, ona görə də gəlib evi yığışdıra bilməyib, amma o vaxta qədər hər gün gəlib, ağları dəyişib, mətbəxdə də ehtiyat sup olub həmişə. Biz artırmada söhbət edirdik. Arğın-yorğun qadını görəndə hazırladığım

tənə-töhmət sözləri yadımdan çıxdı. Ona təşəkkür etdim, dedim ki, onsuz da çox iş görmüsən.

– Şadam ki, kömək edə bildim, – qonşu qadın dedi. – O çox yaxşı adam olub. Heç vaxt uşaqlarımın səs-küyündən şikayət etməyib. Onlar nəsə satanda alıb onlardan. Məktəb ekskursiyaları üçün uşaqlara hərdən pul lazım olurdu. Ondan xahiş edəndə həyətdə səliqə-sahmana fikir verir, evə göz-qulaq olurdu. Həmişə kömək etməyə çalışırdı. Çox yaxşı qonşu olub...

Mən gülümsündüm. O həvəslənib sözünə davam etdi.

– Bir də biləsən ki, o məni hərdən içəri buraxmırdı. Deyirdi ki, şeyləri yığmağım onun xoşuna gəlmir. Ya da yaxşı təmizik eləmirəm. Ya da ki, stolun üstündə poçtu tərpətdim. Adətən, deyinməyinə baxmırdım, amma hərdən bir az yaxşılaşanda məni iş görməyə qoymurdu, hətta deyirdi ki, içəri girsəm, polis çağıracaq. Sadəcə, bilmirdim ki...

O susdu. Demək istədiyini mən tamamladım:

– Bilmirdiz ki, neyləyəsiz.

O günahkar-günahkar mənə baxırdı.

– Eybi yoxdur, – dedim. – Siz olmasaydınız, bilmirəm, onun işi necə olardı...

O, başı ilə təsdiq etdi, ətrafa göz gəzdirdi, yaratdığım səliqə-sahmana baxdı.

– Yaxşı ki, qayıtmısız, çünki istəyirdim ki, onun haqqında sizinlə danışım, – o, paltarına yapışmış tükü götürdü. – Mən bir yaxşı yer tanıyıram, orada ona yaxşı baxacaqlar. Çox yaxşı xidmət edirlər orda. Adətən, yer olmur, amma direktor mənim tanışımdır, həm də o, atanızın

müalicə həkimini də yaxşı tanıyır. Başa düşürəm, bunu eşitmək sizin üçün ağırdır, amma yaxşı olardı ki, atanızı ora qoyasınız. Elə bilirəm ki...

O, fikrini tamamlamadı, mən görürdüm ki, bu qadın, doğrudan da, atamın yaxşılığını istəyir. Ağzımı açıb danışmaq istəyirdim, amma heç nə demədim. Onun təklif etdiyi çox da asan məsələ deyildi. Ev yeganə yer idi ki, atam öyrəşmişdi, yalnız burada özünü rahat hiss edirdi, yalnız burada özünün lazım bildiyi səliqə-sahmanı qurmuşdu. Əgər bir neçə gün xəstəxanada yatmaq onu belə dəhşətə gətirirdisə, təzə yerə getmək zərurəti onu öldürəcəkdi. Amma məsələ onda deyildi ki, o harada öləcək, məsələ onda idi ki, o necə öləcək – tək-tənha, boş evdə, sidik və nəcis içində, arıqlayıb üzülmüş halda, yoxsa onu yedirdən, yuyan, lap adət etmədiyi bir şəraitdə əlindən tutan insanlar arasında?

Özümü ələ ala bilmirdim, səsim əsə-əsə soruşdum:

– O yer haradadır?

Sonrakı iki həftə atama qulluq etməklə keçdi. Onu yaxşı yedirtməyə çalışırdım, oyaq olanda "Numizmatın bülleteni"ni oxuyurdum ona, gecə də çarpayısının yanında, döşəmədə yatırdım. Hər gecə yatağını batırırdı, axırda utanmasına baxmayaraq, pampers də aldım ona. Amma çox vaxt yatırdı.

Atam divanda istirahət edərkən mən bir neçə pansionata baş çəkdim. Maşınla ikisaatlıq yol idi. Qonşu qadının dediyi pansionat doğrudan da çox təmiz, səliqəli idi. Peşəkar tibb işçiləri vardı. Üstəgəl, atamın vəziyyəti ilə direktor şəxsən

özü maraqlandı. Qonşu qadın demişdi, yoxsa atamın müalicə həkimi – axıra qədər öyrənə bilmədim.

Qiymət məni maraqlandırmırdı. Pansionatda müalicə olunmaq baha idi, amma atamın pensiyası, sosial və tibbi sığortası, üstəgəl, fərdi pensiyası vardı (Ola bilsin, atam haçansa özü də mahiyyətini bilmədən, sığorta polisinə yazılmışdı və uzun illər filan qədər pulu niyə ödədiyini bilmirdi.). Məni də inandırdılar ki, onlara sadəcə "təşəkkür" bəs edər. Gur şabalıdı saçları olan, təxminən qırxyaşlı direktor (deyim ki, nəzakətli davranışı ilə o mənə Tim Ueddonu xatırlatdı) vəziyyətlə tanış oldu, amma dedi ki, tələsməyim, özüm qərar qəbul edim. Sonra doldurmaq üçün mənə müxtəlif kağızlar, bukletlər verdi, atama da can sağlığı arzuladı.

Gecə atamla söhbət etdim, dedim ki, pansionata getmək lazımdır, mən də onunla gedəcəyəm. Başqa yol yox idi: bir neçə gündən sonra mən Almaniyaya qayıtmalı idim, istəsəm də, qala bilməzdim.

O dinmədi. Mən narahatlığımı dedim, səbəbləri izah etdim ki, məni başa düşsün. Yenə heç nə soruşmadı, eləcə dəhşət saçan baxışları ilə quruyub qaldı, sanki bu saat ona ölüm hökmü oxumuşdular.

Sözümü güclə bitirdim, hiss etdim ki, tək qalmaq istəyirəm. Atamın dizini sığallayıb ayağa durdum, mətbəxə keçib stəkanı su ilə doldurdum, başıma çəkdim. Qayıdanda quruyub qaldım, gördüm ki, atam divanda büzüşüb, əlləri ilə üzünü örtüb. Çiyinləri titrəyirdi. İlk dəfə idi ki, atamı ağlayan görürdüm.

Səhər atamın pal-paltarını yığmağa başladım, şkafdan, komoddan şeylərini eşələyib tapdım. Corab siyirməsindən corablarını, paltar dolabından köynəklərini götürdüm. Stolunun gözlüklərində nələr vardı – hamısının yarlığı səliqə ilə yazılıb siyirmənin üstünə vurulmuşdu. Təəccüblü deyildi, yalnız atam belə eləyə bilərdi. Yer üzünün sakinlərindən fərqli olaraq, atamın heç bir sirri yox idi – nə bir gizlini, nə qəlp, ya da ayıb bir işi, nə gündəliyi, nə yadigar şeylər saxlanan mücrüsü. Onun özəl həyatına, daxili dünyasına aid, sonralar onu başa düşməyə kömək edəcək heç nə tapmadım. Onda başa düşdüm ki, atam elə göründüyü kimidir, həmişə də özünə sadiq qalıb. Bunu başa düşəndə fəxr elədim onunla.

Mən şeyləri yığışdıranda atam divanda uzanmışdı, yatmırdı. Bir neçə gün müntəzəm yedizdiriləndən sonra bir az qüvvəsi qayıtmış, gözlərinə işıq gəlmişdi. Gördüm ki, stolun ayağına kiçik bir bel söykənib. Atam titrəyən əli ilə bir kağız vərəqini mənə uzatdı. Vərəqdə əyri-üyrü cızıqlarla xəritəyə oxşar bir şey çəkilmiş, üstündə "Arxa həyət" sözləri yazılmışdı.

– Bu nə üçündür? – soruşdum.

– Sənin üçündür, – atam dedi və beli göstərdi.

Beli götürüb həyətə çıxdım, xəritədə göstərilmiş yerə, evin arxasındakı palıd ağacının yanına gəldim. Bir neçə addım sayandan sonra qazmağa başladım. Bir azdan bel elə bil metala dəydi. Üstünü açdım, yan-yana basdırılmış kiçik metal qutular. Cəmi on altı qutu. Ağır metal qutular. Artırmada oturub alnımın tərini sildim, qutulardan birini açdım.

Hələ yeri qazanda ürəyimə dammışdı ki, nə tapacağam. Qutunu açan kimi cənub günəşinin işığında yanan qızıl sikkələrin parıltısından gözlərim qamaşdı. Qutunun dibində 1926-cı ilin beşsentlik, üstündə öküz başı təsvir olunmuş qızıl sikkəsini gördüm. Biz onu atamla bir yerdə axtarıb tapmışdıq. Ən çox xoşuma gələn də bu sikkə idi.

Ertəsi gün məzuniyyətimin son günü idi, mən evdə bəzi işlər görməli idim. Elektrik cihazlarını söndürdüm, poçtda hələlik evdə heç kimin olmayacağını dedim ki, məktub-zad olanda mənim ünvanıma göndərsinlər, qazonu suvarmağa adam tapdım. Bankda bir seyf açdırdım, bütün qutuları ora qoydum. Günün çoxu bunlara getdi. Sonra axırıncı əriştəli sup bankasını açıb qızdırdım, tərəvəzlə nahar elədik. Sonra da atamı pansionata apardım. Orada atamın pal-paltarını açıb yerbəyer elədim, otağı mən bilən qədər onun zövqünə görə düzəltdim, ona lazım ola biləcək əşyaları saxladım, stolunun altında "Numizmatın bülleteni" jurnalının köhnə nömrələrini yığdım. Amma bu mənə az göründü. Vəziyyəti pansionatın direktoruna izah eləyəndən sonra bir də evə qayıtdım, atam üçün vacib ola biləcək əşyaları, evində hər gün görməyə adət etdiyi şeylərdən mümkün qədər çox yığıb gətirdim.

Nə qədər dilə tutdum, inandırdımsa da, atam yenə qorxudan özünə gələ bilmirdi, quruyub qalmışdı. Dəhşətlə baxan nigaran, səksəkəli gözləri ürəyimi parçalayırdı. Bir neçə dəfə başımdan belə bir fikri qovdum ki, guya mən atamı öldürməyə gətirmişəm bura. Çarpayıda, yanında oturdum. Bir neçə saatdan sonra aeroporta getməli idim.

– Ata, hər şey yaxşı olacaq, – təkrar-təkrar deyirdim. – Burada sənə yaxşı baxacaqlar.

Əlləri əvvəlki kimi əsirdi.

– Yaxşı, – səsi güclə eşidildi. Gözlərim yaşla doldu.

– Ata, sənə bir-iki söz demək istəyirəm, – dedim. Dərindən köksümü ötürüb fikrimi topladım. – Demək istəyirəm ki, sən dünyada ən yaxşı atasan. Sən ən yaxşı ata olmalıydın ki, mənim kimi bir səfehlə bir yerdə yaşayasan.

Atam cavab vermədi. Sakitcə oturmuşduq, hiss edirdim ki, nə vaxtdan ürəyimdə yığılıb qalmış sözlərim, gecikmiş, içimi göynədən minnətdarlıq, təşəkkür sözlərim boğazımı yırtıb çıxmaq istəyir.

– Doğru deyirəm, ata. Məni bağışla ki, özümü bu qədər axmaq aparmışam, sənə az diqqət vermişəm, yanında az olmuşam. Tanıdığım, bildiyim adamlar arasında sən ən yaxşısısan. Sən yeganə adamsan ki, mənə heç vaxt hirslənmədin, hərəkətlərimə görə məni danlamadın, sən həyat haqqında mənə çox şeylər öyrətdin, hər oğulun soruşub öyrənmək istədiyindən daha çox şey. İndi mən heç cür burda, yanında qala bilmərəm. Qala bilmirəm və özümə nifrət edirəm. Amma mən sənin üçün qorxuram. Bilmirəm, daha nə eləyim.

Elə bil kənardan öz səsimi eşitdim – o necə xırıltılı və yöndəmsiz gəlirdi qulaqlarıma. Bu saat heç nə istəmirdim, bir şeydən başqa – qoy atam məni qucaqlasın. Qollarını boynumda hiss edim onun.

– Yaxşı, – nəhayət, o dilləndi. Mən istər-istəməz gülümsündüm.

– Ata, mən səni çox sevirəm.

Buna necə cavab verməyi atam bilirdi, bu onun adət etdiyi davranış tərzi idi.

– Mən də səni çox sevirəm, Con.

Mən onu bərk-bərk qucaqladım. Sonra durub "Bülleten"in təzə nömrəsini ona gətirdim. Qapıya çatanda ayaq saxlayıb, dönüb baxdım.

Pansionata gəldiyimiz vaxtdan bəri ilk dəfə atam xeyli sakit görünürdü. Gözlərindəki qorxu hissi çəkilib getmişdi. O, jurnalı gözlərinə yaxınlaşdırdı, oxumağa başlayan dodaqları tərpənirdi. Bir xeyli ona baxdım, bunca əziz, doğma insanı yaddaşıma köçürmək istəyirdim.

Heç demə atamı sağlığında axırıncı dəfə görürmüşəm.

## On yeddinci fəsil

Yeddi həftədən sonra atam vəfat etdi. Mənə təcili məzuniyyət verdilər ki, dəfnə gedim.

ABŞ-a nə vaxt, necə uçduğum xəyal kimi gəlir mənə. Yalnız onu eləyə bilirdim ki, gözümü illüminatora dikib min kilometrlərlə məndən aşağı uzanıb gedən bomboz, intəhasız okeana baxırdım. Son nəfəsində atamın yanında ola bilməməyim içimi yandırırdı. Bu kədərli xəbəri eşidəndən sonra üzümü qırxmadım, duş qəbul eləmədim, heç paltarımı da dəyişmədim, elə bil bu adi, gündəlik həyat tərzimə davam etməyim o deməkdi ki, atamın yoxluğu ilə barışıram.

Aeroportda, evə gələndə yolboyu ətrafda adi həyat səhnələrini gördükcə küt bir nifrət baş qaldırırdı içimdə. Adəti üzrə harasa iş-güc dalınca tələsən, dükanlara girib-çıxan adamlarla müqayisədə mənim vəziyyətim fəna idi.

Evə çatanda yadıma düşdü ki, iki ay olar, işıqları söndürmüşəm. Sakit küçədə işıqları yanmayan ev qəribə, hüznlü bir görkəmdə idi. Lap atam kimi; lap özüm kimi, deyə düşündüm. Elə bu düşüncələrlə həyət qapısına yaxınlaşdım.

Ev qapısının çərçivəsinə vəkil Vilyam Bencamin adlı şəxsin vizit kartı taxılmışdı. Kartın arxasında yazılmışdı ki, o, atamı təmsil edir. Telefon işləmirdi, qonşudan zəng vurdum. Həmin vəkil əlində portfel səhər tezdən qapımızda görünəndə xeyli təəccübləndim.

Mən onu alaqaranlıq evə dəvət etdim. Vəkil divanda oturdu. Əynindəki kostyumun qiyməti mənim ikiaylıq maaşımdan çox olardı. Özünü təqdim etdi, başsağlığı sözlərindən sonra dedi:

– Mənim atanıza böyük hörmətim vardı. Mister Tayri mənim çoxdankı müştərilərimdən idi, ona görə də bütün xidmətlər pulsuz olacaq. Atanız sən doğulandan dərhal sonra yanıma gəlmişdi ki, vəsiyyətnamə yazdırsın. Hər il də eyni vaxtda ondan poçtla notariusun təsdiq etdiyi məktub alırdım. Məktubda aldığı sikkələr haqqında məlumat verirdi. Mən ona miras vergisi haqqında danışmışdım, o da sənin uşaqlığından hər il adına sikkələr hədiyyə edirdi.

Təəccüb içində idim, danışmağa söz tapmırdım.

– Altı həftə əvvəl o mənə məktub yazıb xəbər verdi ki, sikkələr artıq sizin adınıza keçir. Onu da arzuladı ki, qoy hər şey qaydasında olsun. Mən onun vəsiyyətnaməsini axırıncı dəfə təzələdim. O, ünvanını deyəndə başa düşdüm ki, səhhəti yaxşı deyil, ona görə də pansionata zəng vurdum. Atanız az danışırdı, sonra mən pansionatın direktoru ilə

danışdım. Direktor mənə söz verdi ki, atanızın başına bir iş gəlsə, mənə xəbər versin, mən də sizinlə görüşüm. Ona görə də gəldim. – Portfelini qurdaladı. – Bilirəm ki, siz indi dəfnə hazırlıq görəcəksiz, amma atanız deyirdi ki, sizin vaxtınız az ola bilər, ona görə də işləri tez qaydasına salmaq lazımdır. Hər halda, atanız belə deyirdi. Hə, deyirəm axı, budur, burdadır, – deyib o, portfelindən kağız-kuğuzla dolu bir zərf çıxartdı. – Burada vəsiyyətnamə, sikkələrin siyahısı, onların vəziyyəti və alındığı tarix, dəfnlə bağlı əvvəlcədən haqqı ödənilmiş xidmətlər göstərilib. Ona söz verdim ki, vəsiyyətnamənin rəsmi təsdiqinə nəzarət edəcəyəm, amma bu, problem deyil, miras elə də böyük deyil, siz də ki, tək uşaqsız. İstəsəniz, bir adam taparam, lazımsız saydığınız şeyləri evdən çıxarar, evi satmaq istəsəniz, satdıraram. Atanız qorxurdu ki, məzuniyyətiniz bu işlərə çatmaz, – o, portfelini bağladı. – Dediyim kimi, atanız çox xoşuma gəlirdi. Adətən, adamları belə kağız-kuğuz işlərinə inandırmaq lazım gəlir, amma atanız bunları yaxşı başa düşürdü. O, səliqəli adam idi, hər şeyin yolunu bilirdi.

– Hə, – mən başımla təsdiq etdim. – Elə idi.

Vəkilin dediyi kimi, atam hər şeyi yerbəyer eləmişdi. Dəfn üçün lazım olan xidmətləri, kostyumu, hətta tabutu da özü seçmişdi. Mən atamı tanıyırdım, bunu ondan gözləməli idim, amma belə hazırlıq etməsi onu göstərirdi ki, mən öz atamı axıra qədər yaxşı tanımamışam.

Avqust ayının isti, yağışlı bir günündə keçən dəfn mərasiminə az adam gəlmişdi: pansionatın iki işçisi, direktor, vəkil və atama kömək etmiş qonşu qadın. Bir də,

əlbəttə, mən. Ürəyim parçalanırdı – demək, yer üzündə yalnız bu adamlar atamın əsl qiymətini bilirdi. Moizə qurtarandan sonra keşiş soruşdu ki, danışmaq istəyirəmmi. Amma boğazım qəhərdən tutulmuşdu, boğazımın dərisi nağara kimi dartılıb gərilmişdi, ona görə də başımı bulayıb "yox" dedim.

Evə qayıdandan sonra ürəksiz-ürəksiz atamın çarpayısının kənarında oturdum. Yağış kəsmişdi, bozumtul gün işığı pəncərədən içəri düşmüşdü. Evdən toz iyi, kif iyi gəlirdi, atamın yastığı onun qoxusunu saxlayırdı. Bir yanda vəkilin gətirdiyi zərf qoyulmuşdu. Zərfin içindəkiləri çarpayının üstünə boşaltdım. Vəsiyyətnamə, digər sənədlər lap üstdə idi, atamla mənim bir yerdə çəkilmiş, yeganə şəklimiz çərçivədə, aşağıda qoyulmuşdu. Atam onu bir neçə il əvvəl stolun üstündən götürmüşdü.

Şəkli üzümə yaxınlaşdırıb baxdım, baxdım, gözlərim doldu.

Həmin gün "əski zamanlar tanışım" Lusi gəldi. Onu qapıda görəndə deməyə söz tapmadım. Mənim xuliqan çağlarımın o qız dostu harda itib-batmışdı, görəsən? İndi qarşımda gündə yanıb qaralmış, bahalı qara paltarda, ipək koftada bir qadın dayanmışdı.

– Başın sağ olsun, Con, – yavaşdan deyən Lusi yaxınlaşdı. Biz qucaqlaşdıq, beləcə dayandıq bir az. Onun bədənindən aldığım hiss yay günü içilən bir stəkan sərin su kimi gəldi mənə. Tanımadığım ətirlərin zəif iyi gəlirdi ondan. Nədənsə, heç vaxt olmadığım Paris yadıma düşdü.

– Nekroloqu oxudum, – məndən aralanan Lusi dedi. – Bağışla ki, dəfnə çata bilmədim.

– Eybi yoxdur, – dedim. Divana işarə etdim: – Keç otur.

O, yanımda oturdu. Gördüm ki, barmağında nişan üzüyü yoxdur. Baxdığımı sezib qeyri-ixtiyari əllərini gizlətməyə çalışdı.

– Nikahımız uğursuz oldu, – dedi. – Keçən il ayrıldıq.

– Təəssüf edirəm.

– Mən də, – dedi, sonra əlimi tutdu. – İşlərin yaxşıdır?

– Hə, – yalandan dedim, – yaxşıdır.

Biz ötən günlərdən danışdıq. Deyəndə ki, məhz onun axırıncı telefon zəngindən sonra orduya yazıldım, Lusi inanmadı. Dedim ki, o vaxt mənə lazım olan məhz bu idi – ordu intizamı. Lusi öz işlərindən danışdı – o, mağazaların və pərakəndə mal satışı sahələrinin dizaynı ilə məşğul olurdu. Sonra məndən İraq haqqında soruşdu. Mən ona qumdan danışdım. Lusi qəhqəhə çəkdi, daha bu barədə heç nə soruşmadı. Bir azdan elə bil sözümüz qurtardı, söhbətimiz dalana dirəndi – doğrusu, ikimiz də onun fərqindəydik ki, biz çox dəyişmişik. Bir vaxt yaxın olduğumuzdan mənə elə gəlirdi, ya da Lusinin qadın marağından idi, hiss edirdim ki, o məni diqqətlə nəzərdən keçirir və ürəyimə damdı ki, indi o nə haqda soruşacaq.

– Sən kimisə sevirsən? – Lusi pıçıltı ilə soruşdu.

Əlimi dizlərimin arasında sıxıb üzümü pəncərəyə çevirdim. Bayırda hava yaman tutulmuşdu, buludlar şişirdi. Demək, yağış yağacaqdı.

– Hə, – dedim.

– Adı nədir?

– Savanna.

– Buralardadır?

Tərəddüd etdim.

– Yox, – dedim.

– Danışmaq istəmirsən bu barədə?

İstəmirdim, əlbəttə, bu barədə danışmaq istəmirdim. Nə olsun ki, orduda olan birini gözləməyiblər? Bu ki adi şeydir. Hamı da bu barədə soruşur, amma heç kim eşitmək istəmir.

Amma Lusiyə bütün əhvalatı əvvəldən axıra danışdım. Lusi bir neçə dəfə əlimi tutub dost kimi, lütfkarcasına sıxdı. Mən bütün bunları ürəyimdə gəzdirməyin belə məşəqqətli olduğunu başa düşməmişdim. Elə ki, söhbətimi qurtardım, Lusi başa düşdü ki, bir az tək qalmağım yaxşıdı. O, üzümdən öpüb getdi, mənsə bir neçə saat otaqdan-otağa keçərək atam haqqında, Savanna haqda düşüncələrlə tək qaldım. Özümü burada yad kimi hiss edirdim, fikirlər içində tədricən başa düşdüm ki, gedənə qədər kimə isə dəyməliyəm.

## On səkkizinci fəsil

Həmin gecə atamın yerində yatdım – həyatımda ilk dəfə. Tufanla gələn yağış kəsmişdi, hava çox bürkülü və isti idi. Pəncərələri açsan da fərq eləmirdi – bütün gecəni yerimdə o üz-bu üzə çevrildim. Səhər birtəhər çarpayıdan qalxıb mətbəxə keçdim, atamın maşınının açarları qarmaqdan asılmışdı. Çantamı arxa oturacağa atdım, evdən də saxlamaq istədiyim bəzi şeylər götürdüm – şəkil, bir neçə xırda-mırda şey. Vəkilə zəng etdim, demişdi ki, evi

boşaltmağa adam tapacaq, onu satmaqla məşğul olacaq. Həyət qapısının açarını poçt qutusuna atdım.

Qarajda maşını işə saldım – yalnız iki-üç dəfədən sonra motor işə düşdü. Maşını arxaya verib qarajdan çıxdım. Düşüb qarajın qapısını bağladım. Bir az həyətdə dayandım, evə baxdım, atam haqda düşündüm. Bilirdim ki, daha buraya qayıtmayacağam.

Pansionata gedib atamın şeylərini götürdüm, Uilminqtondan çıxıb qərb istiqamətinə yol aldım. Lap avtopilot kimi gedirdim. Bu yolla bir neçə il qabaq keçib getmişdim, yol təxminən yadımda qalmışdı, amma xatırladıqca hər şey yadıma düşürdü. Gəncliyimin şəhərini ötüb keçdim, Rolini arxada qoyub Çapel Hillə çatdım. Burada xatirələrim dil açdı, yaddaşım göynədi, ayağımı pedala qeyzlə basdım ki, bu yerdən tez keçib gedim.

Berlinqtondan, Qrinsborodan, Uinston Seylemdən keçib getdim, yolda yalnız bir dəfə dayandım ki, maşına benzin vurum, özümə də su alım. Sürətlə sürürdüm, hərdən su içirdim, yemək heç yadıma düşmürdü. Atamla bir yerdə olan şəklimiz yanımda, oturacağın üstündə idi, hərdən ona baxıb şəkildəki o oğlanı xatırlamağa çalışırdım. Sonra şimala tərəf döndüm, şimaldan cənuba doğru uzanıb gedən, mavi zirvələrin ətəyilə dolana-dolana yuxarı qalxan dar, dolanbac yolla sürdüm. Yolboyu yerin daş köksündə azca qabaran təpəliklər uzanıb gedirdi.

Maşını yolun kənarındakı yöndəmsiz bir motelin yanında saxladım. Axşam düşürdü. Bədənim oturmaqdan bir az keyimişdi, düşüb əl-qolumu açdım, boyun-boğazımı, ayaqlarımı oynatdım ki, keyi açılsın. Sonra tutduğum motel

nömrəsində duş qəbul etdim, üzümü qırxdım. Təmiz cins şalvar, boğazlı mayka geydim. İndi yemək lazım idi, amma aclıq hiss etmirdim. Günəş qüruba enirdi, amma okean sahilinə xas olan rütubətli bürkü hiss olunmurdu. Uzaq dağ ətəklərini örtən yaşıl iynəyarpaq ağacların qoxusu okean sahilinə gəlib çatırdı. Savanna burada anadan olmuşdu. Nədənsə inanırdım ki, o hələ də burada – Lenuardadır.

Atası evinə gedib onun harada olduğunu soruşmaq olardı, amma bu fikirdən vaz keçdim. Ata-anası necə qarşılayardı bunu, bilmirdim. Ona görə də maşına minib Lenuarın müxtəlif kafe-dükanları olan küçələrini dolaşmağa başladım, şəhərin izdihamlı hissəsindən keçib nisbətən sakit tərəflərə gəldim. Şəhərin bu hissəsi dəyişməmişdi – gələn turist və qonaqları burada həmişə mehriban qarşılayır, amma doğma hesab etmirdilər. Nisbətən köhnə bir bilyard zalının yanında maşını saxladım – bura gəncliyimdə tez-tez getdiyim əyləncə yerlərini xatırladırdı. Vitrinlərdə pivə reklamları olan neon lampaları yanırdı, dayanacaqda maşın əlindən yer yox idi.

Bax, belə bir yerdə öz suallarıma cavab tapa bilərdim.

İçəri girdim. Musiqi avtomatından Henk Vilyamsın mahnısı guruldayır, havada siqaret tüstüsü ucalırdı. Dörd bilyard stolunu birləşdirmişdilər. Oyunçular beysbol papaqları geymişdi, ikisi də kənarda, görünür, nəsə çeynəyirdilər – yanaqları qızarmışdı. Bir divarda balıqçılıq idmanına aid şeylərin, "Naskar" suvenirlərinin rəsmi asılmışdı. O biri divarlarda Talladiqdə, Martinsvildə, Şimali Uilksboro və Rokinhemdə çəkilmiş şəkillər vardı. İdman haqqında mənim fikrim dəyişməsə də, bura qəribə şəkildə

mənə doğma gəlirdi, ona görə də özümdə bir yüngüllük hiss etdim. Barın bir küncündə mərhum Deyl Ernhardtın gülümsəyən şəkli altında ianə yığmaq üçün banka qoyulmuşdu, – yazılana görə, yerlilərdən biri xərçəng xəstəliyinə tutulmuşdu, ona yardım ediləcəkdi. Bankaya bir neçə dollar atdım.

Piştaxtanın yanında bir stulda oturub barmenlə söhbətə başladım. Onunla yaşıd olardıq, sonra gördüm ki, ləhcəsi mənə Savannanın danışığını xatırladır. İyirmi dəqiqəyə qədər söhbət etdik, sonra Savannanın şəklini cibimdən çıxarıb göstərdim, dedim ki, onların ailəsinin dostuyam. Ata-anasının adını dedim, bəzi yerlərin adını çəkdim, inansın ki, əvvəllər də burada olmuşam.

Barmen haqlı olaraq bir az ehtiyatlandı. Kiçik şəhərdir, yəqin hamı bir-birini müdafiə edir. Amma barmen dəniz piyadasında iki il xidmət etmişdi, bu, mənə kömək etdi. Bir azdan o, başını tərpətdi.

– Hə, tanıyıram o qızı, – dedi. – O, Old Mill Roud tərəfdə, ata-anası ilə yaşayır.

Axşam saat səkkizi keçmişdi. Hava qaralır, şəhərə axşam qaranlığı çökürdü. Bir neçə dəqiqədən sonra pulumu artıqlaması ilə ödəyib bardan çıxdım.

Beynim qəribə şəkildə bomboş idi, təxminən yadıma düşürdü ki, ranço hansı tərəfdədir, keçən dəfədən nəsə dumanlı şəkildə yadımda qalmışdı. Yol üzüyuxarı qalxırdı, ətrafı bir az tanıdım. Aha, bir neçə dəqiqədən sonra onların evi görünəcək. Evi keçən kimi sükanın üstündən dikəlib çəpərin arasından həyətə boylandım. Sonra uzunsov, çınqıl yola buruldum. Dönəndə çəpərin yanında əllə düzəldilmiş

bir lövhə gözümə dəydi. Üstündə "Ümid və atlar" yazılmışdı.

Çınqıl yolda təkərlərin səsi nəsə bir rahatlıq gətirirdi adama. Maşını hündür söyüd ağacının altında, köhnə, kiçik yük maşınının yanında saxladım. Evə tərəf baxdım. Dik damı, ağ suvaqlı, sanki göyə sancılmış bacası ilə bu dördkünc ev əski zamanların kabusuna oxşayırdı, yəqin, yüz yaşı vardı. Köhnə həyət qapısının üstündə bircə lampa yanırdı, lampanın yanında Amerika bayrağı, onun da yanında gül dibçəyi asılmışdı. Meh vurduqca bayraq yavaşca tərpənir, dibçəkdəki gülün yarpaqları titrəyirdi. Evin yan tərəfində balaca pəyə və köhnə anbar görünürdü, onlardan o yana, xeyli uzaqda nəhəng palıd ağaclarının bitdiyi yerə kimi uzanan ağ çəpərlər içində yamyaşıl otlaq sahəsi uzanırdı. Anbarın yanında qaralan talvarın kölgəsində müxtəlif bağ ləvazimatı asılmışdı. Bir də özümdən soruşdum ki, mən buraya niyə gəlmişəm.

Hələ gec deyildi, çıxıb getmək olardı, amma maşını döndərib getməyə özümü məcbur edə bilmədim. Günəş üfüqə əyildikcə hər yeri çəhrayı rəngə boyayır, arxasınca dağlara yavaş-yavaş qaranlıq çökürdü. Maşından çıxıb yumşaq otları ayaqlaya-ayaqlaya evə yaxınlaşdım. Şehli otlar ayaqqabımı dərhal islatdı. Uzaq dağlardan əsən meh yenə iynəyarpaq ağacların iyini vurub gətirdi. Cırcıramalar yenə səs-səsə vermişdi, haradansa bülbülün səsi gəlirdi. Axşamın bu sirli səsləri, bu qəribə qoxu sanki mənə güc verdi – artırmaya qalxdım. Beynimdə bir sual dolaşırdı: qapını Savanna özü açsa nə deyim? Ya da əri olsa, nə

deyəcəyəm? Nə edəcəyimi qərara almamış gördüm ki, yanımda bir ov iti quyruğunu bulayır.

Əlimi uzatdım, it dili ilə əlimi yaladı. Sonra bir də, bir də... Sonra çevrilib pillələrdən düşdü, həyətə qaçdı, sonra da quyruğunu bulaya-bulaya evin arxasına tərəf götürüldü. Məni Lenuara gətirmiş eyni hissin təsiri ilə artırmadan həyətə enib itin dalınca getdim. İt yerə oturub çəpərin lap aşağı taxtasının altından sürünüb o üzə – anbara tərəfə keçdi.

İt açıq qapıda gözdən itən kimi gördüm ki, Savanna qoltuğunda iri, dördkünc ot bağlaması anbardan çıxdı. Savanna otu yem təknəsinə atar-atmaz atlar otlaqdan ona tərəf tələsdilər. Mən ona tərəf gedirdim. O, üstünü çırpıb yenidən anbara getmək üçün çevriləndə təsadüfən mən tərəfə baxdı. Bir addım atdı, sonra yenə baxdı, bir addım da atdı və donub qaldı.

Bir neçə dəqiqə heç birimiz tərpənmədik. Baxışlarımız görüşəndə ağlıma gəldi ki, gərək gəlməyəydim, bu sayaq xəbər vermədən gəlmək lazım deyildi. Bilirdim ki, nəsə deməliyəm, amma nə, – ağlıma bir şey gəlmirdi. Yerimdə quruyub ona baxa-baxa qalmışdım.

Xatirələr seli açıldı, hamısı da birdən. Gördüm ki, o, son görüşümüzdən bəri çox az dəyişib. Elə mənim kimi o da cins şalvar, boğazlı mayka geymişdi. Üst-başı toza bulaşmışdı, ayağında da nimdaş kovboy çəkmələri vardı. Bu görkəmdə o daha sevimli idi. Saçları xeyli uzanmışdı, çox sevdiyim, aralı bitmiş qabaq dişləri həmişəki kimiydi.

– Savanna? – handan-hana dilləndim.

Nə qədər ki, mən danışmamışdım, Savanna sanki ovsunlanmış, dili tutulmuşdu, səsimi eşidəndə yəqin ki,

içindəki qarışıq hisslərdən sifətinə intəhasız bir təbəssüm yayıldı.

– Con? – o bərkdən çığırdı.

– Səni yenidən görməyimə çox şadam, – dedim.

O, başını buladı, sanki gözlərinə inanmırdı, sonra bir də mənə baxdı. Nəhayət, biləndə ki, mən xəyal deyiləm, o üzdən pəyənin qapısına tərəf götürüldü, içəridən çıxıb mənə tərəf yüyürdü. Bir an sonra qolları boynuma sarıldı. Sevinci gözlərindən daşan Savanna bütün vücudu ilə mənə qısıldı. Bir anlığa elə bil aramızda heç nə dəyişməmişdi. Mən onu qucağımdan buraxmaq istəmirdim, amma o geri çəkiləndə istək və xəyalım darmadağın oldu, biz yenə yad olduq, yadlaşdıq. Savannanın üzündə bütün yolboyu öz-özümə verdiyim sualın ifadəsi gəzirdi.

– Sən burada neyləyirsən?

Mən kənara boylandım.

– Bilmirəm, – dedim. – Sadəcə gəlmək istəyirdim.

Savanna əlavə heç nə soruşmasa da, içindəki tərəddüdləri hiss edir, görürdüm. Yəqin, bilmirdi, soruşsun, ya yox. Bir addım geri çəkilib ondan aralandım. Alaqaranlıqda atların tutqun qaraltısı seçilirdi. Hiss edirdim ki, bir az qabaq duyduğum sevinc hissləri son günlərin gerçək üzüntüləri ilə əvəz olunur.

– Atam vəfat etdi, – pıçıldadım, bu sözlər sanki havadan dilimə gəldi. – Dəfndən çıxıb bura gəlmişəm.

Savanna susurdu, amma üzünün ifadəsi istər-istəməz dəyişdi, bir vaxt məni valeh etmiş şəfqət və lütfkarlıqla əvəz olundu.

– Ah, Con... Təəssüf edirəm, başın sağ olsun, – Savanna mızıldadı. Yenidən mənə yaxınlaşdı. Bu dəfə tələsmədən məni qucaqladı. Aralananda isə sifəti tutulmuşdu. – Necə oldu bu? – əlini əlimdən çəkmədən soruşdu.

Səsi təlaş və kədərlə dolu idi. Mən dinmədim, son iki ildə çəkdiklərimi bir cümlə ilə deyə bilməzdim.

– Uzun əhvalatdır, – dedim. Qapısı açıq anbardan düşən işıqda onun üzü haldan-hala düşürdü. İstər-istəməz xatirələri oyanmışdı. İndi necə olsun? Bəlkə illərin o üzündə qalmış həmin xatirələri basdırmaq istəyirdi? Əlimi buraxanda barmağındakı nişan üzüyünü gördüm. Bir an içində bu günə, bu saatın gerçəkliyinə qayıtdım. Elə bil başıma soyuq su əndərdilər.

Savanna üzümdəki ifadəni sezdi.

– Hə, mən ərə getmişəm, – dedi.

– Bağışla, – kədərlə pıçıldadım. – Gərək gəlməyəydim.

Təəccübümə rəğmən, o, əlini yellədi.

– Fikir vermə, hər şey yaxşıdır, – deyib başını aşağı saldı. – Məni necə tapdın?

– Balaca şəhərdir, – deyə çiyinlərimi çəkdim. – Birindən soruşdum.

– Elə belə bildilər, tanıdılar?

– Mən inadkaram bir az...

Sözüm elə bil yerinə düşmədi, ikimiz də bilmirdik ki, nə danışaq. Bir yandan istəyirdim ki, burada durub Savanna ilə danışım, olmuşdan-keçmişdən söhbət edib ürəyimi boşaldım, o biri yandan da deyirdim ki, indi evdən əri çıxacaq, ya gəlib mənə əl verib görüşəcək, ya da duelə

çağıracaq. Sakitlikdə atlardan biri fınxırdı. Savannanın çiyni üstündən dörd at görünürdü. Anbarın yarıqaranlıq işığında başlarını yem təknəsinə sallamışdılar. O biri atlar – Midas da onların arasında idi – Savannaya baxırdılar. Sanki demək istəyirdilər ki, niyə onları yaddan çıxarıblar. Savanna çiyni üstündən onlara işarə etdi:

– Onlara da yem gətirməliyəm, – dedi. – Odur ki, dözmürlər.

Başımı tərpətdim. Savanna bir neçə addım atıb çəpər qapısının yanında dayandı.

– Kömək etmək istəyirsən?

Tərəddüd etdim, evə tərəf boylandım. O, baxışlarımı gördü.

– Narahat olma, – Savanna dedi. – O, evdə yoxdur. Kömək isə, doğrudan da, yaxşı olardı.

Çox arxayın danışırdı. Mənsə bilmirdim, belə cavabı necə başa düşüm. Başımı tərpətdim.

– Əlbəttə, – dedim.

Savanna gözlədi ki, mən içəri keçim, sonra qapını bağladı, peyin qalağına işarə etdi:

– Ehtiyatı ol, gör ayağını hara qoyursan.

– Çalışaram, – güclə dedim.

Anbarda o bir qucaq ot götürüb mənim qucağıma qoydu.

– Apar o biri təknələrə qoy, mən də yulaf gətirim.

Dediyi kimi elədim, atlar o saat otu gəvələməyə başladılar. Savanna da əlində iki vedrə gəldi.

– Bir az aralı dur, birdən təpikləyərlər.

Geri çəkildim. Savanna vedrələri çəpərdən asdı. Atların bir neçəsi vedrələrə tərəf dartındı. Savanna iftixar hissilə onlara baxırdı.

– Gündə neçə dəfə yemləyirsən onları?

– İki dəfə. Yemləmək öz yerində. Hərdən heç sözə baxmırlar. Baytar həkiminin telefonunu rahat qoymuruq.

Gülümsündüm.

– Gör nə qədər işin var?!

– Heç demə... Deyirlər ki, at lövbər kimidir. Köməkçin olmasa, vəziyyətdən çıxa bilməzsən, hətta bazar günləri də.

– Ata-anan kömək edir heç olmasa?

– Hərdən. O da çox lazım olsa. Amma atam yaşlaşıb, həm də bir var bir ata baxasan, bir də var yeddisinə.

– İnanıram.

Gecənin hərarətli ağuşunda cırcıramaların oxumasına qulaq asa-asa bu əldən-ayaqdan uzaq, ucqar yerdə beynimdə az qala dördnala çapan fikirlərimi sahmana salmağa, ovutmağa çalışırdım.

– Elə belə də fikirləşirdim, sən belə bir yerdə yaşamaq istəyirdin, – nəhayət, dedim.

– Mən də, – Savanna dedi. – Amma burada yaşamaq çox çətindir, təsəvvür etdiyimdən də çətin. Həmişə nəyisə düzəltmək, təmir etmək lazımdır. Təsəvvür etməzsən, damda nə qədər yarıq-yırtıq var. Keçən qış çəpərin böyük bir hissəsi yıxılıb dağıldı, yazda onu yenidən düzəltdik.

Bu “düzəltdik” sözü məni düşünməyə vadar etdi, dedim, yəqin, “biz” deyəndə Savanna ərini nəzərdə tutur, amma mən bu barədə danışmağa hələ hazır deyildim. Görünür, elə Savanna da.

– Amma işin çoxluğuna baxmayaraq bura çox gözəldir. Gecələr artırmada oturub sakitcə ətraf aləmə qulaq asıram. Burada demək olar ki, maşın yoxdur, ətraf elə sakitdir ki... Adamın beyni-başı təmizlənir, xüsusən gündüzkü işdən sonra. Fikirlərinə bir aydınlıq gəlir, yaddaşın dincəlir.

Savanna danışdıqca dediyi sözləri ehtiyatla seçirdi. Nagah bir söz deyib mövzunu lazım olmayan məcraya döndərəcəyindən ehtiyat edirdi, əlbəttə.

– Ola bilər.

– Mən atların dırnaqlarını təmizləməliyəm, kömək edərsən? – Savanna dedi.

– Mən axı bacarmıram.

– Asan bir şeydi, – o, əlini yellədi. – Mən sənə göstərərəm. – Sonra yenə anbara girdi, bir azdan əlində bir neçə əyri mıxla qayıtdı. Mıxın birini mənə uzatdı. Atlar yem yeyirdi. Savanna yaxınlıqdakı ata tərəf getdi.

– Əsas odur ki, atın ayağını tutub dırnaqdan yuxarıya əyəsən, sonra, bax, belə qaldırasan, – deyib o, nə etmək lazım olduğunu göstərdi. Atın fikri yemdə idi, ona görə də sözə baxıb ayağını qaldırdı. Savanna atın dırnağını dizləri arasında tutub dedi: – İndi sadəcə dırnağın altındakı torpağı qazıb təmizləyirsən, vəssalam.

Mən o biri ata yaxınlaşıb onun dediyi kimi atın ayağını qaldırmaq istədim, amma alınmadı. At böyük idi, həm də elə bil tərs idi. Bir də, deyəsən, atın topuğundan yapışdım, yuxarı qaldırmaq istədim. At mənə məhəl qoymayaraq ot yeməyində idi.

– O, ayağını qaldırmır, – dedim.

Savanna birinci atın dırnağını təmizləyib qurtardı, sonra mənim atıma tərəf dönüb əyildi. Əl vuran kimi at ayağını qaldırdı, Savanna bir anda atın dırnağını dizləri arasına aldı.

– Qaldırır... sadəcə görür ki, sən nə etmək lazım olduğunu bilmirsən. Bir az cəsarətli ol. – O, atın ayağını buraxdı. Mən onun yerinə keçdim. Amma at yenə ayağını qaldırmadı.

– Bax, gör necə eləyirəm, – Savanna dedi.

– Baxdım da...

O, cəld eyni hərəkətləri təkrar etdi. At ayağını qaldırdı. Bir dəqiqədən sonra mən də düz onun kimi elədim, at yenə mənə məhəl qoymadı. Atların nə fikirləşdiyini deyə bilmərəm, amma mənə elə gəldi ki, bu at mənə gülür. Hirslənib yenidən atın ayağından yapışdım, bu dəfə nə sirdisə at ayağını qaldırdı. Guya ki, böyük nailiyyət idi – gördüm ki, özümdən razı qaldım. Mən buraya gələndən bəri Savanna ilk dəfə güldü.

– Bax, belə. İndi dırnağın ətrafındakı palçığı təmizlə, sonra o biri dırnağını qaldır.

Mən bir atın dırnaqlarını təmizləyib qurtarınca Savanna o biri altı atın da dırnaqlarını təmizlədi. Sonra o həyət qapısını açdı, atlar qaranlıq örüşdə gözdən itdilər. Daha nə olacaqdı, bilmirdim. Bu zaman Savanna talvarın altından iki bel götürüb gəldi.

– İndi atların yerini təmizləmək vaxtıdır, – deyib belin birini mənə verdi.

– Nəyi təmizləmək lazımdır?

– Peyini, – o dedi. – Yoxsa qalıb iylənəcək.

Beli əlindən aldım.

– Bunu hər gün eləyirsən? – soruşdum.

– Əsl həyat budur, – Savanna zarafatla dedi. Gedib haradansa əl arabası ilə qayıtdı.

Peyini təmizləməyə başlayanda Ayın gümüşü işığı ətraf ağacların təpəsində gəzirdi. Biz sakitcə işləyirdik, sükutu yalnız aramsız yerə dəyən belin səsi pozurdu. Peyini təmizləyəndən sonra əlimdəki belə söykənib Savannaya baxdım. Ay işığı altında, bu mal pəyəsinin, anbarın qaranlıq kölgəsində Savanna həyulə kimi cazibədar və gözəl görünürdü. O, bir şey demədi, amma onun da mənə baxdığını sezdim, sualedici baxışlarını oxudum.

– Niyə elə baxırsan? Nə olub? – soruşdum.

– Sən niyə gəlmisən, Con?

– Bunu bayaq soruşdun ki!

– Bilirəm, – o dedi. – Amma sən doğru cavab vermədin.

Sınayıcı nəzərlərlə ona baxdım. Düz deyirdi, bayaq elə belə cavab verdim. Bunu heç özümə də izah edə bilmirdim. Ayağımın birini götürüb, o birini qoydum.

– Bilmirdim, hara gedim.

– A-ha, – Savanna başını tərpətdi. Təəccüblənsəm də, belə anladım ki, deyəsən, hərəkətimi təqdir edir. Bir az cəsarətə gəldim.

– Düzünü deyirəm, – dedim. – Müəyyən mənada sən mənim ən yaxşı dostumsan.

İndi üzündə lütfkar bir ifadə vardı.

– Yaxşı, – Savanna dedi. Onun cavabı atamı yadıma saldı. Hiss etdim ki, onun da yaddaşı varaqlandı. Ətrafa baxdım, guya ki, buraları gözdən keçirirdim.

– Bu sənin arzuladığın həmin rançodur, hə? – soruşdum. – “Ümid və atlar”. Autist uşaqlar üçün.

Hər şeyi xatırlamağımdan mütəəssir olmuş kimi Savannanın rəngi açıldı, saçlarını arxaya sığalladı, bir qom dağılmış telini qulağının arxasına keçirdi.

– Hə, odur.

– Hər şey istədiyin kimi oldu?

O güldü. Əllərini havada oynatdı.

– Tamam yox, – dedi. – Amma ranço öz xərclərini ödəmir. Biz ikimiz də işləyirik, hər gün də başa düşürəm ki, kollecdə mən az şey öyrənmişəm.

– Yox? Niyə bəs?

Savanna başını buladı.

– Buraya gələn, ya da şəhərdə tibb mərkəzinə müraciət edən uşaqları bəzən axıra qədər başa düşmək olmur. – O susdu, elə bil lazım olan sözü axtarırdı, sonra yenə başını yelləyib: – Yəqin ki, mən uşaqların hamısını Alan kimi təsəvvür eləmişəm, – dedi. – Yadındadı Alan? – Üzümə baxdı. – Onun haqqında sənə demişdim.

Başımı tərpətdim. O davam etdi:

– Aydın oldu ki, Alan müstəsna haldır. O, rançoda böyüyüb və o biri uşaqlardan fərqli olaraq uşaqlıqdan atlara öyrəşib.

Savanna susdu, mən təbəssümlə onun üzünə baxdım.

– Sən axı onda elə bil başqa cür deyirdin. Deyirdin ki, Alan əvvəlcə bərk qorxurdu?

– Hə, amma hər halda bu onun üçün qeyri-adi deyildi. Məsələ də burasındadır. Buraya nə qədər uşaq gəlib, deyə bilərəm ki, onların heç də hamısı buraya öyrəşmədi, onlarla

nə qədər işləsək də, adaptasiyanı keçə bilmədilər. Bu onlar üçün həftəsonu gəzinti deyil ki. Bəzi uşaqlar bir il ərzində davamlı olaraq bura gəldilər. Uşaqların inkişafının qiymətləndirilməsi mərkəzində autist uşaqlara nə qədər vaxt sərf edirik. Rançonu da açdıq ki, xəstəliyin ağırlıq dərəcəsindən asılı olmayaraq bütün xəstələr bura gəlsin. Bizcə, bu daha vacib idi. Amma bəzi uşaqlar... bəzən sadəcə bilmirəm ki, belə uşaqların ürəyinə necə yol tapasan. Hərdən mənə elə gəlir ki, elə bil işimizdən heç nə alınmır, yerimizdə sayırıq.

Savanna fikrini toplamağa çalışırdı.

– Demirəm ki, vaxtımız hədər yerə sərf olunur, – o, sözünə davam etdi. – Bəzi uşaqlara rançodakı işimiz doğrudan da kömək elədi. Onlar bazar günləri müntəzəm olaraq buraya gəlirdilər... və görürdün ki, bu qönçə uşaqlar necə çiçək açırlar burda. Lap Alan kimi. Görürdün ki, onların fikri, düşüncəsi necə açılır, yeni ideyalar gəlir onların ağlına. At üstündə necə şəstlə oturur, necə iftixarla gülə bilirlər... İnanırdın ki, bu əziyyətlərə dəyər, yorulmaq olmaz. Əsas məqsədimiz budur, istəyirsən ki, buraya gələn hər bir uşaq bundan faydalansın, inkişaf etsin. Əvvəl elə bilirdim ki, buraya inamla və müntəzəm gəlsələr, onlara kömək etmək olar, amma sonra gördüm ki, belə deyil. Bəzi uşaqları heç atlara yaxın aparmaq olmur, hələ at minmək o yana qalsın.

– Sən axı başa düşürsən ki, bu sənin günahın deyil. Mən də at minməkdən bir ləzzət almadım, yadındadı?

Savanna balaca qızlar kimi pıqqıldadı.

– Hə, yadımdadı. İlk dəfə ata minəndə sən uşaqlardan çox qorxurdun.

– Yox, elə də qorxmadım, – etiraz etdim. – Bir də ki, sənin o Pepperin çox oynaqlayırdı.

– Yox a! – Savanna özündən çıxdı. – Heç bilirsən, niyə sənə o atı vermişdim? Çünki ən sakit, sözə baxan atdır. Belə sakit at yoxdur. Yəhər altında o, çox ehtiyatla yeriyir.

– Ola bilməz! O, çox oynaq, dəymə-düşər ata oxşayırdı, – mən də israr etdim.

– Lap təzə at minənlər kimi deyirsən, – Savanna bir az da məni hirsləndirdi. – Amma düzünü deməsən də, yaxşı ki, hamısını xatırlayırsan...

Onun bu şuxluğu neçə xatirəmi oyatdı... o çağlara qayıtdım...

– Əlbəttə, hamısı yadımdadır, – dedim. – O günlər həyatımın ən gözəl günləri idi. Heç vaxt unutmayacam. – Savannanın çiyni üstündən görürdüm ki, it örüşdə gəzinir. – Bəlkə elə buna görə də indiyə kimi evlənməmişəm.

Mənim sözlərimdən alındı bir az, baxışları yayındı.

– Mən də o günləri həmişə xatırlayıram, – dedi.

– Doğrudan?

– Əlbəttə. İnanmırsan, öz işindir, amma doğru deyirəm.

Onun dedikləri daş kimi ağır gəldi mənə. Susduq.

– Savanna, sən xoşbəxtsən? – nəhayət, dilləndim.

O, rişxəndlə məni süzdü.

– Demək olar ki, hə. Bəs sən?

– Bilmirəm, – dedim.

Savanna yenə güldü.

– Sən həmişə belə cavab verirsən! Nə vaxt səndən soruşurlar, belə deyirsən. Elə bil refleksin var. Həmişə belə olub. Niyə mənə demirsən ki, məhz nəyi soruşmaq üçün gəlmisən?

– Səncə, əslində nəyi soruşmağa gəlmişəm?

– Ərimi sevirəm, ya yox? Məgər belə deyil? – o soruşdu, sonra üzünü döndərdi.

Bir anlığa nitqim qurudu, boynuma alım ki, onun qadın instinkti düz deyirdi. Buraya məhz bunu soruşmağa gəlmişdim.

– Hə, – Savanna sanki yenidən ürəyimi oxudu. – Mən onu sevirəm.

Bu səmimiyyətə inanmamaq olmazdı, amma bu həqiqətdən içim göynədi, onun dediyini ürəyimdə götür-qoy etməmiş Savanna mənə sarı çevrildi. Üzündəki təlaş aydın seçilirdi, sanki nəsə ağrılı bir şey xatırlamışdı, amma bu tez keçdi.

– Bu gün şam etmisən? – Savanna soruşdu.

Mən hələ də bir an əvvəl gördüyümü yozmaqla məşğul idim, ona görə də mexaniki dedim:

– Yox, əslində, nə səhər, nə də günorta bir şey yemişəm.

Savanna başını buladı.

– Məndə evdə ət konservi var. Şam yeməyinə vaxtın çatar?

Mən yenə onun əri haqqında fikirləşdim, amma yeməyə razılaşdım.

– Yaxşı olardı, – dedim.

Biz evə tərəf yeridik, artırmaya çatıb dayandıq. Artırmanın qabağında bir neçə cüt nimdaş, palçığa bulaşmış kovboy çəkməsi vardı. Savanna ərklə və asanlıqla əlimdən tutub müvazinətini saxlayaraq çəkmələrini ayağından çıxardı. Olsun ki, onun bu təbii hərəkəti, adi toxunuşu mənə cəsarət verdi, xeyli üzünə baxdım. Savannanın müəmma dolu davranışı, onu xüsusilə cazibədar edən həmişəki qadın yetkinliyi marağımı birə-on artırsa da, bunların arxasında gizlənən qüssəsi, bəzən zorla susmağa çalışması da gözümdən qaçmadı. İztirablar içində qovrulan qəlbimi nə gözləyirdi, bilmirəm, amma bu sirli davranışla Savanna daha da gözəl görünürdü.

## On doqquzuncu fəsil

Son yüz ildə yəqin ki, dəfələrlə təmir olunmuş köhnə evlərin darısqal mətbəxləri kimi bir mətbəx: divarların dibində kənarları artıq yığılıb qatlanmış, sürtülüb yırtılmış linoleum, qapıları dönə-dönə rəngləndiyindən qat-qat rəngi bilinən, ağrəngli, sadə, bərbəzəksiz şkaflar, taxta çərçivəli pəncərənin altında qoyulmuş, çoxdan dəyişilməli olan, paslanmayan polad su çanağı. Üst taxtası çatlamış mətbəx mizi, az qala mətbəxin yarısını tutan, evin özü kimi köhnə odun sobası. Evdə hər halda müasir dünyanın tərəqqi nişanələrini də görmək olardı: su çanağının yanında iri soyuducu və qabyuyan maşın, maşının üstündə mikrodalğalı soba və yarı içilmiş qırmızı çaxır butulkası. Bir sözlə, buradakı mənzərə elə atamın mətbəxini xatırladırdı.

Savanna kiçik şkafın ağzını açıb ordan iki qədəh götürdü.

– Çaxır içirsən? – soruşdu.

Mən başımı buladım:

– Çaxırı xoşlamıram.

Təəccüblü idi, o mənimçün çıxardığı qədəhi yerinə qoymadı, yarımçıq butulkadan özünə çaxır süzdü. Qədəhi əlindən mizin üstünə qoyub oturdu. Mən də oturdum. Savanna çaxırını içdi.

– Sən dəyişmisən, – özümü saxlaya bilmədim.

O, çiyinlərini çəkdi.

– Səni axırıncı dəfə gördüyüm vaxtdan bəri çox şeylər dəyişib, – dedi və qədəhini mizin üstünə qoydu. Sonra yenidən danışmağa başlayanda səsi çox yavaşdan gəldi: – Heç vaxt ağlıma gəlməzdi ki, gecələr bir stəkan çaxıra həmdəm olanlardan biri olacağam.

O, qədəhi mizin üstündə fırlatmağa başladı. Ona nə olmuşdu, bilmirdim.

– Məzəli odur ki, mənim üçün nə içməyin fərqi var, dadını bilirəm. İlk dəfə içəndə bilmirdim, yaxşı çaxır nədi, pis çaxır nədi. Amma indi yaxşısını pisindən ayırıram.

Bu saat mən qarşımda oturmuş qadını tanıya bilmirdim, necə hərəkət edim, onu da bilmirdim.

– Məni yanlış başa düşmə, – Savanna davam etdi. – Ata-anam mənə nə öyrətmişdi, hamısı yadımdadır. Bir qədəhdən artıq içmirəm, o da yatmazdan qabaq. Amma madam ki, İsa peyğəmbər özü suyu şəraba çevirib, deməli, onu içmək də günah deyil.

Onun bu məntiqinə gülümsündüm, başa düşdüm ki, indiki qadını o vaxtkı Savanna ilə müqayisə etmək düz deyil. Doğru deyirlər ki, vaxt hər şeyə hakimdir.

– Mən ki heç nə soruşmuram.

– Bilirəm, – o dedi. – Amma maraqlanırsan da.

Bir anlığa araya sükut çökdü, bu sükutu yalnız soyuducunun uğultusu pozurdu.

– Atana görə təəssüf edirəm, – Savanna dedi. Barmağını mizin üstündəki çatda gəzdirdi. – Çox təəssüf edirəm. Sənə necə deyim: o, son illər neçə dəfə yadıma düşmüşdü.

– Çox sağ ol, – dedim.

Sonra yenə qədəhi əlilə fırlatmağa başladı, deyəsən, fikri də qədəhin dibindəki maye damcıları kimi fırlanırdı.

– Onun haqqında danışmaq istəyirsən?

Bu haqda danışmaq istəyirdimmi, bilmirdim, amma danışmaq istəyəndə sözlər elə bil öz-özünə axıb gəldi. Atamın birinci, sonra isə ikinci infarktından danışdım ona, yanında keçirdiyim məzuniyyətlərimdən, son vaxtlar çox yaxınlaşmağımızdan, münasibətlərimizin yoluna düşdüyündən danışdım: son günlər çox gəzməyindən, sonra birdən daha gəzmək istəməməsindən, pansionatda onu necə əzab-əziyyətlə yerləşdirməyimdəm... danışdım. Dəfndən, zərfin içindən çıxan şəkildən danışanda Savanna əlimdən tutdu.

– Yaxşı ki, şəkli saxlayıb, – dedi. – Amma mən buna qətiyyən təəccüblənmirəm.

– Mənsə təəccübləndim, – dedim. Savanna güldü, onun gülüşündən bir az yüngülləşdim, deyəsən.

– Təəssüf, bilməmişəm, dəfnə gələrdim, – deyib əlimi sıxdı.

– Elə də böyük mərasim olmadı...

– Heç lazım da deyildi. O sənin atan idi, əsas budur. – Tərəddüdlə əlimi buraxdı, sonra daha bir qurtum çaxır içdi.

– Hə, yeməyə hazırsan? – dedi.

– Bilmirəm, – mexaniki dedim və istər-istəməz bir az əvvəlki iradı yadıma düşdü.

Savanna isti bir təbəssümlə mənə tərəf əyildi:

– Qoy onda konservi qızdırım, görüm, sonra nə olur.

– Heç olmasa yeməli bir şeydi? – soruşdum. – Demək istəyirəm ki, sən mənə yemək bişirə bildiyini heç vaxt deməmisən.

– Bu bizim ailə reseptidir, – Savanna bir az özündən çıxdı, guya xətrinə dəymişdim. – Hə, yaxşı, anam hazırlayıb, dünən gətirib.

– Həqiqəti heç vaxt gizlətmək olmur, – dedim.

– Hə, bu həqiqət dedikləri şeyin məzəli də qanunları var, – Savanna razılaşdı. – Əvvəl-axır açılır.

O, ayağa durub, soyuducunu açdı, əyilib baxdı ki, görsün, orda var-nə yox. Onun barmağındakı üzük yadıma düşdü. Yaxşı, bəs əri haradadır görən? Amma barmağında nişan üzüyü var axı. Elə bu vaxt Savanna şüşə boşqablardan birini götürüb konservlə doldurdu və mikrodalğalı sobanın içinə qoydu.

– Konservin üstündən yeməyə nəsə ayrı bir şey də verim? Buterbrod necədir?

– Çox sağ ol, yaxşı olardı, – dedim.

Bir azdan qabağımda düzülmüş yeməklərin qoxusu iştahamı elə açdı ki, necə ac olduğumu yalnız indi hiss etdim. Təəccüblənsəm də, Savanna yenə öz yerində oturub qədəhini əlinə aldı.

– Bəs sən yeməyəcəksən?

– Mən ac deyiləm, – dedi. – Son vaxtlar mən, ümumiyyətlə, az yeyirəm.

Mən tikəmi dişləyib yeyəndə o da çaxırdan bir qurtum içdi. Daha maraqlanmadım ki, niyə yemir, niyə özünə belə qəsd edir. Bunun əvəzində:

– Doğrudan, dadlıdır, düz deyirdin, – dedim.

O gülümsündü.

– Anam yaxşı yeməklər bişirir. Məntiqə görə, ondan öyrənməli idim, amma mən həmişə nə iləsə məşğul olmuşam. Lap gənc yaşlarımda təhsillə, indi də ki, təmirlə. – Qonaq otağına işarə etdi. – Ev köhnədir, bəlkə də gözə görünmür, amma bu iki ildə nə qədər iş görmüşük burda.

– Hər halda pis deyil, – dedim.

– Sən nəzakətlə belə deyirsən, amma hər halda sağ ol, – Savanna dedi. – Buraların nə gündə olduğunu görsəydin! Damı təzələdik, halbuki təmirə başlayanda heç kim bu haqda fikirləşmirdi. Dam əsasdır, hamı bilir ki, evin damı möhkəm olmalıdır. O qədər gözlənilməz işlər çıxdı ki ortaya! İstilik xətlərinin çəkilişi, xüsusi termal pəncərələr, ağac tirlərin məsaməli termitlərlə dəyişdirilməsi – bir sözlə, iş çox idi. – Üzündə xəyalpərvər bir ifadə vardı. – Hər şeyi də özümüz edirdik. Hələ bu mətbəxə bax! Əlbəttə, bizə təzə şkaf, təzə döşəmə lazımdır, amma buraya gələndə gördük ki, qonaq otağında, yataq otağının döşəməsində yağış

gölməçəsi durur. Nə etməli idik? Ona görə də işimizi növbələşdirdik. Əvvəlcə taxtapuşun köhnə dəmirlərini sökdük. Gün yandırır, qırx dərəcə istilik, mənsə taxtapuşun dəmirini sökürəm. Əllərim döyənək olmuşdu. Amma bilirsən, bütün bunlar lazım idi: iki nəfər həyatlarını qurmaq üçün birlikdə çalışır, özlərinə ev-ocaq düzəldirlər. Burada bir olmaq, birgə işləmək, çalışmaq duyğusu vardı. Qonaq otağının döşəməsi də eləcə. Onun altını qumla doldurmağa iki həftə vaxtımız getdi. Sonra hamarladıq, döşəmə vurduq, laklayıb-rənglədik, yalnız onda hiss etdik ki, ayağımızın altı möhkəmdir, irəli getmək olar.

– Sən təmirdən elə danışırsan ki, elə bil romantikadan danışırsan.

– Hərdən ağır iş romantik duyğular oyadır adamda, – Savanna üzünə tökülən saçını gicgahına tərəf sığadı. – Amma son günlər romantika arxa plana keçib, ev lap köhnəlməyə başlayıb.

Gülmək məni tutdu, qəsdən öskürdüm ki, gülməyimi saxlayım, atam mətbəxdə elədiyi kimi, əlimi uzadıb stəkan axtardım ki, su içim, stəkan isə heç orada yox idi.

Savanna cəld stuldan durdu.

– Qoy sənə su gətirim, – dedi. Stəkanı kranda su ilə doldurub gətirdi, qabağıma qoydu. Su içə-içə gördüm ki, diqqətlə mənə baxır.

– Niyə elə baxırsan? – soruşdum.

– İnana bilmirəm, sən nə qədər dəyişmisən.

– Yox bir! – mən də inanmadım. – Ola bilsin bir az yaşlanmışam.

– Doğru deyirəm, – o təkid etdi. – Sən... hər halda yaşlanmısan.

– Yəqin ki. Vaxt gedir...

– Onu bilirəm. Amma mən ayrı şey deyirəm. Gözlərində... nəsə dəyişib. Ciddiləşib... başqa cür baxırsan... Elə bil görmək istəmədiyin şeylərə baxmısan... Baxışların yorğun görünür...

Dinmədim. Üzümün ifadəsini görüb Savanna tutulan kimi oldu.

– Gərək deməyəydim bunu sənə. Allah bilir, nələrdən keçmisən... orda...

Yeməyə başımı qarışdırdım, bununla həm də fikirləşməyə vaxt istəyirdim.

– Əslində, İraqdan 2004-cü ilin əvvəlində getmişəm, – dedim. – O vaxtdan bəri Almaniyada olmuşam. İraqda ordumuzun az bir qismi qalıb, onlar da tez-tez dəyişirlər. Bəlkə də qayıtdım ora, amma nə vaxt, bilmirəm. O vaxta kimi, yəqin ki, orada hər şey sakitləşəcək.

– Bəs xidmət müqaviləsinin vaxtı qurtarmayıb hələ?

– Mən onu yenə uzatdım, – dedim. – Uzatmayıb neyləyəcəkdim?

Savanna başını tərpətdi.

– İndi nə müddətə?

– 2007-ci ilə qədər.

– Bəs sonra?

– Bilmirəm, bir neçə il də qala bilərəm. Ya da kollecə girəcəm. Kim bilir, bəlkə mən də xüsusi təlim-tərbiyə ixtisası alacam. Eşitmişəm, bu sahədə xeyli nailiyyətlər var...

Savannanın üzünə qəribə, kədərli bir təbəssüm yayıldı. Susduq.

– Sən çoxdan ərə getmisən? – soruşdum. O, stulda narahat-narahat qurcuxdu.

– Gələn noyabrda iki il olacaq.

– Burada evlənmisiz?

– Guya məndən soruşan vardı? – baxışlarını dolandırdı. – Anam nümunəvi bir toy eləmək istəyirdi. Həvəslə işə girişdi. Yeganə qızıyam da... Özümə qalsa, balaca bir yığıncaq, yüz nəfər də adam çağırsalar, bəs idi.

– Yüz nəfər bəyəm azdır?!

– Bilirsən nələr oldu? Çox adam çağırmışdılar, kilsədə yer yox idi, atam da elə hey deyinirdi ki, gərək neçə il borc versin. Zarafat edirdi, əlbəttə. Qonaqların yarısı ata-anamın dostları, tanışları idi. Doğma şəhərdə toy eləyəndə belə olur da. Hamını dəvət etməlisən – poçtalyonu da, bərbəri də.

– Heç olmasa evə qayıtmağına sevinirsən?

– Burada özümü rahat hiss eləyirəm. Ata-anam yaxındadır, bu mənə xüsusən indi çox lazımdır.

Savanna daha bu haqda danışmadı, mən də gümanlar əlində qaldım yenə. Qalxıb boşqabımı götürdüm, aparıb su çanağına qoydum. Suyu açıb yaxalamaq istəyirdim ki, Savanna arxadan çağırdı.

– Qoy orada qalsın. Qabyuyanda yuyacam bir azdan. Sən... doydun heç olmasa? Yenə nəsə istəyirsənsə, anam piroq da gətirib bir az.

– Bir stəkan süd olsaydı... – dedim. Savanna ayağa durmaq istəyirdi, mən onu qabaqladım: – Özüm tökərəm, sən stəkanların yerini de.

– Su kranının yanında, rəfdə.

Rəfdən bir stəkan götürüb soyuducuya yaxınlaşdım. Süd lap yuxarı rəfdə idi, aşağı rəflərdə plastik qablarda yeməklər qoyulmuşdu. Stəkanı südlə doldurub qayıtdım.

– Savanna, nə baş verir?

O, səsimi eşidib başını mənə tərəf çevirdi.

– Nəyi deyirsən?

– Ərin haqda soruşuram, – dedim.

– Ərimə nə olub ki?

– Nə vaxt bizi tanış eləyirsən?

Cavab əvəzinə Savanna ayağa durdu, qədəhini götürüb içində qalmış çaxırı su çanağına boşaltdı. Sonra rəfdən qəhvə fincanını və çay bankasını götürdü.

– Sən ki onu tanıyırsan, – Savanna çevrilib dedi və bu zaman çiyinlərini, qamətini dikəltdi. – Timdir mənim ərim.

Savanna yenə mənimlə üz-üzə əyləşdi, qaşıqla fincanını qarışdırmağa başladı.

– Nə danışım sənə? – baxışları fincana dikilmiş Savanna az qala mızıldadı.

– Hər şeyi, – stulda yerimi rahatladım. – Hər şeyi. Ya da heç nəyi. Nəsə hələ də inanmıram.

O, narazılıqla fınxırdı.

– Hə, əlbəttə, gərək deyilə.

Əllərimi qoşalaşdırdım.

– Çoxdan başlanmışdı bu?

– Bilmirəm, – Savanna boynuna almış kimi dedi. – Başa düşürəm, ürəkaçan söhbət deyil. Amma hər şey heç sən düşündüyün kimi olmayıb. Ya da belə deyim – sənin düşünə biləcəyin kimi olmayıb. Nə o, nə mən belə bir şeyi

düşünməmişik. – O, qaşığı mizin üstünə qoydu. – Amma hər halda cavab olaraq deyə bilərəm ki, təxminən 2002-ci ilin əvvəlindən.

Deməк, mən müqaviləni yenidən uzatdıqdan bir neçə ay sonra, deyə düşündüm. Atamı birinci dəfə infarkt vurandan altı ay əvvəl. Düz o vaxt ki, Savannanın məktubları dəyişməyə başlamışdı.

– Bilirsən ki, biz Timlə çoxdan dostuq. O, aspirant idi, mən axırıncı kursda olanda bəzi dərslərimiz bir binada keçirdi. Mühazirələrdən sonra kafeyə qəhvə içməyə gedirdik, ya da birlikdə hazırlaşırdıq. Bu xüsusi görüşə-zada oxşamırdı, heç bir-birimizin əlindən də tutmamışdıq. And içirəm. Tim bilirdi ki, mən səni sevirəm, amma o yanımda idi... başa düşürsən? Ona səninçün tez-tez darıxdığımı deyirdim, həsrətdən üzüldüyümü danışırdım, o da qulaq asırdı. Ayrılığından danışırdım... Doğrudan, halım çox pis idi. Mən deyirdim, o vaxta qədər sən evdə olacaqsan...

O, baxışlarını qaldırdı. Gözləri dolu idi. Nə ilə? Təəssüf? Peşmançılıq? Bilmirəm, deyə bilmərəm.

– Biz çox vaxt bir yerdə olurduq. Mən dərddən üzüləndə, özümü pis hiss edəndə, o, mənə ürək-dirək verir, ovundura bilirdi. Həmişə deyirdi ki, darıxma, Con bugün-sabah məzuniyyətə gələr. Sənə necə izah edim: görmək istəyirdim səni, ürəyim parçalanırdı. Sonra atan xəstələndi. Bilirəm ki, sən onun yanında olmalı idin. Bu, sənin oğulluq borcun idi. Belə etməsəydin, səni heç bağışlamazdım. Amma bizə axı başqa şey lazım idi. Bilirəm ki, bu, xudpəsəndlikdi, bu haqda fikirləşəndə belə özümə nifrət eləyirəm. Amma elə bil tale bizdən üz döndərmişdi!

Savanna qaşığı stəkana salıb yenidən qarışdırdı. Fikrini toplamağa çalışırdı.

– Həmin payız mən təhsilimi bitirib doğma şəhərə qayıtdım, burada inkişafın qiymətləndirilməsi mərkəzində işləməyə başladım. Sonra Timin valideynləri maşın qəzasına düşdü. Onlar Eşvilddən qayıdanda maşını idarə edə bilməyiblər, maşın yolun o biri tərəfinə keçib. Qarşıdan gələn yük maşını onların üstünə çıxıb. Yük maşınının sürücüsünə heç nə olmayıb, Timin valideynləri isə yerindəcə keçinib. Tim təhsilini yarımçıq qoydu. O, fəlsəfə doktoru dərəcəsi alacaqdı, bura qayıdıb Alanla məşğul olacaqdı. – O susdu. Sonra yenidən davam etdi: – Bilmirəm, Tim buna necə dözdü. Əzizlərini itirmiş Tim bu ağır itki ilə necə barışa bildi, dəhşət idi. Amma Alanı ovundurmaq olmurdu. O daim çığırır, saçlarını yolurdu. Onu yalnız Tim sakitləşdirə bilirdi, amma bu, onun bütün enerjisini alırdı. Məhz o vaxt mən müntəzəm olaraq onlara getməyə başladım. Kömək etməyə. Başa düşürsən?

Mənim qaşqabaq tökdüyümü görüb Savanna davam etdi:

– Bu ev Timin valideynlərinindir. Tim də, qardaşı da burada böyüyüblər.

Bunu deyəndə yadıma düşdü ki, Savanna bu haqda mənə demişdi. Demişdi ki, uşaqlıqda Tim yaxınlıqdakı rançoda yaşayıb.

– Beləcə bir-birimizi ovundura-ovundura yaşayırdıq. Mən ona kömək etməyə çalışırdım, o mənə; ikimiz də birləşib, Alana kömək etməyə çalışırdıq. Bax, bu cür haradasa bir-birimizi sevməyə başladıq. – Bu yerdə Savanna

ilk dəfə gözlərimə baxdı. – Bilirəm, sən mənə də, Timə də hirslənirsən. Amma təsəvvür etməzsən ki, o vaxt necə bir vəziyyət yaranmışdı. Necə hadisələr baş verirdi, həmişə emosional, həyəcanlı yaşantılar... Mən özümü günahkar hiss edirdim. Elə Tim də. Bir az keçəndən sonra biz yaxınlaşdıq, öyrəşdik, özümüzü birlikdə və birgə hiss etdik. Tim də bizim mərkəzdə işləməyə başladı, sonra fikirləşdik ki, autist uşaqlar üçün bu rançonu açaq. Timin valideynləri həmişə istəyirdi ki, o, həkim olsun. Beləliklə, mən rançoda işləməyə razılıq verdim. Ondan sonra həmişə bir yerdəyik. Ümumi məşğuliyyət tapdıq. Rançoda təmir, səliqə-sahman işləri həm bizə, həm də Alana müəyyən mənada kömək etdi. O, atları sevir, həm də həmişə bizi görür, elə hiss eləyir ki, ata-anası yanındadır. Elə bil üçümüz də bir-birimizə söykənib yaşayırdıq. Elə həmin il, bir az sonra Tim mənə evlənmək təklif elədi.

Savanna susub dayandı, mən üzümü çevirdim, eşitdiklərimi götür-qoy etməyə başladım. Bir xeyli dinib-danışmadıq, hər birimiz öz aləmində, öz fikirlərimizlə əlbəyaxa.

– Bax, bütün olanlar budur, – deyə Savanna köksünü ötürdü. – Bilmirəm, daha nə deyim sənə.

Nəsə eşitməyə daha nə həvəsim, nə də marağım vardı.

– Alan indi burada, sizinlə yaşayır? – soruşdum.

– Onun otağı yuxarıda, ikinci mərtəbədədir. Bu otaq elə əvvəldən onun olub. Ona görə o qədər də əziyyət çəkmirik. O da atları yemləyir, təmizləyir, sonra da öz otağına çəkilir. Video oyunları çox sevir, saatlarla oynayır. Son zamanlar

onu oyunlardan heç ayırmaq olmur. İcazə versəm, gecə-gündüz oynayar.

– O indi də buradadır?

Savanna başını buladı.

– Yox, – dedi. – İndi Timin yanındadır.

– Harada?

O, cavab verməmiş elə bil qapını cırmaqladılar. Savanna qapını açmağa getdi. İt içəri girdi; o, dilini sallamışdı, quyruğunu bulayırdı. Mənim yanıma gəlib əlimi-dizimi iylədi.

– Mən onun xoşuna gəlirəm, – lovğalandım.

Savanna hələ də qapının yanında durmuşdu.

– O hər kəsi xoşlayır. Adı Mollidir. Ondan gözətçi it olmaz, amma yaxşı, adamayovuşandır. Bax ki, ağzının suyundan üst-başın bulanmasın.

Şalvarıma baxdım.

– Artıq bulaşıb, – dedim.

Savanna çiyni üstündən bayırı göstərdi:

– Bilirsən nə var? Ağlıma bir şey gəldi. Bəzi şeyləri bayıra çıxarmaq lazımdı. Yəqin ki, gecə yağış yağacaq. Çox vaxt aparmayacaq.

Gördüm ki, o, Tim haqqındakı sualıma cavab vermədi. Bəlkə hələ cavab verəcəkdi, – onu da bilmədim.

– Kömək lazımdır?

– Yox. Amma yaxşı ki, gəlmisən. Bir bax, nə gözəl gecədir!

Mən onun dalınca həyətə çıxdım. Molli yanımızdan sürətlə ötüb keçdi. İtə bax da, yadından çıxıb ki, indicə yalvarırdı evə girsin. Ağacda bayquş uladı, Molli bir göz

qırpımında qaranlıqda gözdən itdi. Savanna bir də ayaqqabılarını bərkitdi.

Biz anbara yaxınlaşdıq. Bir az əvvəl eşitdiklərimi götür-qoy edir, fikirləşirdim ki, mən buraya niyə gəldim. Bilmirdim, onun ərinin Tim olmasına sevinim – çünki onlar bir-birinə çox yaraşırdılar, yoxsa kədərlənim – elə həmin səbəbə görə. Həqiqəti öyrənməyim də sevinc-zad gətirmədi mənə. Bəlkə də onu bilməmək daha yaxşı olardı. Birdən-birə elə bir yorğunluq hiss etdim ki!

Amma hər halda Savannanın mənə demədiyi nəsə vardı. Mən bunu onun qəmli səsindən, qulağımdan getməyən kədərli sözlərindən duyurdum. Bizi bürüyən qaranlıqda hiss etdim ki, biz bir-birimizə lap yaxın yeriyirik, düşündüm ki, görəsən, Savanna da bunu hiss edirmi, fərqindədirmi.

Uzaqdan atların yalnız kölgəsi görünürdü, o da heç atlara oxşamırdı, eləcə qaraltı idi. Savanna çəpərdən yüyənləri götürüb anbara apardı, qarmaqdan asdı. Mən də belləri götürüb o biri alətlərin yanına qoydum. Qayıdanbaş Savanna darvazanın möhkəm bağlanıb-bağlanmadığını yoxladı.

Saata baxanda gördüm ki, artıq ondur. Demək, gecədən xeyli keçmişdi.

– Yaxşı, vaxtdır, mən gedim, – dedim. – Balaca şəhərdir, qoy söz-sov olmasın...

– Hə, düz deyirsən. – Elə bu zaman hardansa Molli qaçıb gəldi və aramızda şöngüdü. İt Savannanın dizlərinə sürtünəndə o, kənara çəkildi. – Sən harada yer tutmusan?

– Şosenin yanındakı moteldə.

Savanna bir anlığa üz-gözünü qırışdırdı.

– Hə, tanıyıram o yeri, – dedi.

– Ucuz barlara oxşayır, – dedim.

Savanna gülümsündü.

– Təəccüblü deyil, sən həmişə belə qeyri-adi yerlər tapırsan.

– "Dəniz yengəci" daxması kimi.

– Elədir ki var.

Əllərimi hirslə cibimə saldım. Bəlkə də bu, Savanna ilə axırıncı görüşümdür, deyə düşünürdüm. Belədirsə, heyif! Lap adidən adi oldu bu görüş. Ayrılmaq istəmirdim, amma bilmirdim daha nə deyim.

Yoldan bir maşın keçdi, bir anlığa ev, həyət işıqlandı.

– Yaxşı, getdim, – ümidi kəsilmiş halda dilləndim. – Xeyli söhbət etdik, səni gördüm, sevindim.

– Con, gəldiyinə görə çox şad oldum.

Yenə başımı tərpətdim. Savanna baxışlarını yayındırdı, başa düşdüm ki, getmək vaxtıdı.

– Hələlik, – dedim.

– Sağ ol.

Çevrilib maşına sarı gedə-gedə beynimi qıc edən əlacsızlıq içində düşünürdüm – yəni hər şey qurtardı? Bitdi? Əslində, nə gözlədiyimi demək də çətindi. Savannanın son məktubunu oxuduğum zaman məni qəhr edən düşüncələri rədd edir, qovurdum, amma indi belə bir sonluqdan həmin düşüncələr, həmin hisslər yenə baş qaldırdı...

Maşının qapısını açmaq istəyəndə Savannanın səsini eşitdim.

– Con!

– Hə?

O, artırmadan həyətə düşüb mənə tərəf gəldi.

– Sabah sən yəqin hələ Lenuarda olacaqsan, eləmi?

O, yaxın gəldikcə yarı kölgələnmiş çöhrəsi aydınlaşır, qəlbimdə hisslərim tüğyan edirdi. Dəqiq bilirdim – mən onu yenə sevirdim, yenə o cür sevirdim. Cəhənnəm olsun hər şey. Yazdığı məktub da, əri də. Nə olsun ki, heç vaxt bir yerdə ola bilmərik? Nə olsun?!

– Niyə soruşursan ki? – dilləndim.

– Demək istəyirdim ki, sabah bizə gələ bilərsənmi? Saat on radələrində. Tim səni görməyə şad olacaq.

O hələ sözünü qurtarmamış mən başmı buladım:

– Məncə, elə də yaxşı fikir deyil bu.

– Mənim xətrimə elə bunu, Con.

Demək, Savanna istəyir məni inandırsın ki, Tim heç də dəyişməyib, elə mənim tanıdığım adamdır; həm də onunla görüşməyimi ona görə istəyir ki, onu bağışlayım. Hər halda...

Savanna əlimi tutdu.

– Xahiş edirəm, Con. Bunun mənim üçün əhəmiyyəti var, – dedi.

Əlindən əlimə axan hərarətə baxmayaraq, sabah gəlmək istəmirdim. Timi görmək istəmirdim, onları bir yerdə görmək istəmirdim. Gəlib otursunlar stolun arxasında, özlərini elə göstərsinlər ki, guya dünyada hər şey öz yerindədir? Hər şey yaxşıdır?

Amma Savannanın səsindəki ərk və həzin giley onun xahişini yerə salmağa imkan vermirdi.

– Yaxşı, – dedim. – Saat onda.

– Çox sağ ol.

Bunu deyib Savanna döndü, getdi. O, artırmaya qalxana qədər arxasınca baxdım, sonra maşına oturdum. Açarı burdum, maşını söyüdün altından arxaya verib çıxdım. Artırmada Savanna dayandı, çevrilib əl elədi. Mən də əl elədim, yola çıxdım. Qabaq güzgüdə getdikcə arxada qalan, kiçilən Savannamı görürdüm... Ona baxa-baxa qəfildən boğazımı qəhər tutdu. Ona görə yox ki, Savanna Timə ərə getmişdi; ona görə yox ki, sabah onların ikisini də bir yerdə görəcəkdim... Artırmada dayanan Savanna əlləri ilə üzünü tutmuşdu... o ağlayırdı...

## İyirminci fəsil

Ertəsi gün səhər mən gələndə Savanna artıq artırmada gözləyirdi. Məni görüb əl elədi. Maşını dayanacağa verəndə düşüb qabağa gəldi. Deyirdim, indi Tim də gələcək, amma Tim görünmürdü.

– Sağ ol ki, gəldin, – Savanna dedi və astaca qoluma toxundu.

– A-ha, – dedim, könülsüz-könülsüz çiyinlərimi çəkdim.

Baxışlarında ani gördüyüm işartı halımı duyduğuna bir işarə idi.

– Gecə yaxşı yatdın?

– Elə də yox.

Cavabımı eşidib az qala rişxəndlə güldü.

– Hazırsan, gedək? – dedi.

– Həmişə hazıram.

– Yaxşı, onda açarları mənə ver. Yoxsa özün sürmək istəyirsən?

Əvvəlcə nə dediyini başa düşmədim.

– Biz bəyəm harasa gedirik? – dedim. – Sən axı deyirdin ki, Timlə görüşüm?

– Düzdür, – dedi. – Amma Tim burda deyil.

– Bəs haradadır?

Elə bil məni eşitmədi.

– Yaxşı, özün sürürsən?

– Hə, özüm sürsəm yaxşı olar. – Eyni zamanda çaşqınlığımı da gizlətmədən ümid edirdim ki, Savanna fikirlərini toplayıb, nəhayət, hər şeyi deyəcək. Onunçün maşının qapısını açdım, sonra fırlanıb maşının o tərəfinə keçdim, sükanın arxasında oturdum. Savanna əlini maşının cihazlarında gəzdirir, sanki inanmaq istəyirdi ki, bu xəyal deyil, həqiqətdir.

– Bu maşın mənim yadımdadır, – onun səsində bir həsrət vardı. – Atanın maşınıdır, hə? İnanmaq olmur, hələ də işləyir.

– Atam az sürürdü onu, ancaq işə, dükana.

– Hər halda.

Savanna oturacağın kəmərini taxdı. Qəfildən fikrimdən keçdi ki, görəsən, o, gecəni tək keçirib?

– Hayana sürüm? – soruşdum.

– Şoseyə çıxaq, sonra sola, – o dedi. – Şəhərə gedirik.

Yolboyu dinib-danışmadıq. Savanna qollarını sinəsində çarpazlayıb gözlərini maşının qabaq şüşəsinə dikmişdi. Özlüyümdə belə hesab edirdim ki, əslində, mən incik

olmalıyam, amma onun üzündəki dərd-ələmi gördükdə bunun mənimlə bağlı olduğuna inanmadım, ona görə də onu düşüncələri ilə tək buraxdım.

Şəhərə yaxınlaşdıqda Savanna elə bil qəfildən fikirdən ayıldı, sövq-təbii hiss etdi ki, maşında çox sakitlikdir.

– Bağışla, – dedi. – İndi məndən heç yol yoldaşı da olmaz.

– Eybi yoxdur, – dedim və onun bu halına heyrətimi gizlətməyə çalışdım.

Savanna irəlini göstərdi.

– İndi tinə qədər get, sonra sağa dön.

– Biz hara gedirik?

Nəsə cavab vermədi, yenidən baxışlarını qabağa dikdi.

– Xəstəxanaya, – handan-hana səsi gəldi.

Mən uzun-uzun koridorlarla onun dalınca gedirdim. Bir azdan qeydiyyat otağının qabağına gəlib çıxdıq. Stolun arxasında oturan yaşlı qadın planşeti bizə uzatdı. Savanna qələmi götürüb adını yazdı.

– Savanna, necəsən, işlər necədir?

– Çalışıram yaxşı olsun, – o, dodaqucu dedi.

– Hər şey yaxşı olacaq, görərsən. Onun üçün bütün şəhər dua edir.

– Sağ ol, – deyib, siyahını geri qaytardı. Sonra mənə tərəf döndü: – O, üçüncü mərtəbədədir. Lift koridorun o başındadır.

Mən onun arxasınca gedirdim, hiss edirdim ki, içim gizildəyir. Kimsə liftdən çıxdı, biz dərhal mindik. Dəmir

qapılar bağlananda elə hiss etdim ki, quyunun dibinə düşdüm.

Üçüncü mərtəbədə Savanna koridorun o başına yeridi, mən də dalınca. O, yarıaçıq qapının qabağında ayaq saxlayıb mənə tərəf döndü.

– Qoy mən birinci girim, – dedi. – Gözləyirsən burda?

– Əlbəttə.

Savanna minnətdar baxışları ilə mənə baxdı, üzünü çevirdi, dərindən köks ötürüb palataya girdi.

– Salam, əzizim, – içəridən Savannanın aydın, gümrah səsini eşitdim. – Necəsən? Deyəsən, yaxşısan bu gün.

Sonra bir neçə dəqiqə heç nə eşitmədim. Koridorda dayanıb ətrafa göz gəzdirdim. Xəstəxanada nə olacaq ki? Atamın yanına gedəndə görmüşdüm – ins-cins yox, həmin adi, boz bir dünya. Hardansa antiseptik iyi gəlirdi. O yanda sanitar qız yemək arabasını palataya dartırdı. Lap o yanda, stolun yanında üç-dörd tibb bacısı astadan söhbət edirdi. Yaxınlıqdakı palataların birində kimsə qusurdu.

– Yaxşı, – Savanna açıq qapıdan boylandı. Gümrah, gülümsər çöhrəsində dünəndən müşahidə etdiyim kədəri görməmək mümkün deyildi. – Gəl, Con, gəl, Timlə görüş.

Nəsə pis bir şey görəcəyəm deyə ürəyimi yeyə-yeyə içəri girdim. Tim çarpayıda oturmuş, ətrafında qoyulmuş yastıqlara söykənmişdi. Dirsək büküklərinə bərkidilmiş zondla maye damcılanırdı. Arıqlayıb rəngi avazımış, sapsarı saralmışdı. Atamdan da çox arıqlamışdı. Baxdıqca beynimdən bir fikir keçirdi – Tim ölür. Yalnız gözlərindəki o xeyirxah ifadə qalmışdı. O başdakı divarın yanında on səkkiz-iyirmi yaşlarında cavan bir adam oturmuşdu, tez-tez

başını oyan-buyana tovlayırdı. Dərhal başa düşdüm ki, bu Alandır. Palatada çoxlu gül-çiçək vardı – orda-burda onlarla gül buketi, üstündə təbrik kartları. Savanna ərinin yanında çarpayıda oturub onun əlini tutdu:

– Salam, Tim, – dedim.

Heyi qalmamışdı, amma gülümsəməyə çalışdı.

– Salam, Con. Səni görməyimə şadam.

– Mən də. Necəsən?

Bu sözləri birtəhər dedim, deyəsən, tutuldum da, hiss etdim ki, bədənimdən bir gizilti keçdi. Amma Tim, görünür, belə sözlərə öyrəşmişdi, yanına gələnlər belə sözləri çox demişdi ona, ona görə də əhəmiyyət vermədi.

– Yaxşıyam, – dedi. – İndi bir az yaxşıyam.

Mən başımı tərpətdim. Alan o yanda başını bulamaqda idi. İstər-istəməz ona baxdım, fikrimdən keçdi ki, mən bura niyə gəlmişəm axı? Bu ailəvi-intim səhnələrdən qaçmağım yaxşı olmazdımı?

– O – qardaşım Alandır, – Tim dedi.

– Salam, Alan.

Alan cavab verməyəndə eşitdim ki, Tim ona pıçıldadı:

– Alan, nə olub sənə? Hər şey yaxşıdır. Bu, həkim deyil, dostumuzdur. Gəl salamlaş.

Bir azdan Alan ayağa durub yöndəmsiz bir yerişlə bizə tərəf gəldi. Çalışırdı ki, gözlərimə baxmasın. Gəlib əlini uzatdı:

– Salam, mən Alanam, – qəribə, yeknəsəq bir səslə dedi.

– Tanış olmağıma şadam, – dedim və əlini sıxdım. Əli zəif və yumşaqdı. Alan mənimlə görüşüb sonra öz yerinə qayıtdı.

– Əyləşmək istəsən, lütfən, orada stul var, – Tim dedi.

Bir az o yanda qoyulmuş stulda oturdum. Hələ heç nə soruşmamış, Tim məni düşündürən sualları sanki üzümdən oxudu.

– Melanoma, dəri xərçəngidir, bilmək istəsən, – dedi.

– Amma sən sağalacaqsan da, düzdür?

O tərəfdə Alan bir az da başını tez-tez bulamağa, əllərilə budlarını şappıldatmağa başladı. Savanna baxışlarını yayındırdı. Başa düşdüm ki, soruşmamalı idim bunu.

– Bunun üçün həkimlər var, – Tim dedi. – Yaxşı da baxırlar mənə.

Bu sözlər, yəqin ki, Alana ünvanlanmışdı. O dərhal sakitləşdi.

Tim gözlərini yumub açdı, sanki gücünü toplayırdı.

– Yaxşı ki, sağ-salamat qayıtmısan evə. Sən İraqda olanda elə hey dua eləyirdim səninçün.

– Sağ ol, – dedim.

– İndi nə işlə məşğulsan? Yoxsa, hələ də ordudasan?

Tim zəif bir hərəkətlə qırxıq başıma işarə etdi. Əlimi başıma çəkdim.

– Ola bilsin, həmişəlik qaldım orduda.

– Yaxşı, – dedi. – Orduya sənin kimiləri lazımdır.

Dinmədim. Bu saat burda baş verənlər mənə qeyri-real bir şey kimi görünürdü, elə bil yuxu görürdüm.

Tim Savannaya sarı çevrildi.

– Əzizim, Alanla gedib ona bir “Koka-kola” alardın, o, səhərdən su içməyib. Bir də gör onu yedirdə bilərsənmi?!

– Əlbəttə, narahat olma, – Savanna dedi və ərinin alnından öpüb ayağa durdu. Alana sarı döndü:

– Gedək, Alan. Gedək, bir şey içək.

Alan mənə bir kütbeyin təsiri bağışladı, elə bil deyilən sözü bir az keçəndən sonra anlayırdı. Axır ki, o durub Savannaya yaxınlaşdı. Savanna onu mehribancasına arxadan qucaqlayıb palatadan çıxardı. Onlar çıxandan sonra Tim mənə tərəf döndü.

– Bütün bunlar Alan üçün çox ağır keçir. O, gerçəkliyi qəbul edə bilmir...

– Bacarmaz, yəqin...

– Qoy başını oyan-buyana tərpətməsi səni çaşdırmasın, bunun autizmə, ya da onun intellektual səviyyəsinə heç bir aidiyyəti yoxdur. Bu daha çox onun əsəbiləşdiyi zaman özünü göstərir. Ayaqlarını şappıldatması da ondandır. Ətrafda nə baş verdiyinin fərqindədir, amma onun baş verənlərə reaksiyası adətən adamları çaşdırır.

Əllərimi qoşalaşdırdım.

– Heç bir çaşqınlıq-zad yoxdur, – dedim. – Mənim atamda da belə şeylər olurdu. Alan sənin qardaşındır, sənə görə narahatdır, burda nə var ki?

Tim gülümsündü.

– Sən, əlbəttə, lütfkarlıq edirsən, amma bəziləri qorxur.

– Belə şeylər məni qorxutmaz, – başımı buladım. – Elə bilirəm mənim onunla söhbətim tutar.

Tim gözlənilmədən güldü, amma aydın görünürdü ki, heç taqəti yoxdur.

– Əlbəttə, sən bacararsan, – dedi. – Alan çox həlim uşaqdı, olsun ki, həddən artıq ürəyiyumşaqdı. Heç milçəyə də qıymaz.

Başimi tərpətdim, onu da başa düşdüm ki, Tim bu söhbətlərlə başımı qatır, istəyir ki, özümü rahat hiss edim. Amma nahaq, onsuz da əhvalım xarab idi...

– Nə vaxt bildin?

– Bir il qabaq. Baldırımın arxasında bir xal var, o birdən-birə qaşınmağa başladı, qaşıyanda isə qanadı. Əlbəttə, mən buna əhəmiyyət vermədim. Sonra bir dəfə də qaşıyanda yenə qanadı. Altı ay qabaq həkimə getdim. Cümə günü idi. Şənbə günü isə əməliyyat olundum. Bazar ertəsi interferon vurmağa başladılar. İndi də ki, burdayam.

– O vaxtdan da xəstəxanadasan?

– Yox, buraya gəlib gedirəm. Adətən interferonu poliklinikada köçürürlər, amma interferon bəzən mənim orqanizmimə düşmür, ona görə də burada köçürürlər. Yəni birdən qusmağım gələr, orqanizm çoxlu su itirər. Dünənki kimi.

– Tim, təəssüf edirəm...

– Mən də.

Otağa göz gəzdirdim, çarpayının yanındakı tumbanın üstündə sadə bir çərçivədə Tim, Savanna və Alanın şəkli vardı. Şəkildə onlar ikisi də Alanı qucaqlamışdılar.

– Savanna buna nə deyir? – soruşdum.

– Çətin anlarda ona həmişə güvənmək olar, – Tim o biri əli ilə çarpayının qırışmış ağını sığalladı. – Afərin ona. Təkcə mənə görə yox, rançoda da hər şeyi çatdırır. Heç vaxt da şikayətlənməz. Mənim yanımda olanda özünü çox

dözümlü aparır, deyir ki, görərsən, müalicə kömək eləyəcək. – O, zorla gülümsədi, əgər buna gülümsəmək demək olarsa. – Hərdən ona elə inanıram ki!

Dinmədim. O, ağrıdan inildəyərək bir az dikəldi, özünü düzəltdi, yenə əvvəlki Tim oldu.

– Savanna deyirdi ki, dünən axşam rançoda şam yemisiz.

– Hə, – dedim.

– Mərc gəlirəm ki, o səni görməyə çox sevinib. Bilirəm, o, hər şeyin belə dönməsinə çox təəssüflənir. Elə mən də. Mən səndən üzr istəməliyəm...

– Lazım deyil, – əlimi yellədim. – Hər şey yaxşıdır.

Timin zəif təbəssümündə bir acı istehza da vardı.

– Bunu ona görə deyirsən ki, mən xəstəyəm. Xəstə olmasaydım, yəqin yenə burnumu sındırardın.

– Ola bilər, – dedim.

Tim yenə güldü, bu dəfə onun gülüşü xırıltılı, bir az da ağrılı oldu.

– Mən buna layiqəm, – o, sözlərimə əhəmiyyət vermədən dedi. – Amma inanmazsan, mən işlərin bu cür gərdişindən özümü heç yaxşı hiss eləmirəm. Siz, axı bir-birinizi çox sevirdiz.

Mən dizlərimə dirsəkləndim.

– Olan olub, keçən keçib, – dedim.

Dediklərimə heç özüm inanmırdım, mən belə deyəndə Tim də inanmadı, amma hər birimiz özlüyündə susub, mövzuya son verdik.

– Nə əcəb buralara gəldin? Gör nə qədər vaxt keçib üstündən?

– Atam vəfat etdi, – dedim. – Keçən həftə.

Ağrılarına baxmayaraq, özünü unudub ürəkdən dərdimə şərik oldu.

– Təəssüf edirəm, Con. Yadımdadı, sən atanı nə qədər çox istəyirdin. Necə oldu bu? Qəflətən?

– Bizə elə gəlir. Həmişə qəflətən olur bu. Amma axır zamanlar bir az xəstə idi...

– Fərqi yoxdur, bu, dərdi yüngülləşdirmir...

Görəsən, bu sözlərlə o təkcə məni, yoxsa Savannanı və Alanı da nəzərdə tutur, deyə fikirləşdim.

– Savanna dedi ki, sənin ata-anan həlak olub.

– Maşın qəzasında, – səsini uzada-uzada dedi. – Bu, inanılmaz şeydi. İki-üç gün qabaq bir yerdə nahar eləmişdik, sonra da... qəribədir, onları dəfn eləməli oldum... Heç indi də onların yoxluğuna inanmıram. Evə gedəndə mənə elə gəlir ki, indi anamı mətbəxdə görəcəyəm, atam isə yəqin ki, bağda nə iləsə məşğuldur. – Doğmalarını xatırlayıb susdu, sonra başını buladı: – Sənə də belə gəlirdi? Qəbiristanlıqdan evə qayıdanda?

– Hər an.

Sonra başını yastığa qoydu.

– Görünür, bu son iki il hər ikimiz üçün ürəkaçan olmayıb, ağır keçib. Adamın inamını yoxlamağa daha nə lazımdı ki?

– Sən də dözmədin?

Tim könülsüz gülümsündü.

– Mən “yoxlamaq” dedim, “sarsıtmaq” demədim.

– Sən sarsılan adam deyilsən...

Koridorda tibb bacısının ayaq səsi eşidildi, dedim, yəqin, Timin yanına gəlir, amma o, qapıdan düz keçdi.

– Çox şadam ki, Savannanı görməyə gəlmisən, – Tim dedi. – Vəziyyəti nəzərə alsaq, ola bilsin, bir az bayağı səslənsin, amma ona məhz indi dost lazımdır.

Zorla udqundum, boğazımda sanki düyün vardı.

– Hım... əlbəttə, – yalnız bunu deyə bildim.

Tim susdu, başa düşdüm ki, bir də bu mövzuda danışmayacaq. Bir azdan onu yuxu apardı. Oturub baxırdım ona. Heç nə fikirləşə bilmirdim. Beynim bomboş idi.

– Bağışla, dünən sənə demədim, – bir saatdan sonra Savanna mənə deyirdi. O, Alanla birlikdə palataya qayıdanda Timi yatmış gördü, mənə işarə etdi ki, onun arxasınca gedim. Pillələrlə aşağı düşüb kafeyə girdik. – Sənin qəfil gəlişin məni çox təəccübləndirdi, çaşıb qalmışdım, bilirdim ki, nəsə deməliyəm, amma deyə bilmədim, bacarmadım.

Stolun üstündə iki fincan çay vardı, amma içənə oxşamırdıq. Savanna fincanını əlinə götürdü, sonra yenə yerə qoydu.

– Dünən xəstəxanada adi bir gün idi, mən də ki, saatlarla burada oluram. Tibb bacılarının baxışlarına dözə bilmirəm... elə baxırlar ki... yazıqları gəlir mənə... Öldürür məni onların baxışları... Timin nələr çəkdiyini düşünsək, əlbəttə, bunu demək birtəhər çıxır, amma çox ağırdı mənə. Onun xəstə olmasına tab gətirmək olmur... Özümə nifrət edirəm. Bilirəm ki, yanında olmalıyam, gərək yanında olum, amma getdikcə ağırlaşır, tabım qalmır, dözmürəm... Dünən

qan köçürəndən sonra xeyli qusdu, halı çox dəyişdi. Elə bildim ki, ölür. Qusmağı heç dayanmaq bilmirdi. Qusmağı gəlir, mədəsi qalxır, sıxılır, amma heç nə gəlmirdi. Hər beş-altı dəqiqədən bir qusmağı gəlir, zarıldayır, çarpayıda çevrilir, diyirlənir, qusmağı dayanmır ki, dayanmır... Tuturdum, sakitləşdirirdim. Necə deyim, belə anlarda özümü elə köməksiz, ümidsiz hiss edirəm ki! – Savanna çay paketini fincana salıb çıxarırdı. – Bax, hər dəfə belədir... – dedi.

Mən də fincanın qulpu ilə "oynayırdım".

– Heç bilmirəm, burda nə demək lazımdır.

– Nə deyəsən ki?! Lazım da deyil. Bütün bunları ona görə deyirəm ki, sən bunları başa düşməyə qabilsən. Dözə bilərsən mənim danışdıqlarıma. Mənim daha heç kimim yoxdu. Dostlarım heç təsəvvür də etmirlər ki, nələr çəkirəm. Atamla anam birtəhər dözürlər... hər halda dözürlər hələ... Bilirəm ki, nə desəm eləyərlər, həmişə də kömək etmək istəyirlər. Anam hər dəfə yemək gətirir, hər dəfə də hirslənir, əsəbiləşir, az qala ağlayır... Elə bil qorxur ki, nəsə yanlış bir şey deyə bilər, nəsə eləyə bilər, xətrimə dəyər. Ona da dayaq oluram, dilə tuturam. Mən ona təskinlik verirəm, o mənə yox. Təsəvvür edirsən?! Nə deyim, bəzən lap artıq olur, ağır olur mənim iztirablarım... Demək də olmur bunu, anamdır, axı... çox sevirəm onu, əlindən gələni edir... Bəzən deyirəm, kaş ki, çox güclü, dözümlü olaydı! Başa düşürsən?

Anasını xatırlayıb başımı tərpətdim.

– Bəs atan necədir?

– O da belə, amma bir az başqa cür. Heç bəzən soruşmur da, qaçır bu söhbətlərdən. Hərdən yanlarında

olanda ya rançodan, ya da mənim işlərimdən danışır. Timin haqqında heç bir söz. Elə bil anamın təşvişini artırmamaq üçün özünü belə aparır. Heç vaxt soruşmur ki, burda işlərimiz necədir, necə dözürəm bunlara. – Savanna başını buladı. – Üstəlik, Alan. Tim onunla çox yaxşı davranır, mən də özümü aldadıram ki, guya Alana öyrəşirəm, amma hərdən Alan özünü vurur, didir, şeyləri sındırır. Axırda da mən güc verirəm göz yaşlarıma, sadəcə bilmirəm ki, nə edim... Məni yanlış başa düşmə – mən çox çalışıram ki, Alana kömək edim, amma mən Tim deyiləm. Və ikimiz də bunu bilirik...

Baxışlarımız bir anlığa toqquşdu, amma mən gözlərimi qaçırdım, çaydan bir qurtum içdim. Savannanın həyatını təsəvvür etməyə çalışdım...

– Tim sənə dedi ki, xəstəliyi nədir? Melanoma haqqında bir şey dedi?

– Bir az, – dedim. – Axıradək başa düşmədim. Dedi ki, xalını qaşıyıb, qanadıb, sonra bir dəfə də belə olub, sonra da ki, həkimə gəlib.

Savanna başını tərpətdi.

– Adamın ağlına batmır, nəsə. Yəni əgər Tim günəşdə çox olsaydı, başa düşərdim, amma xal iç tərəfdə, dizin qatlanan yerindədir. Sən onu tanıyırsan – heç onu şortikdə təsəvvür edirsən? O, ümumiyyətlə, şortik geymir. Hətta çimərlikdə də. Hamıya da məsləhət görür ki, gündə yanmamaq üçün kremdən istifadə etsinlər. İçki içmir, siqaret çəkmir, yeməyi də üfürə-üfürə yeyir. Niyə melanoma tutsun ki? Onun ayağında xalın ətrafından toxumalarını çərtib götürüblər, on səkkiz limfa vəzisi – xalın ölçüsünə görə.

Toxumaların biopsiyası zamanı məlum olub ki, yalnız bir vəzidə melanoma var. Timə interferon köçürməyə başladılar. Bu, standart müalicədir, sonra bir il ərzində ona interferon köçürdülər. Biz çalışırdıq ki, ümidimizi itirməyək. Sonra vəziyyət pisləşdi. Əvvəlcə orqanizmi interferonu götürmədi. Əməliyyat olunandan bir-iki həftə sonra isə tikişin ətrafında, qasıq nahiyəsində soyuqdəymə müşahidə olundu...

Çimçəşdiyimi görən Savanna dayandı.

– Bağışla, həkimlərlə danışmağa o qədər öyrəşmişəm ki... Adi dəri infeksiyası Timin ayağında ciddi fəsadlar verdi... On gün intensiv terapiyada yatdı. Dedim, yəqin gedəcək əlimdən, amma Tim təbiətən dözümlüdür. O, bu vəziyyətdən çıxdı, müalicəsini davam etdirdi. Amma keçən ay həkimlər onu müayinə etdi, ilkin melanoma nahiyəsində xərçəng tapdılar. Bu o deməkdi ki, yenidən əməliyyat olunmalıdır. Daha pisi odur ki, interferonun Timə lazımi qədər kömək etmədiyi aydın oldu. Tomoqrafiyadan sonra həkimlər onun ciyərində xərçəng aşkar etdilər.

Savanna susub baxışlarını fincanına dikdi. Eşitdiklərimdən qıc olmuşdum, elə bil içimi çəkib çıxarmışdılar. Sözlər qurtarmışdı. Bir xeyli beləcə səssiz-səmirsiz oturduq.

– Təəssüf edirəm, – güclə pıçıldaya bildim.

Sözüm onu ağır düşüncələrdən ayırdı.

– Təslim ola bilmərəm, – Savannanın səsi cingildədi. – Tim yaxşı insandır, sədaqətli, dözümlüdür, mən onu çox sevirəm. Bu, sadəcə, düz deyil, ədalətli deyil. Evliliyimiz heç iki il də deyil. – O, dərindən köks ötürdü. Sonra bir də,

bir də... Özünü ələ almağa çalışdı. – Onu bu xəstəxanadan çıxarmaq lazımdır. Bunlar ancaq onu bilirlər ki, ona interferon vursunlar, o da kömək etmir. Timi “MD Anderson” onkoloji mərkəzinə, Mayo Klinikasına, ya da Con Hopkins Klinikasına qoymaq lazımdır. Onlarda ən mütərəqqi üsullarla müalicə edirlər. İnterferon kömək etmirsə, başqa dərman yazarlar, ayrı bir çarə taparlar. Lap eksperiment də olsa. Orada biokimyəvi terapiyadan istifadə edirlər, klinik yoxlamalar keçirirlər. Noyabr ayında “MD Anderson” mərkəzində yeni vaksini yoxlayacaqlar. Bir çox vaksinlər kimi profilaktik yox, müalicə məqsədilə. Deyilənə görə, ilkin nəticələr yaxşıdır. İstəyirəm, Timi lap sınaq müayinəsinə cəlb etsinlər.

– Onda get də, – mən tez dedim.

Savanna gülümsündü.

– Bu elə də asan deyil.

– Niyə? Hər şey aydındı ki. Timi binadan çıxarırsan, maşına əyləşdirib gedirsən.

– Bizim sığortamız bunu ödəmir. Hər halda indi ödəmir, – Savanna dedi. – Tim standart müalicə alır. İnanırsan, ya yox, sığorta şirkəti indiyə qədər bizə məsuliyyətlə yanaşıb. Onlar xəstəxana xərclərini, interferon və digər xərclərin hamısını ödəyiblər. Hətta bizə xüsusi sosial xidmətçi qadın da təhkim ediblər. O qadın həmişə şəfqətlə yanaşır bizə. Amma o ayrı nə eləyə bilər? Müalicə həkimi hesab edir ki, xəstə hələ bir müddət interferon qəbul etməlidir. Heç bir sığorta şirkəti eksperiment terapiyası üçün ödəniş etməz. Heç bir sığortaçı standartdan kənar müalicə üçün pul verməz, üstəlik, ayrı bir ştatda, özü də təsdiq

olunmamış dərmanlarla və xəstə üçün heç bir zəmanət olmadan.

– Onda məhkəməyə ver onları, – lazım bilirsənsə, əlbəttə.

– Con, bizim sığorta şirkəti intensiv terapiya və xəstəxanada təcili yatmaq üçün bütün xərcləri ödəyib. Tim doğrudan da xəstəliyinə görə müvafiq şəkildə müalicə alır. Məsələ burasındadır ki, mən başqa xəstəxanada alternativ müalicənin daha yaxşı olacağını sübut edə bilmirəm. Hesab edirəm ki, bəlkə də orada həkimlər Timə kömək edə bildi; ümid edirəm ki, orada yaxşılaşacaq, amma kimsə buna zəmanət verə bilmir axı! – Savanna başını buladı. – Lap məhkəməyə versəm və sığorta şirkəti də bütün xərcləri çəkməyə razı olsa, bu, xeyli vaxt aparar, bizimsə vaxtımız yoxdur. – O ah çəkdi. – Məsələ pulda deyil, indi vaxt bizim əleyhimizə işləyir.

– Nə qədər pul lazımdır?

– Çox. Həm də əgər Tim yenidən infeksiya ilə xəstəxanaya düşsə və əvvəlki kimi intensiv terapiya şöbəsində yatmalı olsa, onda... yəqin ki, lap çox. Təsəvvür etməyə belə qorxuram, mən belə məbləği haradan taparam?

– Bəs nə etmək fikrindəsən?

– Pul tapmalıyam, – dedi. – Başqa yolum yoxdur. Bütün şəhər bizə kömək edir. Timin xəstəliyi haqqında xəbər yayılan kimi yerli qəzetdə məqalə çıxdı, televiziya xəbərlərində süjet getdi, sonra bütün şəhərdə pul yığmağa başladılar. Yerli bank xüsusi hesab açdı. Ata-anam da kömək etdi, işlədiyimiz mərkəz də. Eşitmişəm ki, şəhərdə bir çox şirkətlərin ofislərində bankalar qoyulub, pul yığılır.

Lenuara gələn günü şəhər barındakı bilyard salonunda belə bir mənzərəni gördüyüm yadıma düşdü. Mən də oraya bir neçə dollar salmışdım. Amma indi bu mənə çox az gəldi.

– Bir şey toplaya bilmisiz?

– Bilmirəm, – Savanna başını buladı, elə bil bu haqda düşünmək istəmirdi. – Bir neçə gündü başlayıb. Tim müalicədədir, mənsə gah xəstəxanada, gah da rançodayam. Amma böyük məbləğdən söhbət gedir. – O, fincanı kənara itələdi, qəmli-qəmli gülümsündü. – Bilmirəm, niyə bunları sənə deyirəm. Heç bir zəmanətim yoxdu ki, Timi başqa bir bahalı klinikada sağalda bilərlər. Amma bir şeyi bilirəm: Tim əgər burada qalsa, sağalmayacaq. Başqa bir yerdə heç olmasa şans var. Mənim işlərim, bax, belədir indi...

O, sözünü yarımçıq qoydu, səsi qırıldı, imdad gəzən yorğun baxışları mizin ləkəli örtüyünə dikildi.

– Bilirsən ən qəribəsi nədi? – gözləri yol çəkə-çəkə dedi. – Sən yeganə adamsan ki, bunları danışıram. Nədənsə mənə elə gəlir ki, mənim nə çəkdiyimi yalnız sən başa düşərsən. Sənə mən hər şeyi çılpaqlığı ilə deyə bilirəm, sənin yanında nəyisə rəngli-boyalı demək lazım gəlmir, ört-basdır etmirəm heç nəyi. – O, yenidən fincanını əlinə aldı, sonra yenə yerə qoydu. – Amma mənim hərəkətim də yerinə düşmür, sənin atan vəfat edib, mən də...

– Eybi yoxdur, – onu inandırmağa çalışdım.

– Hər halda, bu eqoistlikdi. Sənin atan vəfat edib, dərd içindəsən, mən də burada öz dərdimdən danışıram... belə ola bilər, elə ola bilər... dərdini bir az da artırıram... – Savanna baxışlarını kafenin pəncərəsindən o üzə dikdi. Əmin idim,

bu saat o heç nə görmürdü, – xəstəxana həyətindəki yastı qazon sahəsini də.

– Eeey, – deyə əlini tutdum. – Məncə, indi bir az yaxşısan, danışdıq, yüngülləşdin bir az.

Savanna naümid halda çiyinlərini çəkdi:

– Görürsən də halımızı, biz səninlə döyüş meydanında iki yaralı əsgərik, kömək edənimiz yox...

– Düz sözə nə deyəsən...

Savanna nəzərlərini qaldırdı, baxışdıq.

– Yaxşı ki, heç olmasa bir-birimizə həyanıq, – pıçıldadı.

Bütün eşitdiklərimə baxmayaraq ürəyim köksümdə quş kimi çırpındı. Lap əvvəlki duyğularla.

– Hə, müəyyən mənada, xoşbəxtik biz, – bu sözlər onun dediklərinə əks-səda kimi qopdu dilimdən.

Günün qalan hissəsini Timin yanında olduq. Biz palataya qayıdanda o yatırdı. Oyandı, sonra yenə yuxuya getdi. Alan gecə-gündüz qardaşının çarpayısı yanında idi, məni az qala görmür, nəzərlərini qardaşından ayırmırdı. Savanna gah ərinin çarpayısında – Timin yanında oturur, gah mənim yanımdakı boş stulda əyləşirdi. Yanımda olanda biz sakitcə Timin vəziyyətindən, ümumiyyətlə, dəri xərçəngindən, onun başqa spesifik müalicə yollarından danışırdıq. Savanna harada, hansı xəstəxanada bu xəstəliyin klinik müalicə eksperimentlərinin aparıldığı haqda həftələrlə İnternetdə informasiya toplamışdı. Həmişə də az qala pıçıltı ilə danışırdı ki, Alan eşitməsin. Onun dediklərindən indi mənim də melanoma barədə xeyli məlumatım vardı.

Axşamtərəfi, nəhayət, Savanna ayağa qalxdı. Tim günün çoxunu yatırdı, Savanna ehtiyatla, nəvazişlə ərini öpüb ayrılarkən düşünürdüm ki, indi Tim yəqin gecəni də yaxşı yatacaq. Sonra o yenə ərini öpdü, yavaşca əlinə toxundu, mənə tərəf dönüb qapıya işarə etdi. Sakitcə palatadan çıxdıq.

– Gedək maşına, – koridorda pıçıldadı.

– Bura qayıdacaqsan?

– Sabah. Tim yuxudan oyansa, istəmirəm elə hiss etsin ki, oyaq qalıb mənimlə danışmalıdı. Qoy yatıb dincəlsin.

– Bəs Alan?

– Onun velosipedi var, hər gün bura gəlir, axşam də evə qayıdır. Desəm də o, indi bizimlə getməz. Heç nə olmaz, o, bu yolu bir neçə aydır gəlib-gedir.

Bir azdan xəstəxana həyətindən çıxıb axşamın maşın tıxaclarına düşdük. Səma boz-tutqun rəngə çalır, üfüqdə buludlar sıxlaşırdı; bu, okean sahillərində tez-tez gördüyüm ildırımlardan xəbər verirdi. Fikirlər içində qərq olmuş Savanna az danışırdı. Üz-gözündə eynilə özümün hiss etdiyim yorğun və bezgin bir ifadə vardı. Təsəvvür edəndə ki, o sabah da bura gələcək, birisi gün də, sonrakı günlər də, bilə-bilə ki, haradasa başqa bir yerdə Timin müalicəsi mümkündür, heç cür rahat ola bilmirdim.

Rançoya aparan çınqıl yola burulanda gözümün ucu ilə Savannaya baxdım – gözündən qopan yaş giləsi yanağı boyu diyirlənirdi. Ürəyim parça-parça oldu, Savanna, ona baxdığımı sezib öz həssaslığına aşkar şəkildə heyrət edərək gözyaşını sildi. Maşını söyüd ağacının altında, köhnə yük

maşınının yanında saxladım. Elə bu vaxt maşının qabaq şüşələrinə ilk yağış damcılarının çırpıldığını gördüm.

Maşını saxlayandan sonra fikirləşirdim ki, doğrudanmı, elə bu cür də ayrılacağıq? Mən bunu götür-qoy eləyərkən, Savanna dilləndi:

– Sən, yəqin ki, acsan, – dedi. – Soyuducuda bir ton yemək var.

Gözlərindəki ifadə mənə deyirdi ki, bundan imtina edim, amma özümdən asılı olmayaraq başımı tərpətdim.

– Bir şey yesəm yaxşıdı, – dedim.

– Çox yaxşı, – səsi mehriban gəldi mənə. – Bu gecə, doğrudan, heç tək qalmaq istəmirəm.

Biz maşından düşərkən yağış artıq güclənmişdi. Maşının qapısını açıb sürətlə artırmaya yüyürdük. Amma ora çatanda hiss etdim ki, iliyimə qədər islanmışam. Molli səsimizi eşitmişdi. Savanna qapını açan kimi o, yanımızdan sivişib mətbəxə, ordan da qonaq otağı hesab etdiyim otağa keçdi. Molliyə baxa-baxa bir gün qabaq bura gəldiyimi xatırladım – bir gün içində nə qədər dəyişikliklər olmuşdu! Burada eşidib gördüklərim lap İraqda olduğu kimi sürətlə dəyişir, təzələnirdi. Elə bil keşikdə durmusan, ətraf şəraiti nəzarətdə saxlayırsan, amma səksəkədə, həyəcandasan, bilmirsən, səni hansı təhlükə gözləyir, hər an nəsə baş verə bilər.

– Bizdə hər şeydən bir az var, – Savanna mətbəxə gedə-gedə dedi. – Anam həyəcanlarımızı bişir-düşür hesabına ört-basdır etmək istəyir. Ət konservi, istiotlu çili, toyuq piroqu, qızardılmış donuz əti, qiyməli-qovurmalı ət piroqu... – Mən

mətbəxə girəndə o, soyuducunun qapısını açıb içinə baxırdı, məni görəndə dikəldi. – İştahan nə çəkir?

– Fərqi yoxdur, bir şey qızdır, – dedim. – Nə istəsən.

Üz-gözündə ümidsizlik gəzən Savannaya baxdım – o özü qərar verməkdən yorulmuşdu, ona görə də əhvalını dəyişmək üçün dedim:

– Yaxşı, onda qiyməli piroq.

– Yaxşı, – dedi. – İndi qızdırıram. Sən çox acsan, ya elə-belə?

Fikrə getdim.

– Hiss edirəm ki, acam.

– Onda əvvəlcə salat. Zeytun yağım, pomidorum var. Sousla, xırda doğranmış çörək tikələri ilə dadlı olur.

– Lap iştahamı açırsan...

– Yaxşı, bu saat, – dedi. – Tez olacaq.

Savanna soyuducunun alt gözündən kahı və pomidor götürüb kranın altında yudu, doğrayıb tomatla qarışdırdı və taxta boşqaba tökdü. Sonra üstündən zeytun yağı səpib salatı mizin üstünə qoydu. Qat-qat yığılmış qiyməli piroqdan iri-iri kəsib boşqablara qoydu, sonra növbə ilə qızdırıcıya atdı. Savannanın hərəkətləri səriştəli və yerli-yerində idi, elə bil gördüyü bu sadə fiziki iş onun özünə inamını artırırdı.

– Səni bilmirəm, amma mən çaxır içmək istəyirəm, – Savanna stolun üstündəki butulkanı göstərdi. – Əla "Pino Nuar" çaxırım var.

– Elə mən də içərdim bir az, – onunla razılaşdım. – Açım?

– Yox, özüm açaram. Yaxşı butulka açanım var.

Savanna butulkanı açıb iki qədəhə çaxır süzdü. Bir azdan biz üz-üzə oturmuşduq, qiyməli piroq boşqabları da qabağımızda. İsti piroqun qoxusu məni birtəhər eləmişdi, indi hiss etdim ki, çox acam. Piroqdan bir dişləm alıb çəngəli havada yellədim.

– Oy-oy, necə də dadlıdır! – çeynəyə-çeynəyə dedim.

– Dadlıdır, yox? – Savanna da səsimə səs verdi. Amma özü hələ piroqa əl vurmamışdı. Yemək əvəzinə, o, çaxır qədəhini dodaqlarına yapışdırıb yavaş-yavaş içməyə başladı. – Tim də bunu çox sevir. Biz evlənəndən sonra o elə hey anamdan xahiş edirdi ki, bundan bişirsin. Anam da yemək bişirməyin ustasıdı, elə ki camaat bəh-bəhlə yeyib tərifləyir, o da zövq alır bundan.

Görürdüm, Savanna barmağını qədəhin kənarında gəzdirirdi. Nazik zolaqlarla qədəhdəki qırmızı çaxıra yayılan işıq ona yaqut cilası verirdi.

– Yenə yemək istəsən, soyuducuda çoxdu, – dedi. – Özü də çəkinib eləmə. Heç bilmirsən, necə yaxşı bir iş görürsən. Yoxsa yeyən olmur, hər dəfə nə qədər yeməyi atmalı oluram. Bilmirəm, anama necə deyim ki, yeməyi az gətir. Qorxuram xətrinə dəyə.

– Onunçün də çətindir, – dedim. – Bilir ki, sən necə əziyyət çəkirsən.

– Bilirəm. – O bir qurtum da çaxır içdi.

– Sən yemək yeyəcəksən, ya yox? – boşqabına işarə ilə soruşdum.

– Mən ac deyiləm, – dedi. – Tim xəstəxanada olandan bəri həmişə belədir, nəsə iştaham olmur. Yeməyi qızdırıram, otururam yeməyə, qabağımdakı boşqaba baxa-baxa qalıram,

elə bil mədəmin yolu bağlanır. – Sonra qiyməli piroqa baxdı ki, bəlkə işatahası gələ, amma başını buladı – "yox".

– Heç olmasa mənə yoldaşlıq elə, – təkid etdim. – Bir tikə ye, sənə yemək lazımdır.

– Heç nə olmaz, hər şey yaxşıdı...

Çəngəlimi ağzıma aparanda yarı yolda saxladım.

– Mənim xətrimə bir tikə ye. Kimsə baxırsa, mən yeyə bilmirəm. Xoşum gəlmir bundan.

– Yaxşı, – deyib çəngəli götürdü, kiçik bir ət parçasına taxıb ağzına qoydu. – İndi razı qaldın?

– Əlbəttə, – dedim. – O dəqiqə içimdə rahatlıq hiss etdim. – Desertə qədər, lütfən, çəngəli götür, əlində saxla, guya ki, yeyirsən...

O güldü.

– Nə yaxşı gəldin, Con, – mənimlə heç kim bu cür danışmır.

– Necə yəni "bu cür"? Yəni açıq, səmimi?

– Hə, – Savanna başını tərpətdi. – Elə onu deyirəm. – O, çəngəlini yerə qoyub, boşqabını da itələdi. Demək, xahişimi də eşitməzliyə vurdu. – Səmimiyyətdə sənə heç kəs çatmaz. Həmişə beləsən.

– Yadımdadı, əvvəllər mən də sənin haqqında belə düşünürdüm.

Savanna salfeti mizin üstünə atdı.

– Gözəl günlər idi, hə?

Savanna mənə elə baxdı ki, keçən günlər bir an içində beynimdə canlandı. Bir anlığa həmin duyğular, Savannalı ümidlər, gümanlar doldu yaddaşıma. O yenə həməncə cavan qız oldu – çimərlikdə rast gəldiyim həmin tələbə qız.

Qarşıda bizi gözləyən günlər... Həyatımın bir parçası olacaq birisi...

Savanna əlini saçlarına çəkdi, barmağındakı nişan üzüyü işıqda parıldadı. Baxışlarımı endirib boşqabıma dikdim.

– Heç demə...

İri bir piroq parçasını ağzıma qoydum, istədim bununla məni göynədən xatirələri çeynəyib didim, acılarım soyusun. Çəngəlimi bir də hirslə piroqa batırdım.

– Nə oldu? – o soruşdu. – Hirslənmisən?

– Yox, – yalan dedim.

– Amma əsəbi adamlar kimi aparırsan özünü.

O yenə əvvəllər tanıdığım Savanna olmuşdu – amma indi ərli qadın idi. Mən çaxır qədəhini başıma çəkdim, onun iki-üç dəfəyə içdiyini birdəfəyə içdim. Stuluma söykəndim.

– Savanna, səncə mən burada neyləyirəm?

– Bilmirəm, nə demək istəyirsən? – o dedi.

– Bax, bütün bunlar nə üçündür? – əlimlə stolu, mətbəxi, mətbəxdəkiləri göstərdim. – Sən məni şam yeməyinə dəvət edirsən, özünsə heç yemirsən. Ötən günlərimizi xatırlayırsan. Nə baş verir?

– Heç nə, – Savanna birbaşa cavab verdi.

– Onda bu nə deməkdir? Məni niyə evə dəvət edirsən?

Cavab əvəzinə o durub qədəhini yenə doldurdu.

– Bəlkə mənə bir adam lazımdı ki, bir az danışım, ürəyimi boşaldım? – pıçıltı ilə dedi. – Dedim axı mən bunları ata-anamla danışa bilmirəm, hətta Timlə də belə açıq danışa bilmirəm. – Səsi dərd içində boğulurdu. – Hərdən kimləsə danışmaq istəyir adam.

O doğru deyirdi, onunla razılaşmamaq mümkün deyildi. Mən də Lenuara buna görə gəlmişdim. Kimləsə danışmaq üçün.

– Başa düşürəm, – dedim və gözlərimi yumdum. Açanda Savannanın sınayıcı nəzərlərini üstümdə gördüm. – Sadəcə, bilmirəm bütün bunlarla nə edim? Baş açmıram bunlardan. Keçmiş günlərdən. Bizdən. Özümüzdən. Sənin ərli olmağından. Hətta Timin belə xəstə olmasından. Bütün bunların axı bir izahı olmalıdır? Ağlıma sığışdıra bilmirəm bunları...

Dodaqlarında ağrılı, acı bir təbəssüm səyriyirdi Savannanın.

– Yoxsa elə bilirsən, mən ağlıma sığışdıra bilirəm?

Mən dinmədim. Savanna qədəhini mizin üstünə qoydu.

– Sən həqiqəti bilmək istəyirsən, – dedi və cavabımı gözləmədən davam etdi. – Hər gün çalışıram, özümə deyirəm ki, dözüm, səhəri axşam eləyim, sabaha çıxmağa bir az qüvvə saxlayım. – İntəhasız bir ağrı ilə deyirdi bunları. Gözlərini yumdu, susdu bir az, sanki bütün bunları demək, boynuna almaq dözülməz məşəqqət idi onunçün. – Bilirəm, sən indi də məni sevirsən. Onu da biləsən ki, ürəyimin dərinliklərində gizli bir istək mənə rahatlıq vermir – mənim o son, məşum məktubumdan sonra sənin nələr çəkdiyini çox bilmək istəyirəm. Necə dözdün buna?.. Amma səmimi desəm... – Yenə susdu. – Əslində, bilmirəm, bunu bilmək, eşitmək istəyirəmmi? Dünən səni görəndə elə sevindim, yüngülləşdim ki! Demirəm ki, bəxtəvər oldum bundan; demirəm ki, mənə çox yaxşı, ya da pis təsir etdi sənin gəlişin, sadəcə, yüngülləşdim bir az. Son altı ayda

yalnız onu bilirəm ki, işlərim günü-gündən pisləşir və mən bunu hiss etdikcə dəli oluram. Hər gün yuxudan duranda əsəbi, gərgin... it kimi qapıram özümü... Neyləyim? Bu gün nə olacaq? Dəhşətə gəlirəm – ərə getdiyim adam bu gün, ya sabah öləcək. Gecə düşənə qədər, səhər açılana qədər beləcə üzür məni fikirlər... Bax, belə yaşayıram mən, – əgər yaşamaq demək olarsa buna. Amma ən dəhşətlisi bilirsən nədi? Başa düşürəm ki, hələ bundan pisi qabaqdadı. İndi də başqa bir yük düşüb çiynimə – ərimə necə kömək edim? Hansı yolla? Onu müalicə etdirməliyəm: bəlkə sağaldı, bəlkə həyatını xilas etdim. Amma necə?

Yenə susdu və lap yaxından mənə baxdı, görsün ki, dedikləri mənə necə təsir edir.

Bilirdim ki, ona təskinlik verməyə söz tapıb deyə bilərəm, amma həmişə olduğu kimi bilmirdim nə deyim. Bu saat fikirləşə bildiyim yalnız bu idi ki, qarşımdakı bir zaman sevdiyim qadın idi, onu mən indi də sevirdim, amma o heç vaxt mənim olmayacaqdı.

– Bağışla, – Savannanın səsi çox yorğun, bezgin idi. – Səni çox pis vəziyyətdə qoyuram. – Zəif bir təbəssümlə davam etdi. – Sadəcə, istəyirəm biləsən ki, sənin gəlişinə çox şadam.

Mən diqqətlə mizin üstünü gözdən keçirməyə başladım, guya ki, onun hansı taxtadan düzəldilməyinin mənim üçün bir əhəmiyyəti vardı; əslində, hisslərimi gizlətməyə çalışırdım.

– Yaxşı, – nəhayət, dedim.

Savanna mizə yaxınlaşıb yarısını içdiyim qədəhi yenidən doldurdu.

– Mən ürəyimi, ruhumu açıram sənin qabağında, sənsə "yaxşı" deyirsən?

– Bəs nə eşitmək istəyirsən məndən?

Savanna çevrilib koridora çıxdı. Gedə-gedə:

– Deyə bilərdin ki, sən də məni görməyə şadsan, – dedi.

Alaqapının açılmasını eşitmədim, deməli o, qonaq otağına getdi.

Onun eyhamı içimi doğradı, zədələdi, amma dalınca getmək fikrim yox idi. Hər şey dəyişib, əvvəlki münasibətləri qaytarmaq müşküldür.

Piroqdan iri bir tikə kəsib hirslə ağzıma qoydum; kəsdirə bilmirdim, Savanna nə istəyir məndən? Özü məktub yazıb, münasibətlərimizi kəsib, ərə gedib, indi də özünü elə aparır ki, guya heç nə olmayıb. Olmayıbmı?

Piroqu qurtarandan sonra boşqabların ikisini də mətbəxə aparıb su altında yaxaladım. Yağış damcıları tutan pəncərədən maşınıma baxdım. "Çıxıb getmək lazımdır burdan, – deyə düşündüm, – geriyə baxmadan. Belə ikimiz üçün də yaxşı olar".

Əlimi cibimə saldım ki, açarları çıxarım, yerimdə donub qaldım. Taxtapuşu döyəcləyən yağış damcıları arasında qonaq otağından səs eşitdim. Ağlamaq səsiydi. Bir anda hirsim, çaşqınlığım yox oldu: Savanna sakitcə ağlayırdı.

İstədim əhəmiyyət verməyim, ürəyim sözümə baxmadı. Qədəhimi götürüb qonaq otağına getdim.

Savanna divanda oturub qədəhdən qurtum-qurtum çaxır içirdi. Məni görüb baxışlarını qaldırdı.

Bayırda tufan güclənir, yağış bərkiyirdi. Qonaq otağının pəncərəsindən o üzdə, uzaqlarda ildırım çaxdı, sonra uzun-uzadı göy guruldadı. Savannanın yanında oturdum, qədəhimi dolabın üstünə qoydum. Otağa göz gəzdirdim. Buxarının üstündəki rəfdə Savannanın və Timin toy günü çəkdirdikləri şəkillər qoyulmuşdu: birində tort kəsirdilər, o birisində kilsədə nikah mərasimində idilər. Şəkildə Savanna xoşbəxtlikdən par-par yanırdı, qəlbimi qüssə bürüdü: niyə şəkildə onun yanındakı mən deyiləm?

– Bağışla məni, Con. Gərək ağlamayaydım, amma özümlə bacarmadım, dözmədim.

– Başa düşürəm, – mızıldandım. – İndi sənə çox çətindir.

Araya sakitlik çökdü. Külək iri yağış damcılarını zərblə pəncərələrə çırpırdı.

– Əsl tufandır, – dedim. Gərginliyi azaltmaq üçün söz axtarırdım.

– Hə, – Savannanın dalğın səsi zorla eşidildi.

– Alana bir şey olmaz ki?

Savanna barmaqları ilə qədəhini döyəclədi.

– O gəlməz, yağış dayanmayınca yola çıxmaz. İldırımdan qorxur. Amma ildırım da çox çəkməz. Külək buludları okeana doğru qovur, həmişə belə olur. – Bir az tərəddüdlə soruşdu: – Bizim tikdiyimiz o yarımçıq evdə ildırımdan, yağışdan daldalanmağımız yadındadı?

– Yadımdadı.

– Mənim də. Onda ilk dəfə səni sevdiyimi dedim. Dünən də həmin gecəni xatırladım. Elə bu divanda oturmuşdum. Tim xəstəxanada, Alan da onun yanında idi.

Yağışa baxır, fikirləşirdim. Yaram qövr edirdi. Elə bil vaxtı tərsinə döndərmişdilər. Xatirələr o qədər canlı idi ki, elə bil dünən olmuşdu. Amma sonra yağış dayandı, yadıma düşdü ki, atları yemləməliyəm. Sanki şirin yuxudan ayıldım, yenidən bu günə, real həyata qayıtdım. Mənə elə gəldi ki, bütün olmuşlar xəyal imiş, mənim başıma gəlməyib bunlar, tanışlarımdan eşitmişəm.

Savanna mənə qısıldı.

– Sənin yadında daha çox nə qalıb? – soruşdu.

– Hər şey, – dedim.

Savanna kirpikləri altından məni süzdü.

– Ən çox yadda qalan?

Pəncərədən o tayda uğuldayan tufan yarıqaranlıq qonaq otağını elə məhrəm etmişdi ki! Məni bürüyən çılğın hisslərdən titrəyib diksindim. Axırı necə qurtaracaqdı bunun? Yanımdakı bu qadını elə istəyirdim ki! Amma içimdəki bir hiss deyirdi ki, o daha sənin deyil. Deyil! Bu evdə hər yerdə Tim görünürdü. Onu da görürdüm ki, gündüzkü həyəcanlar, indi duyduqları Savannanın ixtiyarını əlindən alır...

Şərabı başıma çəkib qədəhi dolabın üstünə qoydum.

– Yox, – aram-aram dedim. – Ən çox yadda qalan bir şey yox... Amma dayan, dayan... Sən həmin gecəyə görə mənə demişdin ki, həmişə bədirlənmiş Aya baxım. Baxıb o şimşəkləri yadıma salım.

Daha demədim ki, mən indiyə qədər də həmişə çıxıb bədirlənmiş Aya baxıram. Başqasının arvadı ilə burda oturmaq günahıma baxmayaraq, istədim bilim, görüm Savanna o adətimizi tərgidib, ya yox.

– Bilmək istəyirsən, mənim yadımda ən çox nə qalıb? – o soruşdu.

– Timin burnunu sındırmağım?

– Yoox, – o dərhal dedi və ciddiləşdi. – Yadımdadır ki, birlikdə kilsəyə necə getdik. Səni cəmi iki dəfə qalstukda görmüşəm. Birinci dəfə onda geydin qalstuku. Sən tez-tez belə geyinməlisən. Elə yaraşıqlı idin ki! – Savanna həmin səhnəni gözləri önündə canlandırırmış kimi xəyallı, süzgün baxışlarını mənə tərəf çevirdi. – Sən kiminləsə görüşürsən?

– Yox.

O başını tərpətdi.

– Elə də bilirdim. Yoxsa danışardın mənə.

Savanna pəncərəyə sarı çevrildi. Uzaqda atlardan biri yağış altında ayağını yerə döyürdü.

– Bir azdan gərək gedib yemləyim onları. Yəqin gözləyirlər ki, indiyə qədər hardayam.

– Narahat olma, onlara heç nə olmaz, – dedim.

– Sənə asan gəlir. İnan mənə, onlar da insanlar kimidir, acanda üzlərini görmə.

– Təsəvvür edirəm, bu boyda rançonun işini görmək necə çətindir.

– Çətindir, əlbəttə. Amma başqa yolum yoxdur axı. Hələ yaxşı ki, işdən Timə uzunmüddətli məzuniyyət veriblər. Xəstəxanada yatanda da mənə icazə verdilər ki, nə qədər lazımdır, onun yanında olum. – Sonra da zarafata çevirdi. – Lap ordudakı kimidir, hə?

– Hə, düz deyirsən.

O astaca güldü, dərhal da gözlərinə qüssə çökdü.

– Orada, İraqda necə idi? – dedi.

Həmişəki kimi ağlıma gəldi ki, Savannaya da bu qum hekayətini danışım. Sonra fikrimi dəyişdim.

– Bunu təsvir etmək çətindi, – dedim.

Savanna gözləyirdi. Mən vaxtı uzatmaq üçün tələsmədən əlimi uzadıb qədəhimi götürdüm. Hətta Savannanın xətrinə olsa da, İraqı xatırlamaq istəmirdim. Amma aramızda nəsə baş verirdi, mənim ehtirasla istədiyim və eyni zamanda istəmədiyim bir şey. Özümü məcbur edib barmağındakı nişan üzüyünə baxdım, Savannanın sonra özünü xəyanətdə necə ittiham edəcəyini təsəvvür etdim, ona görə də gözlərimi yumub İraqa hücum başlanan gecədən danışmağa başladım.

Bilmirəm, nə qədər danışmışam, sonra gördük ki, yağış artıq dayanıb. Üfüqlər arxasına çəkilən günəşin son şüaları səmada göy qurşağının əlvan rənglərinə qarışmışdı. Savanna yenidən qədəhinə şərab süzdü. Söhbətimi qurtaranda yaman yorğunluq hiss etdim, bildim ki, yəqin, bu haqda daha bir də danışmayacam.

Savanna sakitcə söhbətimə qulaq asır, hərdən də suallar verirdi.

– Mənsə tamam başqa cür təsəvvür edirdim, – o dedi.

– Sən necə təsəvvür eləyirdin ki?

– Qəzetlərdə xəbər, ya da müharibəyə aid məlumatları oxuyanda əsgərlərin, şəhərlərin adları adi bir söz təsiri bağışlayır. Sənin üçünsə bu gerçəklikdi. Bəlkə də həddən artıq canlı bir gerçəklikdi.

Ayrı nə deyə bilərdim? Gördüm ki, Savannanın əli əlimi axtarır. Təkcə bu təmasdan, bu toxunuşdan boğazım qurudu, nəfəsim kəsildi.

– Arzu edirəm ki, bir də heç vaxt belə günlər görməyəsən, – o pıçıldadı.

Bu zərif əli sıxıb oxşadım, hiss etdim ki, onun da əli əlimin içinə tələsir. Sonra barmaqlarını boşaldıb əlini çəkdi, amma əlinin hərarəti ovcumda qaldı – əvvəllər olduğu kimi. Bu dəmdə Savanna üzünə tökülən saçlarını qulağının arxasına verdi – yenə əvvəllər olduğu kimi. Yaddaşım göynədi. Ürəyim az qala köksümdən çıxacaqdı.

– Qəribədir, tale bizimlə nə acı oyun oynayır, – Savanna lap pıçıltı ilə dedi. – Sən həyatın bu cür üzüdönüklüyünü təsəvvür edə bilərdin?

– Yox, heç vaxt, – dedim.

– Mən də təsəvvür etməzdim. Sən birinci dəfə Almaniyaya qayıdanda şübhə etmirdim ki, biz tezliklə evlənəcəyik. Buna yaman inanırdım, heç nəyə belə inanmamışam.

Mən qədəhimə baxırdım, Savanna danışırdı.

– Sonra yenə, sən ikinci dəfə qarnizona qayıdanda mən buna daha çox inanmağa başladım. Xüsusən, o sevdalı, intim gecədən sonra.

– Yaxşı, bəsdir, – başımı buladım. – Bu haqda danışma.

– Niyə ki? – təəccübləndi. – Nə olub, aramızda olanlara təəssüflənirsən?

– Yox, – yenə başımı buladım. Savannaya baxmağa gücüm qalmamışdı daha. – Əlbəttə yox. Amma sən axı ərli qadınsan indi.

– Amma bu olub axı, – o, bir də təkrar etdi. – İndi deyirsən, olmuşları birdəfəlik unudaq, yaddan çıxaraq?

– Bilmirəm. Bəlkə də.. – cavab verdim.

– Amma mən unuda bilmirəm, – heyrətlə, inciyib küsürmüş kimi hirsləndi, özündən çıxdı. – Mənim üçün bu, birinci dəfə idi, ona görə də mən onu heç vaxt unuda bilmərəm. Aramızda olanlar çox gözəl, çox da yaxşı... idi.

Nə deyəcəyimi bilmirdim. Bir azdan Savanna elə bil özünü toplayıb cəsarətə gəldi. Bir addım irəli gəlib soruşdu:

– Biləndə ki, mən Timə ərə getmişəm, nə düşündün?

Lazımi sözləri axtara-axtara cavab verməli oldum:

– İlk ağlıma gələn o oldu ki, bu, haradasa düzgün addımdır. Tim uzun illər səni sevib, mən bunu hələ ilk görüşümüzdəcə hiss etdim. – Əlimi üzümə çəkdim. – Ümumiyyətlə isə ziddiyyətli hisslər yaşadım: sevindim ki, yaxşı bir oğlan seçmisən, ümumi cəhətləriniz çoxdur, o biri yandan, üzüldüm buna, acı bir kədər duydum. Ordudan gəlməyimə az qalmışdı. İndi mən iki il idi ki, ehtiyatda idim.

Savanna dodağını dişlədi.

– Təəssüf edirəm, – deyə mızıldadı.

– Mən də.

Gülümsəməyə çalışdım.

– Doğru fikrimi bilmək istəyirsənsə, hesab edirəm ki, sən məni gözləməli idin.

O, qeyri-müəyyən bir tərzdə güldü, üzündəki bitməz-silinməz həsrətlə yenə qədəhini götürdü.

– Mən bu haqda tez-tez düşünürəm, xüsusən, son zamanlar – biz harada və necə yaşaya bilərdik, nə iş görərdik. Dünən sən gedəndən sonra, elə hey bu barədə düşünmüşəm. Nə qədər acı olsa da, qoy deyim: son iki ili özümü inandırmağa çalışıram ki, bir-birimizi necə dərindən

sevsək də, bu, uzun müddət davam edə bilməzdi. – O, ümidsizlikdən üzülürdü. – Sən doğrudan mənə evlənərdin?

– Düşünmədən. İndi də evlənərdim, bacarsaydım.

Ayrılıq illərini bir anda əski bir libas kimi soyunduq əynimizdən, keçən günlər, keçən ehtiraslar ağuşuna alırdı bizi...

– Məgər bunlar olmayıb? – Savannanın səsi titrəyirdi. – Mən, bir də sən?

Yarıqaranlıqda gözlərindən titrək bir duyğu keçdi – o məndən cavab gözləyirdi. Beynimdə həkimlərin Tim haqqında dedikləri dolaşırdı. Ağır gəldi mənə, xəcalət çəkdim ki, ərini artıq basdırmışam və onun yerini tutmaq istəyirəm.

Amma nə edəsən ki, bu fikirlərdən xilas ola bilmirdim. Şiddətli bir istək qəlbimə hakim kəsilirdi – Savannanı qollarımın arasına alıb, yenə o cür əzizləmək, o cür sevmək, sevmək... əlimizdən çıxmış ayların, illərin əvəzini çıxmaq. Yaxın gəldim. Savanna bildi ki, iş nə yerdədi, çəkilmədi. Yəni əvvəlcə çəkilmədi. Amma elə ki, dodaqlarım onun dodaqlarını axtardı, o sərt bir hərəkətlə üzünü çevirdi, qədəhdəki şərab dağıldı.

Cəld bir hərəkətlə dik ayağa qalxdı, qədəhini mizin üstünə qoyub islanmış koftasını bədənindən elə çəkdi ki, dərisinə yapışmasın.

– Bağışla, – dedim.

– Eybi yoxdu, – o da sözsüz qalmadı. – Gedim, yaş koftamı təmizləyim. Ən yaxşı koftamdı bu.

– Yaxşı, – deyib razılaşdım.

Savanna koridora çıxdı, sağa dönüb yataq otağına getdi. Gözdən itən kimi mən özümü söydüm, öz kütlüyümə deyindim, sonra gördüm ki, mənim köynəyimdə də çaxır ləkələri var, koridora çıxıb vanna otağını axtardım.

Koridorda elə ilk qapının dəstəyini burdum, açanda içəridən hamam güzgüsündə öz əksimi gördüm. Güzgüdə, hamam otağı ilə üzbəüz olan yataq otağının yarıaçıq qapısından əynini dəyişən Savannanın da əksini gördüm. Qurşağına qədər çılpaq Savanna arxası mənə tərəf durmuşdu. Baxmaq istəməsəm də, gözlərimi çəkə bilmədim.

Savanna yəqin ki, baxışlarımı hiss etmişdi, çünki çiyni üstündən ehmalca mənə sarı boylandığını sezdim. Elə bildim, indi tez qapını bağlayacaq, ya da əyninə bir şey geyəcək, amma Savanna bunların heç birini eləmədi. Əvəzində, mənim nəzərlərimi tutub ona baxmağım üçün yavaş-yavaş mənə tərəf çevrildi.

Beləcə, mən ona güzgüdə baxırdım, o da yataq otağından mənə baxırdı. Aramızda yalnız bu dar koridor vardı. Dodaqları azca aralı idi, çənəsini bir az yuxarı qaldırmışdı. Bu anda o nə qədər gözəl və sevimli idi?! Min il də yaşasam, bu anı, bu gözəlliyi yaddan çıxara bilmərəm. Koridoru keçib yanına getmək istəyirdim, çünki bu saat o da, mən də bir-birimizi yaman istəyirdik. Çox istəyirdik! Amma Savanna yerində dayandı, yəqin, bilirdi ki, bu zəifliyə görə sonra mənə də, özünə də nifrət edəcək.

Savanna, dünyada məni hamıdan yaxşı tanıyan Savanna, nəhayət, baxışlarını endirdi, sanki elə bu fikir onun da ağlına gəlmişdi. O, üzünü döndərdi, elə bu zaman elə bil

həyət qapısı zərblə taybatay açıldı. Qaranlığı uzun, müdhiş bir hıçqırıq səsi doldurdu.

Alan...

Mən tez dönüb qonaq otağına getdim. Alan artıq mətbəxə gəlib çatmışdı, oradan mətbəx dolablarının qapısı tappatupla açılır, zavallının fəryad səsi eşidilirdi. Ayaq saxladım, nə edəcəyimi bilmirdim. Bir an sonra Savanna güllə kimi yanımdan keçib getdi, gedə-gedə köynəyini əyninə taxdı.

– Alan, gəlirəm, – onun səsində dəhşət vardı. – Hər şey yaxşı olacaq.

Alam hıçqırmağında idi, mətbəx dolablarının qapılarını açır, zərblə örtürdü.

– Mən də gəlim? – arxadan Savannaya səsləndim.

– Yox, – o, başını möhkəm silkələdi. – Qoy görüm özüm neyləyirəm. Xəstəxanadan gələndən sonra o hərdən belə eləyir.

Savanna mətbəxə girən kimi Alanla danışmağa başladı. Səsi güclə gəlirdi. Tappatup içində bir şey ayırd etmək olmurdu, amma sonra səsi ciddiləşdi. Qapıya yaxınlaşıb gördüm ki, Savanna Alanın yanında dayanıb, onu dilə tutur, sakitləşdirmək istəyir. Amma elə bil sözləri Alana təsir etmirdi. İçəri girmək istədim, amma Savanna əlini onun başına çəkib sakit-sakit danışırdı. Şkafın, dolabların qapıları açılır, çırpılırdı.

Bir xeyli keçəndən sonra elə bil onların hay-küyü yatdı; qapıların səsi eşidilmirdi. İndi Savanna da lap yavaşdan danışır, nə dediyi anlaşılmırdı.

Divanda oturdum, bir azdan dik atıldım, pəncərəyə yanaşıb bayıra baxdım. Qaranlıq idi. Buludlar çəkilib getmişdi, təmiz səmada ulduzlar sayrışırdı. Dedim, görüm mətbəxdə hadisələr necə cərəyan edir: qonaq otağının qapısına yaxınlaşıb mətbəxi dinşədim.

Savanna Alanla döşəmədə oturmuşdu, arxası bufetə sarı idi. Alan başını Savannanın köksünə qoyub dincəlirdi, Savanna mehribancasına onun başını sığallayırdı. Alan tez-tez kirpiklərini döyürdü, əsməsi dayanmırdı. Savannanın gözləri dolmuşdu, amma hərəkətləri qətiyyətli idi, istəmirdi ki, Alan onun zəifliyini, necə ağrıdığını hiss etsin.

– Mən onu sevirəm, – Alan yazıq-yazıq dedi. Bu, xəstəxanadakı cavan Alanın səsinə oxşamırdı, sanki bir tifil uşağın səsi idi. Düzü, mən də qorxdum.

– Bilirəm, əzizim. Mən də sevirəm. Özü də çox sevirəm. Bilirəm ki, qorxmusan, məni də qorxuzdun.

Savanna ürəkdən deyirdi bu sözləri.

– Mən onu sevirəm, – Alan təkrar etdi.

– Bir neçə gündən sonra onu evə buraxacaqlar, həkimlər də hər şeyi eləyirlər ki, o sağalsın.

– Mən onu çox sevirəm.

Savanna onun başını öpdü.

– Alan, Tim də səni sevir, mən də. Tim çox istəyir ki, tezliklə sağalsın, səninlə atlara minib gəzsin. Özü mənə dedi. Həm də Tim səninlə fəxr edir. Mənə həmişə deyir ki, əhsən Alana, o boyda təsərrüfatı dolandırır.

– Mən qorxuram.

– Mən də qorxuram, əzizim. Həkimlər əllərindən gələni edir, görərsən...

– Mən onu sevirəm...

– Bilirəm. Mən də onu sevirəm. Özü də təsəvvür etməzsən ki, nə qədər sevirəm.

Beləcə, xeyli baxdım onlara, qəfildən burda özümü artıq hiss elədim. Savanna bir dəfə də gözlərini qaldırmadı. Məni elə bir məyusluq çulğadı ki – demək, keçənlər artıq keçmişdi, qaytarmaq olmazdı. Ölən xatirələr heç vaxt dirilmir.

Əlimi cibimə saldım, maşının açarlarını çıxara-çıxara hiss etdim ki, gözlərimin küncünü nəsə göynədir. Ağlamağım gəlirdi... Bayıra çıxdım. Qapı bərkdən cırıldadı, amma Savanna eşidəcək halda deyildi.

Artırmadan həyətə düşəndə pillələrdə elə bil ayağımdan daş asılmışdı. Bir qədər sonra, motelə gələn yolda svetoforda dayananda sükan arxasında ağlayan kişini görüb yoldan keçənlər təəccüb edirdi.

Bütün gecəni motel otağımda tək-tənha idim. Koridorla qapımın qabağından oyan-buyana keçən adamlar təkərli baqajlarını nömrələrə sürüyürdülər. Motelin dayanacağına aramsız yaxınlaşan maşınların faraları otağı ani işıqlandırır, pəncərədə, divarda qəribə, həyula kimi kölgələr oynayırdı. Moteldən gedən adamlar, təzə gələnlər... Həmişə hərəkətdə olan, harasa yeni üfüqlərə can atan adamlar...

Çarpayıda uzanıb gözlərimi tavana dikdim. Düzü, tanımadığım bu adamlara həsəd aparır, paxıllığım tuturdu – görəsən, haçansa özüm haqda da belə deyə bilərəmmi, deyə düşünürdüm.

Heç yatmaq da istəmirdim, elə hey Tim haqqında fikirləşirdim. Amma qəribədir ki, xəstə, üzülmüş Tim

əvəzinə çimərlikdə gördüyüm gənc, sağlam Tim yadıma düşürdü: həmin səliqəli, hamıya lütfkarcasına yanaşan o tələbə. Atam yadıma düşdü, ömrünün son günlərini xatırladım. Təsəvvür etməyə çalışdım ki, xəstəxanada dayələr onun sikkələr haqda danışıqlarına necə qulaq asıblar. Ümid edirdim ki, xəstəxananın müdiri mənə düzünü demişdi ki, atam yuxuda ikən keçinib. Alanı, onun məchul dünyasını düşündüm. Amma daha çox Savanna haqda düşünürdüm. Dünən keçirdiyimiz günü anbaan yadıma salmağa çalışdım, keçənləri dönə-dönə xatırladım. Dərin bir kədər və boşluq hiss etdim.

Səhər tezdən oyanıb üfüqlər arxasından qızılı şar kimi qalxan günəşin doğmasına tamaşa etdim. Duş qəbul edib, sonra dünən gecə maşından motelə gətirdiyim xırda-xuruş şeyləri yenidən aparıb maşına yığdım. Motelin qabağındakı kafedə yemək sifariş etdim. Amma buğlanan boşqabı qabağıma qoyanda onu kənara itələyib bir fincan qəhvə istədim. Fincan əlimdə fikirləşirdim ki, yəqin Savanna indi oyanıb, atlarını yemləyir.

Saat doqquzda xəstəxanaya getdim. Qeydiyyatdan keçib liftlə üçüncü mərtəbəyə qalxdım. Tanış koridorla Timin palatasına gəlib çıxdım. Palatanın qapısı yarıaçıq idi, içəridən televizorun səsi gəlirdi.

Tim məni görcək təəccüblə gülümsündü.

– Salam, Con, – deyib televizoru söndürdü. – Gəl içəri. Sadəcə vaxtımı keçirirəm.

Dünən oturduğum stulda oturdum. Bu gün Timin rəngi-ruhu bir az yaxşı idi. Bir-iki dəfə dikəldi, qamətini düzəldib oturdu. Sonra mənə baxdı.

– Nə əcəb belə tezdən gəlmisən?

– Getməyə hazırlaşırdım, – izah etməyə çalışdım. – Sabah Almaniyaya uçan reysə çatmalıyam. Ordunun nizam-intizamını bilirsən də...

– Hə, əlbəttə, – o, başını tərpətdi. – Məni də görünür, bu gün evə buraxacaqlar. Dünən gecə elə rahat yatmışam ki!

– Çox yaxşı, – dedim. – Çox şadam ki, sağalırsan.

Diqqətlə baxdım ona. Üz-gözündə hər hansı bir şübhə əlaməti axtardım. Birdən düşünər ki, biz də Savanna ilə dünənki gecəni çox yaxşı keçirmişik. Az qala çox yaxşı keçirəcəkdik. Nəsə baş verəcəkdi... Amma bir şey demədim.

– Con, doğrudan, bura niyə gəlmisən? – Tim soruşdu.

– Düzü, bilmirəm, – boynuma aldım. – Sadəcə, səni görmək istədim. Dedim, bəlkə mənimlə xudahafizləşmək istəyərsən...

O, başını tərpədib pəncərəyə sarı çevrildi. Pəncərədən yalnız iri-iri kondisionerlər görünürdü.

– Bilirsən ən pisi nədi? Alan tək qalır. Mənim sağalmaq şansım azdır. Daha çox getmək şansım var. – Cavab gözləmədən davam etdi. – Mən Alana görə çox darıxıram. Bilirəm ki, nələr baş verəcək. Dünən sənə dediyim kimi, mənim inamım mənimlədi. Bilirəm, ya da ən azından ümid edirəm ki, o dünyada ən yaxşı yerə gedəcəyəm. Bununla barışmaq olar. Amma bəs Savanna necə olacaq? Mənim başıma bir iş gəlsə, dərd onu öldürəcək. Ona görə də, bilirsən, ata-anamın həlak olması həyatın bir çox sirlərini anlatdı mənə.

– Yəni həyat ədalətsiz qurulub?

– Bu hələ yarısıdır. Sonra mən inandım ki, dərd nə qədər ağır olsa da, dözmək olur, yaşamaq olur. Vaxt keçdikcə dərd yüngülləşir, azalır. Yox, tamam itmir, azalır yalnız, yəni yaşamaq olur. Savanna da beləcə, əvvəlcə ağır olar, amma dözər, dözməlidir. O cavandır, güclüdür, bu itkini yaşaya bilər. Amma Alan... Bilmirəm onun başına nə gələcək... Kim onun qeydinə qalacaq, harada, necə yaşayacaq?..

– Savanna baxacaq ona.

– Bilirəm, baxacaq. Amma bu ona qarşı ədalətsizlik deyil? Belə bir yükü o necə çiyinlərinə götürsün?

– Ədalətlidir, ya yox, bunun əhəmiyyəti yoxdu. O, qoymaz ki, Alanın başına bir iş gəlsin.

– Necə? O işləməlidir. O, işdə olanda Alana kim baxacaq? Unutma ki, onun cəmi on doqquz yaşı var. Deyirsən Savanna əlli il də ona baxsın? Mən heç, Alan mənim qardaşımdır, bəs Savanna? – Tim başını buladı. – O gözəldir, gəncdir. Bu ədalətli olarmı ki, o bir də heç vaxt ərə getməsin?

– Nə demək istəyirsən?

– Bir fikirləş, onun təzə əri Alanı da qəbul edəcəkmi?

Tim bunu deyəndə mənim susduğumu görüb dedi:

– Məsələn, sən. Qəbul edərdin?

Ağzımı açıb danışmaq istəyirdim, amma söz tapmadım. Timin üzündəki ifadə yumşaldı.

– Burada yatdığım gündən bəri mən bu haqda düşünürəm. Yəni ağlım başımda olanda. İndi çox şey haqqında düşünürəm, vaxtım da çoxdur. Sənin haqqında da çox düşünürəm, Con...

– Mənim?

Özümü sakit göstərməyə çalışsam da, o, ürəyimdəkiləri oxudu.

– Sən onu əvvəlki kimi sevirsən, elə deyil? – Tim dedi. – Mən bunu hiss edirəm. Əvvəllər də bilirdim, – indi də həsrətlə dilləndi. – Savanna ilk dəfə sənin haqqında mənə danışanda onu üzünün ifadəsi yadımdadır. Heç vaxt onu belə görməmişdim. Mən ona görə xoşbəxt idim – səndə elə bir cəhət vardı ki, ilk görüşdən sənə inanmaq istəyirdin. Birinci il sən gedəndən sonra o səninçün necə darıxırdı... Səhər-axşam sənin haqqında fikirləşirdi. Sonra biləndə ki, sən daha iki il xidmət edəcəksən... mən isə burada, Lenuarda idim, sonra da ata-anam həlak oldu, – burada nitqi kəsildi. – Yəqin, sən də çoxdan bilirdin ki, mən də onu sevirəm. Elə deyil?

Mən başımı tərpətdim

– Elə də bilirdim, – Tim öskürdü. – Mən onu on iki yaşından sevirəm. Yavaş-yavaş o da məni sevdi.

– Bunları niyə deyirsən mənə?

– Demək istəyirəm ki, mənə bir şey olsa, Savannanı tək qoyma. Söz ver ki, onu həmişə mənim kimi sevəcək, qayğısına qalacaqsan.

– Tim...

– Heç nə demə, Con, – əlini qaldırdı, məni saxlamaq istəyirdi, yoxsa vidalaşırdı, bilmədim. – Sadəcə, dediklərimi unutma.

O, üzünü divara tərəf çevirdi, bildim ki, söhbətimiz bitib. Ayağa durub sakitcə palatadan çıxdım, qapını örtdüm.

Xəstəxanadan çıxanda parlaq səhər günəşindən gözlərim qamaşdı. Orda-burda ağaclarda quşların səsi gəlirdi, amma nə qədər diqqət etsəm də, bircəsi də gözümə dəymədi.

Xəstəxananın maşın dayanacağı dolmaqda idi. Xəstəxanaya gələnlər, gedənlər bir-birini əvəz edirdi. Adamlar hamısı fikirli, intizarlı idi. Elə mənim kimi. Xəstə əzizlərinin yanında deyib-gülməyə məcbur olanlar xəstəxanadan çıxan kimi dərdə batırdılar. Bilirəm, bəzən ən ağır xəstələrin həyatında da möcüzə baş verir, sağalırlar. İlk dəfə doğuş keçirən analar da çağanı əllərinə alan kimi çəkdikləri məşəqqəti dərhal unudurlar. Amma onu da bilirdim ki, xəstəxanaya gəlib-gedənlərin çoxu, elə mənim kimi, uzun müddət özlərinə gələ bilmirlər.

Xəstəxanadan çıxıb bayırdakı skamyada oturdum. Öz-özümdən soruşurdum: sən bura niyə gəldin? Bəs niyə arzulayırsan ki, kaş gəlməyəydin? Timlə olan söhbətimizi hey götür-qoy edir, sonunu bir yana çıxara bilmirdim. Gözümü yumsam da, Timin üzünün əzablı ifadəsi gözümdən çəkilmirdi. Bu illər ərzində ilk dəfə mənə elə gəldi ki, Savannanı sevməyim, necə deyim, elə bil doğru deyilmiş. Məhəbbət adama sevinc gətirməlidi, ürəklərə rahatlıq və işıq bəxş etməlidi, mənim sevgim isə hamıya dərd gətirmişdi – Timə, Savannaya, elə özümə də... Mən axı ona görə gəlmədim ki, Savannanı yolundan azdırım, ya da onu ərinin əlindən alım... Bəlkə elə buna görə gəldim bura? Deyəsən, hesab etdiyim kimi, heç nəcib adam da deyiləm. Altı təzək, üstü bəzək. Üstünə rəng çəkilmiş paslı bir qutu...

Öz-özümə acığım tutdu.

Cibimdən Savannanın şəklini çıxardım. Bir az solub-saralmışdı cibimdə. Üzünə baxdım, bilmək istədim, görüm, bu gələn il nə gətirəcək mənə. Bilmirdim, Tim o vaxta qədər yaşayacaq, yoxsa öləcək. Heç bu haqda fikirləşmək istəmirdim. Hər halda, Savanna ilə münasibətlərimiz daha əvvəlki kimi olmayacaq. Qayğısız çağlarımızda bir-birimizə rast gəldik, görüşdük, ümidlərlə dolu günlər hələ qabaqdaydı, indi isə üzümüzə gerçək həyatın sərt ruzigarı əsir, həyatdan acı dərslər aldıq...

Fikirdən gicgahlarım sancdı, əlimlə ovdum. Diksindim, birdən Tim dünən gecə Savanna ilə aramızda nəyinsə az qala baş verəcəyini fəhm etmiş olar... Ola bilsin, hətta gözləyirmiş də bunu. Məndən Savannanı təkidlə sevməyimi, həm də məhz onun kimi sədaqətlə və fədakarlıqla sevməyimi xahiş etməsi buna dəlalət etmirdimi? İndi mən dəqiq bilirdim ki, öləcəyi halda Tim Ueddon məndən nə gözləyir, amma nədənsə hələ ölməmiş ərinin Savannaya xeyir-dua verməyi mənə çox pis təsir etdi.

Nəhayət, durub maşına sarı getdim. Hara gedəcəyimi bilmirdim, sadəcə xəstəxanadan mümkün qədər tez uzaqlaşmaq istəyirdim. Burdan uzaq! Mən Lenuardan getməli idim ki, sakit və ayıq başla bunları götür-qoy edim.

Təzəcə maşına yaxınlaşmışdım ki, bir az o yanda Savannanın maşınını dayanmış gördüm. Özü sükan arxasında oturmuşdu. Məni görüb maşından düşdü. Koftasını səliqəyə salaraq mənim yaxınlaşmağımı gözlədi.

Bir az aralıda dayandım.

– Con, – Savanna dedi. – Dünən gedəndə sağollaşmadın...

– Hə.

Yüngülcə başını tərpətdi. Səbəbini ikimiz də bilirdik.

– Burada olduğumu haradan bildin?

– Heç haradan, – o, çiyinlərini çəkdi. – Motelə getdim, dedilər ki, getmisən. Bura gəldim, maşınını gördüm, gözlədim. Timin yanında olmusan?

– Hə. İndi yaxşıdır. Deyir ki, bəlkə bu gün evə buraxdılar.

– Bu, yaxşı xəbərdir, – o dedi. Sonra maşınıma işarə etdi: – Bu gün gedirsən şəhərdən?

– Qayıtmaq vaxtıdır. Məzuniyyətim bitib.

Savanna əllərini sinəsində çarpazladı.

– Sən bura vidalaşmağa gəlmişdin?

– Düzü, bilmirəm, – boynuma aldım. – Bu haqda fikirləşməmişəm də.

Onun üzündən məyusluq və ümidsizlik ifadəsi keçdi.

– Timlə nə barədə söhbət etdiniz?

Çiynimin üstündən xəstəxanaya tərəf çevrildim, sonra Savannaya baxdım.

– Bu sualı yaxşı olar ki, ərinə verəsən.

Onun dodaqları bir-birinə kipləndi, vücudu gərildi.

– Sənin "vidalaşmağın" budur? – dedi.

Şosedə bir maşın siqnal verdi, sonra da yoldakı maşınlar elə bil donub qaldı. Qırmızı bir "Toyota" yolda özünə yer eləmək istəyir, ona lazım olan zolağa çıxmağa çalışırdı. Bir xeyli baxdım, "Toyota" maşın axınında özünə məharətlə yer elədi, amma elə Savanna da eyni məharətlə məndən cavab gözləyirdi.

– Hə, – dedim, gözümü yavaş-yavaş yoldan çəkib ona sarı çevrildim. – Elə bir şeydir.

Sinəsində çarpazladığı əllərinin barmaqları ağappaq ağardı.

– Bəlkə məktub yazdım sənə...

Özümü məcbur etdim ki, gözlərimi qaçırmayım, amma içimdə yenə tanış təəssüf hissi baş qaldırdı: niyə tale biz deyəni demir?

– Məncə, bu, yaxşı bir fikir deyil.

– Başa düşmədim...

– Yaxşı başa düşürsən, – onun sözünü kəsdim. – Sən Timə ərə getmisən, mənə yox. – Dayandım, istəyirdim, dediklərimi başa düşməsi üçün ona vaxt verim, həm də növbəti sözlər üçün özümü toplayım. – O, yaxşı adamdır, Savanna. Hər halda, məndən yaxşıdır, buna söz yox. Şadam ki, sən ona ərə getmisən. Səni nə qədər çox sevsəm də, ailənizi dağıda bilmərəm. Həm də, elə özün də istəmirsən. Məni sevsən belə, onu da sevirsən. Bunu başa düşmək üçün mənə vaxt lazım idi. İndi isə bunu dəqiq bilirəm.

Bircə Timin məchul gələcəyi ilə bağlı heç nə danışmadıq. Gördüm ki, Savannanın gözləri dolur.

– Biz bir də görüşməyəcəyik?

– Bilmirəm, – dedim, sözlər boğazımı yandıra-yandıra çıxdı. – Yəqin ki, yox.

– Necə belə deyə bilirsən? – səsi şüşə kimi çiliklənirdi az qala.

– Bu o deməkdi ki, Tim sağalır. Bir də, məndə belə bir hiss var ki, hər şey necə olmalıdırsa, elə də olacaq.

– Sən belə deyə bilməzsən! Məni buna inandıra bilməzsən!

– Hə, bilmərəm, – dedim.

– Onda niyə hər şeyi elə bu saat qurtarmaq istəyirsən? Özü də belə?

Bir gilə gözyaşı yanağını cızdı! Susub, çıxıb getməkdənsə, Savannaya doğru bir addım atdım, yanağından süzülən gözyaşını ehmalca sildim. Gözlərində qorxu, kədər, qəzəb qarışıq duyğular ləpələnirdi – ona xəyanət etmişdilər. O bir gilə gözyaşı ilə süzülüb bayıra çıxan isə qəlbinin ricası, iltiması, yalvarışı idi ki, mən qərarımı dəyişim. Güclə udqundum.

– Sən Timin arvadısan. Ərinin indi sənə çox ehtiyacı var. Sən bütünlüklə onun olmalısan. Hər mənada. Burada mənə yer yoxdur, ikimiz də bunu yaxşı bilirik.

Bu dəfə yanaqları gözyaşından selləndi. Hiss etdim ki, mənim də gözlərim göynəyir... Əyilib yavaşca Savannanın dodaqlarından öpdüm, axırıncı dəfə bərk-bərk qucaqladım.

– Mən səni sevirəm, Savanna, həmişə də sevəcəyəm, – dərindən köks ötürdüm. – Dünyada qiymətli bir şeyim varsa, o da sənsən. Sən mənim ən yaxşı dostum, sirdaşım, həm də sevdiyimsən. Səni tanıdığıma, sevdiyimə zərrə qədər peşman deyiləm. Sən həyatımı rövnəqləndirdin, məna verdin ömrümə. Ondan da çox, atamı qaytardın mənə. Buna görə səni heç vaxt unutmayacam. Sən ömrümün gözəl bir parçası kimi həmişə yanımda olacaqsan. Təəssüf ki, belə oldu, amma mən getməliyəm, sən isə ərinin yanına qalxmalısan.

Hiss etdim ki, Savanna içində kükrəyən hıçqırtılardan əsir; bir xeyli qollarımın arasından buraxmadım onu, amma

axırda qollarım yanıma düşdü. Bilirdim ki, axırıncı dəfə qucaqlayıram onu. Gözlərinə baxa-baxa bir addım geri çəkildim.

– Mən də səni çox sevirəm, Con, – Savanna dedi.

Əlimi yellədim:

– Əlvida.

Onda Savanna yanaqlarını sildi, üzünü çevirdi və xəstəxanaya sarı addımladı.

Ayrılmaq nə çətin şey imiş?! Həyatda gördüyüm ən ağır işlərdən də ağır. Yolboyu neçə dəfə maşını geriyə döndərib xəstəxanaya sürməkdən özümü güclə saxladım. İstəyirdim, gedib Savannaya deyim ki, həmişə yanında olacam, amma bacarmadım.

Şəhərdən çıxanda kiçik bir dükanın yanında saxladım. Yanacaq götürməli idim – maşının çənini doldurdum, dükana girib bir butulka su aldım. Piştaxtanın yanında Timin müalicəsi üçün ianə pulu yığılan banka qoyulmuşdu. Bir xeyli küt-küt baxdım. Banka xırda pul və kağız dollarla dolu idi. Yanındakı lövhədə yerli bankda açılmış bank hesabının nömrəsi də vardı. Satıcıdan bir neçə dolları xırdalamasını xahiş etdim.

Maşına gedə-gedə nitqim qurumuşdu. Maşının qapısını açıb buradakı sənədlər arasından vəkil Vilyam Bencamindən aldığım zərfi götürdüm. Bir karandaş da tapdım. İndi lazım olan şeylər əlimdə, yol kənarındakı taksofona yaxınlaşdım. Maşınlar uğultu ilə yanımdan şütüyüb keçirdi. İnformasiya xidmətinin nömrəsini yığıb dəstəyi bərk-bərk qulağıma sıxdım ki, avtomatın dediyi nömrəni aydın eşidim. Nömrəni

öyrənib onu sənədlərin üstünə yazdım. Dəstəyi asıb avtomatın yarığına bir neçə xırda pul saldım, şəhərlərarası telefonu yığdım. Başqa bir mexaniki səs məndən yenə xırda pul tələb elədi. Taksofona yenə pul atdım, sonra uzun-uzun siqnal gəldi.

Telefonun o başında dəstəyi götürənə özümü təqdim etdim, soruşdum ki, məni xatırlayırmı. O dedi:

– Əlbəttə xatırlayıram, Con. Necəsən?

– Sağ olun, yaxşıyam. Mənim atam vəfat etdi.

Telefonun o başında susdular.

– Təəssüf edirəm, Con, – dəstəkdən səs gəldi. – Bəs özün necəsən?

– Bilmirəm, – doğrusunu dedim.

– Bir kömək lazımdır?

Gözlərimi yumub Savanna ilə Tim haqda fikirləşdim, ümid etdim ki, bu elədiyim üçün atam məni bağışlayacaq.

– Bəli, köməyiniz lazımdır, – qiymətli metal sikkələrin alış-verişi ilə məşğul olan adama dedim. – İstəyirəm ki, atamın kolleksiyasını satım, amma pulunu da təcili istəyirəm.

## Epiloq

*Lenuar, 2006*

Doğrudan, əsl məhəbbət nə deməkdir?

İndi, bu yastı təpənin böyründə özümə yer düzəldib pusquda dayanmış kimi uzaqdan orda, atların arasında gəzinən Savannanı müşahidə etdikcə bu sualı dönə-dönə verirəm özümə. Bir anlıq onu bu rançoda görməyə gəldiyim həmin gecəni xatırladım. Amma bu, bir il qabaq olmuşdu və indi mənə xəyal kimi uzaq görünürdü. Həm də ona xəyanətim kimi gəlirdi mənə.

Kolleksiyanı təcili zərurət üzündən satdığım üçün öz qiymətindən ucuz aldılar. Həm də hissə-hissə. Atamın topladığı kolleksiya elə adamların əlinə düşəcəkdi ki, onlar bunun qədrini onun kimi bilməyəcəkdilər. Özümə yalnız bizonşəkilli beşsentlik nikel sikkəsini saxladım, sadəcə, ayrıla bilmədim ondan. Bir şəkildən başqa, atamdan qalan yalnız budur və bu nikel sikkəni mən həmişə özümlə gəzdirirəm. Atamı xatırladan sehrli bir dua, ya da gözmuncuğu kimi. Tez-tez cibimdən plastik qutunu çıxarıb açıram, elə ki, içindəki qızıl sikkəni əlimə götürüb baxır, barmağımla sığallayıram, atamı görürəm. Görürəm ki, yenə öz otağında "Numizmatın bülleteni"ni oxuyur. Ya da o saat burnuma mətbəxdə cızhacızla bişən donuz ətinin füsunkar qoxusu dəyir. Bu ılıq xatirələrdən istər-istəməz gülümsünürəm və mənə elə gəlir ki, tək deyiləm.

Amma mən təkəm, bilirəm ki, həmişə də tək olacam. Bu mənim qəti fikrimdir. İndi uzaqdan Savanna ilə Timi əl-

ələ, evlərinə tərəf qoşa gedən görəndə də yenə bu fikirdəyəm. Onların mehribanlığını görüb başa düşürəm ki, bir-birlərini necə dərin məhəbbətlə sevirlər, onlar bir-birinə həm də çox yaraşırlar. Odur, Tim Alanı çağırdı, Alan onların yanına qaçdı. Onlar üçlükdə evə yollanırlar. Maraq mənə güc gəlir: görəsən, onlar nədən danışır?! Düzü, onların ailə söhbətləri mənə elə cazibədar görünür ki! Lap ən kiçik sirləri belə. Amma çox yaxşı bilirəm ki, bunun mənə dəxli yoxdur. Nə isə, eşitdim ki, Tim daha xəstəxanaya müayinələrə getmir, şəhərdə də hamı hesab edir ki, o sağalır.

Mən bunları axırıncı dəfə işlərimlə bağlı Lenuara gələndə yerli vəkilimdən öyrəndim. Bank çeki əlimdə vəkilin ofisinə gəldim, xahiş etdim ki, bu məbləği Timin müalicəsi üçün açılmış hesaba köçürsün. Mən vəkil-müştəri imtiyazlarını və buradakı məxfiliyi yaxşı bilirdim. Onu da bilirdim ki, vəkil şəhərdə heç kimə bu barədə bir şey deməz. Mənim üçün vacib olan o idi ki, Savanna bu haqda heç nə bilməsin – hər bir nikahda yalnız iki nəfərə yer var.

Amma vəkildən xahiş etdim ki, işimizə aid şəhərdə nə baş versə, mənə informasiya versin, odur ki, bununla bağlı bir neçə dəfə Almaniyadan ona zəng etmişdim. Vəkil anonim müştərisi haqda Savannaya məlumat vermişdi, amma işin sonrakı gedişindən, yəni Timin sonrakı müalicəsindən anonim müştərini xəbərdar etmək şərtilə. Vəkilin sözlərinə görə, məbləği eşidən Savanna hönkürtü ilə ağlamışdı. Elə həmin həftə ərini “MD Anderson” onkoloji mərkəzinə aparmış, orada isə noyabr ayında start veriləcək klinik vaksin testləri üçün Timi ən yaxşı namizəd hesab etmişdilər. Vəkil xəbər verdi ki, Tim artıq biokimyəvi

terapiyadan keçib, sonra bir də kimyəvi terapiya olunub və həkimlər ümid edir ki, müalicə Timin ciyərində əmələ gələn xərçəng metastazlarını yox edəcək. Bir-iki ay qabaq isə vəkil zəng vurdu ki, müalicə həkimlərin gözlədiyindən də yaxşı gedir və şişlərin müalicəsi remissiya mərhələsindədir.

Əlbəttə, heç kim deyə bilməzdi ki, indi Tim Ueddon uzun illər yaşayacaq, heç bir xəstəlik də ona yaxın düşə bilməz, amma mən ona həyatı üçün vuruşmaq şansı verdim, bu şans həm də onların ikisinə hesablanmışdı. Onların çətin xoşbəxtliyi naminə. Mən ürəkdən istəyirdim ki, onlar xoşbəxt olsun. İstəyirdim ki, Savanna xoşbəxt olsun. Bu gün gördüklərim isə deyirdi ki, onlar xoşbəxtdir. Hər şey yaxşıdır. Mən buraya gəldim ki, bunu gözlərimlə görüm, inanım buna. Bilim ki, Timin müalicəsi üçün atamın sikkələrini satmaqla düzgün hərəkət etmişəm. Bir də onların gözünə görünməmək, Savanna ilə kəlmə kəsməmək qərarımla da düzgün hərəkət etmişəm; indi, bu yastı təpəlikdə, kolların arxasında oturub uzaqdan onlara baxdıqca görürdüm ki, düzgün hərəkət etmişəm.

Mən atamın kolleksiyasını satdım, çünki başa düşdüm ki, əsl məhəbbət nə deməkdir. Bunu mənə Tim göstərdi və öz hərəkəti ilə başa saldı ki, sevgi odur ki, öz xoşbəxtliyindən çox başqasının xoşbəxtliyini düşünəsən. Nəyin bahasına olur olsun! Seçim sənin üçün nə qədər ağrılı olsa da! O vaxt mən Timin palatasından çıxanda hiss etdim ki, Tim düz deyir. Amma o düzü etmək, bildiyiniz kimi, heç asan deyil. İndi məndə elə bir hiss var ki, həyatımda nəsə çatmır – həyatımın mənasını daha dolğun edəcək bir şey. Bilirəm ki, Savanna ilə bağlı hisslərim heç vaxt

dəyişməyəcək, amma onu da bilirəm ki, ömür boyu özümə heyrət edəcəyəm – düzmü hərəkət etmişəm?

Bəzən istər-istəməz maraq güc gəlir, belə bir şeyi bütün şiddəti ilə bilmək istəyirəm: görəsən, Savanna da mənim kimi düşünürmü? Bu dəfə məni Lenuara gətirən səbəblərdən biri də, şübhəsiz, budur.

Budur, rançoya axşam düşür. Bu gün bədirlənmiş Ayın ilk gecəsidir, demək, xatirələrim yenidən canlanacaq. Həmişə belə olur. İndi də, qaranlıq çökməkdə olan təpələrin arxasından Ay yavaş-yavaş görünəndə nəfəsimi qısdım. Əvvəlcə üfüqdə ağappaq, nazik xətlə çəkilmiş kimi görünən aypara getdikcə bədirlənirdi. Ağaclar bəyaz, gümüşü rəngə boyandı, bədirlənmiş Ayla bağlı xatirələrim nə qədər acı və dadlı olsa da, gözlərimi yenidən rançoya dikdim.

Xeyli vaxt elə beləcə gözlədim. Parlaq qövsşəkilli Ay yavaş-yavaş bədirlənir, səmaya doğru qalxırdı. Budur, rançodakı evdə pəncərələr bir-bir söndü. Həyəcanla, dəli bir ümidlə gözlərimi evin giriş qapısına dikib gözləməyə başladım. Bilirdim ki, Savanna bayıra çıxmayacaq, amma gedə bilmirdim, oradan uzaqlaşa bilmirdim, nəfəsimi içimə çəkib hər bir hənirtiyə qulaq kəsilirdim – guya bu yolla onu aldadıb bayıra çıxara biləcəkdim.

Amma bu nədir? Mən Savannanı gördüm. Gördüm ki, qapı açıldı. Qapı açılanda kürəyimdə nəsə sancdı. Əvvəllər heç belə bir şey hiss etməmişdim. Savanna pillələrdə bir az ləngiyib birdən gizləndiyim təpəyə sarı boylandı. Mən donub qaldım, halbuki yaxşı bilirdim ki, gecədir, artırmadan bu uzaqlıqda, özü də kolluqlar arasında məni görmək mümkün deyil. Gizləndiyim yerdən yaxşı görürdüm ki,

Savanna artırmanın qapısını bağlayıb yavaş-yavaş pillələri endi, sonra həyətin ortasına gəldi.

Savanna orada ayaq saxladı, dayandı bir az, əllərini sinəsində çarpazlayıb ehmalca çiyni üstündən arxaya boylandı – kimsə onu güdmür ki? Elə bil arxayın oldu. Sonra hiss etdim ki, möcüzə baş verir, mən də bu möcüzənin şahidiyəm: gördüm ki, Savanna yavaş-yavaş üzünü Aya tərəf çevirdi. Bədirlənmiş Ayın hüsnü onu valeh etmişdi – Savanna bu gözəlliyin tilsimində öz xatirələrinə qanad vermişdi. Bu saat heç nə istəmirdim. Bircə şeydən başqa – kaş Savanna mənim burada olduğumu biləydi!

Amma gizləndiyim yerdə qalıram və mən də Aya boylanıram. Bir anlıq, yalnız bicə anlıq mənə elə gəlir ki, biz yenə bir yerdəyik, birlikdəyik.